# DUA EDƏN QADININ GÜCÜ



STORMI OMARTIAN

*Stormi Omartian*

# DUA EDƏN
# QADININ
# GÜCÜ

*Ey Xudavənd Allahımız, bizimlə xoş rəftar et, əllərimizin zəhmətini uğurlu et.*

*Zəbur 90:17*

# DUANIN GÜCÜ

Yaşından, ailəndən, canının və ruhunun vəziyyətindən, imanlı olub-olmamağından asılı olmayaraq, əgər qadınsansa, onda bu kitab sənin üçündür. 30 ildən də artıq Rəbdə olmağıma baxmayaraq, bu kitab həm də mənim üçündür. Düzünü desəm, mən bu kitabı necə sənin üçün yazmışamsa, eləcə də özüm üçün yazmışam, çünki biz oxşarıq. Həyatımda çətin günlər yaxşı günlərimdən çox olub. Çünki həyatım daha çox təhlükəli və yorucudur, nəinki qayğısız və sevincli. Onlar isti və güclü quru küləyə bənzəyir.

Lakin buna baxmayaraq, bilirəm ki, Allah həyatımın əyri yollarını hamarlaşdırmağa, fırtınanı sakitləşdirməyə, məni və mənə əziz olan hər şeyi qorumağa qadirdir. Hətta bütün yüklərimi də Öz üzərinə götürə bilər. Amma bunlar duasız baş verməyəcək.

Çox vaxt biz qayğılı həyatda duaya az yer veririk, yaxud bizi daha çox ağrıdan məsələlərin həll olunmasından ötrü dua edirik, lakin Allaha yaxınlaşmaq, Onu dərindən tanımaq və bütün ehtiyaclarımızı Ona bildirmək üçün vaxt tapa bilmirik. Gündəlik həyatımızda «ayaqüstü tez-bazar dua» etməklə biz həyatımıza gələn Allahın xeyir-dua kanalını bağlayırıq. Belə vəziyyətlərdə öz həyatımızı təhlükə altına qoyuruq, çünki bir gün qəlbimizdə dərin boşluq və narahatçılıq olduğunu hiss edəcəyik, sanki ayağımızın altından torpaq qaçır, müda-

fiəmiz isə tükdən asılı olmuş kimi olur. Bir neçə il bundan qabaq mənim həyatım məhz bu cür idi.

O vaxt başım ev işlərinə və uşaqlarımın tərbiyəsinə çox qarışmışdı. Mən yaxşı həyat yoldaşı və layiqli evdar xanım olmağa çalışırdım, kitablarımın təqdimetmə mərasimləri üçün bütün ölkəni gəzirdim, tez-tez ibadətlərdə iştirak edir və ehtiyacı olan hər kəsə yardım əlimi uzadırdım. Lakin həyatda ən vacib olanı — Allahla ünsiyyət qurmağı yaddan çıxartmışdım. Bu, o demək deyil ki, mən Rəbbi unutmuşdum və ya Ona dua etmirdim, əksinə, bir günümü də Rəbsiz yaşamırdım və yer üzündə bütün insanlar üçün çox dua edirdim. Ancaq Allahla olan öz ünsiyyətim üçün dua etmirdim. Elə düşünməyin ki, mən Müqəddəs Kitabı oxumurdum, əksinə, o vaxt işlədiyim müxtəlif layihələrə material hazırlamaq və baş çəkdiyim ruhani məşğələlərə hazırlaşmaq üçün Müqəddəs Kitabı saatlarla oxuyurdum. Lakin Allahın mənimlə şəxsən danışmasına imkan yaratmırdım. Mən o qədər yaxşı işlərlə məşğul idim ki, mənim üçün ən qiymətli olanı itirmişdim. O vaxt bunu dərk etmədiyimə görə Məryəmin əvəzinə Martaya çevrilmişdim (bax: Luka 10:38–42).

Mən Rəblə ünsiyyətimi azaltmışdım. Bunun nəticəsində isə yükün altında əzilərək hərəkət edə bilmirdim. Sanki incə toxunuşdan sına bilən zərif bir güldana çevrilmişdim. Digər ehtiyaclarımdan daha çox Rəbbə ehtiyacım olduğunu dərk edirdim. Çünki Allahdan başqa heç kim daxilimdəki boşluğu və aclığı doldura bilməzdi. Başa düşdüm ki, Allahla olan şəxsi münasibətimi qoruyub saxlamaq nə qədər vacib imiş.

Düşdüyüm vəziyyətdən çıxmaq üçün həyatımın hər bir sahəsindən ötrü — ruhani böyüməyimə və Allahın vədlərini xatırlamağıma görə dua etməliydim. Yalnız bu cür duanın sayəsində bizim bütün diqqətimiz Rəbbə, Onun planlarına və Onun yollarına yönəlir. Məhz belə dua baxışlarımızı fani şeylərdən əbədi şeylərə yönəldə bilir. Bu zaman biz əsas dəyərli şeyləri görmək bacarığına malik oluruq. Bu cür dua bizə yalanla həqiqəti ayırd etməyi öyrədir və qeyri-mümkün

olan şeylərin mümkün olmasında imanımızı möhkəmləndirir. Bu cür duanın sayəsində biz Allahın həqiqi övladlarına çevrilirik və inanırıq ki, bu, mümkündür. Sizcə, hansı qadının buna ehtiyacı yoxdur?

Əvvəlki kitablarımda ər və arvadlar bir-biriləri üçün, valideynlər öz uşaqları üçün, vətəndaşlar isə öz ölkələri üçün necə dua etmək olduğundan yazmışam. (Söhbət S. Omartianın «Dua edən xalqın gücü» kitabından gedir — *red. qeydi* ). Bu kitabın vasitəsilə mən şəxsən sənə ÖZÜN üçün necə dua etməyi öyrədəcəm. Mən sənə Səmavi Ataya necə yaxınlaşmağı, daim Onun məhəbbətini hiss etməyə, Onun qarşısında ürəyini necə təmizləməyə və Rəbbin şəxsən sənin üçün xüsusi həyat hazırladığına əmin etməyə kömək edəcəm. Rəbb səni əslində nə üçün yaratdığını və Ondakı tamlığını bilməyini istəyirəm. Onda Rəbbin sənin üçün olan planına çata bilərsən. Başqa sözlə desək, mən sənin daha keyfiyyətli dua etməyini və Rəblə sıx ünsiyyət qurmağı öyrənməyini istəyirəm.

## Nəyə görə özümüz üçün dua etmək bu qədər çətindir?

Hiss etmisinizmi ki, başqaları üçün dua etmək özümüz üçün dua etməkdən daha asandır? Mən hiss etmişəm. Mənim üçün ərimə, uşaqlarıma, başqa qohumlarıma, tanışlarıma, dostlarıma, hətta, tanımadığım insanlara görə dua etmək öz çətinliklərimin həll olunması üçün dua etməkdən daha asandır. Bu, ona görədir ki, mən başqalarının ehtiyaclarını daha aydın görə bilirəm. Mənim öz ehtiyaclarım isə saysız-hesabsız, dolaşıq və sanki həll olunmazdır. Bəzən isə nə istədiyimi başa düşə bilmirəm. Biz qadınlar, elə bilirik ki, nəyə ehtiyacımız olduğunu yaxşı bilirik. Çünki görünən şeylərə daha çox diqqət yetirirk. Lakin başqa insanlara emosional bağlılığımız olduğundan və gündəlik qayğılara başımız çox qarışdığından adi vəziyyətlərdə necə dua etmək lazım olduğunu bilmirik. Bəzən vəziyyət bizi o qədər sıxır ki, duamız artıq duaya deyil, fəryada bənzəyir.

Bəzən sənə elə gəlirmi ki, həyatın nəzarət altından çıxır və sanki qayğılar həyatının vacib hissəsini oğurlayır? Həyatda bir neçə rol yerinə yetirdiyinə və bir çox insanların ümidlərini doğrultmağa çalışdığına görə həyatının bəzi sahələrinə laqeyd yanaşdığın səni narahat edirmi? Mənim həyatımda məhz bu cür olub.

Olubmu ki, bəzən bir yerdə qaldığını, yaxud tədricən arxaya getdiyini hiss edirsən? Olubmu ki, gələcəyin haqqında görüntünü itirmisən? Bəlkə də, bu cür fikirlər səndə heç olmayıb? Həyatda öz çağırışını bilmək və Allahın sənin üçün olan planına çatmaq nə vaxtsa istəmisənmi? Daxilində boşluq, məyusluq və natamamlıq hissləri olubmu? Belə hisslər məndə dəfələrlə olub.

Allahın hüzuru ilə dolmaq üçün özündə güclü istək hiss etmisənmi? Allahı dərindən tanımağı və Onun Kəlamını dərk etməyi arzulayırsanmı? Allaha daha yaxşı xidmət etmək istəyirsən, ancaq bunun üçün nə vaxtın, nə gücün, nə də ki, imkanın var? Allahla təklikdə daha çox vaxt keçirtməyə ehtiyacın varmı? İmanla daha çox dua etmək və dualarına möcüzəli şəkildə cavab almağı arzulayırsanmı? Bəzən İsa Məsihi möhkəm qucaqlayıb, Onun məhəbbətini və istisini hiss etmək istəyin olurmu? Məndə olur.

Ən gözəli isə odur ki, bu istəyi məhz Allah Özü bizə verib.

Allah, Onun hüzurunu axtarmağımızı, Onda bol həyat tapmağımızı istəyir. Rəbb istəyir ki, sən həyatda Onunla bir addımlayasan, imanda böyüyüb Onun Kəlamını dərindən dərk edəsən, bütün ehtiyaclarını və arzularını Onun əllərinə verəsən və Ona hər şeylə təmin edən Mənbə kimi baxasan. Əgər sən belə etsən, Allah sənə Öz xeyrdua xəzinəsini açacaq, çünki bu, məhz Allahın iradəsidir.

## Ehtiyaclarımı necə təmin edə bilərəm?

Hər qadının öz tələbatı var. Bəzi qadınların səhvləri ondadır ki, onlar öz təlabatlarını ödəmək üçün kişi dostlarına müraciət edirlər. Belə qadınlar ümid edirlər ki, kişilər onların bütün tələbatlarını ödə-

məyə qadirdilər. Nəticədə onlar gözlədiklərini ala bilmədikdə, kişi dostları tərəfindən məyusluğa məruz qalırlar. Qadınlar kişilərdən çox şey gözləyirlər, lakin güvənc yeri yalnız Rəbb olmalıdır.

Bu barədə rəfiqəm Liza Biverin gözəl bir fikri var: «qadınlar əsrlər boyu Adəm oğulları ilə mübarizə aparırlar. Onlar kişiləri qadınlara xeyir-dua verib onları qiymətləndirməyə məcbur edirlər. Lakin bu mübarizə məyusluqdan başqa bir nəticə vermir… Həqiqətdə isə, bu, hər iki tərəfin əziyyət çəkməsinə səbəb olan mənasız və ağır döyüşdür. Ancaq Adəm oğulları bunda günahkar deyil, çünki onlar bizim axtardığımız xeyir-duaları bizə verə bilməzlər. Biz isə öz canımızı onlara etibar etməklə hədə-qorxu gəlirik. Lakin başa düşməliyik ki, ehtiyacımız olan xeyir-duaları bizə yalnız Allah verə bilər». (Lisa Bevere. *Kissed the Girls and Made Them Cry* (Nashville: Tommu Nelson, 2002), p. 189–190.)

Əgər biz Allaha xoşbəxtlik və ehtiyaclarımızın ödəmə mənbəyi kimi baxmasaq, heç vaxt Onsuz xoşbəxt ola bilmərik. Çünki ürəyimizin Hakimi ancaq Odur.

Biz bütün ümidlərimizi şəraitə, yaxud insanlara deyil, Rəbbə bağlamalıyıq. Bilirəm ki, bunu demək əməl etməkdən daha asandır. Ona görə də gəlin, asan olanından başlayaq. Gəlin Allaha belə söyləyək: «Ya Rəbb, Səndən diləyirəm ki, hər bir ehtiyacımın qayğısına Sən qalasan. Bütün ümidlərimi Sənə bağlamağım üçün mənə kömək et». Əgər sənin ehtiyacların həll olunmamış qalıbsa, onda belə de: «Qayam, qurtuluşum Odur. O, mənim qalamdır, mən sarsılmaram» (Zəbur 62:6). Sonra ürəyini açaraq bütün ehtiyaclarını Rəbbə söylə. Narahat olma, təəccüblənmə və təlaşa düşmə, çünki O, hər şeydən xəbərdardır. Sadəcə, Rəbb hər şeyi sənin öz dilindən eşitmək istəyir.

## Bol həyat içində yaşamaq

Əgər səninlə mənim vəziyyətim oxşardırsa, onda sən də eynilə mənim kimi həyatda sürünmək və güc-bəla ilə dolanmaq istəmirsən.

Sənə İsanın vəd etdiyi bol həyat lazımdır: «Oğru yalnız qarət etmək, öldürmək və tələf etmək üçün gəlir. Mənsə gəldim ki, onlar həyata, bol həyata malik olsun» (Yəhya 10:10).

Səninlə mən həqiqəti bilən, amma ona əməl etməyən və həyatımızı dəyişə biləcək imanın qarşısını kəsən qadınlardan olmaq istəmirik. Biz şübhə, qorxu, əminsizlik və müdafiəsizlik əsarətində yaşamaq istəmirik. İstəyirik ki, həyatımızda məqsəd olsun. Süd yeyən uşaqların yaşadığı həyat kimi həyat bizi qane etmir. Biz Allahın həqiqəti ilə qidalanmaq, sevincli və bəhrəli həyat səviyyəsinə ucalmaq istəyirik.

Heç birimiz eyni problemlər, səhvlər və xoşagəlməməzliklər ətrafında dövrə vurmaq istəmirik. Biz zəif, ruhən inkişafdan qalan, ürəyi kin, narahatçılıq, səbirsizlik və məyusluqla dolu olan, bağışlamaq istəməyən qadınlardan olmaq istəmirik. Eyni zamanda da «həyatımızda heç nə dəyişməyəcək» fikri ilə barışmaq istəmirik. Biz daim təkrarlanan bədbin çevrədən qurtulmaq və mövcud olmaq deyil, yaşamaq istəyirik.

Hər bir sahədə qalib olub, özümüzdən də böyük şeylərə sahib olmaq istəyirik. Biz Məsihə elə xidmət etmək istəyirik ki, yaxşı bəhrələrimiz bol olsun. Həyatımızın məqsədini görmək və Allahın məhəbbəti ilə əhatə olunmaq istəyirik. Lakin həyatımızda bu yüksək səviyyəyə çatmaq üçün bizə Allah lazımdır. Allahdan kömək almaq üçüq isə dua etmək lazımdır.

## Mən Allahın qüdrəti ilə necə dola bilərəm?

Bəzən elə anlar olur ki, şərait və vəziyyət qarşısında tamamilə aciz olduğumuzu hiss edirik. Dəfələrlə əmin olmuşuq ki, həyatmızdakı ciddi vəziyyətləri təkbaşına dəyişməyə gücümüz çatmır. Öz həyatımızı və özümüzü həmişəlik olaraq dəyişmək mümkün deyil. Bizim gücümüzdən və imkanlarımızdan artıq olan zahiri qüdrətə ehtiyacımızın olduğunu etiraf edirik. Lakin bu dünyada bizə öz üzəri-

mizdə qalxmağa və həyatımızda olan çətinliklərə qarşı durmağa kömək edə biləcək bir güc var. Bu güc Rəbbin gücüdür.

Allahın gücü olmadan biz öz zəiflilikkərimizə və adət etdiyimiz vərdişlərimizə qalib gələ bilmərik. Çünki biz, əleyhimizə olan vəziyyətlərə qarşı durmaq gücündə deyilik. Biz Müqəddəs Ruhun qüdrətindən məhrum olaraq ruhani zəiflikl də yaşamağa düçar olmuşuq. Allahın bizim üçün hazırladığı xeyir-duaları əldə etməyə mane olan əngəlləri öz gücümüzə dağıda bilmərik.

Bizim imkanlarımızı məhdudlaşdıran və Allahın xeyir-dualarından məhrum edən şeylərə görə vaxt itirmək və xilas gözləmək istəmirik. Çünki biz indi azad olmaq istəyirik. Bu isə, Müqəddəs Ruhun qüdrətinə ehtiyacın olduğunu etiraf etmədən mümkün deyil. Müqəddəs Ruhun həyatmızda olan rolunu inkar etməklə biz Müqəddəs Kitabda yazılan insanlara bənzəyirik «Mömin olan kimi görünüb bu yolun gücünü inkar edənlərdir» (2 Timotey 3:5). O zaman biz «mükəmməl» məsihçilərə çevrilir, «məsihçi» kimi danışır, lakin özümüzü heç kəsdən asılı olmayan soyuqqanlı insan kimi göstəririk. Bu, cansız teatr tamaşasına oxşayır, hansı ki, ədəb var, amma məhəbbət və istilik yoxdur, mühakimə edir, amma mərhəmət yoxdur, özünə əminlik var, amma təvəzökarlıqdan əsər-əlamət yoxdur, çox söz danışır, amma göz yaşları yoxdur. Əgər biz həqiqətən daxilən dəyişməsək, öz məhdudiyyətlərimizə qalib gələ və Allahın dünyanı dəyişmək üçün çağırılan alətinə çevrilə bilmərik. Çünki aciz və mənasız həyatmız daxilən dəyişə biləcəyimizə ümid etmir. Həyatmızın mənası isə məhz elə bundan ibarətdir.

Allah istəyir ki, biz «Onun… qüdrətinin hədsiz böyüklüyünün nə olduğunu» bilək (bax: Efeslilərə1:19). «Allah bu güdrətlə Məsihdə elə fəaliyyət göstərdi ki, Onu ölülər arasından dirildib səmada Öz sağında oturtdu və hər başçı, qüvvə və ağadan… Onu çox yüksəltdi» (Efeslilərə 1:20). O istəyir ki, biz məhz bu qüdrəti dərindən dərk edək. Allah istəyir ki, biz Məsihin zəif olmadığını başa düşək «çünki O, zəiflik içində çarmıxa çəkildiyi halda Allahın qüdrəti ilə yaşayır»

(bax: 2 Korinlilərə13:3), eləcə də, bizim zəif olmağımıza baxmayaraq, Allahın gücü ilə yaşayırıq (bax: 2 Korinflilərə13:4). Allah istəyir ki, biz dərk edək: «biz bu dünyanın ruhunu yox, Allahdan gələn Ruhu qəbul etdik» (1 Korinflilərə 2:12).

Allahın necə qüdrətə malik olduğunu və bizdə yaşayan Müqəddəs Ruhun necə hərəkət etdiyini sənə izah edə bilmirəm. Çünki bu, mənim imkanım daxilində deyil. Lakin mən səni heç nədə əmin edə bilmərəm, çünki bu, Müqəddəs Ruhun işidir. İsa Məsih demişdi: «Kim Mənə xidmət etmək istəsə, ardımca gəlsin. Mən harada olacağamsa, Mənim xidmətçim də orada olacaq. Kim Mənə xidmət etsə, Ata ona hörmət edəcək» (Yəhya 12:26). Hər şeydən öncə sən Müqqədəs Ruhu qəbul edib, Ondan həyatına təsir etməsini xahiş etməlisən.

Biz Müqəddəs Ruhun gücünü yalnız İsa Məsihi Xilaskar kimi qəbul etdikdən sonra görə bilərik. «Hər dərrakədən üstün olan bu məhəbbəti dərk etməyə gücünüz çatsın. Beləliklə, siz Allahın bütövlüyündə bütöv olasınız» (Efeslilərə 3:19). Əgər biz İsa Məsihi həyatımızın Hakimi kimi qəbul etsək, onda Onu məhz «bizdə fəaliyyət göstərən qüdrətlə istədiyimiz, yaxud düşündüyümüz hər şeydən daha artığını etməyə qadir olan» kimi tanıyacağıq. Həyatımızda Müqəddəs Ruhun işinin və qüdrətinin sayəsində Rəbb bizə ağıla gəlməyəcək xeyir-dualar verməyə qadirdir. Bu cür mövqe xoşuna gəlirmi?

Allah bizi Müqəddəs Ruh ilə məcburi şəkildə doldurmayacaq. Buna görə qəlbimiz Allah üçün açıq olmalı, Onu arzulamalı və istəməliyik. «Beləliklə, siz pis olduğunuz halda övladlarınıza yaxşı hədiyyələr verməyi bilirsinizsə, göydə olan Atanın Ondan diləyənlərə Müqəddəs Ruhu verəcəyi nə qədər yəqindir!» (Luka 11:13) Bizim Müqəddəs Ruhla dolub-dolmamaq üçün seçimimiz var. Müqəddəs Ruhla dolmağımız üçün Allahdan istəməliyik.

Mən indi Müqəddəs Ruh barəsində olan müxtəlif təlimlər haqqında danışmaq istəmirəm, çünki məbədlər çox olduğu kimi, Onun haqqında

təlimlər də çoxdur. Səndən yalnız bir şey xahiş edirəm, Allahın Müqəddəs Ruhunun qüdrətini qəbul edəsən və Rəbdən xahiş edəsən ki, səni Müqəddəs Ruhla doldursun. Çünki məhz bu halda Allahın sənin üçün hazırladığı gözəl şeylərə nail ola bilərsən. «Şərabdan sərxoş olmayın, bu, sizi mənəviyyatsızlığa aparır. Bunun əvəzinə Ruhla dolun» (Efeslilərə 5:18). Biz Allahın Kəlamına itaətli olduğumuz zaman həyatımız bərpa olunmağa başlayır.

## Allahın yaratdığı varlığın gücünə malik olmaq

Bir çox imanlı qadınların Allahın görmək istədiyi qadınlar olmaq şansı var. Onlar Allaha xidmət edir və rastlaşdıqları insanların həyatlarını dəyişdirirlər. Həmin qadınlar onlara kömək edən və bütün qapıları açan Allahın qüdrətinə güvənməyi öyrənirlər. Bu qadınlar Allahın planının vacib hissəsi olduqlarını və xüsusi tapşırıq üçün çağırıldıqlarını başa düşürlər. Ola bilsin ki, onlar hələ də həyatlarındakı məqsədi aydın görmürlər, lakin onlar əmindilər ki, onların xidmətləri başqa insanlar üçün xeyir-dua gətirəcək və Allahı izzətləndirəcək.

Qadınların bu cür güclü ruhani inkişaf etmələrinin və öz çağırışlarının həyata keçirmək istəyinin əsas səbəbi bundadır ki, bu gün bir çox kişilər imanda güclənərək ruhani rəhbərlər olsunlar. Bununla da, biz qadınların dualarının cavablarını görürük. Buna görə də Rəbbə şükür etməyə borcluyuq. Qadınların ruhani himayədara ehtiyacları var. Əgər hər şey təvəzökarlıq, xeyirxahlıq, hörmət və anlama mühitində baş verirsə, əgər alçalmaya, qürura, eqoizimə, qəddarlığa və laqeydliyə yer yoxdursa, onda qadın özünü təhlükəsiz hiss edir. Bizə lazım olan — həyatımızda düzgün səliqə-səhman yaratmaqdır.

Müqəddəs Kitabda yazılıb ki, «qadının başı üzərində ixtiyar olmalıdır» (1 Korinflilərə11:10) — yəni ruhani səlahiyyət rəmzi. Hər kəs Allah tərəfindən qoyulan hakimiyyətə tabe olmalıdır. Bu,

Allahın qoyduğu nizam-intizamdır. Bizim müdafiəmiz və əmin-amanlığımız üçün Öz iradəsinə görə Allah tərəfindən təyin olunan səlahiyyətli insanlara tabe olmasaq, O, Öz xeyir-dualarını üzərimizə tökməyəcək. Allahın hakimiyyəti itaətsiz insana etibar olunmaq üçün çox qiymətli və qüdrətlidir (buna görə narahat olmaq lazım deyil, bunun üçün dua etmək lazımdır. Bu haqda biz 9-cu fəsildə danışacağıq).

## Allahın vədləri

Çox vaxt biz Allahın bizim üçün hazırladığı xeyir-duaları əldə edə bilmirik, çünki Onun bizə nə hədiyyə etmək istədiyini başa düşmürük. Biz bilirik ki, Allahın bizim üçün çoxlu vədləri var, lakin onların nədən ibarət olduğunu bilmiriksə, onda həyatımızı aydın görə bilmirik. Müqəddəs Kitabda yazılıb: «Bizi Öz izzəti və alicənablığına Çağıranın ilahi gücü Onu tanımağımız vasitəsilə yaşamağımız və mömin olmağımız üçün lazım gələn hər şeyi bizə bəxş etdi. Beləliklə, O, bizə çox böyük və dəyərli vədlər verdi ki, bunlar vasitəsilə… ilahi təbiətə şərik olasınız…» (2 Peter 1:3–4).

Bu vədlər bizim ağlımızda və ürəyimizdə möhürlənməlidir. Çünki bu vədlərə nə qədər dərin bağlansaq, bir o qədər də həyatda uğur qazanacağıq. Bu, ona görə vacibdir ki, iblis bizi Allahın vədlərindən məhrum etmək istəyir, çünki bizim özümüz barədə olan gerçəkləri bilməyimizi istəmir. Biz, hərfi mənada desək, Allahın vədlərindən var-gücümüzlə bərk-bərk yapışmalıyıq.

Ona görə də bu kitabın hər fəslinin sonunda mövzuya aid Müqəddəs Kitabdan ayələr qeyd olunub. Mən çox istəyərdim, bütün çətinliklərin önündə biz bu vədləri uca səslə iqrar edək ki, bütün şübhələr yoxa çıxsın. Allahın hər bir vədini oxuyanda onların sənin həyatın üçün hansı məna kəsb etdiyini dərindən düşün. Çalış ki, həmin vədlərdə şəxsən sənə aid olan nəsə tapasan. Məsələn, «Oyaq durub dua edin ki, sınağa düşməyəsiniz. Ruh həvəsli, cisim isə gücsüzdür» (Matta

26:41). Burada söhbət ondan gedir ki, əgər sən həmişə dua edib, ətrafda baş verənləri diqqətlə müşahidə edirsənsə, heç vaxt imtahana uğramayacaqsan.

Lakin bununla yanaşı xoş və sevincli vədlərin arasında ciddi xəbərdarlıq edən vədlər də var. Allah bizi xəbərdar edir: «Əgər siz *bunları* etsəniz, onda mükafat alacaqsınız, yox, əgər *bunları* etsəniz, onda sizi cəza gözləyir». Bir halda ki, Rəbb bütün vədlərini yerinə yetirir, hər bir vədi yaxşı bilmək çox vacibdir.

## İrəli getmək vaxtıdır

Baxmayaraq ki, həyatımız eyni cürə görünür, amma onda yeni şeylər baş verir. Sən bunu hiss etsən də, etməsən də, heç vaxt bir yerdə dayanmırsan: sən ya irəli, ya da arxaya gedirsən. Hər gün ya Məsihə daha çox bənzəyirsən, ya da kı, daha az. Əgər sən Rəbbin arxasınca gedirsənsə, heç vaxt bitərəf mövqe tuta bilməzsən. Buna görə də mən bu kitabı yazmaq qərarına gəldim ki, səninlə özümə yalnız irəli getməyə kömək edim. Bir gün səhər yuxudan oyanıb, həyatımda Allahın işini görməyim üçün layiqli təməl qura bilmədiyimi, yaxud dualarımla qurduğum təməli qoruyub saxlaya bilmədiyimi dərk etmək istəmirəm. İstəyirəm ki, biz irəli addımlayaq, lakin irəliləməyimiz, sevdiyimiz Rəblə birgə olsun. İstəyirəm ki, ürəyimiz Allah üçün yansın, bu həyatda çağırışımızı bilək və ona əsasən yaşayaq. Söhbət Allahdan xeyir-dualar almaqdan getmir, halbuki Allah bizə çox şeylər vermək istəyir. Söhbət Allahın hüzuruna girmək və Allahın Özünü bizə tamlığı ilə açmağından gedir.

Əgər biz Allahın Kəlamına əsasən və Müqəddəs Ruhun idarəciliyi ilə yaşayırıqsa, onda əmin ola bilərik ki, biz düzgün yerdə və düzgün vaxtdayıq. Rəbb isə Öz planını həyata keçirtməkdədir. Biz əmin ola bilərik ki, Allah böyük xeyir-dualarını həyatımıza yağdıracaqdır. Beləliklə, irəli!

## Dua

*Ya Rəbb,* Sənin Kəlamında yazılıb ki, hər bir imanlının daxilindən həyat suyu axan çaylar çıxacaqdır (bax: Yəhya 7:38). Mən Sənə iman edirəm və istəyirəm ki, hər gün daxilimdən həyat suyu axan çaylar çıxsın. Səndən xahiş edirəm ki, məni bu gün Müqəddəs Ruhla doldurasan. Bulaqdan hər gün təmiz su çıxdığı kimi, mən də hər gün Sənin qüdrətinlə dolmaq istəyirəm.

Müqəddəs Kitabda yazılıb ki, «Beləcə, Ruh da bizə zəif olarkən kömək edir. Biz nə üçün və necə dua etmək lazım olduğunu bilmirik, lakin Ruh Özü dillə deyilməyən ahlarla vəsatətçilik edir» (Romalılara 8:26). Ya Rəbb, bilirəm ki, lazım olduğu qədər dua etmirəm və dua etməyi bacarmıram, qoy Müqəddəs Ruh mənim üçün vəsatətçilik etsin. Zəifliyimə qalib gəlməyim üçün mənə kömək et. Mənə Sənin haqqında bilmədiyim şeyləri aç.

Məni və həyatımı dəyişə biləcək qüdrətinə böyük ehtiyacım olduğunu hiss edirəm. Mən bəhrəsiz həyat yaşamaq istəmirəm, Ruhunun qüdrətində yaşamaq istəyirəm. Mən uğursuz olmaq istəmirəm, ruhani sahədə qalib olmaq istəyirəm. Sənə məxsus olmağım üçün Sən böyük qiymət ödəmisən. Bu biliyimə əsasən yaşamağa mənə kömək elə. Sən mənə istiqamət verirsən və Öz planına əsasən hərəkət etməyə kömək edirsən. Sən mənə hiyləgərə qalib gəlməyim üçün güc vermisən. Bunu unutmamağa kömək elə. Sən Öz Müqəddəs Ruhunu göndərmisən ki, mənə güc versin. Qoy onda bu vədin həyatımda icra olunsun. Məni sevdiyin üçün Sən mənə həyat bəxş etmisən. Səni sevməyim üçün mənə kömək elə.

Ya Rəbb, bütün ümidlərimi Sənə bağlayıram. Bağışla ki, əvvəllər ehtiyaclarımın ödənməsini Səndə deyil, dünyada ax-

tarmışam. Bilirəm ki, məni şəxsiyyət kimi tam formalaşdırırsan, çünki ehtiyacım ancaq Sənədir. Keçmiş və indiki arzularımın həyata keçməsi yalnız Səndən asılıdır. Mənə öz gücümlə yox, məndə yaşayan Müqəddəs Ruhunun gücü ilə yaşamağı öyrət. Bunları unutduğum üçün məni bağışla. Ruhani kamilləşməyimə kömək elə. Hər an məqsədinə doğru irəliləyən, ağıllı övlad olmağa mənə kömək elə.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Üstün qüvvənin bizdən yaranmadığı, Allaha aid olduğu bilinsin deyə bu xəzinəni saxsı qablarda saxlayırıq.
*2 Korinflilərə 4:7*

Çünki çarmıx barsindəki kəlam məhv yolunda olanlar üçün ağılsızlıq, xilas yolunda olan bizlər üçünsə Allahın qüdrətidir.
*1 Korinflilərə 1:18*

Amma O, mənə dedi: «Lütfüm sənə kifayətdir, çünki zəiflik olanda qüvvə tam olur». Məsihin qüvvəsi məndə məskən salsın deyə zəifliklərimlə daha çox sevinə-sevinə öyünəcəm.
*2 Korinflilərə 12:9*

Rəbbi dirildən Allah Öz qüdrəti ilə bizi də dirildəcək.
*1 Korinflilərə 6:14*

Sizə Atadan göndərəcəyim Vəsatətçi — Atanın yanından çıxan həqiqət Ruhu gəldiyi zaman Mənim barəmdə şəhadət edəcək.
*Yəhya 15:26*

## BİRİNCİ FƏSİL

# YA RƏBB, MƏNİ ÖZÜNƏ CƏLB ET VƏ YOLLARINLA GETMƏYİ ÖYRƏT

Allahı tanımazdan əvvəl mən müxtəlif şərq dinləri ilə məşğul olurdum və «Yeni Era» hərəkatının üzvü idim. Bu dinlərin arasında həyatımın mənasını tapmaq ümidi ilə Allahı axtarırdım. Uşaqlıqdan məni izləyən qorxu, depressiya və ürək ağrılarımdan azad olmaq istəyirdim. Allahın mövcudluğuna inanırdım. Düşünürdüm ki, əgər Allaha yaxınlaşa bilsəm, onda Onun əzəmətinin işığı sayəsində həyatım dəyişər.

Təbii ki, məndə heç nə alınmırdı, çünki arxasınca qaçdığım allahlar uzaq və soyuq idilər. Getdikcə depressiyam daha da dərinləşirdi, çünki məni daima qorxu altında saxlayan və hər an alçaldan laqeyd, bəlkə də deyərdim ki, qəddar ana tərbiyə etmişdi. Sonralar məlum oldu ki, onda psixoloji pozğunluq var. O zaman mənə çəkdirdiyi bütün əzablarına görə onu bağışladım. Uşaqlıqdakı acı xatirələr qar topası kimi üzərimə elə böyük və dözülməz ağrı ilə çökmüşdü ki, tez-tez ümidsizliyə qapılaraq boğulurdum. Belə ki, bu vəziyyət məni intihara sürükləyirdi.

Məhz elə həmin çətin anlarda, 28 yaşımda mən həqiqi Allahı tanıdım və İsa Məsihi həyatıma Xilaskar kimi qəbul etdim. Beləcə, mənim həyatımda azadolma, şəfa və yenidən doğulma prosesi başladı. Bütün bunlar arzuladığımdan da artıq idi.

Rəbb ürəyimə daxil olduğu vaxtdan həyatımda Onun gücünü hiss etməyə başladım. Onda başa düşdüm ki, əvvəllər məşğul olduğum dinlərin heç biri xilas etməyə və insanların həyatını dəyişməyə qadir deyil. Yalnız Müqqəddəs Kitabdakı olan Allah bunu etməyə qadirdir. O, yeganə və həqiqi Allahdır. Biz Ona yaxınlaşanda və Onu öz həyatımıza dəvət edəndə, Onun Ruhu qəlbimizə daxil olur və bizi daxildən dəyişərək həyatmızda möcüzəli işlər görməyə başlayır.

Eləcə də başa düşdüm ki, Allah Özünü tanıtdıran və bizə yaxınlaşmaq istəyən Allahdır. Ona görə də O, Özünü İmmanuel adlandırır. Bu isə «Allah bizimlədir» deməkdir. Allah bizə Ona yaxınlaşdığımız zaman yaxınlaşmağa başlayır (bax: Yaqub 4:8).

Əgər səninlə üzbəüz oturub həyatın haqqında danışa bilsəydim, sənə bunları deyərdim: «Əgər sən Rəbbə iman etmisənsə, onda bütün çətinliklərinin açarı daxilindədir. Çünki Allahın Müqqəddəs Ruhu daxilində yaşayır. Yalnız O, səni idarə edər və bilməli olduğun hər şeyi öyrədə bilər. O, səni və həyatını dəyişəcək, yuxuda belə görmədiyin xeyir-duaları üzərinə tökəcək. Lakin bu, özünə güvənməyi dayandırdığın və Ona məqbul olan vaxtda iş görməsinə icazə verdiyin zaman baş verəcək».

Burada söhbət Allaha «layiq» olmaqdan getmir, çünki heç birimiz buna qadir deyilik. Söhbət Allahın kamilliyini qəbul etməkdən, Ona yaxınlaşıb hüzurunu duymaqdan, Onunla sıx təmas qurmaqdan və Onun yollarını izləməkdən gedir. Məhz bütün bunlar bizi tam şəxsiyyət edir.

## Mən sənin nə istədiyini bilirəm

Son üç-dörd il ərzində mən tez-tez Birləşmiş Ştatlara, öz oxucularımla görüşməyə gedirdim. Olduğum yerlərdə qadınlar arasında sorğu-sual aparırdım ki, onların əsas nəyə ehtiyac duyduqlarını və arzularını bilim. Məhz elə o vaxt mən «Dua edən ərin gücü» kita-

bına material yığırdım. Sorğu aparıdığım qadınların cavabları məni təəccübləndirmədi. Lakin məni təəccübləndirən o oldu ki, bütün qadınların istəyi eyni idi. Onların ən böyük arzuları ruhani böyümək, həyatı dəyişdirən Allahın ardınca getmək idi. Hər yerdə eyni cavab aldığım üçün sorğunu dayandırdım. Mənzərə aydın idi!

Mən əminəm ki, sən də mənim və başqa qadınlar kimi Allahla dərin, məhəbbət dolu münasibət axtarırsan. Əks halda, sən bu kitabı oxumazdın. Sənin ürəyinin sıx ünsiyyətə və səni olduğun kimi sevildiyinə, eləcə də qiymətləndirildiyinə əmin olmağa ehtiyacın var. Bütün bunların mənbəyi isə yalnız Rəbdir. Ürəyinin gizli arzuları yalnız Rəblə ünsiyyətdə olan vaxt həyata keçə bilər. Çünki Rəbdən başqa heç kim sənin ürəyinin dərinliyini görə bilməz, heç kim səni Onun kimi tanıya və Onun kimi sevə bilməz. Bu yanğı hiss etdiklərindən daha üstündür və ürəyindəki boşluğu doldurmaq üçün yaxınlarında axtardığın məhəbbəti Allahdan başqa heç kim doldura bilməz. Bu yanğını və boşluğu isə Rəbb Özü sənin ürəyinə qoyub.

Allah istəyir ki, biz Ona susayaq. Bunu dərk edəndə, azad olmağa başlayırıq. Bizim azadlığımız öz istəklərimizi, tənhalığımızı, qəlbdəki boşluğu düzgün qiymətləndirməkdən, Allaha ehtiyacımız olduğunu və Onun bizi daha çox doldurmaq istəyindən ibarətdir. Lakin Allahla sıx münasibət qurmaq istəyi öz-özündən əmələ gəlmir. Bunun üçün dua etmək və bu istəyi özümüzdə qoruyub saxlamaq çox vacibdir.

## Allahın yolları ilə getməyin beş yalnış prinsipi

1. *Əgər sən yalnız ehtiyaclarının ödənməsindən və ya Allahdan xeyir-dua almaqdan ötrü* Rəbbin arxasınca gedirsənsə, onda Onun yollarından uzaqsan. Əgər sən Allahı sevib, daima Ona məqbul olmağa və xidmət etməyə can atırsansa, onda Rəblə olan münasibətlərin daha da möhkəmlənəcək.

2. *Əgər sən yalnız çətinliyə düşən zaman və ya ən çox ehtiyac duyduğun zaman Allaha dua etməyə başlayırsansa,* onda Onun yollarından uzaqsan. Əgər sən Onun hüzurundan zövq aldığına görə gün ərzində bir neçə dəfə Onunla ünsiyyət qurursansa, onda sənin Rəblə olan münasibətin daha da möhkəmlənəcək.
3. *Əgər Allaha istəklərini həyata keçirtmədiyinə görə qəzəblənirsənsə və ya məyus olursansa,* onda Onun yollarından uzaqsan. Əgər sən şəraitdən və həyatında olanlardan asılı olmayaraq, Ona hər vəziyyətdə şükür etməyə çalışırsansa, onda Rəblə olan münasibətin daha da möhkəmlənəcək.
4. *Əgər Allahı səni xeyir-dualandırdığına görə sevirsənsə,* onda Onun yollarından uzaqsan. Əgər sən Allahın Özünə görə Onu sevib hörmət edirsənsə, onda sənin Rəblə olan münasibətin daha da möhkəmlənəcək.
5. *Əgər sən öz istəyinə nəyin bahasına olursa olsun çatmaqdan ötrü duada Allahı bezdirmək niyyətinə düşmüsənsə,* onda Onun yollarından uzaqsan. Əgər sən inanırsansa ki, Allah dualarına iradəsinə uyğun olaraq cavab verir, onda sənin Rəblə olan münasibətin daha da möhkəmlənəcək.

## Allahla üzbəüz

Əgər biz Allahla təklikdə vaxt keçirtməyə can atmırıqsa, onda nə Allahla arzuladığımız sıx münasibəti qura biləcəyik, nə Onu dərindən tanıyacağıq, nə də ki, Ona yaxınlaşa biləcəyik. Yalnız Allahla təkbətək qaldığımız vaxtlarda biz təravətli həyat nəfəsi, gücü, əqlimizin və ürəyimizin yenilməsi üçün məsh alırıq, həyatımıza Allahın gözü ilə nəzər salır, ən çox daha nəyə ehtiyac və Kimə məxsus olduğumuzu anlamağa başlayırıq.

Allahın sənə olduqca çox sözü var. Lakin sən gündəlik qayğıları kənara qoyub Allahla ünsiyyət qurmaq üçün vaxt tapa bilməsən,

onda heç vaxt Onun sənə nə demək istədiyini eşidə bilməyəcəksən. İsa Məsih Ata ilə təklikdə çox vaxt keçirirdi. Əgər İsa bu cür edirdisə, onda biz niyə etməməliyik? Bizim üçün bu, daha çox vacibdir.

Bilirəm ki, dua üçün vaxt tapmaq elə də asan olmur. Xüsusilə də, insanların düşməni olan iblis var-gücü ilə buna mane olanda. Lakin duanı birinci yerə qoyub bunun üçün konkret bir vaxt təyin edə bilsən, — məsələn, öz təqvimində qeydlər aparmaqla yanaşı qəti şəkildə Allahla hər gün görüşmək qərarına gəlsən, — onda dualarına möcüzəli şəkildə necə cavab aldığına şahid olacaqsan.

Bil ki, əgər sən az dua edirsənsə, onda tezliklə həyatında böyük dəyişikliklər baş verəcəyini gözləmə. Bunun üçün həyatında iti üzən iri gəmini yerindən tərpədib əks istiqamətə yönəltmək üçün vaxt tələb olunur. Sükanı idarə etməyə başlayan kimi o, həmən istiqamətini dəyişmir. Bəlkə də istiqaməti dəyşir, lakin bu, dərhal hiss olunmur. Dua da eynilə bu cürdür. Dua həyatını kökündən dəyişməyə qadirdir. Lakin bu, həmin dəqiqə baş vermir. Ətrafında dəyişikliklər baş verənə qədər səndən yalnız duada sabit qalmağın tələb olunur. Bu, adi bir haldır, ona görə də məyus olmağa dəyməz. Tezliklə, sən yüksək sürət yığıb düzgün istiqamətdə hərəkət etməyə başlayacaqsan. Bəzən olur ki, insanlar dönüş dövründə və dualarına cavab almağa az qalmış təslim olmağa başlayır. Unutma ki, bu, mənzuniyyətin adi dövrəsi və sakit limanda əyləndirici gəmi səfəri deyil. Bu, taleyinə doğru aparan və həyat boyu uzanan bir səyahətdir. Bu səyahətdə təslim alternativ* olmur.

## Allahı adları ilə çağır

Olub ki, adları yaxşı yadında saxlaya bilmədiyiniə görə pərt vəziyyətə düşmüsən? Məndə olub. Mənim üçün eyni zamanda bir neçə insanla söhbət etmək çətindir. Kiminləsə təkbətək söhbət edəndə

* iki yoldan (şeydən, qərardan) birinin seçilməsinə imkan verən

onun adını yadımda yaxşı saxlaya bilirəm, lakin bir gecənin içində bir neçə ad yadda saxlamaq mənim üçün çətindir. Bu, mənə bir qədər çətinlik yaradır. Lakin Allahla belə deyil. Allah təkdir. Onun tək olmasına baxmayaraq, bir neçə Adı var. Əgər biz Onun Adlarını bilmiriksə, onda Onun xasiyyətinin bir çox tərəflərini tanıya bilməyəcəyik.

Əzəldən Allahın yüzlərlə Adı olub. Ancaq bizim üçün bir neçəsini yadda saxlamaq çətin olur. Bəzən isə ən çox ehtiyac duyduğumuz vaxtda Onun lazım olan Adını unuduruq. Məsələn, biz Allahı Ata kimi qəbul edirik, lakin eyni zamanda unuduruq ki, O, bizim həm Ərimiz, həm də Dostumuzdur. Ya da biz Allahı Təsəlli verən kimi tanıyırıq, amma unuduruq ki, O, həm də Xilaskarımızdır. Ola bilsin ki, biz Onu Himayəçi kimi qəbul edirik, ancaq unuduruq ki, O, eyni vaxtda şəfa verən Allahdır. Bəzi insanlar Allahı Xilaskar kimi görürlər, baxmayaraq ki, biz buna layiq deyilik. Lakin Allah bizim üçün bunlardan daha böyük və üstün olmaq istəyir. Allah istəyir ki, biz Onu hər tərəfli tanıyaq, çünki bizim Ona olan münasibətimiz bütün həyatımıza təsir edəcək.

Müqəddəs Kitabda yazılan Allahın hər bir Adı bizi getməli olduğumuz müəyyən bir istiqamətə yönəldir ki, Ona etibar etməyi öyrənək. Sən inanırsan ki, Allah sənin *Qayan* və *Barışdıranındır* ? (Zəbur 18:2; Efeslilərə 2:14). İnanırsan ki, ruhdan düşdüyün vaxtda O, *başını ucaldan* Allahdır? (Zəbur 3:3). Həqiqətənmi Allah sənin təmizləyici *Odun və Yuyucunun sabunu* kimidir? (Məlaki 3:2–3). Həqiqətənmi Allah sənin *Müdrikliyin, Xilaskarın, Yatdığın yerdir*?(1 Korinflilərə 1:24); (Zəbur 17:7); (Yeremya 50:6). Allahın bütün Adları müqəddəsdir. Biz onları yadda saxlamağa borcluyuq.

Mən Los-Anceles şou-biznesində işləyəndə tez-tez İsanın adını hörmətsiz şəkildə və mənasını dərk etmədən çəkildiyini eşidirdim. İsaya iman etdikdən sonra başa düşdüm ki, onu söyüş kimi istifadə edən insan üçün bu Ad lənətə çevrilə bilər. Allahın Adını boş yerə çəkən insan öz həyatına bəla gətirir, çünki bununla o, Allahın on

əmrindən birini pozur. «Allahın Rəbbin adını boş yerə dilinə gətirmə, çünki Rəbb Öz Adını boş yerə dilinə gətirəni cəzasız qoymaz» (Çıxış 20:7). Həmçinin Allahın Adını boş yerə dilinə gətirən insan Onun ən böyük əmrini də pozur «Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün düşüncənlə və bütün gücünlə sev» (Mark 12:30). Allahı sevən insan heç vaxt düşünmədən Onun Adını dilinə gətirməz.

Eləcə də bu, İsa Məsihin Adına da aiddir və biz Onun Adına böyük hörmətlə yanaşmalıyıq. Çünki Onun Adı xilas edən, şəfa verən, hər şeylə təmin edən və qoruyan böyük gücə malikdir. Kim ki, düşünmədən və boş yerə Onun Adını çəkirsə, bütün bu xeyir-dualardan məhrum olur. Allahın hər bir Adı böyük qüdrətə malikdir. Onun Adlarını məhəbbətlə və hörmətlə çəkən insanın həyatına bol xeyir-dua gəlir və imanı möhkəmlənir.

Məsələn, lazım olan vaxtda Allahın Adında sığınacaq tapmaq olar: «Rəbbin Adı qüvvətli bir qaladır. Saleh qaçıb ona pənah aparır» (Süleymanın Məsəlləri 18:10). Əgər sən xəstəsənsə, onda Şəfa Verənin yanına qaç, əgər borclarını ödəyə bilmirsənsə, onda Təmin Edənin yanına qaç, əgər qorxursansa, onda Sığınacaq yerə qaç, əgər həyatında çətin an yaşayırsansa, onda Nurun yanına qaç. Allahın Adını hörmətlə və minnətdarıqla çəkdiyin zaman, Ondan sənin həm Xilaskarın, həm Əbədi Nurun, həm də Şəfa Verənin olmağını xahiş edirsən. Biz həyatda Allahı ehtiyaclarımızın qayğısına qalan kimi görmədiyimiz üçün çox şeydən məhrum olmuşuq. Əgər sən Allahı Şəfa Verənin kimi görmürsənsə, onda necə şəfa tapa bilərsən?

Aşağıdakı siyahıda Allahın otuz Adını çəkmişəm. Lakin Allahın Kəlamında Allahın yüzlərlə Adı var. Allah tək olan Allahdır. Amma bizim Onu hər tərəfli tanımağamız üçün O, Özünü bizə müxtəlif yollarla tanıtdırır. Allah Özünə ona görə çoxlu adlar qoyub ki, bizim kimi kiçik məxluqlar böyük Allahı tanıya bilsin. Sənə məsləhət görürəm ki, hər dəfə Müqəddəs Kitabı oxuyub orada Allahın yeni Adını

tapdıqda onu ya işarələyəsən, ya da ki, hazır olan siyahıya əlavə edəsən. Bu, sənə Allahın sənin üçün Kim olmaq istədiyini başa düşməyə kömək edəcək. Bu siyahını oxuyarkən Allahdan xahiş elə ki, Öz Şəxsiyyətini sənə tükənməz və müxtəlif obrazlarda açsın və həyatını həmişəlik dəyişsin.

**Allahın otuz Adı**

1. Şəfa Verən (Zəbur 103:3)
2. Satın alan (Yeşaya 59:20)
3. Xilaskar (Zəbur 70:5)
4. Pənah (Zəbur 42:2)
5. Sığınacaq (Yoel 3:16)
6. Dost (Yəhya 15:15)
7. Vəsatətçi (1 Yəhya 2:1)
8. Canlandıran (Zəbur 23:3)
9. Əbədi Ata (Yeşaya 9:6)
10. Məhəbbət (1 Yəhya 4:16)
11. Vasitəçi (1 Timotey 2:5)
12. Dar gündə Sığınacaq (Nahum 1:17)
13. Həyat Çörəyi (Yəhya 6:35)
14. Dardan hifz edən (Zəbur 32:7)
15. Əbədi Nur (Yeşaya 60:20)
16. Qüvvətli Qala (Süleymanın Məsəlləri 18:10)
17. Yataq Yeri (Yeremya 50:6)
18. Həqiqət Ruhu (Yəhya 16:3)
19. Fırtına vaxtı Çardaq (Yeşaya 25:4)
20. Əbədi həyat (1 Yəhya 5:20)
21. Yahve-İre (Yaradılış 22:14)
22. Sülh Qaynağı (2 Saloniklilərə 3:16)
23. Canlı Su (Yəhya 4:10)
24. Qalxan (Zəbur 144:2)
25. Ər (Yeşaya 54:5)

26. Yardım Edən (İbranilərə 13:6)
27. Ecaskar Məsləhətçi (Yeşaya 9:6)
28. Şəfa Verən (Çıxış 15:26)
29. Ümid (Zəbur 71:50)
30. Ürəkləndirən (Romalılara 15:5)

Əgər sən vaxtaşırı bu siyahıya baxıb Allahın sənin üçün Kim olduğuna nəzər salsan, onda imanının nə qədər surətlə artığını və Allaha daha çox yaxınlaşdığını görüb, təəccüblənəcəksən.

## Dua

*Ya Rəbb*, Öz Kəlamında mənə yaxınlaşacağını vəd etdiyinə görə Sənə minnətdaram (bax: Yaqub 3:8). Daima hüzurunda qalmaq və Səninlə münasibətlərimi daha da möhkəmləndirmək istəyirəm. Səni hər vasitə ilə tanımaq istəyirəm. Səni daha çox dərindən tanımağım üçün nə etmək lazım olduğunu mənə göstər. Mən «daima öyrənən, amma həqiqəti heç zaman bilməyən» insan olmaq istəmirəm (2 Timotey 3:7). Özün barəndə mənə həqiqəti aç, çünki Səni sidq ürəkdən çağıran bütün insanlara yaxınsan (Zəbur 145:18).

Özümü tamamilə Sənin əllərinə verirəm ki, həyatımda olan planını həyata keçirəsən. Mənim həyatımda iş görməyin üçün Sənə mane olan hər bir şeyi rədd edirəm. Mən iqrar edirəm ki, Sən mənim Şəfa Verənim, Xilaskarım, Satın Alanım və Təsəlli Verənimsən. Xüsusilə də bu gün Sənə… (Allahın Adlarından birini və ya bir neçəsini çəkin) kimi ehtiyac duyuram. İnanıram ki, Sən mənim üçün məhz O, olacaqsan.

Ya Rəbb, Səninlə hər gün ünsiyyət qurmağım üçün mənə kömək elə. Qoy buna mane olan hər şeyi aradan qaldıra bilim. Sənin iradənə uyğun dua etməyi öyrət. Ya Rəbb, hər gün Özün

haqqında mənə yeni nəsə aç. Sən demisən: «Kim susayıbsa, yanıma gəlib içsin» (Yəhya 7:37). Sənə çox susamışam, çünki Sənisiz qəlbim boşdur. Yalvarıram, Müqəddəs Ruhunla məni doyuzdur.

Bilirəm ki, Sən hər yerdə mövcud olan Allahsan. Həm də bilirəm ki, indikindən də çox mənə yaxın ola bilərsən. Ona görə yalvarıram, məni Özünə heç vaxt olmadığı kimi elə yaxın et ki, hüzurunu aydın hiss edə bilim.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Allaha yaxınlaşın, O da sizə yaxınlaşacaq.

*Yaqub 4:8*

Mən də Atadan xahiş edəcəyəm və O, sizə başqa Vasitəçi göndərəcək ki, daim sizinlə olsun. O, həqiqət Ruhudur. Onu dünya qəbul edə bilməz, çünki Onu nə görür, nə də tanıyır. Sizsə Onu tanıyırsınız, çünki sizinlə qalır və daxilinizdə olacaq.

*Yəhya 14:16–17*

Qorxma ey kiçik sürü, çünki Atanız Padşahlığı sizə verməyə münasib görüb.

*Luka 12:32*

İndiyə qədər Mənim adımla heç nə diləmədiniz. Diləyin, alacaqsınız, ta ki sevinciniz kamil olsun.

*Yəhya 16:24*

Ümid verən əqidədən möhkəm tutaq, çünki vəd verən Allah sadiqdir.

*İbranilərə 10:23*

## İKİNCİ FƏSİL

# YA RƏBB, MƏNİ TƏQDİS ET VƏ MƏNDƏ TƏMİZ ÜRƏK YARAT

Mövzumuzu davam etməzdən əvvəl mən bir neçə məsələyə aydınlıq gətirmək istərdim. Məsələ ondadır ki, heç birimiz kamil deyilik. Heç bir insan günah işlətməməkdən sığortalanmayıb. Heç kim problemlərdən azad deyil. Heç kəs Allahı o qədər dərindən dərk etməyib ki, daha nəsə öyrənməyə ehtiyacı olmasın. Heç kəs o qədər fərasətli deyil ki, Allahın köməyinə ehtiyacı olmasın. Heç kəs…

Belə imiş! Bu ki, aydın görünür!

Xahiş edirəm, elə düşünmə ki, bunu bilmədiyin üçün sənə xatırladıram. Əksinə, mənə elə gəlir ki, mənim nə demək istədiyimi artıq yaxşı başa düşürsən. Buna görə biz özümüzlə və bir-birimizlə səmimi olmalıyıq.

İstəmirəm, bu kitabı oxuyarkən səndə elə təəssürat yaransın ki, güya səndən qeyri-mümkün olan yüksək səviyyəyə çatmaq tələb olunur. Bu kitab kamilliyi necə əldə etmək barədə deyil, Allahın sənin etalonuna çevrilməyə imkan vermək barədədir. Mən hansısa nəticə əldə etmək barədə deyil, həyatımızı idarə etmək gücündə olmadığımız barədə danışıram. Bu kitab Allahın mühakiməsindən necə qaçmaq və məğlubiyyətə uğradığımız zaman özümüzü uğursuz hesab etməmək haqqında deyil, Allahın məhəbbətinin dolğunluğunu hiss

etmək və onun bizi kamil etməyə imkan verməsi haqqındadır. Bu kitab bizi dəyişlməyə öyrətmir, sənin əslində kim olduğun barədə bəhs edir. Amma hər şeydən öncə, sən özün özünə və Allaha qarşı dürüst olmağa öyrənməlisən.

Bütün qadınlar bol həyat içində yaşamağı arzulayır. Onlar Allahın lütfü altında yaşamaq, bununla yanaşı Ona itaət etmək və əmrlərinə riayət etmək istəyirlər. Onlar Allahın həqiqətində sarsılmaz qalıb çətinliyə düşən insanlara qarşı həssas və qayğıkeş olmaq istəyirlər. Onlar Allahı dərindən tanımağa və Müqəddəs Ruhun gücü ilə dəyişməklərini istəyirlər. Lakin bir çox qadınlar həyatlarında müsbət dəyişiklik görməyəndə özlərinə qarşı həddindən artıq ciddi yanaşırlar. Belə qadınlar özlərini mühakimə edir və öz uğurlarına həvəssiz sevinirlər.

Ona görə istəmirəm ki, sən «qəlbini təmizləmək» çağırışını ifşa və mühakimə kimi qəbul edəsən. Əsla yox! Allah səni həyatında xeyir-duaların bol olmağı üçün qəlbini təmizləməyə və yollarını düzəltməyə çağırır. Buna görə də, gələcəyin üçün Allahın səni vacib işə necə hazırladığına nəzər sal.

Bunun mümkün olması üçün biz həyatımızı diqqətlə araşdırmalı və özümüzdə cəsarət tapıb bu sözləri Rəbbə deməliyik: «Ya Rəbb, ürəyimdə, ağlımda, ruhumda və bütün həyatımda Sənə məqbul olmayan şeyləri mənə göstər. Anlaya bilmədiyim şeyləri də mənə aç. Uğursuzluqlarımı mənə göstər. Məni təkəbbürdən, qorxudan və bütün narahatçılıqlarımdan azad et. Özüm və bütün həyatım haqqında həqiqəti bilməyə mənə kömək elə. Həqiqətlərini mənə açıqla ki, onları qəbul edə bilim. Səhvlərimi düzəltməkdə, yalanı həqiqətlə əvəz etməkdə və həyatımı dəyişməkdə mənə kömək et».

Belə dua etmək üçün böyük cəsarət tələb olunur. Bəlkə də bunun üçün səndə olan cəsarətdən daha böyük cəsarət tələb olunur. Əgər Allahı ürəyinə buraxmağa cəsarətin çatmırsa və Allahın ürəyindəki çirkli niyyətlərinin aşkar etməsindən qorxursansa, onda Ondan xahiş et ki, sənə cəsarət versin. Əgər həyatında müsbət dəyişiklik olmasını

istəyirsənsə, onda səni təqdis edən və imkanlarını genişləndirən Müqəddəs Ruha «yaşıl işıq» göstərməli olacaqsan. Özünü özün haqqında yanlışlıqlardan qorumaq üçün Onu ürəyinə buraxmalısan. Allahdan xahiş etməlisən ki, səndə təmiz ürək yaratsın. Elə məhz bu vaxt növbəti iki addımı atmağa hazır ol:

1. Allahın sənə göstərdiyi bütün pis fikirlərinə və əməllərinə görə Onun qarşısında *etiraf* etmək.
2. Etiraf etdiyin şeylərə görə *tövbə* etmək.

## Günahkar olduğunu açıqca etiraf etmək

Elə düşünmə ki, sən qatillikdə və ya bank yarılmasında iştirak etmədiyinə görə tövbə etməyinə səbəb yoxdur. Həmçinin düşünmə ki, neçə il imanlı olduğuna və heç bir xidməti buraxmadığına görə tövbə etməyinə səbəb yoxdur. Günah həmişə üzdə olmur. Məsələn, Allahın Öz vədinə sadiq qalacağına nə vaxtsa şübhə etmisən? Bil ki, Allahda şübhə etmək — günahdır. Nə vaxtsa kiminsə arxasınca danışmısan? Dedi-qodu da günahdır. Olub ki, bölüşmək istəmədiyin insanla ünsiyyətdən qaçmısan? Bax, eqoizm da günahdır. Nə vaxtsa kimdənsə zəhlən gedibmi? Məhəbbətlə edilməyən hər bir şey günahdır.

Heç kim günah işlətməyəcəyinə görə yüz faiz zəmanət verə bilməz. Buna görə tövbə etmək vacibdir. Əgər günahlarımızı, səhvlərimizi və xətalarımızı etiraf etmiriksə, onda Allahdan uzaqlaşırıq və dualarımıza cavab almırıq. «…Lakin şər əməlləriniz Allahınızla sizin aranızda ayrılıq saldı, günahlarınıza görə Onun üzü sizdən döndü, O, səsinizi eşitmir» (Yeşaya 59:2).

Günahlarımızı etiraf etmədikdə Allahdan gizlənməyə başlayırıq. Bu isə cənnət bağında Adəmlə Həvvanın izi ilə getmək deməkdir, çünki Rəbbin üzünə baxa bilmirik. Ancaq Allahdan gizlənmək mümkün deyil. Müqəddəs Kitabda yazılıb ki, nəinki bizim gizli əməl-

lərimiz, həm də bütün fikirlərimiz və sözlərimiz üzə çıxacaq. «Elə örtülü bir şey yoxdur ki, aşkara çaxmayacaq və elə gizli bir şey yoxdur ki, bilinməyəcək. Buna görə də, qaranlıqda dediyiniz gün işığında eşidiləcək, bağlı qapı arxasında qulağa pıçıldadığınız damlardan bəyan olunacaq» (Luka 12:2–3). «Allahda gizli heç nə yoxdur. Lakin Onun gözləri qarşısında hər şey çılpaq və açıq-aşkardır. Biz Ona hesabat verəcəyik» (İbranilərə 4:13).

Necə də dəhşətli fikirdir! Əgər hər birimiz bütün əməllərimizə görə hesabat verəcəyiksə, onda pis əməllərimizi nə qədər tez açıqlasaq, bir o qədər yaxşıdır. Həqiqətən də, gördüyümüz günahları nə qədər tez etiraf etsək, bir o qədər də Allah görə bilmədiyimiz günahları bizə açıqlayacaqdır. Bir Allah bilir ki, hər birimizin ürəyində nə qədər günah var.

Günahın həmişə nəticəsi olur. Bu barədə padşah Davud günahını etiraf edəndə yaxşı deyir: «Etiraf etməyəndə bütün gün nalə çəkməkdən sümüklərim taqətdən düşür. Əlin üzərimdə gecə-gündüz ağırlaşdı, sanki yayın quraqlığı məni taqətdən saldı» (Zəbur 32:3–4).

Ərimin məni tez-tez sözlərlə yaraladığı vaxtlarda, ona qarşı olan nifrətimi xatırlayıram. Ürəyimdə gəzdirdiyim nifrət və inciklik mənə daha çox əzab verirdi. Qəlbimdə günah bəslədiyimi etiraf etmək istəmirdim, çünki özümə bəraət qazandırırdım, ərimi isə günahkar hesab edirdim. Sonda başa düşdüm ki, ürəkdə kin daşımaq və ərimə nifrət etmək günahdır. Həmin an bədənimdə ağrının yox olduğunu hiss etdim. «Çünki təqsirlərim başımdan aşır, ağır yük tək onlara gücüm çatmır. Ağılsızlığımın üzündən yaralarım iyrənc və irinlidir. Mənim qəddim əyilib, iki qat bükülmüşəm, gün boyu yaslı gəzirəm» (Zəbur 38:4–6).

Günah qədər ağır yük yoxdur. Günahın qəlbimizi məhv edən və bizi sındıran gücünü hiss etməyənədək, onun nə qədər ağır olduğunu hiss etmirik. Allahla bizim aramızda ucalan divara başımız dəyməyənə qədər, biz onun məhvedici qüvvəsini qiymətləndirmirik. Ona görə gördüyümüz günahları nə qədər tez etiraf etsək və ürəyimizi nə qədər

tez təmizləsək, bir o qədər Allahın qarşısında saleh olacağıq. Tövbə günahı aşkara çıxardır və onu Allahın qarşısında ifşa edir. Günahlarımızı etiraf etdiyimiz zaman biz Allaha yeni nəsə demiş olmuruq. O, onsuz da bizim köməyimiz olmadan da hər şeyi bilir. Sadəcə olaraq O istəyir ki, sən öz günahını etiraf edəsən.

Etiraf etmək adi üzr istəmək kimi deyil, çünki üzr istəməyi hər bir insan bacarır. Bir çox insanlar bu məharəti yaxşı mənimsəyiblər. Bu, onlarda çox asan alınır və nəticədə bu sahədə onların təcrübələri getdikcə böyüyür. Onlar asanlıqla sağa və sola «üzr istəyirəm» sözünü paylayırlar, lakin öz yollarını dəyişmirlər. Onlar «bağışlayın» sözünü təqsirlərini etiraf etmədən istifadə edirlər. Onlar öz aləmlərinə görə sözləri heç bir əhəmiyyət kəsb etməyən mütəxəssisdilər. Əsl tövbə isə günahın etiraf etməsi ilə yanaşı ona görə peşimançılıq çəkmək deməkdir.

## Həqiqi tövbə

Biri var ki, Allahın əmrini pozduğunu etiraf edəsən, biri də var ki, etdiyin günaha görə peşimançılıq çəkib onu bir daha etməyəcəyinə qərar verəsən. Bu, əsl tövbədir. Tövbə həmişə səmti əks istiqamətə, 180 dərəcəyə yönəldir. Tövbə etmək buraxdığın səhvlərə görə dərindən təəssüf etmək və bir daha bu səhvə yol verməmək deməkdir. Tövbə — öz haqsızlığını boynuna almaq və ondan uzaq durmaq deməkdir.

Buna baxmayaraq, tövbə bizim bir daha günah işlətməyəcəyimiz demək deyil. Bu, o deməkdir ki, bizim niyyətimiz bir daha günah işlətməməkdir. Ona görə hansısa günahına görə tövbə edib, yenə də həmin günahı edirsənsə, buna görə bir daha tövbə etməkdən qorxma. Şeytana boynuna minib səni ittiham etməyə imkan vermə. Etdiyin günaha görə lazım olan qədər tövbə elə və bununla çiyinlərinin üzərindən düşməni yerə salıb qələbə qazan. Heç vaxt bu cür fikirlərə yol vermə: «Yəqin Allah məni bir daha bağışlamayacaq; çünki bu güna-

hıma görə keçən həftə tövbə etmişəm». Xeyr, Rəbb, hər dəfə etdiyin günaha görə tövbə edən kimi səni bağışlayır. «Üsyankarlığı bağışlanan, günahı əfv olunan insan nə bəxtiyardır» (Zəbur 32:1). Hər dəfə öz günahına görə tövbə etdikcə, həyatını dəyişə bilərsən.

Heç vaxt tövbəni səhərə saxlama, çünki günah işlədən kimi iblis fəallaşaraq sənə ağır zəbrə endirə bilər, necə ki Romalılara 6:23-də yazılmışdır: «Günahın əvəzi ölümdür». Hər gün Allahdan xahiş et ki, ürəyinin nə vəziyyətdə olduğunu sənə göstərsin. Heç nəyə imkan vermə ki, Allahın sənin üçün hazırladığı xeyir-dualardan məhrum etsin.

## Dua

*Ya Rəbb,* Sənin önündə diz çökərək yalvarıram ki, qəlbimi hər cür haqsızlıqdan təmizləyəsən və məni salehlik ruhuna bürüyəsən. Sənin iradənə zidd olan və İsmini şərəfsiz edən bütün əməllərimi və sözlərimi bağışla. Xüsusilə də mən… (Allaha məqbul olmayan bütün əməllərinizi, sözlərinizi və düşüncələrinizi bir-bir sadalayın) görə tövbə edirəm. Bütün bunların günah olduğunu dərk edib qarşında etiraf edirəm. Mən bu cür davranışımdan və fikirlərimdən imtina edirəm, yalnız Sənin yollarınla getmək istəyirəm. Bilirəm ki, Sən «lütfkar və rəhimli, hədsiz səbirli, bol məhəbbətli» Allahsan, «bəla göndərməz, rəhm edən» Rəbsən (Yoel 2:13). Səni qiymətləndirmədiyim üçün məni bağışla.

Ya Rəbb, Sən «qəlbimin sirrini» (Zəbur 44:22) bilənsən. Mənim bilmədiyim qəlbimin sirlərini mənə aç. Sözlərimdə, əməllərimdə və ya fikirlərimdə etiraf etmədiyim günah varsa, onları mənə göstər. Mənim haqqımda olan bütün həqiqəti mənə aç ki, əslində necə olduğumu aydın görə bilim. Ürəyimi

sına və öz barəmdə nəyi bilməliyəmsə, onu mənə açıqla. Sənə məqbul olmayan mənasız və pis adətlərimdən azad elə. Xüsusilə də, dəyişilməyə ehtiyac olan sahələrdə dəyişilməyimə kömək elə. Təqsirlərimi görə bilməyim üçün gözlərimi aç. Qoy bütün günahlarıma görə tövbə edə bilim. Sən Öz Kəlamında buyurduğun kimi, Səndən əllərimin və ürəyimin təmizlənməsini istəyirəm. (bax: Yaqub 4:8)

Yalvarıram, «məhəbbətin naminə, ey Allah, mənə lütf et. Bol mərhəmətinə görə asiliklərimi sil. Mənim bütün təqsirlərimi yu, günahımdan təmizlə» (Zəbur 51:1–2). «Ey Allah, məndə təmiz ürək yarat. Daxilimə sədaqət ruhunu ver. Məni Öz hüzurundan atma, Müqəddəs Ruhunu məndən götürmə» (Zəbur 51:10–11). «Məni gizli təqsirlərimdən təmizlə» (Zəbur 19:13). «Gör qəlbimdə pisliyə yol verirəmmi? Əbədi yolda mənə rəhbər ol!» (Zəbur 119:24). Günahlarım silinsin deyə mənə Sənin bağışlaman lazımdır (Həvarilərin İşləri 3:19).

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Amma günahlarımızı etiraf ediriksə, Allah sadiq və ədalətli olduğu üçün günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan təmizləyəcək.

*1 Yəhya 1:9*

Ey sevimlilər, əgər ürəyimiz bizi mühakimə etmirsə, demək, Allahın hüzurunda cəsarətlə danışa bilərik və Ondan nə diləyiriksə, alırıq. Ona görə ki Onun əmrlərinə riayət edirik və önündə məqbul olan işlər görürük.

*1 Yəhya 3:21–22*

Sonra Sənə günahımı etiraf etdim, təqsirlərimi gizlətmədim. Dedim: «Rəbb asiliyimi etiraf edirəm». Təqsirimi, günahımı bağışladın.

*Zəbur 32:5*

Beləliklə, günahlarımız silinsin deyə tövbə edib Allaha tərəf dönün ki, Rəbbin hüzurunda rahatlıq vaxtı tapasınız və O da sizin üçün əvvəlcədən təyin olunan Məsihi, yəni İsanı göndərsin.

*Həvarilərin İşləri 3:19–20*

Günahlarını ört-basdır edən uğur qazanmaz, onu etiraf edərək tərk edən mərhəmət tapar.

*Süleymanın Məsəlləri 28:13*

## ÜÇÜNCÜ FƏSİL

# YA RƏBB, MƏNƏ BAĞIŞLAMAĞI ÖYRƏT

Ailəmizdə atam deyil, anam mənə qarşı qəddar olub. İmana gələndən, yəni Məsihə iman edəndən sonra anamı bağışladım. Lakin bir neçə il keçdikdə, Allah mənə açdı ki, mən hələ də atamı bağışlamamışam. Bir dəfə qəlbimi sıxan ümidsizlik və narahatçılıqlarımı bir məsihçi psixoloqa bildirəndə, o, məndən atama qarşı kin olub-olmadığını soruşdu. Mən mənfi cavab verdim. Nəyə görə kin saxlamalıyam ki? O ki, məni incitməyib. Lakin mənim ruhani nəsihətçim mənə həqiqətin açılması üçün Allaha dua etməyimi xahiş edəndə, qəfildən daxilimdəki kin, qəzəb üzə çıxdı. Hönkürtü ilə ağlamağa başladım. Sən demə, anamın ağılsız hərəkətlərindən atamın məni bir dəfə də olsun xilas etmədiyini qəlbimin dərinliyində xatırlayırdım. Anam məni tez-tez cəzalandırmaq üçün kiçik ambara bağlayanda, atam heç vaxt tərəfimi tutaraq məni oradan çıxartmazdı. Anamın psixoloji pozğunluğunu billə-bilə atamın laqeydliyinə görə ürəyimdə kin saxlamağım heç ağlıma belə gəlməzdi. Lakin onu bağışladığım gün ürəyimə böyük sülh çökdüyünü hiss etdim. Bu cür sülhü heç vaxt hiss etməmişdim.

Biz çox vaxt kinli olduğumuzu hiss etmirik. Elə düşünürük ki, bağışlamağı bacarırıq, lakin həqiqətdə bu, belə deyil. Əgər Allahdan ürəyimizdəki incikliyi bizə açıb göstərməsini istəməsək, onda heç

vaxt kinin məhvedici qüvvəsindən azad ola bilməyəcəyik. Çox vaxt bizim salehliyimiz bağışlamağa meyilli olub-olmamağımızla müəyyən edilir. Əgər bağışlamasaq, onda heç vaxt Allahın bizə vəd etdiyi mirası ala bilməyəcəyik.

## Düzgün seçim etmək

«Nifrət» sözünün mənasını və onun hansı qüvvəyə malik olduğunu yaxşı bilirik, ona görə də biz bu sözü işlətməməyə çalışırıq. İnsanlara nifrət etmək fikri artıq bizim üçün xoşagəlməzdir. Lakin məsələ bundadır ki, kin — nifrətin kökündür. Əgər biz qəzəbdən ayrılıb bağışlamağı istəmiriksə, onda bu emosiyalar tezliklə nifrətə çevriləcək. İsa Məsih bu məsələyə çox ciddi yanaşırdı. İsa deyir: «Qardaşına nifrət edən hər kəs qatildir. Bildiyimiz kimi, heç bir qatil özündə qalan əbədi həyata malik deyil» (1 Yəhya 3:15). «Durub dua edəndə kimdən narazılığınız varsa, bağışlayın ki, göylərdə olan Atanız da təqsirlərinizi bağışlasın» (Mark 11:25).

Gəlin müzakirələrimizə aydınlıq gətirək. Bağışlamaq istəməyən insanları qatil adlandırırlar. Onların nə əbədi həyata, nə də Allah tərəfindən bağışlanmağa ümidləri var. Mən belə deyərdim: əgər *bağışlama* ilə *kin* arasında seçim etməli olsaq, onda ən yaxşısı bağışlamanı seçməkdir.

Kinlə yaşamağı seçməklə özümüzü zülmətə düçar etmiş oluruq (bax: 1 Yəhya 2:9–11). Həyatımızı aydın şəkildə görə bilməyəndə, biz büdrəyib, səmtimizi itiririk. Bu, bizi çaşdırdığı üçün həyatımızda çoxlu səhvlərə yol veririk. O zaman zəfiliklərimiz bizə üstün gələrək çoxlu xəstəliklər gətirir, ürəyimizi isə kədər bürüyür. Emosiyalarımızı gizlədə bilmədiyimizə görə bu, ətrafdakı insanlara da sirayət edir. Ətrafdakılar nə baş verdiyini bilmədikləri üçün ürəymizin dərinliyində olan kini hiss edir və bizim yanımızda narahat olmağa başlayırlar. Əgər biz bağışlamağı qərara alırıqsa, onda təkcə biz deyil, həm də bizi əhatə edən insanlar qalib gəlir.

## Birinci addım — yaxınlarımızı bağışlamağı öyrənmək

Öz yaxınlarımızı bağışlamaq çox çətindir, çünki onlar həmişə bizim yanımızda olur. Bizi hamıdan yaxşı tanıdıqları üçün başqalarına nisbətən yaralı yerimizi yaxşı bilirlər. Məhz elə yaxınlarımızı bağışlaya bilmədiyimizə görə də böyük bəlalara düçar oluruq. Beləliklə də, bağışlanma ailələrimizdən başlamalıdır.

Hər şeydən öncə biz valideynlərimizi bağışlamağı bacarmalıyıq. Müqəddəs Kitab bu barədə açıq-aydın şəkildə xəbərdarlıq edir. On əmrdən biri olan belə deyir: «Ata-anana hörmət et ki, Allahın Rəbbin sənə verdiyi torpaqda ömrün uzun olsun» (Çıxış 20:12). Ata-anana hörmət etməməklə sən həyatını qısaltmış olursan. Lakin onları bağışlamağı bacarmasan, onlara hörmət edə bilməzsən.

Mən öz anamı bağışlamaq qərarına gələndə, bununla Rəbbə itaətli olduğumu göstəmək və Allahın həyatımda bütün vədlərinin icra olmasını istəyirdim. Deyəsən, bu, məndə heç də pis alınmırdı. Lakin anamı bir dəfə bağışlamaqla heç də o demək deyildi ki, bu məsələni birdəfəlik həll elədim. Uzun illər ərzində mənim qəlbimdə inciklik və kədər qat bağlamışdı. Hər dəfə bu qat üzə çıxdıqca, mən onu bağışlamalı olurdum. Onu həmişə bağışlamalı idim, çünki illər ötdükcə onun xasiyyəti daha da pisləşirdi.

Əgər biz nə vaxtsa kiməsə bağışlamamağı etiraf etmişiksə, bu, o demək deyil ki, biz bunu gələn dəfə etmək istəyəcəyik. Ona görə də bağışlamaq — *kinlə mərhəmət* arasında hər gün seçim etmək deməkdir. Bağışlamaq istəyib-istəməməyimizdən asılı olmayaraq, biz bağışlamaq qərarına gəlirik. Bağışlamaq esmosiya deyil. Bu, qərarın qəbul edilməsidir. Əgər gözləsək ki, nə vaxtsa bizdə bağışlamağa həvəs olacaq, onda ömrümüzün sonuna qədər gözləməliyik. Əgər qəlbimizə dəyən insana qarşı kinliyiksə və onun bizə vurduğu zərbədən əziyyət çəkiriksə, bunda bizim də günahımız var, çünki bu ağrıdan azad olmaq üçün heç nə etmirik, yəni bağışlamırıq. Öz kinimizi Allah qarşısında

etiraf etməyə həmişə hazır olmalıyıq. Əgər biz bu cür edəriksə, onda Onun bizə kömək etməsini xahiş edə bilərik.

Həmçinin biz Allahdan xahiş etməliyik ki, hansı yaxınımızı bağışlamaq lazım olduğunu bizə göstərsin. Acıqlı və kinli olmağa bizim haqqımız yoxdur. Düzdür, bəzən biz əsəbi oluruq, lakin bu, başqa məsələdir. Allahın səviyyəsinə nisbətən bizim səviyyəmiz qat-qat aşağı olduğuna görə biz çox vaxt nə vaxt bağışlamaq lazım olduğunu bilmirik. Allahdan xahiş et ki, doğmalarından və ya qohumlarından hansına qarşı qəzəbli olduğunu sənə göstərsin. Bağışlamağı öyrənməyənədək, heç yerdə rahatlıq tapmayacaqsan.

## Əgər bağışlamaq gücündə deyilsənsə

Bağışlamaq həmişə heç də asan olmur. Bəzən isə dərin yara aldığımıza görə bunu etmək qeyri-mümkündür. Əgər sən kimisə bağışlamağı bacarmırsansa, Allahdan dilə ki, sənə kömək etsin. Anam ölənədək mən məhz bu cür edirdim. Sonda ona qarşı olan bütün xoşagəlməyən hisslərdən azad oldum. Əgər sən hansısa insanı bağışlaya bilmirsənsə, onda Allahdan xahiş elə ki, sənə bağışlayan ürək versin. Səni incidən insanlara görə bildiyin və eşitdiyin dualardan istifadə edərək, dua et. Allah bu cür dualara tez cavab verir və ürəkləri yumşaldır. Biz, bizə qarşı pislik edən insanlara görə dua edəndə, qəzəbimiz, ikrah hisslərimiz və ağrılarımız məhəbbətə çevrilir.

Bağışlayanda narahat olma, çünki bizim bağışlamağımız insanlara və onların əməllərinə bəraət qazandırmır, əksinə, Allahın əllərinə verilir ki, Allah onları mühakimə edə bilsin. Bağışlamaq — öz mahiyyətinə görə qisas almağın ən effektli üsuludr, çünki bağışlamaq bizi o insanlardan azad edir və Allahın bizim üçün hazırladığı xeyir-duaları qazandırır. Bizim bağışlamağımız insanın öz günahını etiraf edib-etməməsindən və ya onun üzr istəməyə hazır olub-olmamağından asılı deyil. Əgər bu, belə olmasaydı, onda bağışlamaq

qeyri-mümkün olardı. Qəlbimizə dəyən insanın davranışından asılı olmayaraq, biz bağışlamağı bacarmalıyıq.

Bəzən həyatımızda elə dəhşətli hadisələr baş verir ki, aldığımız yaraların nə qədər dərin olduğunu illər boyu anlamırıq. Bəzən özümüzü hansısa səhvimizə görə bağışlaya bilmirik və ömrü boyu nəyisə etdiyimizə, yaxud etmədiyimizə görə məzəmmət edirik. Bəzən olanlardan isə, Allahı günahkar çıxardırıq. Allahdan xahiş et ki, buna bənzər hadisələrin həyatında baş verib-vermədiyini sənə göstərsin. Heç vaxt imkan vermə ki, ürəyindəki kin Allahın həyatın üçün olan planlarına maneçilik törətsin.

## Nəyin bahasına olursa olsun

Bizi incidən və bizə qarşı haqsızlıq edən insanları dörd yüz doxsan dəfə bağışlamalıyıq! Peter İsadan soruşdu: «…Ya Rəbb, qardaşım mənə qarşı günah işlədərsə, neçə dəfə onu bağışlamalıyam? Yeddi dəfəmi? İsa ona dedi: «sənə deyirəm: yeddi dəfə yox, yetmiş dəfə yeddi»» (Matta 18:21–22). Ola bilsin ki, gün ərzində sən kimisə 490 dəfə bağışlamalı olacaqsan. Lakin Allah istəyir ki, sən nə qədər lazımdırsa, bir o qədər bağışlamağı bacarasan. Çünki O, səni bağışlamağı bacaran insan kimi görmək istəyir.

Sonra İsa bir adamın öz ağasına böyük miqdarda borcu olduğunu məsəlini danışdı. Lakin buna baxmayaraq, həmin adam ona az miqdarda borclu olan dostunu zindana atdı. Bu haqda eşidən ağası belə dedi: «Ey pis qul, bütün o borcu sənə bağışladım, çünki mənə yalvardın. Mən sənə mərhəmət etdiyim kimi, sən də öz yoldaşına mərhəmət etməli deyildinmi?» (Matta 18:32–33). Ağası qəzəbləndi, borcu ödəyənə qədər ağır işdə işləməyə göndərdi. İsa belə deyir: «Hər biriniz qardaşlarınızı ürəkdən bağışlamasanız, Səmavi Atam da sizə elə edər» (Matta 18:35).

Bu, çox ciddi xəbərdarlıqdır. Məsihə iman edəndən sonra hər birimizin böyük borcu bağışlanır. Buna görə də, bir-birimizə qarşı

kobudluq etməyə ixtiyarımız yoxdur. Allah deyir: «…bir-birinizə qarşı xeyrxah, rəhimli olun və Allah Məsihdə sizi bağışladığı kimi siz də bir-birinizi bağışlayın» (Efeslilərə 4:32). Əgər biz bağışlamırıqsa, onda öz nifrətimizin quluna, qəzəbimizin isə qurbanına çevrilirik.

Bizim bütün əməllərimiz iki nöqteyi nəzərdən ölçülür: biri Allaha olan, o biri isə bir-birimizə qarşı olan məhəbbətimizdir. Allahı sevmək insanları sevməkdən daha asandır, lakin Allah bu iki ölçünün arasında bərabərlik qoyur. İnsanlara məhəbbət göstərməyin yollarından biri bağışlamaqdır. Bizi incidən və bizə qarşı haqsızlıq edən insanları bağışlamaq asan olmur. Lakin Allah bizi düşmənlərimizi sevməyi öyrədir. Bu yolla Allah bizi kamilləşdirir (bax: Matta 5:48). İncimək və kobudluq etmək üçün səbəb tapmaq çox asandır, lakin biz bu axtarışları dayandırmalıyıq.

Allah sənin üçün hazırladığı bütün şeyləri sənə vermək istəyir. Əgər sən insanları bağışlaya bilmirsənsə, onda ruhani inkişafın dayanır və Allah həyatında iş görmür. Bağışlanma sənin ürəyini və zehnini Müqəddəs Ruh üçün açır ki, O, səni sərbəst idarə edə bilsin. O zaman sən Allahı daha çox sevməyi və Onun məhəbbətini daha güclü hiss etməyi öyrənirsən. Bunsuz həyatımızın mənası yoxdur.

## *Dua*

*Ya Rəbb*, mənə bağışlamağı öyrət. Bağışlamamağımın səbəbini mənə göstər. Ürəyimin dərinliyini və küstahlığımı mənə açıb göstər ki, həyat yolumda maneəyə çevrilməsin. Əgər ürəyimdə qəzəb, kədər və kin varsa, onları mənə göstər ki, günah kimi qarşında etiraf edə bilim. Xüsusilə də, bu insanları… (bağışlamaq istədiyin adamların adlarnı çək) bağışlamaqda mənə kömək et. Məni necə bağışladığını dərindən dərk etməkdə mənə kömək et ki, başqalırını bağışlamaqda çətinlik çəkməyim. Başa düşürəm ki, bütün həqiqəti yalnız

Sən bilirsən, ədalətinin bərqərar olmasının qayğısına Sən qalacaqsan.

Etdiyim səhvlərə görə özümü bağışlamağa kömək elə. Nə vaxtsa etdiyim səhvlərdə Səni günahlandırmışamsa, Sənin qarşında bunu etiraf etməyə mənə kömək elə. Müqəddəs Sözündə buyurduğun kimi, düşmənlərimi sevməyə, mənə lənət oxuyanlara və məni təqib edənlərə xeyir-dua verməyə kömək elə (bax: Matta 5:44–45). Məni incidən insanlara görə Sənə dua etməkdə mənə kömək elə ki, ürəyim onlara qarşı yumşalsın. İstəmirəm ki, qəzəbimə görə ürəyim daşlaşsın. Mənə bağışlamağı öyrət.

Ya Rəbb, valideynlərimin hansısa hərəkətlərinə görə və ya mənim üçün nələrsə etmədiklərinə görə, onlara qarşı ürəyimdə kin saxlayıb-saxlamadığımı mənə aç göstər. İstəmirəm ki, valideynlərimə qarşı hörmətsizliyim bu dünyada ömrümü qısaltsın. Əgər mənimlə doğmalarımın arasında inciklik və bağışlamamazlıq divarı ucalıbsa, yalvarıram, bu divarı dağıt. Hər zaman insanları bağışlamağıma kömək elə. Öz ailəmizdə məni barışıq aləti kimi istifadə et.

Ya Rəbb, istəmirəm ki, Səninlə mənim aramda maneə olsun və qoy ürəyimdəki gizli günahım dualarıma maneə törətməsin. Bu andan hamını bağışlamaq istəyirəm. Kindən azad olaraq həyatda sərbəst irəliləmək istəyirəm. Əgər bir kiminsə ürəyində mənə qarşı incikliyi varsa, onun ürəyini yumşaldaraq məni bağışlamağa kömək et və münasibətlərimizi necə bərpa edə biləcəyimizi göstər. Bilirəm ki, nə qədər ürəyimdə kin var, insanlara nur ola bilmərəm. Mən Sənin kimi nurda gəzməyi və bütün günahlardan təmizlənməyim üçün qərar qəbul edirəm (bax: 1 Yəha 1:7).

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Mühakimə etməyin, siz də mühakimə olunmazsınız. Hökm çıxarmayın, sizə də hökm çıxarılmaz. Başqalarını bağışlayın, siz də bağışlanacaqsınız.

*Luka 6:37*

İnsanın ağlı hiddəti ləngidər, başqasının günahını bağışlamaq ona şərəf gətirər.

*Süleymanın Məsəlləri 19:11*

Mən isə sizə deyirəm ki, düşmənlərinizi sevin, sizi təqib edənlər üçün dua edin. Belə ki, siz göylərdə olan Atanızın övladları olasınız.

*Matta 5:44–45*

Amma qardaşına nifrət edən qaranlıqdadır. O qaranlıqda gəzir və hara getdiyini bilmir, çünki qaranlıq onun gözlərini kor edib.

*1 Yəhya 2:11*

Əgər başqa insanların təqsirlərini bağışlasanız, Səmavi Atanız da sizi bağışlayar. Amma siz başqa insanları bağışlamasanız, Səmavi Atanız da sizin təqsirlərinizi bağışlamaz.

*Matta 6:14–15*

## DÖRDÜNCÜ FƏSİL

# YA RƏBB, HƏR ŞEYDƏ SƏNƏ İTAƏTLİ OLMAĞI MƏNƏ ÖYRƏT

Yadımdadır, məktəbdə oxuduğum vaxtlarda bir neçə ay üzgüçülük dərslərinə getməli olurdum. O dərslərdən zəhləm gedirdi, çünki səhər saat 7:30-da başlayırdı və bütün gün ərzində saç düzümüm dağınıq olurdu (o vaxtlar yığcam saç quruducuları yox idi). Havanın necə olmasından asılı olmayaraq, biz hər gün üzməliydik. Kaliforniyada isə qışda səhərlər çox soyuq olur. Dərsə girməmək üçün yeganə səbəb ciddi xəstəlik ola bilərdi. Bunu həm də həkim təsdiq etməli idi.

Lakin bütün bu narahatçılıqlarıma baxmayaraq, üzmək xoşuma gəlirdi. Bu sahədə yaxşı nəticələr əldə etmişdim. Başa düşdüm ki, əgər mən qaydalara riayət edib hərəkətləri dəqiq edirəmsə, onda suda cəld üzərək böyük hovuzun bir başından o biri başına qədər tez çata bilərəm. Bu vəziyyətdə mənə heç nə mane ola bilməz, hətta, yanımda ləng üzən üzgüçülər də.

Bu prinsip bütün məsihçilər üçün də aktualdır. Əgər biz həyatın axını ilə uğurla üzmək istəyiriksə, onda üzgüçülərə yaraşan düzgün mövqe seçərək göstərişlərə uyğun olaraq düzgün hərəkətlər etməliyik. Əks təqdirdə, çətinliklər gəldiyi zaman biz onlarla bacara bilməyəcəyik. Nəticədə, bir yerdə dövrə vurub suyun üzündə qalmaq üçün dəridən qabıqdan çıxacağıq. Belə vəziyyətlərdə biz heç vaxt istədiyimiz məqsədə çata bilmərik.

Əgər biz həyatda Məsihin idarəçiliyi ilə düzgün mövqe seçiriksə, əgər Onun nəsihətlərinə qulaq asmağı öyrəniriksə, onda Müqəddəs Ruhun gücü bizi lazımi istiqamətə yönəldəcək.

## Düzgün hərəkət edərək

Allahın iradəsini yalnız Onun Kəlamının dərinliyinə varmaqla dərk etmək olar. Əgər biz hansı hərəkətlərin düz olduğunu başa düşməsək, onda düzgün hərəkət edə bilmərik. Ehtiyac duyduğumuz və bizdən tələb olunan hər şeyi Müqəddəs Həyat Kitabından öyrənə bilərik. Lakin buna baxmayaraq, biz bəzən suya tullanmalı olacağıq. Bizim səmimiliyimizi nəyin düz olub-olmamasını biliyimiz yox, əməllərimiz sübut edir. Biri var nəyi edib-etməməyə görə siyahı tərtib edirsən, biri də var ki, Allahın yollarını sevib həsrətlə onları izləyirsən. Biri var necə düzgün həyat haqqında oxuyursan, biri də var ki, düzgün həyat yaşayırsan. Sənin əməllərin nə qədər itaətli olduğunu göstərir, itaətli olmaq arzusu isə duada bildirilir.

## Ya Rəbb, nizam-intizamlı olmaqda mənə kömək et

Bu cür duanı mən dünyada bütün qadınlardan eşitmişəm. Biz hamımız nə etmək lazım olduğunu yaxşı bilirik, lakin bu, çox vaxt bizdə alınmır. Düzgün hərəkət etməyimiz üçün Allahdan həmişə nizam-intizamlı olmağımızı öyrətməsini istəməliyik.

Mən hər işi planla iş görən adamam. Lakin bu, əvvələr belə olmayıb. Bir neçə il əvvəl mənim həyatım tamamilə başqa cürə idi. O vaxtlar mən dəhşətli dərəcədə depressiyadan əziyyət çəkirdim. Öz üzərində depressiyanın təzyiqini yaşayan insan yaxşı bilir ki, belə vaxtlarda nə aydın fikirləşmək, nə də düzgün həyat qurmaq mümkündür, çünki həyatında heç bir məna görmürsən. Həyatında heç nəyi yaxşı görə bilmirsən, çünki yaxşı şeylərə layiq olmadığını

düşünürsən. Sən irəli addım ata bilmirsən, çünki gücün bir təhər bu günü başa vurmağa ancaq çatır.

Həyatımın hər bir sahəsi üçün dua etməyə başlayanda, Allahdan xahiş etdim ki, Onun Kəlamını gündəlik oxumağım, dua etməyim və itaətli olmağım üçün mənə kömək etsin. Ona yalvardım ki, məni depressiyadan və Onun xeyir-dualarının yolunu kəsən hər şeydən azad etsin. Allahın dualarıma bu qədər tez cavab verməsi məni təəccübləndirdi. Mən Allaha qarşı itaətli və nizam-intizamlı olmağı öyrənirdim. Allahın köməyi olmasaydı, məndə heç nə alınmazdı, çünki bu, imkanlarım daxilində deyildi. 32 il keçməsinə baxmayaraq, mən bu gün də itaətliliyin yeni səviyyəsini öyrənməkdə davam edirəm. Bədənim yaşlaşsa da, ruhum ilbəil yenilənir və itaətliliyimin hər yeni addımında mən yeni xeyir-dua və azadlıq əldə edirəm, yəni əvvələr mənim üçün qeyri-mümkün olanlar indi mümkündür. Elə düşünmə ki, xilas olandan sonra qayğısız həyat yaşayacaqsan. Bəlkə də, bir müddət qayğısız yaşaya bilərsən, amma bu, çox təhlükəlidir və həyatına ciddi zərbə dəyə bilər. İtaətli olmağı öyrənmək uzun bir prosesdir, bəzən isə, bu, ömür boyu davam edir. İtaətli olmağın səviyyələri saysız-hesabsızdır. Onları fəth etmək lazımdır. Hətta, 40 il belə Allahda olmağına baxmayaraq, itaətli olmadığın sahələrdə Allahın göstərişlərinə ehtiyacın var. Nə vaxt ki, biz nə etmək lazım olduğunu bildiyimizi zənn edirik və səhvə yol verib-vermədiyimizi Allahdan soruşmuruq, onda tələyə düşürük. «Buna görə də biz eşitdiklərimizə daha da diqqətli olmalıyıq ki, axın bizi aparmasın» (İbranilərə 2:1).

Biz heç vaxt kamilliyə və itaətliliyə çatdığımızı düşünüb, qürurlanmamalıyıq, çünki Allah hər dəfə bizi yeni ruhani səviyyəyə qaldırır. Digər tərəfdən də, özünə qarşı «mən intizamsızam və heç nəyə yaramıram» deyə başqa ifrata qapılmaq lazım deyil. Əgər biz Allahın əmrlərinə riayət etmiriksə, bununla özümüzə haqq qazandıra bilmərik, xüsusilə də, Allah bizə Onun əmrlərini yerinə yetirmək üçün lazım olan hər şeyi verməyi vəd edib. Sözsüz ki, biz Ondan kömək istəməliyik. Allah bizdən bu gün bu sözləri gözləyir: «Ya Rəbb, Sə-

nə itaətli və iradənə uyğun hərəkət etməyim üçün nizam-intizamlı olmağıma kömək elə. Çünki məni necə yaratmısansa, o cür olmaq istəyirəm». Müqəddəs Ruhun kamilləşdirici və təqdisedici gücü olmadan Məsihdə əldə etdiyimiz azadlığımız özbaşınalığa çevrilir.

## Müəyyən vəziyyətlərdə Allahın iradəsini yerinə yetirmək

Rəbbin ümumi əmrlərindən əlavə, biz həm də müəyyən vəziyyətdə yaranan və Allahın planına uyğun konkret əmrlərə də riayət etməliyik. Hər bir imanlının həyatında bu, müxtəlif olur. Məsələn, 8 il bundan qabaq Allah ərimə və mənə Kaliforniyadan Tenessiyaya köçməyi əmr etdi. Kaliforniyadan köçməyi ağlıma da gətirmirdim. Çünki yaşadığım yer çox yaxşı idi və oradan getmək istəmirdim. Lakin Allah mənə aydın şəkildə göstəriş verdi və beləliklə, biz əşyalarımızı yığdıq. Bunun səbəbini biz bir neçə ildən sonra bildik. O vaxt Allahın əmrini eşidib onu yerinə yetirdiyimizə görə çox sevinirəm. Əgər Allaha «Ya Rəbb, nə etmək lazım olduğunu bizə göstər» deyib Ona müraciət etməsəydik, çətin ki, Onun səsini eşidə bilərdik.

Allahın səndən nə gözlədiyini Ondan diləmək çox vacibdir. Əgər sən bunu istəməsən, onda bilməyəcəksən. Bu, çox asandır. Məsələn, Allah sənə iş yerini dəyişməyi, hər hansı bir fəaliyyəti dayandırmağı və ya hər hansı məbədə üzv olmağı, yaxud adət etdiyin həyat tərzini dəyişməyi tövsiyə edə bilər. Allah sənə hər nəyi əmr edirsə, bil ki, O, həyatına böyük xeyir-dualar vermək istəyir. Lakin Allah sənə Öz Kəlamında buyurduğu kimi itaətli olmasan, onda bu çağırışı eşitməyə bilərsən. «Kim ki qanunu eşitməmək üçün qulaqlarını bağlayır, onun duaları iyrəncdir» (Süleymanın Məsəlləri 28:9).

## Öz istəklərinə qarşı çıxmaq

Biz hamımız istəmədiyimiz şeyləri etmək məcburiyyətində qalırıq. Hətta ən yaxşı işdə belə çatışmayan cəhətlər var. Lakin bəzən

uğur qazamaqdan ötrü arzularımıza qarşı çıxmalı oluruq. İstəyimizə görə yox, məcbur olduğumuz şeyləri edəndə, biz dəyişilməyə başlayırıq. Bu, bizi nizam-intizamlı və Allahın etibar edə biləcəyi insanlara çevirir. Çox vaxt biz, lazım olanları deyil, istədiyimiz şeyləri etdiyimizə görə qiymət ödəyirik. Əgər Allahın vəd olunmuş xeyir-dualarını qazanmaq istəyiriksə, onda öz arzularımızı qurban verməyi öyrənməliyik.

Əgər sən nə etmək lazım olduğunu bilirsən, lakin bunu etmək sənin üçün çətindirsə, onda Müqəddəs Ruhdan kömək istəməlisən. Təbii ki, nə qədər qəribə, şübhəli, qorxunc, çətin və xoşagəlməz görünsə də, birinci addımı sən atmalısan. «Öz Ruhumu sizin daxilinizə qoyacağam, elə edəcəyəm ki, siz qaydalarıma görə rəftar edəsiniz, hökmlərimə diqqətlə riayət edəsiniz» (Yezekel 36:27).

## Allaha itaətli olmağın 10 əsas səbəbi

Allaha itaətli olmağın bir çox səbəblər sırasında ən vacib səbəblərdən biri də odur ki, «Allah belə əmr edib». Hətta, başqa səbəb olmasa da, Allahın əmr etməyi kifayətdir. Allaha itaət etmək üçün əhəmiyyəti az olmayan böyük əsas var. Bunu heç vaxt unutmamalıyıq. Buna görə də mən 10 əsas səbəb seçmişəm:

1. *Biz dualarımıza cavab alırıq.* «Mən qəlbimdə təqsirə yer versəydim, Xudavənd məni eşitməzdi. Lakin Allah məni dinlədi, duamın səsini eşitdi» (Zəbur 66:18–19).
2. *Biz Allahla ünsiyyətdən zövq alırıq.* «Kim Məni sevsə, sözümə riayət edər, Atam da onu sevər və biz onun yanına gəlib onunla məskən salarıq» (Yəhya 14:23).
3. *Biz hikmət əldə edirik.* «O, əməlisalehlərin şüurunu qoruyur, kamalla gəzənlərə sipər olur» (Süleymanın Məsəlləri 2:7).
4. *Biz Allahın dostlarına çevrilirik.* «Əgər sizə əmr etdiyim şeylərə əməl etsəniz, siz Mənim dostlarımsınız» (Yəhya 15:14).

5. *Biz rahatlıq tapırıq.* «Mənim qaydalarıma əməl edin, hökmlərimə səylə riayət edin ki, ölkədə arxayın yaşayasınız» (Levililər 25:18).
6. *Biz kamilləşirik.* «Lakin kim Onun sözlərinə riayət edərsə, Allah məhəbbəti onda, həqiqətən, kamilliyə çatıb. Bundan bilirik ki, biz Allahdayıq» (1 Yəhya 2:5).
7. *Biz xeyir-dua alırıq.* «Budur, bu gün qarşınıza xeyir-dua və lənəti qoyuram. Allahınız Rəbbin əmrlərinə, bu gün sizə buyurduğum əmrlərə qulaq assanız, xeyir-dua alacaqsınız» (Qanunun Təkrarı 11:26–27).
8. *Biz xoşbəxt oluruq.* «…Qanuna əməl edən nə bəxtiyardır» (Süleymanın Məsəlləri 29:18).
9. *Biz sülh əldə edirik.* «Kamil adama bax, əməlisaleh insana nəzər yetir. Gələcək sülhsevən adama bəxş ediləcək» (Zəbur 37:37).
10. *Biz uzun ömürlüyə nail oluruq.* «Oğlum, təlimimi unutma, qoy qəlbin əmrlərimə bağlansın, onlar ömrünü uzadar, həyatına illər, firavanlıq artırar» (Süleymanın Məsəlləri 3:1–2).

## Öz taleyinə doğru

Allahın sənin üçün planı var. O istəyir ki, sən həyatda vacib nəsə edəsən, buna görə də səni taleyinə doğru aparır. O, səni elə indi hazırlamağa başlayır. Lakin Allahın vədinə nail olmaq üçün sən itaət etməyə öyrənməli və Allahın həyatına nəzarət etdiyinə inanmalısan. Çünki O, sənin həyatına zərərli heç bir şey buraxmaz.

Allah qayda-qanunları bizim alçalmağımız üçün deyil, xeyrimiz üçün qoyur. Əgər biz onlara əməl ediriksə, onda hər şey uğurlu gedir, əks halda həyatımız məhv olur. Əgər itaətdə yaşayırıqsa, onda öz yolumuzu aydın görürük, əks təqdirdə, qarmaqarışıqlıq olur. Allahın məhəbbəti ilə itaət arasında birbaşa əlaqə var. Allahın bizi sevməsinə

baxmayaraq, Onun qaydalarına əməl etməyəndə, biz Onun məhəbbətini hiss edə bilmirik.

O cümlədən itaətliyimiz və dualarımıza cavab almaq arasında da eyni cürə əlaqə var. «Ondan nə diləyiriksə, alırıq. Ona görə ki, Onun əmrlərinə riayət edirik və önündə Ona məqbul olan işlər görürük» (1 Yəhya 3:22). Əgər dualarına cavab almadığına görə kədərlənirsənsə, onda buna itaətsizliyinin səbəb olub-olmadığını Allahdan soruş. Allaha belə bir sualla müraciət et: «Ya Rəbb, harada Sənə itaətsizlik etdiyimi mənə göstər». Allaha öz arzuların haqqında danışma, əksinə, Allahdan Onun sənin üçün nə istədiyini dilə.

Allahın sənin üçün hazıldığı o anın nə vaxt baş verəcəyini bilmirsən. Öncə sən həyatında bir neçə mərhələ keçməli olacaqsan. Sənin kim olmağın vacib deyil, istər sən karyera quran tənha işgüzar qadın və ya çoxlu körpə uşaqlı ərli qadın olasan. Neçə yaşında olmağın da vacib deyil, 19, yoxsa 90. Allah hər gün səni yer üzündə yerinə yetirməli olduğun böyük missiyana hazırlayır. O istəyir ki, sən könüllü olaraq qəlbinin təmizlənməsinə, səni imanda möhkəmləndirməsinə və ruhani kamil etməyinə imkan verəsən. Lakin sən qaydalara əsasən oynamalısan. «Həmçinin yarışlara qoşulan insan da qaydaya görə yaşamazsa, başına zəfər çələngi qoyulmaz» (2 Timotey 2:5). Əgər sən əzəldən düzgün addım atmasan, onda heç vaxt müvəffəqiyyət qazana bilməyəcəksən.

## *Dua*

*Ya Rəbb*, Sənin Kəlamında yazılıb ki, «qanununu sevənlər böyük əmin-amanlıq tapırlar və onlar heç nə ilə büdrəməzlər» (Zəbur 119:165). Mən Sənin qanunlarını sevirəm, çünki bilirəm ki, onlar mənim xeyrimədir. Qanunlarına itaətli olmağa və həyat yolumda büdrəməməkdə mənə kömək elə.

Sənin yollarınla getdiyimə əmin olmağım üçün Sözünə qulaq asmaqda kömək elə.

Ya Rəbb, ürəyim hər şeydə Sənə itaətli olmaq üçün yanıb susayır. Sənə nədə itaət etmədiyimi mənə göstər. Əgər bilmədiyim hər hansı bir addım atmalıyamsa, gözlərimi aç, qoy görə bilim və addım atmaqda mənə kömək elə. Bilirəm ki, Sənin köməyin olmadan düzgün hərəkət edə bilmərəm, Ona görə yalvarıram ki, əmrlərinə riayət etməkdə mənə kömək elə. «Bütün qəlbimlə Səni axtarmışam, qoyma əmrlərindən çıxım» (Zəbur 119:10).

Sənin Sözündə yazılıb: «Əgər günahsız olduğumuzu iddia ediriksə, özümüzü aldadırıq və daxilimizdə həqiqət yoxdur» (1 Yəhya 1:8). Qoyma ki, aldanım və iradəni bilmədən məqsədindən yan keçim. Nəyi etməli olduğumu və ya etməli olmadığımı mənə göstər. Şəxsən mənə aid olan əmrlərini eşitməkdə qulaqlarımı iti elə. Mənə Öz Kəlamın vasitəsilə danış. Qoy nəyin düz olub-olmadığını bilim. Mən Müqəddəs Ruhu nə iləsə kədərləndirmək istəmirəm (bax: Efeslilərə 4:30). Yollarınla getməyi, hüzurunda yaşamağı mənə öyrət və vədlərinə nail olmaqda kömək elə.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Ondan nə diləyiriksə, alırıq. Ona görə ki, Onun əmrlərinə riayət edirik və önündə məqbul olan işlər görürük.

*1 Yəhya 3:22*

Axı, Rəbb Allah günəşdir, sipərdir, Rəbdən gələn lütfdür, şərəfdir. Xeyirxahlığını düz yolla gedənlərdən əsirgəmir.

*Zəbur 84:11*

Onun əmrlərinə riayət edən Allahda, Allah da onda qalır. Onun bizdə qaldığını bu yolla, bizə verdiyi Ruh vasitəsilə bilirik.

*1 Yəhya 3:24*

Amma İsa dedi: «Daha doğrusu, Allahın Kəlamını eşidib ona riayət edənlər nə bəxtiyardır!»

*Luka 11:28*

Kim əmrlərimə bağlı qalıb riayət edərsə, Məni sevən odur. Məni sevəni Atam da sevəcək. Mən də onu sevib Özümü ona zahir edəcəyəm.

*Yəhya 14:21*

## BEŞİNCİ FƏSİL

# YA RƏBB, ŞEYTANLA MÜBARİZƏDƏ MƏNİ MÖHKƏMLƏNDİR

2001-ci ilin sentyabrn 11-də Nyu-York şəhərində dəhşətli faciə baş verəndə bir çox insanlar «nə üçün bu, baş verdi?» — deyə bir-birindən soruşurdu. Baş verən hadisədən möhkəm sarsılalar cavab axtarırdılar. Bu sualın bir çox cavabları var, lakin əsas cavab belə səslənir: «Bizim düşmənimiz var!». Bu düşmən təkcə Nyu-Yorkun və ya Birləşmiş Ştatların düşməni deyil, həm də Allahın işini görən hər kəsin düşmənidir. Bu düşmən yer üzündə Allahın əleyhinə çıxaraq, Onunla bağlı olan hər şeyə qarşı durur və Allahın yolları ilə gedən hər bir insana hücum çəkir.

Bizim hər birimizin düşməni var. Bu düşmən canımızın terrorçusudur. Əgər düşmənimizin mövcud olmasını dərk etmiriksə, onda biz ona bizi manipulyasiya etməyə izn veririk. Təbii ki, düşmən hər yerdə mövcud olan və hər şeyi bilən deyil və bizim bütün fikirlərimizi də oxuya bilmir. Lakin unutsaq ki, düşmənimiz olan iblis məhduddur və artıq Məsih tərəfindən məğlub edilib, onda o, bizə həmişə üstün gələcək. İsa Məsih çarmıxdakı ölümü ilə düşməni əbədi olaraq məğlub etdi. İsa çarmıxda düşmən üzərində qələbə çalarkən bu səlahiyyəti bizə verib dedi: «Baxın, Mən sizə səlahiyyət vermişəm ki, ilanları, əqrəbləri və düşmənin bütün gücünü ayaq altında əzəsiniz və heç nə sizə zərər vurmayacaq» (Luka 10:19).

Biz hamımız bəşəriyyətin məğlub olmaq istəməyən düşməni olan iblislə ruhani mübarizənin iştirakçılarıyıq. Bizə pislik edənlərin insanlar olmasına baxmayaraq, unutmamalıyıq ki, bütün bunların kökündə bizim əsas düşmənimiz iblis dayanır. «Çünki mübarizəmiz qandan və ətdən ibarət olan insanlara qarşı deyil, şər başçılarına və hakim olanlara, bu qaranlıq dünyanın hökmranlarına, səmadakı ruhani şər qüvvələrə qarşıdır» (Efeslilərə 6:12). Hətta, bizə pislik edən insan olsa da, onun arxasında dayanan düşməni ifşa etməliyik ki, ona qarşı dura bilək.

İblisin də Allah kimi öz planı var. Onun planı səni qarət etməkdən və həyatını darmadağın etməkdən ibarətdir «Oğru yalnız qarət etmək, öldürmək və tələf etmək üçün gəlir. Mənsə gəldim ki, onlar həyata, bol həyata malik olsun» (Yəhya 10:10). Şeytan səni qorxuzmamaq üçün maskalanır və güya hər şey qaydasında imiş kimi laylay çalaraq yatızdırır «Buna heyrətlənmək lazım deyil, çünki şeytan da işıq mələyin cildinə girir» (2 Korinflilərə 11:14). Bizim düşmənimiz heç vaxt istirahət etmir. Onun istirahət günləri yoxdur. O, daima öz planını həyata keçirtməyə çalışır. Buna görə Allahın Kəlamı bizə xəbərdarlıq edir: «Ayıq durun, oyaq olun. Çünki düşməniniz olan iblis nərildəyən və kimisə aşırmaq istəyən aslan kimi dolaşır» (1 Peter 5:8).

Çox vaxt biz düşmənin hücumlarını ayird edə bilirik. Bəzən isə düşmənin taktikası çox incə və kəskin olur. Onun məqsədi bizi elə bir imtahana salmaqdır ki, biz əvvəl-axır Allahın yolundan dönüb məhv olaq. Düşmənin bu cür tələlərini ayırd etmək daha çətindir. Məsələn, o sənə təlqin edə bilər ki, sən yalnız danlanmağa layiqsən. Lakin Allahın lüğətində «buna layiqsən» sözü yoxdur. Düzdür, biz layiq deyildik ki, İsa bizim uğurumuzda Öz canını versin, lakin O, bunu etdi. Məsələ bunda deyil ki, biz düşmənin fitnələrinə layiqiq, yoxsa yox. Məsələ bundadır ki, İsa bizi bütün bu murdarlıqlardan təmizləmək üçün Özünü qurban verdi. Ona görə şeytanın bütün əməllərini ayırd etməyi bizə öyrətməsini Allahdan xahiş edək. Necə ki,

yazılmışdır: «Buna görə də Allaha tabe olun, iblisə qarşı durun və o, sizdən qaçacaq» (Yaqub 4:7).

**İnsanların düşmənindən qurtulmağın beş effektli vasitəsi**

Allah şeytanın planlarını dağıtmaq üçün bizi müxtəlif silahlarla təmin edib. Onlardan beşinin adını çəkirəm:

1. *Allahın Kəlamı — düşmənə qarşı güclü silahdır.* İsa Özü də 40 gün səhrada olarkən, şeytan tərəfindən imtahan olunan zaman bu silahdan istifadə etmişdir. «Bundan sonra İsa iblis tərəfindən sınağa çəkilmək üçün Ruh tərəfindən səhraya aparıldı» (Matta 4:1). Çoxları belə hesab edir ki, Allahın Oğlu səhraya iblis tərəfindən imtahan olunmağa getməməli idi. «O zaman sınağa çəkən Ona yaxınlaşdı», necə ki, indi o, bizim hər birimizə qarşı bunu edir. İsa iblisə qalib gəlmək üçün Allahın Kəlamından istifadə etdi. O, iblisə belə dedi: «İnsan yalnız çörəklə deyil, Allahın ağzından çıxan hər kəlmə ilə yaşayar» (Matta 4:4). Əgər iblis həyatını alt-üst etməyə çalışırsa, onda ona Allahın Kəlamı ilə zərbə endir. «Uzaqgörən qabaqcadan şəri görüb ondan qaçar, cahil isə irəli çıxıb ziyan tapar» (Süleymanın Məsəlləri 12:27). Həyatında pisliyi hiss edən kimi, dərhal Allahın Kəlamına müraciət elə.
2. *Allahı izzətləndirmək — düşmənə qarşı güclü silahdır.* Şeytan bizim Allahı izzətləndirməyimizə nifrət edir. Ona görə ki, şeytanın ona səcdə etməyən insanlardan zəhləsi gedir. Bu, ona o qədər iyrənc gəlir ki, Allahı izzətləndirən insanlara nifrət bəsləyir. Allaha hörmət etdiyimiz zaman həyatımızda Ona qapı açmış oluruq və Onun hüzuru ilə doluruq. İblis isə həmin yerdən rədd olmağa məcbur olur.
3. *Allaha itaətli olmaq — düşmənə qarşı güclü silahdır.* Əgər biz günahda yaşayırıqsa, iblisi öz həyatımıza dəvət edirik. O, öz növbəsində həyatımıza soxularaq yerini möhkəmləndirir. Çox

vaxt həyatımızda baş verən pisliklər düşmənin fəaliyyətinin nəticəsidir. Belə ki, biz günah işlədərkən şeytana həyatımızda yer vermiş oluruq və o, öz istehkamlarını tikməyə başlayır. Baxmayaraq ki, şeytanın bizim üzərimizdə heç bir səlahiyyəti yoxdur, lakin Allahın qaydalarına olan itaətsizliyimiz onun qarşısında yol açaraq həyatımıza daxil olmasına icazə verir. Lakin günaha görə etdiyimiz etiraf və tövbələr iblisin üzünə qapı bağlamış olur.

4. ***İman — düşmənə qarşı güclü silahdır*.** Yadında saxla ki, şeytan həmişə sənin yolunda görə bilmədiyin tələlər hazırlayır. Bu tələlərə düşməmək üçün bacardığın qədər Allaha yaxın ol ki, Rəbb sənin addımlarını istiqamətləndirə bilsin. Bunun üçünsə iman tələb olunur. «Ayıq durun, oyaq olun, çünki düşməniniz olan iblis nərildəyən və kimisə aşırmaq istəyən aslan kimi dolaşır. Möhkəm imanla ona qarşı durun. Bilin ki, bütün dünyada bacı-qardaşlarınız da eyni cür əzab çəkirlər» (1 Peter 5:8–9). Möhkəm iman — düşmənin tələsindən etibarlı müdafiədir.
5. ***Dua və oruc — düşmənə qarşı güclü silahdır*.** Dua güclü silahdır. Lakin orucla birgə o, daha təsirlidir. Oruc və dua sayəində iblisin hücumlarından qurtuluşlar az olmayıb. Təəccüblüdür ki, oruc və dua vasitəsilə çox şeyə nail olmaq mümkündür. Zahirən sanki heç nə baş vermirmiş kimi görünür, lakin ruhani aləmdə düşmənə böyük zərbə endirilir. Bir günlük oruc həyatını bürüyən şeytanın bütün zəncirlərini qırmaq üçün kifayətdir. Müntəzəm oruc və dua həyatına daxil olan bütün pisliyi qandal içində saxlamağa və iblisin bütün planlarını darmadağın etməyə qadirdir. Bununla sən, sanki belə deyirsən: «Mən öz arzularımdan imtina edib Allahı öz həyatımda birinci yerə qoyuram». Belə şeylər şeytanda nifrət oyadır, çünki o, orucun gücünü yaxşı bilir. O, yaxşı dərk edir ki, oruc vasitəsilə biz ona qalib gəlirik.

## Mən ki yaxşı insanam, nə üçün düşmən mənə hücum edir?

Bu sualın cavabı elə özündədir: düşmən elə yaxşı insan olduğun üçün sənə hücum edir. Şeytan həmişə Allahı sevən və Onun iradəsinə görə yaşayan insanlara zərər vurmağa çalışır. Bunun mahiyyəti şeytanın sənə nifrət etməsidir. Ona məqbul olan bir şey var, o da, səni özünə bənzətmək istəyidir. Ona bənzər olmaq üçünsə onun tərəfinə keçmək lazımdır. Nə qədər ki, sən Allahı və Məsihin işlərini sevəcəksənsə, bir o qədər düşmənin hədəfinə çevriləcəksən.

Unutma ki, nə qədər Allaha imanın möhkəm olsa, bir o qədər düşmənin hücumlarına məruz qalacaqsan. Buna görə, əgər sən hər şeydə Allaha etibar etməyə çalışırsansa, yaxud ruhani kamilləşir və azadlığının yeni səviyyəsinə keçirsənsə, yaxud yeni xidmətə başlayaraq Allahın izzəti üçün yeni işlər görürsənsə, düşmən səni var-gücü ilə dayandırmağa çalışıcaq. O, səni depressiyaya, xəstəliyə, təqsirkarlığa, məyyusluğa və qoryuxa salmaq üçün dəridən-qabıqdan çıxacaqdır. İblis sənə qarşı hiylə quracaq, səhhətinə zərər vurmağa, ailəni dağıtmağa, insanlarla münasibətini pozmağa, karyeranı dağıtmağa, məyusluğa düçar edib, səni havalandırmağa çalışacaq. Sənin geriyə çəkilməyin üçün o, əlindən gələni edəcək. Baxmayaraq ki, Allahın gücü ilə müqayisədə onun gücü olduqca azdır, o, sənə əksini təlqin etməyə çalışacaq. Düşmən yalan vasitəsilə həyatını nəzarət altında saxlamğa cəhd edəcək. O, səni kor edib həqiqəti görməməyin üçün öz yalanlarına inandırmağa çalışacaq. O, sənə təlqin etməyə çalışacaq ki, guya ruhani mübarizədə uduzacaqsan. Lakin həqiqət bundan ibarətdir ki, o, artıq məğlub olub.

Şeytan qarət və tələf etmək üçün gəlir. İsa isə sənə bol həyat bəxş etmək üçün gəlib. Gəl, aydılanşdıraq: ölüm və viranəlik — şeytandandır; həyat və bolluq isə — İsadadır. Bu, o deməkdir ki, səndə bol həyat olmadığı üçün şeytan səndən oğurlayır. Məncə, bu, istisna deyil, çünki şeytanın məqsədi oğurlamaqdır. Bunun ikinci səbəbi odur ki, sənin Allahla sıx münasibətin yoxdur və sən Onun yolları ilə get-

mirsən. Allaha dua elə ki, O, sənə həm o, həm də bu sahədə həqiqəti açsın. Allahın sənin üçün hazırladığı xeyir-dualardan başqa şeytanın heç bir məsləhətinə qulaq asma və problemlərdən çıxmaqdan ötrü heç bir vasitəyə əl atma.

## Dua

*Ya Rəbb,* mənim uğrumda çəkdiyin bütün iztirablara və Öz canını uğrumda qurban verdiyinə görə Sənə minnətdaram. Minnətdaram ki, ölümə və cəhənnəmə qalib gələrək üçüncü gün ölülərdən dirildin. Mənim düşmənim Sənin tərəfindən məğlub edilib. Minnətdaram ki, Sən mənə düşmən üzərində böyük səlahiyyət vermisən (bax: Luka 10:19). İndi mən Müqəddəs Ruhun qüdrəti vasitəsilə düşmənə qarşı dura bilərəm və o, məndən qaçacaq (bax: Yaqub 4:7). Şeytanın hiylələrini görə bilmədiyim sahələri mənə göstər. Düşmənə qalib gəlmək üçün verdiyin səlahiyyətdən istifadə etməyi mənə öyrət.

Harada və nədə Sənə itaət etmədiyimi mənə göstər. Əgər mənə zərbə endirmək üçün düşmənə yer vermişəmsə, bunu mənə göstər ki, onun hücumunu dəf edə bilim. Sənin Kəlamına və Sənə olan imanımı möhkəmləndir. Daim oruc və duada olmağıma kömək elə ki, düşmənin həyatımda qurduğu bütün istehkamlar dəf olunsun.

Ya Rəbb, bilirəm ki, ruhani mübarizədə mən cəsarətli və möhkəm olmalıyam. Bilirəm ki, düşməndən qorxmamalıyam (bax: Qanunun Təkrarı 20:3). Minnətdaram ki, düşmənin məni əsir etmək cəhdlərinə baxmayaraq, hər zaman onun tələlərindən qurtula bilərəm (bax: 2 Timotey 2:26). Çox sağ ol ki, məni iblisdən və mənə nifrət edənlərdən xilas etmisən (Zəbur 18:17). Mənim sipərim Sənsən, çünki Sənin yollarını izləyi-

rəm (bax: Süleymanın Məsəlləri 2:7). Kömək elə ki, pislik mənə üstün gəlməsin, əksinə, mən pisliyə yaxşılıqla qalib gə-lim (Romalılara 12:21). Məni hüzurunda sığındır və böhtançı dillərə qarşı çardağında gizlət (bax: Zəbur 31:21). Nə qədər ki, Sözündə və həqiqətində möhkəm qalıram, düşmən mənə qalib gələ bilməz və buna görə Sənə minnətdaram.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Amma Rəbb etibarlıdır. O, sizi möhkəmləndirib şər olandan qoruyacaq.

*2 Saloniklilərə 3:3*

Buna görə Allahın zireh və silahlarını götürün ki, pis gündə müqavimət göstərib, əlinizdən gələn hər bir şeyi etdikdən sonra dayana biləsiniz. Beləliklə, həqiqəti kəmər kimi belinizə bağlamış, salehliyi zireh kimi döşünüzə taxmış, barışıq Müjdəsini yaymaq hazırlığını ayaqlarınıza geyinmiş olaraq yerinizdə durun. Bütün bunlara əlavə olaraq şər olanın bütün yanar oxlarını söndürə bilmək üçün iman qalxanını əlinizə götürün. Xilas dəbilqəsini və ruhun qılıncını, yəni Allahın Kəlamını götürün. Hər cür dua və yalvarışla, həmişə Ruhun idarəsi ilə dua edin. Bu məqsəd uğrunda tamamilə mətin olub oyaq qalaraq bütün müqəddəslər üçün dua edin.

*Efeslilərə 6:13–18*

Qopan tufan şəri süpürüb aparar, salehin təməli əbədi qalar.

*Süleymanın Məsəlləri 10:25*

Nəhayət, Rəbdə və Onun böyük qüvvəsində möhkəmlənin. İblisin hiylələrinə qarşı dura bilmək üçün Allahın verdiyi bütün zireh və silahlara bürünün.

*Efeslilərə 6:10–11*

# ALTINCI FƏSİL

# YA RƏBB, FİKİRLƏRİMƏ NƏZARƏT ETMƏYİ MƏNƏ ÖYRƏT

Bir dəfə həftənin cümə günü həyat yoldaşım səfərdə idi, uşaqlarım isə dostlarımgilə qonaq getmişdi. Çox sevinmişdim ki, tək qalıb kitab üzərində işləyə biləcəyəm. Birdən gözlənilmədən, sanki üzərimə ağır yük çökdü, qəlbimi kədər və sıxıntı bürüdü. Həyatımı analiz etməyə başladım ki, harada səhvə yol verdiymi tapım. Nəticədə, depressiyaya düşdüm. Bu kədərli fikirlər məni iflic vəziyyətinə salmışdı. Vəziyyətdən çıxmaq üçün kiməsə zəng etməyə gücüm yox idi. Mən nə çölə çıxa, nə məktublarla, nə də ki, ev işləri ilə məşğul ola bilirdim. Təbii ki, kitab üzərində işləməkdən söhbət ola bilməzdi. Öz otağımda oturub Müqəddəs Kitabı açaraq diz çöküb ağlayırdım.

«Ya Rəbb, mənimlə nə baş verdiyini mənə izah elə. Mən indi nə edim?» — deyə dua edirdim. — Cavab almayana, ya da vəziyyətim yaxşılaşmayana qədər dua edəcəm».

Növbəti gün bütün günü oruc tutdum. Səhər saat dördə işləmiş böyük narahatçılıqla oyandım. Müqəddəs Kitabı əlimə alaraq oxumağa başladım. Birdən Yeşaya peyğəmbərin kitabında bu ayə nəzərimə çarpdı: «…kədərli ruhun əvəzinə həmd libasını bəxş etmək üçün Rəbb məni göndərdi» (Yeşaya 61:3). O dəqiqə başa düşdüm ki, mən «kədərli ruha» yer vermişəm. Mənim həyatımda kədərlənmək

üçün heç bir səbəb yox idi. Lakin düşmən məni buna inandırmağa çalışdı.

Az sonra mən 20 dəqiqədən də çox Allaha həmd edərək Onun Sözünü iqrar etməyə başladım. Düşmənin rədd olunmasına əmr etdim və bu səlahiyyəti mənə verdiyi üçün Allaha minnətdarlıq etməyə başladım. Sonra çiyinlərimdəki depressiyanın qara örtüyünün necə düşdüyünü hiss etdim. Bu elə aydın hiss olundu ki, şeytanın mənə hücum etdiyini başa düşdüm.

Həmin günü xatırlayanda nə baş verdiyini indi başa düşürəm. Belə ki, mən həmin vaxt «Dua edən qadının gücü» adlı kitabın üzərində işləyirdim və demək olar qurtarmaq üzrə idim. Düşmən isə məni bu vasitə ilə dayandırmağa çalışırdı. Lakin başqa cür oldu. Bundan sonra Allah gələcəyimlə bağlı mənə yeni görüntülər verdi. O zaman mən düşmənin hiylələrini daha tez ayırd edir və onlara qarşı dururdum. Başa düşdüm ki, şeytan fikirlərimə yalan təlqin edən kimi, dərhal onu ifşa etməliyəm.

## Fikirləri idarə etmək bacarığı

Qəlbimizi müdafiə etmək üçün fikirlərimizə nəzarət etmək böyük rol oynayır. Müqəddəs Kitabda yazılıb ki, biz «hər bir düşüncəni əsir edərək Məsihə itaət» etməyi öyrənməliyik (2 Korinflilərə 10:5).

İmana yenicə gələnlər üçün, eləcə də mənim üçün də böyük açıqlama oldu ki, mənim ağlıma gələn hər bir fikrə şübhə ilə yanaşmağa və onu qəbul edib-etməməyimə haqqım var. Bir çox qatillər təsdiq edirlər ki, onlar daxillərində öldürmək əmri alan səs eşidirlər və sadəcə bu əmrin ardınca gedirlər. Düşüncələrində səsləri ayırd edə bilməyən insanlar hiyləgər yalançının, yəni iblisin səsini ayırd edə bilmirlər və o, insanların düşüncələrinə girərək öz niyyətlərini onların beyninə yeridir. Biz buna hazır olmalıyıq.

## Bizim inandığımız yalan

Olub ki, bütün gün ərzində səni eyni fikirlər narahat edir? Olub ki, ağlına gələn hansısa bir fikir sənin fiziki vəziyyətinə təsir edərək ürəyində ağrı, qarın nahiyyəsində xoşagəlməz narahatçılıqlar, boğazda qəhər, əllərində və ayaqlarında halsızlıq, göz yaşları və səpgi əmələ gətirib? Nə vaxtsa belə fikirlər olubmu: «Birdən belə olsa, onda necə? Bəs özümü eyvandan tullasam, necə olar?.. Birdən maşınla divara çırpılsaydım, nə olardı?». Ya da bu cür fikirlər olubmu: «Kaş ki, bunu etməzdim... nə üçün ora getmədim?.. gərək nəsə deyirdim…». Yaxud özünə yazığın gələrək belə demisən: «Mən heç kimə lazım deyiləm… mən uğursuz insanam… məndə yaxşı heç nə yoxdur… məndə heç nə alınmır»?

Əgər bu cür fikirlər səndə olubsa, onda bil ki, onlar Allahdan deyil və Allahın sənə vermək istədiyi vəhylə heç bir əlaqəsi yoxdur. Bunu edən iblisdir. O, sənin ağlını nəzarət altında saxlamaq istəyir.

Həyatda əzab-əziyyət çoxdur. Lakin çox vaxt biz əsassız yerə özümüz və həyatımız barədə şeytanın yalanlarını qəbul etdiyimiz üçün əzab çəkirik. Bizi məhv etməyə çalışan şeytanın yalanlarını bəzən həqiqət kimi qəbul edirik. İnandığımız yalanlara görə biz qorxu hissi keçirərək depressiyaya və təşvişə düşürük, özümüzü tənha sanırıq və özümüzə yazığımız gəlir. Amma biz dua, iman və Allahın həqiqətləri ilə bütün yalanlara qalib gələ bilərik.

O cümlədən, unutmamalıyıq ki, iblis ürəyimizdə olan Allahın həqiqətlərini oğurlamağa çalışacaq. O, Allahın vədlərinin həqiqi olub — olmaması barədə səni imtahana çəkəcək, necə ki, Eden bağında Həvvaya etmişdi: «Doğrudanmı Allah sizə belə deyib?... Allah bunumu nəzərdə tutmuşdu?... Etmək istədiyin şey Allahın xoşuna gələcəkmi?... Doğrudanmı Allah sənin qayğına qalır?»

Bu cür şübhələrdən sonra iblis Allahın Kəlamında yazılanlara zidd çıxmağa başlayacaq: «Allah belə deməmişdi?... Allah bunun əleyhinə

deyil… Allah sənin haqqında yüksək fikirdə deyil… Allah səni xeyir-dualardan məhrum edib…»

Əgər sən Allahın təlimində şübhəyə yol verib ona qarşı çıxırsansa, onda bil ki, iblis düşüncəni zəpt edir. Yadında saxla: «Yol var ki, insanın qarşısında düz görünür, amma sonu ölümdür» (Süleymanın Məsəlləri 14:12). Elə fikirlər var ki, düz və Allahın Sözünə uyğun gəlir, ancaq bu fikirləri Allahın Kəlamı ilə müqayisə edəndə yalan dərhal üzə çıxır.

Yalan — düşmənin dəyişilməz silahıdır. İsa dedi ki, iblis: «başlanğıcdan qatil idi və həqiqətə sadiq qalmadı, çünki onda həqiqət yoxdur. Yalan söyləyəndə öz xasiyyətinə görə söyləyir. Çünki yalançıdır və yalanın atasıdır» (Yəhya 8:44). İblisin gücü ondadır ki, o, insanları öz yalanlarına inandırmağa məcbur edir. İnsanlar onun yalanlarını rədd edəndə, o, öz məqsədlərinə çatmaqdan məhrum olur.

## Fikirlərinə diqqət yetir

Sənin nəyisə qəbul edib-etməməkdə seçimin var. Sən ya hər bir düşüncəni əsir edərək Məsihə itaət etdirməklə, Onun kimi düşünmüş olursan (bax: Filipilərə 2:5), ya da iblisə sənin həyatını öz yalanları ilə idarə etməyə icazə verirsən. Hər bir günah daxildən başlayır (bax: Mark 7:21–22). Əgər sən fikirlərini idarə etməyi öyrənməsən, şeytan bunu sənin əvəzinə edəcək.

Buna görə də, sən, ağlına gələn hər bir fikrə nəzarət etməli, nə eşitdiyinə, oxuduğuna və nəyə baxdığına (məsələn tele-radio proqramlarına, jurnallara, kitablara və kompakt-disklərə) olduqca diqqət yetirməlisən. Qəbul etdiyin məlumatlar səni Allah haqqında düşündürürmü? Ruhunu zənginləşdirərək, təqdis edərək və rahatlıq verərək səni qidalandırırmı? Yoxsa, bu məlumatlar səni qorxudur, utandırır və qəlbində boşluq yaradır? «Çünki Allah qarışıqlıq deyil, sülh qaynağıdır» (1 Korinflilərə 14:33). Nə vaxt ki, biz zehnimizi Allahın Kəlamı ilə doldurur, ruhani ədəbiyyat oxuyur, Allahı izzətlən-

dirən ilahilərə qulaq asdıqda şeytanın həyatımza soxulmasına izn vermirik.

Ağlına gələn hər bir fikrin Allahdan və ya şeytandan olub-olmamasını bilmək üçün özünə belə sual ver: «Bu fikir ürəyimcədir, yoxsa yox?». Əgər cavab «yox» olsa, onda bil ki, bu fikirlər iblisdəndir. Məsələn, məbəddə oturarkən fikirlərində xorda oxuyanları çılpaq təsəvvür edirsənsə, onda bu fikirlərin haradan qaynaqlandığını bilmək çətin deyil. Bu fikirlərə görə özünü mühakimə etməkdənsə, iblisə düşüncələrini tərk etməsinə əmr et. Belə olan halda sən iblisə ürəyini zibilxanaya çevirməsinə icazə verməmiş olacaqsan. İblisə de ki, İsa Məsihin ağlına maliksən (1 Korinflilərə 2:16), buna görə də, bütün murdar fikirləri ağlından atacaqsan.

Pis fikirlərdən imtina etməklə, düşmənə qarşı durmuş olursan. Bunu hər bir insan etməlidir, amma hamı etmir!

Bizim düşüncələrimiz hər cür qarmaqarışıqlıqdan və əsarətdən azad olmalıdır. Çünki biz belə şeylərlə yaşamamalıyıq. Biz Müqəddəs Kəlamda yazıldığı kimi, «başqa millətlər kimi boş düşüncələrlə həyat» sürməməliyik, çünki «onların şüurlarını qaranlıq alıb və mənəviyyatca nadan, qəlbdən inadkar olduqlarına görə Allah həyatına yad oldular» (Efeslilərə 4:17–18). Biz aydın düşüncəyə və həyatımızda aydın görüntüyə malik olmalıyıq. Düşmən səni özü kimi sənin də gələcəyinin olmamasına və ya sənin uğursuz olduğuna, həyatının mənasız və gücsüz olduğuna, dəyərsiz və bacarıqsız olduğuna inandırsa da, bil ki, Allah bunların tam əksini vəd edir. Allaha inan və heç kəsə etibar etmə.

## *Dua*

*Ya Rəbb,* qoyma ki, Sənin həqiqətini yalanla əvəz edim. Həyatımın hansı sahəsində yalanı həqiqət kimi qəbul etmişəmsə, onu mənə göstər. Düşmənin bütün yalanlarını

ayırd etməyə mənə kömək elə. Sənə şərəf gətirməyən bütün bədbin və axmaq fikirlərdən imtina edirəm (bax: Romalılara 1:21). İstəmirəm «pis yolla gedən öz düşüncələri ilə hərəkət edən» kəslərdən olum (Yeşaya 65:2). Hər bir fikrimi Sənə əsir etmək və düşüncələrimə hakim olmağı öyrənmək istəyirəm.

Sənin Kəlamın bütün ürəklərin fikir və niyyətlərini ayırd edir (bax: İbranilərə 4:12). Qoy onda Sənin Kəlamını oxuduğum zaman Sözün bütün səhv və pis fikirlərimi mənə göstərsin. Qoy Sənin Kəlamın mənim düşüncəmdə elə kök salsın ki, şeytanın yalanlarına eşitdiyim vaxt onları dərhal ifşa edə bilim. Yalvarıram, ey Həqiqət Ruhu, qoyma ki, aldanım. Bilirəm ki, Sən bizə «düşmənin bütün gücünü ayaq altında» əzmək səlahiyyətini vermisən (bax: Luka 10:19). Buna görə indi düşmənə əmr edirəm ki, həyatımdan rədd olub getsin. Onun bütün yalanlarından imtina edirəm.

Ya Rəbb, məni İsa Məsihin ağlına malik etdiyin üçün Sənə minnətdaram (bax: 1 Korinflilərə 2:16). İstəyirəm ki, Sənin fikirlərin mənim fikirlərim olsun. Nə vaxt, harada və necə pis fikirlərə yol verməyimi mənə göstər. Qoy bundan sonra Sənə məqbul olmayan fikirlərdən qaça bilim, bu şeydə mənə kömək elə. Bunun əvəzinə qoy düşüncələrim Sənin Kəlamın ilə və ilahilərlə dolub-daşsın. «Doğru, ləyaqətli, saleh, pak, cazibəli, etibarlı nə varsa» o haqda düşünməyə mənə öyrət (Filipililərə 4:8). İstəyirəm ki, mənə sağlam düşüncə verəsən.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Bu dövrə uyğunlaşmayın, əksinə, düşüncənizin təzələnməsi ilə dəyişin ki, Allahın yaxşı, razı salan və kamil iradəsini ayırd edəsiniz.

*Romalılara 12:2*

Çünki cismən həyat sürsək də, cismani təbiətə görə döyüş aparmırıq. Ona görə ki, döyüş silahlarımız cisimdən düzəldilən silahlar deyil, qalaları dağıdan ilahi qüvvəyə malik silahlardır.

*2 Korinflilərə 10:3–4*

Cismani təbiətə uyan fikirlər ölüm, ruha uyan fikirlər isə həyat və sülh gətirir.

*Romalılara 8:6*

Bu təlimə görə əvvəlki həyat tərzinizə məxsus olub aldadıcı ehtiraslarla pozulmaqda olan köhnə mənliyi kənara atın, ruhən və əqlən yeniləşin, əsl salehlik və müqəddəsliklə Allaha bənzər yaradılmış yeni mənliyə bürünün.

*Efeslilərə 4:22–24*

Ağlı sənə yönəlmiş adamlara Sən kamil sülh verirsən, çünki onlar Sənə güvənir.

*Yeşaya 26:3*

## YEDDİNCİ FƏSİL

# YA RƏBB, HƏYATIMIN BÜTÜN SAHƏLƏRİNDƏ MƏNİ İSTİQAMƏTLƏNDİR

Mən Allahı bütün qəlbi ilə sevən və vəz etmək ənamına malik olan bir insan tanıyıram. Allahı sevməsinə baxmayaraq, o, bütünlüklə öz həyatını Allaha etibar edə bilmir. O, öz bildiyi və öz prinsiplərinə əsasən yaşamağa davam edir. Buna görə də, onu həm şəxsi həyatında, həm də işində daima uğursuzluq və məyusluq təqib edir. Əgər o, Allaha: «Ya Rəbb, qoy hər şeydə Sənin iradən olsun» desəydi və həqiqətən də, dediyi kimi etsəydi, onda Allah onun bütün həyatını xeyir-dualı edərdi.

Nə üçün bəzi insanlar imanda böyümür? Nəyə görə onları həmişə uğursuzluq təqib edir və onlar heç cürə adət etdiyi həyat səviyyəsindən yuxarı qalxa bilmirlər? Nəyə görə onlar Allahla şəxsi ünsiyyətdən və Ona yaxınlaşmaqdan zövq almağı bacarmırlar? Nəyə görə onlar Allahın onlara verdiyi ənamlara görə sevinə bilmirlər? Nə üçün onlar heç vaxt Allahın məqsədlərinə çata bilmirlər?

Düşünürəm ki, bu suallara cavabı bir sözlə ifadə etmək olar «həsr olunmaq». Bu cür insanlar heç vaxt Allaha bütünlüklə həsr olunmayıblar. Onlar İsa Məsihə onların həyatında Hakim olmağa icazə verməyiblər.

Allaha tabe olmaq istəyən insan bu cür deyir: «Ya Rəbb, Sənin istədiyin hər şeyi edəcəm. Həyatımda görmək istədiyin hər şeyə «Bəli» deyirəm. Əgər istəyirsənsə özümü inkar etməyə və bütün arzularımdan imtina etməyə hazıram. Sənin hüzurunu daim hiss etmək üçün cismani təbiətimin istəklərindən də imtina etməyə hazıram. Əgər cismani təbiətim evdə qalmaq istəsə, mən məbədə gedəcəm, əgər cismani təbiətim yemək tələb eləsə, mən oruc tutacam, əgər cismani təbiətim yatmaq istəsə, mən dua edəcəm, cismani təbiətim televozora baxmaq istəsə, mən Sənin Kəlamını oxuyacam, bütün pullarımı yalnız özümə sərf etmək istəyəndə, o pulları başqaları üçün xərcləyəcəm. Mən həmişə Sənə şükür edib, minnətdarlıq edəcəm. Sənə səcdə etmək mənim üçün hər şeydən vacib olacaq, əlacsız qaldığım vaxtlarda əl atdığım son vasitə kimi yox. Mənə əmr etdiyin hər şeyə riayət edəcəm, çünki bütün qəlbimlə Sənə məqbul olmaq və xeyir-dualarını qazanmaq istəyirəm». Əgər sən Allaha etibar etməyi bacarırsansa, demək, həyatında Allahı birinci yerə qoyur, Onun idarəçiliyi altında hərəkət edirsən. Məhz o zaman həyatın dəyişməyə başlayacaq.

Biz qəbul etsək də, etməsək də — İsa Rəbdir! Çünki: «Buna görə də Allah Onu çox ucaltdı və Ona lütflə bütün adlardan ali bir ad verdi ki, göydə, yerdə və yerin altında olanların hamısı İsanın adına ehtiram edərək diz çöksün və hər dil Ata Allahın izzəti üçün İsa Məsihin Rəbb olduğunu bəyan etsin» (Filipilərə 2:9–11). Lakin İsa nəinki kainatın, o cümlədən hər birimizin həyatında şəxsi Allahıdır. Biz bunu qəbul etsək də, etməsək də, məhz bu həqiqət həyatımızın keyfiyyətli və uğurlu olmasına səbəb olur. Əgər biz İsa Məsihi həyatımızın Rəbbi (Ağası) kimi qəbul etmiriksə, onda heç vaxt Müqəddəs Ruhla idarə oluna bilmərik. «Heç kim Müqəddəs Ruh vasitəsi olmadan «İsa Rəbdir!» deyə bilməz» (1 Korinflilərə 12:3). Lakin biz Müqəddəs Ruh tərəfindən idarə olunmuruqsa, bu, o deməkdir ki, biz hələ də cismani təbiətdə yaşayırıq.

## Ya Rəbb, qoy hər şey Sənin əmr etdiyin kimi olsun

Qədim barlarda namərd oğlan (adətən, qara köynəkdə) tapancanı mərd oğlan (çox vaxt ağ köynəkdə) tərəfə tuşlayaraq «Əllər yuxarı!» deyə əmr edir. (Lakin bu söz bir o qədər də qorxulu səslənmir).

Onda namərd silahını yerə qoyaraq əllərini qaldırıb «təslim oluram» deyir.

Allah da bizim məhz bu cür təslim olmağımızı istəyir. Amma sən namərd deyilsən, Allah isə tapancanı üstümüzə tuşlamır. Allah səni ittiham və ifşa etmək üçün barmağını uzatmır. O, səni Öz komandasının üzvü olmaq üçün seçir. Allah deyir: «Ey, sən! Mən səni seçmişəm! Mənə təslim ol ki, sənin üçün hazırladığım hər şeyi sənə verə bilim».

Əgər biz bu sözləri: «Ya Rəbb, Sənə təslimәm. Mənə məxsus olan nə varsa, hər şey Sənindir. İstədiyin hər bir şeyi edəcəm» — deyə bilsəydik, onda həyatımızın hər bir sahəsi yaxşı tərəfə dəyişərdi.

Nə üçün bizə: «Ya Rəbb, Sənə məqbul olan hər şeyi edəcəm» sözünü demək belə çətindir? Yəqin ki, biz hər şeydən çox öz azularımızın həyata keçməsini istəyirik və Allahın bizdən xahiş edəcəyi şeylərdən qorxuruq. Biz qorxuruq ki, bu, bizə zərər yetirə bilər. Çünki «İsa Rəbdir» sözünü *demək* çətin deyil. Çətin olan odur ki, Onun istədiyi kimi *hərəkət* edək. İsa deyir: «Nə üçün Məni «Ya Rəbb, ya Rəbb» deyə çağırırsınız, amma dediklərimə əməl etmirsiniz?» (Luka 6:46). Biz Rəbbin əmrlərinin bizim üçün xeyir-duaya çevrilməsinə şübhə edirik. Şübhələrimiz əbəsdir. Çünki Allah istəyir ki, biz qaliblər komandasının üzvlərindən olaq.

Əgər sən ruhani inkişaf edə bilmirsənsə, onda yoxla: doğrudanmı sən tamamilə Allaha etibar edir, həyatında Ona Rəbb kimi yer verir və şəxsi arzularından imtina edə bilirsən? Əgər cavab «xeyr»dirsə, onla əllərini qaldırıb təslim ol və ilk addımını at.

İsa deyir: «Öz çarmıxını daşıyıb ardımca gəlməyən kəs Mənim şagirdim ola bilməz» (Luka 14:27). Əgər sən öz həyatını Rəbbə eti-

bar edə bilməsən, onda heç vaxt Onun çarmıxını daşıya bilməzsən. Yalnız tamamilə Allaha həsr olunan həyat Onun Səltənəti üçün effektli şəkildə istifadə oluna bilər. Allah sənin bir hissəni istəmir. Sən Allaha bütöv lazımsan. Dua elə ki, Allahın səndən gözlədiyi hər şeyi Ona verə biləsən.

## Dua

*Ya Rəbb,* bu gün qarşında əyilərək Səni həyatımın bütün sahələrində Ağa adlandırıram. Özümü və bütün həyatımı Sənin müqəddəs əllərinə verirəm və xahiş edirəm ki, ağlıma, qəlbimə və ruhuma rəhbərlik edəsən. Səni bütün qəlbimlə və varlığımla sevirəm. Bütün həyatımı Sənə etibar edirəm. Bu gün və həmişə Səni həyatımın Ağası kimi elan edərək qəbul edirəm.

Yalvarıram, özümü inkar etməyə və çarmıxımı götürüb Sənin ardınca getməyə mənə kömək elə (bax: Luka 9:23). Mən Sənin həqiqi şagirdin olmaq istəyirəm (bax: Luka 14:27). Bunun üçün lazım olan hər şeyi etməyə kömək elə. Sənin uğrunda canımı itirmək istəyirəm ki, onu yenidən əldə edə bilim (bax: Luka 9:24). Qoy bu sözlərinin əsl mənasını dərk edim. Mənimlə başa düşəcəyim tərzdə danış.

Mənə hər dəfə nəsə buyuranda Sənə «Bəli, ya Rəbb» deməyə kömək elə. Mənim ən böyük arzum — Sənə məqbul həyat yaşamaq və Səndən heç nə gizlətməməkdir. Həyatımın bütün sahələrini, yəni insanlarla olan münasibətlərimi, maddi sahəmi, işimi, boş vaxtlarımı, bədənimi, canımı, ruhumu, arzu və xəyallarımı tamamilə Sənin ixtiyarına verirəm. İstəyirəm ki, hər şeydə Sənin İsmin izzətlənsin. Bu andan iqrar edirəm ki: «…Məsihlə birlikdə çarmıxa çəkildim. Artıq mən yaşamıram, Məsih məndə yaşayır. İndi cismən yaşadığım həyata gə-

lincə məni sevib uğrumda Özünü fəda edən Allah Oğluna olan imanla yaşayıram» (Qalatiyalılara 2:19–20). Ya Rəbb, həyatımı idarə et və məni istədiyin yerə apar.

## Duanı təsirli etməyə kömək edən MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Sonra hamısına söylədi: «Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və hər gün çarmıxını götürüb ardımca gəlsin. Kim canını xilas etmək istəyirsə, onu itirəcək, amma kim Mənim uğrumda canını itirirsə, onu xilas edəcək».

*Luka 9:23–24*

Yaşayırıqsa, Rəbb üçün yaşayırıq, ölürüksə, Rəbb üçün ölürük. Buna görə yaşasaq da, ölsək də, Rəbbə məxsusuq.

*Romalılara 14:8*

Buna görə Rəbb Məsih İsanı qəbul etdiyiniz kimi Onda həyat sürün. Şükürlərlə dolub-daşaraq Onda kök salıb inkişaf edin və öyrəndiyiniz kimi imanda möhkəmlənin.

*Kolosselilərə 2:6–7*

Bütün qəlbinlə Rəbbə güvən, öz idrakına etibar etmə.

*Süleymanın Məsəlləri 3:5*

Allahın qüdrətli əli altında özünüzü aşağı tutun, onda Allah sizi vaxtı çatanda ucaldacaq. Bütün qayğı yükünüzü Ona ötürün, çünki O, sizin qayğınıza qalır.

*1 Peter 5:6–7*

# SƏKKİZİNCİ FƏSİL

# YA RƏBB, KƏLAMINI DƏRİNDƏN DƏRK ETMƏKDƏ MƏNƏ KÖMƏK ET

Bir neçə il bundan qabaq mən təcili əməliyyat olmaq üçün xəstəxanaya düşmüşdüm. İki həftədən sonra məni evə buraxdılar. Tibb bacısı ev şəraitində mənə qulluq etməli idi. Növbəti səkkiz ay mən həkim nəzarəti altında idim. Tam sağalmağım üçün isə mənə bir il lazım idi (bu barədə ətraflı fəsillərin birində danışacağam).

Xəstəxanada olarkən mən çox zəif olduğumdan Müqəddəs Kitabı oxuya bilmirdim. Cihaza qoşulmuş çoxlu sayda borular bədənimin hər yerinə birləşdirilmişdi. Buna görə mən nə otura, nə də yerimdən tərpənə bilirdim. Müqəddəs Kitab isə ağır oluğundan onu əlimə götürməkdən söhbət belə gedə bilməzdi. Gecə və gündüz yaxşı qulluğa ehtiyacım olduğu üçün bacım qohum-əqrəba, dost-tanışlarımın arasında növbətçilər təşkil etmişdi. Onlar hər üç saatdan bir növbələrini dəyişirdilər. Təkcə qızım axşam saat səkkizdən səhər saat səkkizə qədər yanımda olurdu. Qızım üçün bu, çox çətin idi, çünki həmin vaxtlar o, kollecdə oxuyurdu. O, gecələr hər iki saatdan bir mənə dərman verməli idi. Səhər isə bütün günü dərsdə olurdu.

Xəstə baxıcılığından əlavə, məni sevən bu insanlar həm də mənə Allahın Kəlamını oxuyurdular.

Dediyim kimi, xəstəxanadan çıxdıqdan sonra həkim nəzarəti altında olmaq şərti ilə məni evə yazdılar. İnfeksiyaya yoluxa biləcəyimdə böyük təhlükə olduğu üçün mənə dost-tanışlarımla ünsiyyətdən uzaq olmağa tapşırmışdılar. Evdə hamı məşğul olduğu üçün heç kimin mənə Müqəddəs Kitabı oxumağa vaxtı yox idi. (Mən heç kimdən incimirəm, çünki başa düşürəm ki, həm öz işlərini görmək, həm də mənə qulluq etmək onlar üçün çox çətin idi). O vaxtlar hamı üçün çətin idi.

Beləliklə, mən yataqda olarkən yavaş-yavaş sağalmağa başlayırdım və Müqəddəs Kəlama maqnitafon vasitəsilə qulaq asırdım. Lakin Müqəddəs Kitabı oxumaqla, bu, müqayisə oluna bilməzdi. Çünki oxuduğum zaman aldığım məlumatı daha yaxşı mənimsəyirəm, nəinki qulaq asanda. Həm də audio-kasetdəki Müqəddəs Kitabın oxucusu fasilə etmirdi. Ona görə də bir ayənin üzərində düşünəndə on dənəsi ötüb keçirdi. Adətən, Müqəddəs Kitabı oxuyanda tələsmədən oxuyuram və mənim üçün aktual olan ayələrin üzərində xüsusilə düşünməyə başlayıram. Beləcə, onları yavaş-yavaş mənimsəyirəm və Allahdan xahiş edirəm ki, əvvəllər mənim üçün bağlı olanları açıqlasın.

Yavaş-yavaş sağalaraq artıq oturub sərbəst Müqəddəs Kitabı oxuya bilirdim. Lakin buna baxmayaraq, başımda duman var idi və gündəlik mənə vurulan ağrıkəsici iynələrə görə gözlərim toranlıq görürdü. Buna görə də, Müqəddəs Kitabı çətinliklə oxuyurdum. Bunun problemini məndə olduğunu başa düşürdüm, lakin nəsə dəyişmək gücündə deyildim. Əvvələr Müqəddəs Kitabı oxuyanda qüvvət alırdım. Həmin vaxtlarda isə bu, mənim üçün borca çevrilmişdi. Mən Müqəddəs Kitabı lazım olduğuna görə oxuyurdum. Beş ay idi ki, məbədə getmədiyim və pastorumuzun vəzlərini eşidə bilmədiyim üçün vəziyyət daha da çətinləşmişdi. Məsihçi həyatımda hələ heç vaxt bu qədər fasilə olmamışdı. (31 illik məsihçi həyatımda fasilələr iki həftədən çox çəkmirdi). Mən təbliğlərə maqnitafon vasitəsilə qulaq asırdım. Çox vaxt fikilərim isə uzaqlarda olurdu və bəzən təbliğin ortasında yatırdım.

Gündəlik ruhani qida ala bilmədiyimdən və öyrəşdiyim nizam-intizam pozulduğuna görə, sanki ayağımın altından yer qaçmışdı. Allahın səsini əvvəlki tək aydın eşidə bilmədiyimə görə hər hansı bir qərarı qəbul etməkdə çətinlik çəkirdim. Kitab üzərində də işləmək mənə çətin idi, çünki Allahın mənə nə demək istədiyini eşitmək üçün fikirlərimi cəmləyə bilmirdim. Ən dəhşətlisi isə bu idi ki, qəlbimdə boşluq hiss edirdim. Bu vəziyyət problemi həll etmək üçün dua etmək lazım olduğunu başa düşənə qədər davam etdi. Dua etməyə başlayandan sonra ruhani inkişaf başladı. Allaha belə dua edirdim: «Ya Rəbb, Sənin canlı Sözünə ehtiyacım var. Ata, yalvarıram mənə kömək elə, qəlbimi və düşüncəmi təmizlə. Biliyimi genişləndir. Əvvəlkindən daha çox Sənin Kəlamına dərin nəzər salmağıma kömək et».

Bundan sonra Allah dualarıma cavab verməyə başladı. Müqəddəs Kitabı oxumaq mənim üçün yenə də maraqlı oldu. Allahdan yeni açıqlamalar almağa başladım. Əgər Allah bu cür sadə dualarıma cavab veribsə, onda nə üçün Müqəddəs Kitabı oxumazdan qabaq belə dua etməyim ki: «Ya Rəbb, Kəlamının dərinliklərini mənə aç». Müqəddəs Kitabı dərindən öyrənmək həyatımızın vacib bir hissəsi olmalıdır. Bunu üçün dua etmək çox vacibdir.

## Ruhumuz üçün gündəlik qida

Allahın Kəlamı ruhumuz üçün qidadır. Biz onsuz yaşaya bilmərik. Necə ki, yazılmışdır: «İnsan yalnız çörəklə deyil, Allahın ağzından çıxan hər kəlmə ilə yaşayır» (Matta 4:4). Əgər biz gündəlik həyatımızda Allahın Kəlamı ilə qidalanmırıqsa, bizi ruhani aclıq bürüməyə başlayır. Xəstəxanada olarkən Müqəddəs Kitabdakı ayələrin çoxu yaddaşımdan silindiyinə təəccüblənmişdim. Əlbəttə, bu yaddaş pozğunluğu qəbul ediyim dərmanların nəticəsi idi. Lakin buna baxmayaraq, bu fakt məni çox sarsıtdı. Necə ola bilər ki, illər boyu oxuduğum Müqəddəs Kitabın ayələri belə qısa müddətdə yadımdan çıxa bilər?

Düzdü, bəzi ayələr ürəyimə və yaddaşıma elə hopmuşdur ki, hətta, yuxuda belə onları əzbər deyə bilərdim. Onda başa düşdüm ki, Kəlamı qəlbimizdə qoruyub saxlamaq nə qədər vacibdir. «Buna görə də eşitdiklərimizə daha da diqqətli olmalıyıq ki, axın bizi aparmasın» (İbranilərə 2:1).

## Kəlamı icra edənlərdən ol

Neçə vaxt Rəbdə olmağın vacib deyil. Rəbb həmişə sənə yeni bir şey öyrətməyə hazırdır, yaxud əvvəllər bilmədiyin şeyləri sənə açmaq istəyir. Hər halda, həqiqəti bilmək kifayət deyil. Həqiqətlə birgə addımlamaq lazımdır «Bu kəlamın icraçısı olun, yalnız eşidənlər olub özünüzü aldatmayın. Çünki kəlamı eşidən, amma icraçıcı olmayan şəxs güzgüdə öz üzünün cizgilərinə baxan adama bənzəyir. O, öz-özünə baxır, kənara çəkilir və dərhal necə olduğunu unudur» (Yaqub 1:22–24). Əgər biz Allahın əmr etdiyi kimi etməsək, onda biz nəinki onu unuduruq, hətta öz statusumuzu da unutmuş oluruq.

Müqəddəs Kəlam oxuyarkən, Allahdan xahiş et ki, onu icra etməkdə sənə kömək etsin. İmanını və Kəlamı icra etmək niyyətini göstərmək üçün addım at. Əks halda, Müqəddəs Kitab haqqında olan bütün bildiklərin yaddan çıxacaq. Müqəddəs Kitabı oxumaq, qulaq asmaq, hətta əzbərləmək də olar, lakin eyni zamanda olduğun kimi qalmaq olar. Müqəddəs Kəlam bizi öyrədir, ifşa edir, zənginləşdirir, şəfa verir, xəbərdarlıq edir və ürəyimizi yumşaldır. Lakin biz Kəlama itaət etməyə borcluyuq. Buna görə hər dəfə Kəlamı oxuyarkən onun öyrətdiyi kimi yaşamağı Allahdan xahiş edin.

### Müqəddəs Kəlamı oxumağın 10 zəruri səbəb

Əgər sən gündəlik Müqəddəs Kəlamı oxumaq üçün vaxt ayıra bilmirsənsə, onda aşağıda tərtib olunan siyahıya nəzər sal. Bu siyahı səni Kəlamı oxumağa ruhlandıracaqdır.

1. *Hara gedəcəyini biləcəksən.* Sən gələcəyini bilə bilmərsən və tutduğun yolun səni hara aparacağını bilmirsən. Lakin Allahın Kəlamı səni düzgün istiqamətlədirəcək. «Kəlamınla addımlarımı möhkəmləndir, qoy heç bir təqsirim mənə hakimlik etməsin» (Zəbur 119:113).
2. *Sən hikmət əldə edirsən.* Müqəddəs Kəlam sənə bilik verəcək. «Rəbbin qayda-qanunları düzdür, ürəyi sevindirir. Rəbbin əmrləri pakdır, gözləri aydın edir» (Zəbur 19:8).
3. *Sən uğur əldə edəcəksən.* Əgər sən Allahın qanunlarına əsasən yaşayıb, onlara riayət edirsənsə, onda bütün həyatın kökündən dəyişəcək «bu qanun kitabının sözləri dilindən düşməsin, orada yazılan hər şeyə dəqiq əməl etmək üçün gecə-gündüz onun üzərində düşün. Onda yolun uğurlu olacaq, müvəffəqiyyət qazanacaqsan» (Yeşua 1:8).
4. *Sən qüsursuz həyat yaşayacaqsan.* Əgər sən Allahın hüzurundan zövq almaq istəyirsənsə, onda həyatın müqəddəsliyin və paklığın nümunəsi olmalıdır. Lakin Allahın Kəlamının köməyi olmadan qüsursuz yaşamaq mümkün deyil «Bir cavan yolunu necə təmiz saxlaya bilər? Sənin sözlərinə bağlı qalmaqla» (Zəbur 119:9).
5. *Sən itaətli olacaqsan.* Əgər sən Allahın qanunlarırın mənasını anlamırsansa, onda onları necə icra edəcəksən? «Ya Rəbb, Sən mənə qaydalarının yolunu öyrət, onlara axıradək əməl edəcəyəm, mənə ağıl ver qanununa görə yaşayım. Bütün qəlbimlə ona bağlanım. Mənə əmrlərinin yollarını göstər. Bu yollardan zövq alaram» (Zəbur 119:33–35).
6. *Sən Allahda sevinc tapacaqsan.* Əgər Allahın Kəlamı sənin ürəyinə təsir etməsə, onda heç vaxt narahatçılıqdan azad ola bilməyəcəksən. «Rəbb qorxusu safdır, əbədi yaşayır, Rəbbin hökmləri haqdır, hamısı ədalətlidir» (Zəbur 19:9).
7. *Sən imanda böyüyəcəksən.* Müqəddəs Kəlamı oxumadan heç vaxt imanda böyüyə bilməyəcəksən. «İman eşitməkdən, eşit-

mək də Məsihin Kəlamı vasitəsilə yaranır» (Romalılara 10:17).

8. *Sən azadlıq əldə edəcəksən.* Əgər Müqəddəs Kəlamı dərindən araşdırıb öyrənməsən, heç vaxt nədən azad olamağını bilməyəcəksən «Əgər siz Mənim sözlərimə sadiq qalsanız, həqiqətən Mənim şagirdlərimsiniz. Onda siz həqiqəti biləcəksiniz, həqiqət sizi azad edəcək» (Yəhya 8:31–32).
9. *Sən sülh əldə edəcəksən.* Allah heç kimin sənə verə bilmədiyi sülhü verəcək. Ancaq öncə sən bu sülhü Onun Kəlamında tapmalısan «Qanunu sevənlər böyük əmin-amanlıq tapdılar, ondar heç nə ilə büdrəməzlər» (Zəbur 119:165).
10. *Sən pisliyi yaxşılıqdan ayırd edə biləcəksən.* Müasir dünyada Allahın Kəlamı olmadan nəyin pis, nəyin yaxşı olduğunu necə ayırd edə bilərsən? «Sənə qarşı günah işlətməyim deyə Kəlamını qəlbimdə qoruyub saxlamışam» (Zəbur 119:11).

## Xəzinə axtarışında

Allahın Kəlamı eşidilməyən xəzinə ilə doludur — qızıl və daşqaşlar. Onları yalnız axtarıb tapmaq lazımdır. Necə ki, torpaqdan çıxarılan daş-qaşların cilalanmaya ehtiyacı var, eləcə də, Allahın Kəlamına ürəyimizdə cilalanmağa ehtiyacı var ki, Allahın vədlərinin gözəlliyi tamlığı ilə bizə açılsın. Hər dəfə Sən Allahın vədlərini ürəyindən keçirərkən, onlar sənin üçün işıq saçmağa başlayır.

Allahın Kəlamında tapacağın ən böyük və möcüzəli xəzinə Onun səsidir. Biz bu səsi ancaq Onun Kəlamını oxuyanda və Onun sözünə qulaq asanda eşidə bilərik. Əgər biz Onun dediklərini diqqət yetirməsək, onda heç vaxt Onun səsini eşidə bilməyəcəyik. Nə qədər çox Allahın Kəlamını öyrənirsənsə, bir o qədər Onun səsini eşidə biləcəksən və şeytanın yalanlarına uymayacaqsan.

İmana təzə gəldiyim vaxtlarda mən tez-tez depresiyyadan əziyyət çəkirdim. Allahın Kəlamına müraciət etməyənə qədər bu, belə-

cə davam edirdi. Allahın Kəlamını bir neçə dəqiqə oxumaq kifayət idi ki, qəlbimdə sakitlik və ümid tapım. Bu, onunla izah olunur ki, Allahın Kəlamı bizim düşüncələrimizdə səliqə-səhman yaradır və o zaman biz həqiqəti aydın görməyə başlayırıq. Allahın Kəlamı bizi məhv edən pis düşüncələrdən azad edir və həyatın dolğunluğunu tamlığı ilə hiss etməyə kömək edir. O, ümid verərək düzgün yol göstərir. Allahın Kəlamı bol həyat qura biləcəyimiz üçün bizə möhkəm təməl yaratmaqda kömək edir. Hər gün Kəlam vasitəsilə Allahla ünsiyyət axtar, çünki Allah səbirsizliklə bu görüşləri gözləyir və bizdən qarşılıqlı münasibət istəyir. Allaha yaxınlaşmağın başqa yolu yoxdur. Ürəyini təmizləməyin, bağışlamağı öyrənməyin, Allahın iradəsinə uyğun yaşamağın, ağlı idarə etməyin, iblisə qarşı durmağın və İsa Məsihi həyatının Rəbbi görməyin daim Allahın Sözündə qalmaqdan başqa yolu yoxdur. Müqəddəs Kitab sənin kompasın, sənin bələdçindir. Onsuz sən heç vaxt məqsədinə çata bilməyəcəksən.

## Dua

*Ya Rəbb,* Sənin Kəlamına görə Sənə minnətdaram. «Sözün hər addımım üçün çıraqdır, yollarıma işıqdır» (Zəbur 119:105). O, ruhumun qidasıdır. Onsuz yaşaya bilmirəm. Yalvarıram, Kəlamını və təlimini düzgün, dərindən dərk etməkdə mənə kömək elə və mənim üçün bağlı olan sirlərini açıqla. Yalvarıram, mənə elə qəlb ver ki, öyrənməkdə bacarıqlı olsun və mənim üçün mühüm bildiyin şeyləri dərk edə bilsin. Sənin rəhbərliyinə böyük ehtiyacım var. Öyrənməli olduğum hər şeyi mənə öyrət. Kömək elə ki, hər gün Sənin Kəlamının dərinliklərini başa düşüm. Nə vaxt ki, Sənin Sözünü öyrənmək əvəzinə boş vaxtımı nələrə sərf etdiyimi mənə göstər. Sözünü yadda saxlamağıma və onu ürəyimin lövhələrinə yazmağıma

kömək elə. Qoy Sənin Sözün mənim bir hissəmə çevrilsin və həyatımı kökündən dəyişsin.

Ya Rəbb, mən təkcə Kəlamı dinləyələrdən yox, onu icra edənlərdən olmaq istəyirəm. Kəlamı icra edənlərdən olmağı mənə öyrət. Sözündə Sənin iradəni başa düşməyimə kömək elə. Sənə nədə itaət etmədiyimi göstər. Ürəyimi və qulaqlarımı Sənin Sözünə açıq elə (bax: Süleymanın Məsəlləri 22:12). Qoy Sənin Sözün həyatımın mövqeyini təshih etsin və bu dünyada çağırışımı tez-tez yadıma salsın. Qoy Kəlamın qəlbimi təmizləsin və nöqsanlarıma qalib gələ biləcəyimə mənə ümid versin. Qoy onu oxuyarkən imanım möhkəmlənsin, Sənin Kim olduğunu və məni nə qədər sevdiyini mənə xatırlatsın. Qoy Sənin Sözün mənə əminlik versin ki, həyatım Sənin əllərindədir və Sən bütün ehtiyaclarımın öhdəsindən gələcəksən.

Minnətdaram ki, Sənin Müqəddəs Kəlamında Səni tapmışam. Qoy onu araşdırdığım zaman Səni daha da dərindən tanıya bilim. Qoy hər dəfə Sözünü oxuyarkən Sənin səsini aydın eşidə bilim (bax: Mark 4:23). Sənin yollarından dönmək istəmirəm. Çünki ancaq Sənin səsinə qulaq asıb ardınca getdiyim vaxt mən bol həyata malik olacam. Əgər Sənin yolundan dönsəm boşluq həyatımı bürüyər. Ya Rəbb, məni istiqamətləndir, kamil et və hər gün Öz Sözünlə qəlbimi doldur.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Allahın Kəlamı canlı və təsirlidir, hər iki ağızlı qılıncdan da itidir, canla ruhu, oynaqlarla iliyi bir-birindən ayıraraq keçir, ürəyin fikir və niyyətlərini ayırd edir.

*İbranilərə 4:12*

Lakin kamil qanuna, azadlıq qanununa diqqətlə baxıb ona bağlı qalan şəxs unutqan eşidən deyil, əməldə icraçıdır; belə adam öz işində nə bəxtiyardır!

*Yaqub 1:25*

Pislərin məsləhəti ilə getməyən, günahkarların yolunda dayanmayan, rişxəndçilərin arasında oturmayan insan nə bəxtiyardır! O, ancaq Rəbbin Qanunundan zövq alar, gecə-gündüz bu təlimatı dərin düşünər. Axar sular kənarında əkilən ağac kimi barını mövsümündə verər, yarpağı solmaz, etdiyi hər işdə uğur qazanar.

*Zəbur 1:1–3*

Lakin kim Onun sözünə riayət edirsə, Allah məhəbbəti onda, həqiqətən, kamilliyə çatıb. Bundan bilirik ki, biz Allahdayıq.

*1 Yəhya 2:5*

Sözdən hikmət alan xeyir tapar, Rəbbə güvənən insan nə bəxtiyardır!

*Süleymanın Məsəlləri 16:20*

# DOQQUZUNCU FƏSİL

# YA RƏBB, HƏYATIMI NİZAM-İNTİZAMA SALMAQDA MƏNƏ KÖMƏK ET

Yadofa İsa Məsihin şagirdi idi. *Şagird!* Yəni o, İsa Məsihin əmrlərinə riayət edən imanlılardan idi. Yadofa çoxlu yaxşı işlər görmüş və hər bir insana qarşı xeyirxah idi. Buna görə də, bir çox insanlar onu olduqca çox sevirdilər.

İsa Məsihin ölüb dirilməsindən bir müddət sonra Yadofa xəstələnib öldü. Onda bir neçə adam İsa Məsihin on iki şagirdlərindən biri olan Peterin axtarışına yollandılar. Onu taparaq cəsədin yanına gətirdilər. Peter evin qonaq otağına, Yadofanın cəsədi olan otağa girdi. Otaqda ağlaşan bütün qadınlardan çölə çıxmağı xahiş edəndən sonra, diz çökərək dua etməyə başladı.

Dua etdikdən sonra Peter cəsədə tərəf çevrilərək dedi: «Yadofa qalx!» Yadofa həmin saat gözlərini açıb oturdu. Peter əlini uzadaraq ona qalxmağa kömək elədi. Onun ətrafında olan bütün insanlar baş verənləri görüb Rəbbə iman gətirdilər. (bax: Həvarilərin İşləri 9:36–42).

Bu hadisədən başqa bizə Yadofa haqqında heç nə məlum deyil. Lakin bu balaca hekayə bizə bildirir ki, Yadofa öz həyatında dəyərləri düzgün yerləşdirmişdi. O, Rəbbi və insanları çox sevir-

di. Yadofanın həlim qəlbi var idi. O, bütün varlığı ilə Alaha məqbul olmağa çalışırdı və onu əhatə edən insanlara hər zaman əl tuturdu. Onun bütün həyatını bir sözlə ifadə etmək olar — o, «şagird» idi.

Yadofa xəstələnib öləndə Allah onu diriltmək üçün Öz sadiq şagirdlərindən birini onun yanına göndərmişdi. Lakin sizcə, əgər o, nominal və öz həyatını yaşayan imanlılardan olsa idi, onun həyatında bu cür möcüzə baş verərdimi? Əgər Yadofa Allahı bütün qəlbi ilə sevməsəydi, sizcə bu, mümkün olardı? Əgər o, başqa insanlara qarşı laqeyd olsaydı, əgər onun həlim qəlbi olmasaydı, əgər o, özünü başqalarına həsr etməsəydi, əgər Allaha itaətli olmasaydı, yəqin ki, bu möcüzə baş verməyəcəkdi. Yadofanın həyatında nizam-intizam hökmranlıq sürürdü. Buna görə də, Allah ona ikinci həyat bəxş etmişdi. Əgər biz də Allahı həyatımızda birinci yerə qoysaq, onda eyni şeyləri Allah bizim üçün də edəcəkdir.

## Ən böyük üstünlük

Əgər həyatımızda dəyərləri düzgün qurmasaq, onda heç vaxt uğur qazanmayacağıq. Dəyərləri düzgün qurmaq üçün isə, hər gün çalışmalıyıq. Bunu öz gücümüzə edə bilmərik. Dəyərləri düzgün qurmağımız üçün bizə Müqəddəs Ruhun idarəçiliyi və Allah Kəlamının biliyi lazımdır. İsa Müqəddəs Kəlamda iki əsas dəyəri vurğuladı: «Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla və bütün düşüncənlə sev. Bu, böyük və əsas əmrdir. Buna bənzəyən ikincisi budur: qonşunu özün kimi sev» (Matta 22:37–39). İsa hər şeyi aydın şəkildə deyib. Əgər sən bu iki əmri — Allahı və insanları sevmək — əmrlərini həyatda ən əsas dəyər kimi qəbul edirsənsə, onda digər dəyərləri həyatında düzgün qura biləcəksən.

Allahla ünsiyyət həyatının əsasını təşkil etməlidir. Allah dedi: «Məndən başqa allahların olmasın» (Çıxış 20:3). Bu, həqiqətən də belə olmalıdır. Allaha sənin bütün diqqətin lazımdır. Əgər hər gün

Allahın hüzurunu axtarıb, Ondan sənin həyatında səliqə-səhman yaratmasını istəyirsənsə, onda O, sənə cavab verəcək. Öz təcrübəmdən bilirəm ki, biz hər gün Allahı axtarmayanda, həytamız nəzarətdən çıxır. Nəticədə isə, biz mühiti idarə etməkdən, mühit bizi idarə etməyə başlayır.

Allah — nizam-intizam Allahıdır. Buna sübüt kainatın özüdür. Çünki kainatda qarmaqarışıqlıq və təsadüf heç nə yoxdur. Bizim həyatımız da bu cür nizamlı olmalıdır, çünki bu, Allahın iradəsidir. «Amma qoy hər şey ədəblə və intizamla edilsin» (1 Korinflilərə 14:40). Əgər biz Allahdan intizamlı olmağımızı istəyiriksə, O, mütləq bizə kömək edəcəkdir. Allah bizə Onun qüdrətli və etibarlı hakimiyyətinin qanadları altında necə sığınacaq tapmağı göstərəcək. Bu, Allahın bütün xeyir-dualarına nail olmaq üçün vacib yoldur.

## Təvəzökar olmağın çətinliyi

Təvəzökarlıq — sərbəst şəkildə seçim etmək deməkdir. Buna səni heç kim məcbur edə bilməz. Bunu bütün qəlbinlə istədiyin vaxt həlimləşə bilərsən. Təvəzökar qəlbə malik olmaq — özünü hər zaman həlimləşdirməyə hazır olmaq və Allahın iradəsini qəbul etmək deməkdir.

Təvəzökarlığı əldə etmək üçün daima həlimləşmək və Allaha «tabe olmaq» lazımdır. (Yaqub 4:7). Bu ayədən bizə məlum olur ki, bizi Allahın əmrini pozmağa vadar edən düşmənə tabe olmamalıyıq. Sən eyni zamanda həm həlim qəlbə, həm də vicdanını ləkələyən və Allahın əmrlərinin əleyhinə çıxan şeylərdən uzaq ola bilərsən.

Məsələn, əgər sənin həyatında vacib rol oynayan bir insan səni pis yola çəkirsə və Allahın iradəsinə qarşı çıxmağa təhrik edirsə, sən onu özündən uzaqlaşdırmağa borclusan, onun təklifinin pis olduğunu ona bildirməlisən. Ancaq onun üstünə səsini yüksəldərək bu cür sözlər deməməlisən: «Sən axmaqsan! Nə olub sənə? Şeytan rədd ol yanım-

dan!». Bunun əvəzinə ona sakit və həlim şəkildə izah etməlisən: «Sizə (sənə) olan hörmətim böyükdür. Amma sizin təklifiniz Allahın iradəsinə ziddir və mən öz vicdanımın əleyhinə gedə bilmərəm. Çünki bilirəm ki, bu cür əməllər Allahın qəzəbinə səbəb olur». Ya da ki, belə deyə bilərsiniz: «Sizin (sənin) mənə qarşı olan əməliniz və sözləriniz Allahın gözündə iyrəncdir. Ona görə deməliyəm ki, sizin (sənin) davranışınız nə mənim, nə də ki, sizin xeyrinizə olmayacaq».

Əgər biz həlim ürəyə malikiksə, onda xeyir-dualar ardımızca qaçacaq. Əks halda, bizi çoxlu xoşagəlməməzliklər gözləyir.

İsa Məsih də Özünü hər an Allahın önündə həlimləşdirirdi. Şübhəsiz ki, O, yer üzündə olarkən həyatındakı dəyərləri düzgün qurmuşdu. Allah istəyir ki, biz «Məsih İsa necə düşündüsə, siz də elə düşünün. Allah surətində olduğu halda O, Özünü Allaha bərabər tutmağı bir haqq saymadı. Lakin Özünü heç etdi və qul surətinə salıb insanlara oxşar oldu. İnsan şəkilini alıb Özünü aşağı tutdu və ölümə qədər çarmıx üzərində itaət göstərdi» (Filirililərə 2:5–8). Bax bu, həqiqi təvəzökarlıqdır! Hər kəsin həlimləşməyə ehtiyacı olsa da, İsanın buna heç ehtiyacı yox idi. Onda sual yaranır: nə üçün İsa Allaha bu qədər tabeçilik göstərdi? Bu, ona görə idi ki, O, Allahın Onun üçün hazırladığı böyük işi həyata keçirtməli idi. Allahın məqsədinə çatmaq üçün İsa Məsih Özünü alçaldaraq təsəvvür olunmaz əzablardan keçib ölməklə Atanın iradəsinə itaət etdi. Bügünkü gündə İsa Məsih bizim üçün böyük örnəkdir.

## Etibar itirdiyin vaxt

Bir çox qadınlar üçün həlimləşmək çox çətindir. Bunun səbəbi isə ondadır ki, nə vaxtsa onlara qarşı xəyanət ediblər. Ona görə də, onların başqa insanlara qarşı həlimləşməsi onlar üçün böyük fəlakətdir. Heç kəs ayaq altında əski olmaq istəmir. Heç kim istəmir ki, ondan həmişə heyf çıxsınlar. Allah da bunu bizim üçün istəmir. O istəmir

ki, biz lal robot olaq. Buna görə də, biz, Allahdan müdriklik istəməliyik. Çünki bu, mürəkkəb məsələdir və bu məsələni həll etmək üçün Allahın səsinə qarşı həssas olmaq lazımdır.

Acı xatirələrdən əziyyət çəkənləri ruhlandırmaq istəyirəm. Allah istəmir ki, biz düşünülməmiş hərəkətə yol verək, hər hansı bir prinsipə görə öz sağlam düşüncəmizi qurban verək, yaxud xuliqan adamın əlindən əziyyət çəkək. Xeyr. O, bizə müdriklik vermək istəyir. Biz unutmamalıyıq ki, Allahın iradəsinə laqeyd yanaşan, Onun müqəddəsliyini pozan və vicdanımızı ləkələmək istəyəin insana qulaq asmaq heç də təvəzökarlıq deyil. Bu, tələyə düşmək deməkdir. Özünü bu tələyə salma.

Yadımdadır, bir qadın öz tərs ərinə həmişə təvəzökarlıq göstərərdi, ta ki onu öldürməyənə qədər. Həmin qadın ruhları ayırd etmək ənamına malik deyildi. Ona görə də Allahı öz həyatında birinci yerə qoya bilməmişdi və Onun idarə etməsini diləməmişdi. O, kömək istəmək əvəzinə faciə baş verməyənə qədər təcavüz mühitində yaşayırdı. Lakin onun kömək istəməyi bu vəziyyətdə çox vacib idi. Bu hadisədə həmin qadın təvəzökarlıq deyil, ağılsızlıq göstərdi.

Başqa bir hadisə də yadıma düşür, hansı ki, qadın ərinin qarşısında həlimləşməkdən imtina etidyi üçün nəticədə həm evini, həm də ailəsini itirmişdi. Bunun səbəbi həmin qadının gənc yaşlarında zorakılığa məruz qaldığı üçün heç vaxt heç bir kişiyə nə etibar etməsi, nə də onların qarşısında həlimləşməsi idi.

Buna görə də, qızıl ortaq məxrəci tapmaq çox vacibdir. Bu isə ilk növbədə Allahın qarşısında həlimləşəndə mümkün olur. Allahdan xahiş et ki, hansı insanın qarşısında həlimləşməlisənsə, buna görə sənə dərrakə versin. İnsan kor və kobud olanda həlimləşmək qeyri-mümkündür. Bunun üçün də nə etdiyini dəqiq bilməlisən. Əgər sən düzgün hərəkət etmək və həyatını düzgün qurmaq istəyirsənsə, onda Allah sənə müvazinət yaratmaqda kömək edəcək.

## Hər şey öz yerini tapmalıdır

Müqəddəs Kitab bizə öyrədir ki, Allah tərəfindən səlahiyyət verilmiş məbbədəki insanlara, ailəmizə, işimizə və hökumətimizə itaət etmək bizim borcumuzdur. Həyatımızın uğurlu və nizam-intizamlı olması üçün biz itaətli olmalıyıq. Çünki bu, əsas təməldir. İtaət etmədən heç vaxt Allahın bizə verdiyi məqsədə çata bilməyəcəyik.

Hər bir məbədin öz məqsədi və təkrarolunmaz siması var. Əgər Allahın sənin üçün təyin etdiyi məbədi tapmasan, heç vaxt xoşbəxt ola bilməyəcəksən. Bu, o demək deyil ki, sən məbəddən məbədə gəzməli və gözündə ən ideal görünən məbədi seçməlisən. İdeal məbəd mövcud deyil. Hər bir məbəd sənin və mənim kimi kamil olmayan insanlardan ibarətdir. Buna görə də sən Allahdan xahiş etməlisən ki, səni Onun görmək istədiyi ailəyə gətirsin.

Əgər sən öz məbədini tapmısansa, onda pastorun vəzləri sənin üçün etibarlı, ruhani inkişaf etdirən və mühüm olur. Lakin buna baxmayaraq, sənin yenə də Allahın müdrikliyinə və Onun idarəçiliyinə ehtiyacın var. Əgər xidmət etdiyin məbədinin rəhbəri haqq yoldan dönübsə, əxlaqsız həyat tərzi sürürsə, Allahın əmri pozulub Onun Kəlamı təhrif olunursa, onda bu cür rəhbərliyə itaət etməyə məcbur deyilsən. Allahdan dilə ki, səni günahla murdarlanmış icmadan çıxarsın.

Bizim hər birimizin pastora, güclü imanlı liderə və bizi doğru yolla aparan yaxşı müəllimə ehtiyacımız var. Allah mütləq sənə onu göstərəcək. Məni səhv başa düşmə: mən «quru»dan danışmıram. Sənin ruhani nəsihətçin Allahın əvəzinə insana pərəstiş edən kəs yox, yalnız Allahın elçisi ola bilər. Bu məsələdə hər hansı bir cinsin nümayəndəsi rol oynamır. Necə ki, Müqəddəs Kitabda yazılmışdır: «Artıq Yəhudi ilə Yunan, qulla azad, kişi ilə qadın arasında fərq yoxdur, çünki hamınız Məsih İsada birsiniz» (Qalatiyalılara 3:28). Burada həqiqəti sənə məhəbbətlə söyləyə bilən, səninlə birgə və sənin üçün dua edən insandan söhbət gedir.

Bundan əlavə, Allah və qanuni dövlət təmsilçilərinin qarşısında həlimləşməkdən əlavə, sən ətrafdakı insanlarla düzgün münasibət qurmalısan, necə ki, yazılmışdır: «Məsih qorxusu ilə bir-birinizə tabe olun» (Efeslilərə 5:21). Əgər insanları özün kimi sevməyə öyrənməsən, onda heç vaxt onlara qarşı təvəzökar ola bilməyəcəksən. Məhz bu, hər bir məsələnin həll olunması üçün açardır. Əgər sən birinci Allahı, sonra doğmalarını sevsən, onda sənin bütün dəyərlərin öz yerini tapacaq və həyatında nizam-intizam yaranacaq. Allahdan dəyərlərinin düzgün qurulmasını diləsən, O, sənə mütləq kömək edəcək.

## *Dua*

*Ya Rəbb,* yalvarıram, həyatımda lazımi nizam-intizam yaratmaqda mənə kömək et. İstəyirəm ki, Sən mənim üçün hər şeydən üstün olasan. Səni bütün qəlbimlə, bütün düşüncəmlə və bütün varlığımla sevməyi mənə öyrət. Harada və nə vaxt səhv etdiyimi mənə göstər. Həyatımda Səndən başqa allahların olmasını istəmirəm. Əgər nə vaxtsa bütə sitayiş etmişəmsə, bunu mənə göstər. Mən yalnız və yalnız Sənə qulaq asmaq istəyirəm. Həmişə ürəyimin bu istəyi ilə yaşamağa kömək elə.

Mənə həlim ürək bəxş et. Hökumətə, eləcə də ailəmdə, iş yerimdə və məbədimdə layiq olan insanlara itaət göstərməyə mənə kömək elə. Mənə yaxşı ruhani nəsihətçi ola biləcək insanı göstər. Məni, mənim üçün təyin etdiyin məbədə apar. Həyatımın hər bir sahəsində insanlarla münasibət qurmağa və onlara qarşı təvəzökar olmağıma kömək elə. Kimə itaət etməməliyəmsə, o kəsləri mənə göstər. Mənə bu məsələdə müdriklik və ayırd etmək ənamını ver. Layiqli insanların qarşısında nə vaxt lazımınca həlimləşmədiyimi mənə göstər. Bilirəm ki,

həyatımda səliqə-səhman yaratmasam, Sənin xeyir-dualarına nail ola bilməyəcəm. Həmçinin bilirəm ki, əgər hər şeydən öncə Səni axtarsam, qalan şeylər əlavə olaraq mənə veriləcəkdir (bax: Matta 6:33). Bu gün Sənin üzünü axtarıram. Yalvarıram, həyatımda mənə lazımi nizam-intizam qurmağa kömək elə. Heç vaxt mənim üçün təyin etdiyin ruhani himayənin altından çıxmamaq üçün mənə müdriklik ver.

**Duanı təsirli etməyə kömək edən**
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Ona görə də siz əvvəlcə Allahın padşahlığını və Onun salehliyini axtarın, onda bunların hamısı sizə əlavə olaraq veriləcəkdir.

*Matta 6:33*

Canını qoruyan hər kəs onu itirəcək, Mənim uğrumda canı itirənsə onu qoruyacaq.

*Matta 10:30*

Eynilə siz də, ey gənclər, ağsaqqalara tabe olun. Hamınınz bir-birinizə itaətkarlıq göstərin. Çünki «Allah məğrurlara qarşıdır, itaətkarlara isə lütf göstərir».

*1 Peter 5:5*

Bizim Ondan aldığımız əmr budur ki, Allahı sevən gərək öz qardaşını da sevsin.

*1 Yəhya 4:21*

Öz rəhbərlərinizə itaətli olun və onlara tabe olun. Axı, onlar hər vaxt həyatınız üçün qayğı çəkir, çünki hesabat verəcəklər. Qoy onlar bunu sevinclə etsinlər, ah-zarla etməsinlər, çünki bu, sizə fayda verməz.

*İbranilərə 13:17*

## ONUNCU FƏSİL

# YA RƏBB, SƏNİN ƏSİL PƏRƏSTİŞKARIN OLMAQDA MƏNƏ KÖMƏK ET

Mən televiziyada müğənni, rəqqasə və aktrisa işlədiyim vaxtlarda (o vaxtlar bunlar çox məşhur idi) eyni mahnını gün ərzində bir neçə dəfə oxumalı və rəqqasla birlikdə onu məşq etməli olurdum. Sonra növbəti günkü şou üçün dəfələrlə eyni mahnını məşq edərək, onun fonoqrammasını yazmalı idim. Eyni vaxtda həm rəqs etmək, həm də oxumaq çətin olduğu üçün mən fonoqramma yazmağa məcbur olurdum. Axırıncı məşqi və konserti qurtarıb evə gələndə oxuduğum mahnını başımdan heç cür çıxarda bilmirdim. Buna görə, hətta, yuxum da qaçırdı.

Eyni ilahini çox oxuyanda bizdə də bu cür olur. Hətta, biz Allahı izzətləndirməsək də, onu ürəyimizdə eşitməyə davam edirik. Məsələn, yuxumuzda da.

Bunu hələ təzə imana gəldiyim vaxt başa düşmüşdüm. O vaxtlar mən güclü depressiyadan əziyyət çəkirdim. Ruh düşgünlüyündən və sıxıntıdan azad olmaq üçün gecələr tez-tez oyanıb Allaha ilahilər oxuyurdum. Depressiyadan qurtulmaq üçün mən bir çox həkimlərə müraciət edirdim. Onlar mənə müxtəlif dərmanlar yazsalar da, heç nə kömək etmirdi. Dərmanın təsiri qurtaran kimi problem yenidən qayı-

dırdı. Mən dərmanların əleyhinə deyiləm. Lakin insanların müxtəlif xəstəliklərdən sağalmaq üçün dərmanlara yeganə çıxış yolu kimi baxmalarına qarşıyam. Men depressiyadan hələ uşaq vaxtlarımdan əziyət çəkirdim. Xüsusilə də, anam məni kiçik ambarçada bağlayıb cəzalandıranda. Ümidsizlik və məhkumluq hər gün əhvalımı pozurdu. Mənim Allahın sevinc dərmanına ehtiyacım var idi. Bu dərmanı isə Onu izzətləndirdiyim vaxt ala bilirdim.

Allaha səcdə etdiyim vaxt ruhum sevinirdi. Ona ilahilərlə izzət verdiyim anlarda Rəbbin sevinci həm ruhumu, həm canımı, həm də ürəyimi doldururdu. Hər dəfə bu cür olurdu.

Buna görə tez-tez ilahilər yazılmış kasset və ya disklər alırdım. Onları hər yerdə — sükan arxasında, vanna otağında, mətbəxdə yemək hazırlayanda, ev işləri ilə məşğul olanda, əlimdə yazı işi olanda və kiminləsə məktublaşanda qulaq asırdım. Hərdən özüm də bu ilahiləri oxuyurdum. Lakin çox vaxt onlara yaşaya-yaşaya qulaq asırdım. Ən çox təəccübləndiyim o idi ki, Allahın övladları Onu izzətləndirdiyi vaxt onların ürəyində nə təlaş, nə ruh düşkünlüyü, nə qorxu nə də narahatçılıq üçün yer qalmırdı. Nəticədə mən tamamilə depressiyadan azad olmuşdum. Allahı izzətləndirmək kimi insanın həyatını dəyişən güclü və təsirli vasitə yoxdur. Hər dəfə biz Allahı izzətləndirməyə başlayanda O, Özünü bizə göstərərək qəlbimizə təsir edir və Müqqədəs Ruhun vasitəsilə ürəyimizi yumşaldaraq onu kökündən dəyişir.

Bəzən cismani təbiətimiz Allahı izzətləndirməyi xoşlamır, ona görə də, biz, onu buna məcbur etməliyik. Allahı izzətləndirməyi həyatımızda birinci yerə qoya bilmədiyimiz üçün özümüzü tərbiələndirməyə və şəraitdən asılı olmayaraq buna vaxt ayırmağı öyrənməliyik. Sən özünə belə deməlisən: «Mən Allahı izzətləndirəcəyəm!» Təbii ki, biz Allahı nə qədər çox tanıyırıqsa, bir o qədər Onu izzətləndirmək asan olur. Əgər hiss etsək ki, artıq Allahı izzətləndirməsək yaşaya bilmərik, deməli, biz lazım olan ruhani səviyyəyə qalxmışıq. Əgər səndə Allahı izzətləndirmək istəyi yoxdursa, onda məsləhət

görürəm ki, Zəburun 103-cü fəslini oxuyub orada Rəbbə izzət vermək üçün iyirmi səbəb tapasan. Şəxsən mənə bu, çox kömək edir.

**Allahı izzətləndirməyin iyirmi səbəbi**

1. *O, bizim bütün günahlarımızı bağışlayır.*
2. *O, bütün xəstəliklərimə şəfa verir.*
3. *O, həyatımı məzara düşməkdən qoruyur.*
4. *O, məhəbbətin, mərhəmətin tacını başıma qoyur.*
5. *O, ömür boyu bərəkəti ilə məni doydurur.*
6. *O, bütün miskinlər üçün haqq-ədalət göstərir.*
7. *O, yollarını göstərir.*
8. *O, lütfkardır.*
9. *O, bol məhəbbətlidir.*
10. *O, həmişə töhmətləndirməz.*
11. *O, rəhimlidir.*
12. *Onun qəzəbi sonsuza qədər sürməz.*
13. *Təqsirlərimizin əvəzini çıxmaz.*
14. *Ondan qorxanlara olan məhəbbəti böyükdür.*
15. *Asiliklərimizi bizdən uzaqlaşdırır.*
16. *O, bizi bağışlayır.*
17. *O, necə yarandığımızı bilir və torpaqdan düzəlməyimzi unutmur.*
18. *Mərhəməti əbədidir.*
19. *O, uşaqlarımza və nəvələrimizə Onun əhdinə vəfa edənlərə xeyir-dua verir.*
20. *O, göylərdə taxtını qurub, hər yerdə hökmranlıq edir.*

## Onun yollarını izzətləndir

Əgər Allahı sevdiyimizi düşünürük, lakin hər gün Onu izzətləndirmiriksə, onda qaranlıqda qəzmiş oluruq və Onun həqiqi üzünü görmürük. «Adamlar Allahı tanıdıqları halda Ona nə Allah kimi izzət

verdilər, nə də şükr etdilər. Əksinə, boş düşüncələrə uydular və axmaq ürəklərini qaranlıq bürüdü» (Romalılara 1:21). Allahı layiqincə izzətləndirməyəndə yoxsullaşırıq. Allahın həqiqi pərtişkarları ola bilmədiyimizə görə biz həyatın mənasını axtararaq qaranlıqda yaşamaq istəmirik.

**Allahı izzətləndiyməyin beş üsulu**

Allah istəyir ki, biz Onu təmiz ürəklə izzətləndirək və bunu Onun istəyinə uyğun edək.

1. *Allah istəyir ki, biz Ona həmd ilahiləri oxuyaq.* «Rəbbə həmd edin! Allahımızı tərənnüm etmək nə qədər yaxşıdır! O, buna layiqdir, Ona həmdlər söyləmək xoşdur» (Zəbur 147:1). «Sevinclə Rəbbə qulluq edin, mədh oxuyaraq Onun hüzuruna gəlin» (Zəbur 100:2).
2. *Allah əllərimizi Ona sarı qaldırmağımızı istəyir.* «Müqəddəs yerə tərəf əllərinizi qaldırın, Rəbbə alqış edin!» (Zəbur 134:2).
3. *Allah istəyir ki, biz Ona dilimizlə həmd qurbanı gətirək.* «Onda İsa vasitəsilə həmişə Allaha həmd qurbanını, yəni Onun adını iqrar edənlərin dilinin bəhrəsi olan sözləri təqdim edək» (İbranilərə 13:15).
4. *Allah istəyir ki, biz Ona rəqslərlə və musiqi alətlərində çalaraq həmd edək.* «Şeypur səsi ilə Ona həmd edin! Cənglə, lira ilə Ona həmd edin» (Zəbur 150:3).
5. *Allah istəyir ki, biz Ona müqəddəslərin toplantısında səcdə edək.* «İsmini qardaşlarıma elan edəcəyəm, toplantı arasında Sənə həmd edəcəyəm» (İbranilərə 2:12).

İmanlıların toplantısında Allaha həmd etmək, Ona xidmət etməyimizin vacib hissəsidir. Birlikdə edilən dua hiyləgərin qurduğu bütün istehkamları dağıdır və həyatımızda qeyri-mümkün kimi görünən böyük dəyişikliklərə yol açır. Hal-hazırda xidmət etdiyin məbəddə

nə cür mühit olmasına baxmayaraq, Allahdan dilə ki, O, səni görmək istədiyi kimi həqiqi ibadət edənlərdən etsin. Bütün izzəti Rəbbə ver və özünü tamamilə Ona həsr elə. Bil, nə qədər ki yaşayırsan, bir o qədər sən daima sevinməli və durmadan dua etməlisən. Hər vəziyyətdə şükr etməlisən, çünki bunlar Məsih İsada olan sənin üçün Allahın iradəsidir (1 Saloniklilərə 5:16–18). Hətta, ürəyində oxuduğun ilahilər sənin ruhunu və qəlbini yuxuda belə tez-tez dolduracaq.

## Dua

*Ya Rəbb,* Səni izzətləndirməkdən başqa mənim böyük sevincim yoxdur. Qəlbimdə böyük minnətdarlıqla hüzuruna gələrək qarşında baş əyirəm. Sənin İsmini tərənnüm edirəm, çünki Sən böyük, əzəmətli və izzətə layiq olan Allahsan. Çox sağ ol ki, «mənim qəlbimə sevinc verdin» (Zəbur 4:7). Ya Rəbb, Sən müqəddəs və ədalətlisən, qüdrətli və izzətlisən, əzəmətli və dürüstsən!

Minnətdaram ki, Sən «lütfkar və rəhimlisən, hədsiz səbirli və bol mərhəmətlisən», «əzəmətlisən» və «qüvvətin çoxdur, dərrakən hədsizdir» (Zəbur 145:8; 147:5). Minnətdaram ki, Sən məzlumları ayağa qaldırır, pisləri isə toz-torpaq içinə atırsan, miskinlərə haqq qazandırır, acları azuqə ilə doydurursan, əsirləri azad edir, kor gözləri açırsan, qəddi əyilənləri düzəldirsən (bax: Zəbur 147:6; 146:7–8).

Ya Rəbb, mənim üçün hazırladığın planına və gələcəyimi ümidlə doldurduğuna görə Sənə minnətdaram. Minnətdaram ki, Sən hər zaman həyatımı yaxşılığa doğru dəyişirsən. Mənim Şəfa Verənim, Xilaskarım, Satın Alanım, Atam və Təsəlliverəcim olduğuna görə Sənə minnətdaram. Minnətdaram ki, Sən Özünü mənə Müqəddəs Kəlam, Oğlun İsa Məsih, həyatım və yer üzündə gördüyün böyük işlər vasitəsilə açırsan. Sənin mə-

həbbətinə, sülhünə, sevincinə, sadiqliyinə, xeyirxahlığına, həqiqətinə və şəfana görə minnətdaram. Minnətdaram ki, mən öz həyatımı tamamilə Sənə həvalə edə bilərəm, çünki Sən qüsursuzsan, Sözündə sadiqsən. Minnətdaram ki, Sən dünən, bu gün və əbədi olaraq eynisən.

Ya Rəbb, istədiyin kimi Sənə səcdə edə bilmədiyimə görə məni bağışla. Sənə məqbul şəkildə bütün ürəyimlə Səni izzətləndirməyi məni öyrət. Məni həqiqi səcdə edənlərdən et. Qoy həyatımda baş verən hər şeyə görə Sənə şükr edə bilim.

Ya Rəbb, bu gün Sənin ismini yüksəldirəm, çünki Sən «yaxşısan, mərhəmətin əbədidir» (bax: Zəbur 136:1). «Məhəbbətin bu həyatdan gözəldir. Bütün ömrüm boyu Sənə alqış edəcəyəm, əllərimi qaldırıb adınla Səni səsləyəcəyəm» «ehtişamını millətlərə elan edəcəyəm, xariqələrini bütün xalqlara bəyan edəcəyəm» (Zəbur 63:4–5, 96:3). Mən Rəbbə adına layiq izzət verəcəm, müqəddəslik zinəti ilə Rəbbə səcdə edəcəm! (bax: Zəbur 29:2)

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Amma artıq o zaman gəlir və gəldi ki, həqiqi ibadət edənlər Ataya ruhda və həqiqətdə ibadət edəcək. Çünki Ata Özünə belə ibadət edənlər axtarır. Allah ruhdur və Ona ibadət edənlər ruhda və həqiqətdə ibadət etməlidir.

*Yəhya 4:23–24*

Şükür qurbanı Allaha təqdim et, Haqq-Taalaya əhd etdiyin təqdimlərini ver. Dar gündə Məni çağır, Mən səni xilas edəcəyəm, sən də Məni şərəfləndirəcəksən.

*Zəbur 50:14–15*

Sənə pənah gətirənlərsə qoy sevinsinlər, qoy Səni daima mədh etsinlər, çünki onları Sən qoruyursan. Səni sevənlər sevincdən cuşa gəlsinlər!

*Zəbur 5:11*

Kim ki şükür qurbanı təqdim edir, Məni şərəfləndirir. Doğru yol tutan şəxsə Allahın xilasını göstərəcəyəm.

*Zəbur 50:23*

Bütün qəlbimlə Sənə şükür edirəm, «allahlar»ın önündə Səni tərənnüm edirəm. Müqəddəs məbədinə tərəf səcdə edirəm, məhəbbətin, sədaqətin naminə isminə şükür edirəm. Çünki ismini, kəlamını hər şeydən üstün tutmusan. Səni çağıranda mənə cavab verirsən, canıma taqət verib məni ürəkləndirirsən.

*Zəbur 138:1–3*

## ON BİRİNCİ FƏSİL

# YA RƏBB, ƏMƏYİMƏ XEYİR-DUA VER

Mən bilirəm ki, ac yatmaq nə deməkdir. Biz kasıb ailə idik və çox vaxt evə ərzaq almağa pulumuz yox idi. Aclıqla bağlı o dəhşətli xatirələrim böyüdən sonra da unuda bilmirdim. Bu aclıq qorxusu məni dayanmadan işləməyə vadar edirdi, çünki bir daha bu aclığı yaşamaq istəmirdim. Öz həmyaşıdlarımla vaxt keçirmək əvəzinə mən şənbə və bazar günləri saatı 50 sentə dayə işləyirdim. Başqa günlər isə dərsdən sonra gecəyarına qədər işləyirdim. Bu vəziyyət orta məktəbdə və kollecdə oxuyana qədər davam etdi. Kolleci bitirdikdən sonra eyni səbəbə görə mən iki yerdə işləyirdim. Ürəyimin dərinliyində həmişə ərzaq almağa pul çatmayacaq qorxusu ilə yaşayırdım. Buna görə də gücümdən artıq işləyirdim.

Yalnız imana gələndən sonra mən dərk etməyə başladım ki, Rəbb Öz övladlarının qayğısına qalır və bundan sonra, nəhayət ki, mən bu qorxudan azad oldum. Allahın mənim qayğıma qaldığını bildikdən sonra, Ona etibar edə biləcəyim üçün rahatlıq tapdım. Elə o vaxtdan bir daha təlaşa düşmürdüm, çünki bütün ehtiyaclarımı Rəbbin öhdəsinə buraxırdım.

Mən, mənə təklif olunan işlərə daha ehtiyatlı yanaşmağa və düzgün seçim etməyə başladım. Həmişə Allahdan soruşurdum ki, mənə hansı

işi münasib görür. Mən bir şeyi dərk etmişdim ki, əgər bütün işlərimi Rəbb idarə edirsə və gördüyüm iş Ona izzət gətirirsə, onda Rəbb mütləq işlərimə xeyir-dua verəcək. İşim artıq mənim üçün yük deyildi. Həmişə Allahdan xahiş edirdim ki, O, vəzifəmin öhdəsindən uğurla gəlməkdə mənə kömək etsin. Tədricən işim bəhrəli və xeyir-dualı olsun.

## Hər birimiz üçün iş var

Sənin kim olmağın vacib deyil. İstəyir tələbə, böyük kompaniyanın əməkdaşı, tənha qadın, evdar qadın, işgüzar qadın, əlil, xəstə baxıcısı, tənha ana, xeyriyyə təşkilatının əməkdaşı, şou-biznesin ulduzu, yaxud da yalnız Allahın gördüyü «kiçik insan» ol, bunun əhəmiyyəti yoxdur, sən öz vəzifəni yerinə yetirirsən. Allah üçün sənin nə qədər əmək haqqı aldığın vacib deyil. Allah üçün vacib sənin o işi necə yerinə yetirməyindir. Allahın sənin işinə xeyir-dua verəcəyinə ümid edirsən.

Biz gördüyümüz hər işi yaxşı etməyə çalışırıq. İş yaxşı gedəndə, biz sevinməyə başlayırıq. Ətrafdakı insanlar, özümüz və ailə üzlərimiz üçün xeyirli bir iş görəndə, daxilimizdə məmnunluq hissi keçiririk. Əgər Rəbb işimizə xeyir-dua vermirsə, onda məyus olub narazıçılıq edirik.

Müqəddəs Kitab bizə nümunəvi, ideal və zəhmətkeş qadın obrazını təsvir edir. (bax: Süleymanın Məsəlləri 31-ci fəsil). O, şəxsi mülkiyyətini alıb satır (sizcə bu, daşınmaz əmlakdır?); üzümlükdə işləyir (sizcə bağban-dekorator?); paltar tikir (sizcə modelyerdir?) və onları satır (paltar mağazasının dekoratorudur?). Bu qadın güclü, enerjili, zəhmətkeşdir, axşama qədər işləyir və gördüyü işi yaxşı etdiyinə əmindir. Allah istəyir ki, biz uğurlarımıza sevinək və onlardan razı qalaq. Lakin bu, duasız mümkün deyil. Dua — ömürüzü oğurlayan tamahkarlıqla (Süleymanın Məsəlləri 1:19), bizi yoxsul edən tənbəlliyin (Süleymanın Məsəlləri 10:4) arasında balans yaradır. Dua

bizi var-dövlətin acgözlüyündən qoruyur (Süleymanın Məsəlləri 23:4–5) və vicdanla iş görməyə istək verir. Nəticədə isə, biz maddi mükafat alırıq (Süleymanın Məsəlləri 10:4). Məhz dua bizə əməklə tənbəlliyin arasında balans saxlamağa kömək edir, necə ki, yazılıb: «insan bütün dünyanı qazanıb canını itirərsə ona nə xeyri var?» (Matta 16:26).

Müqəddəs Kitabda yazılıb ki, «…işçi öz haqqına layiqdir» (1 Timotey 5:18). Bundan görünür ki, sən əməyənə görə mükafata layiqsən. Bəzən əməyin özü elə mükafatdır. Məsələn, sən ev işlərinə, yaxud yemək bişirdiyinə, ya da uşağına ayaqqabı bağı bağlamağı öyrətdiyinə görə əmək haqqı almırsan. Lakin hər halda, zəhmətinin nəticəsini görmək elə bütün mükafatlardan üstündür. «Salehin mükafatı həyatdır» (Süleymanın Məsəlləri 10:16).

Əgər sən iş yerində yaxşı maaş alırsansa, ona dua et ki, bu, həmişə belə olsun. Öz müdirnə və onun işinin uğurlu olması üçün dua elə ki, müdirin həmişə bütün işçilərə yaxşı əmək haqqı verə bilsin. O cümlədən, işinin nüfuzlu və başqalarının gözündə dəyərli olması üçün dua elə. Duada Allahdan karyeranın yükslməsini istə, lakin bu, Allahın iradəsinə uyğun olmalıdır. Duada Allaha belə söylə: «Ya Rəbb, əgər iradən varsa, istəyirəm ki, Sən vəzifəmlə birgə əmək haqqımı da qaldırasan». Əgər sən belə dua etməyə başlasan və işini Rəbbə həsr etsən, onda Rəbb işinə xeyir-dua verəcək. Maddi vəziyyətin necə olursa olsun, istər yaxşı, istər pis, əməyin Allah üçün, insanlar üçün və sənin üçün çox vacibdir. Sən bu cür duaya laqeyd yanaşmamalısan. Öz işini Rəbbə həsr elə və Allahdan xahiş et ki, işini xeyir-dualandırsın.

## *Dua*

*Ya Rəbb*, görməli olduğum işi mənə göstər. Əgər mən öz işimlə məşğul olmuramsa, onda bunu mənə bildir. Əgər

işimdən əlavə başqa bir iş görməliyəmsə, onu da mənə göstər. Əgər Sən məni indi və ya gələcəkdə hansısa bir xidmətə hazırlayırsansa, yalvarıram, bunun üçün mənə lazım olan güc ver. Vəzifəmi yaxşı və layıqli şəkildə yerinə yetirməkdə mənə kömək et. İşimin xoşagəlməyən sahələrində də sevinc və məmnunluq tapmağıma kömək elə.

Ya Rəbb, Sənə minnətdaram ki: «hər zəhmətdə bir fayda var» (Süleymanın Məsəlləri 14:23). Ona görə dua edirəm ki, qoy mənim işim layiqincə qiymətləndirilsin. Yalvarıram, Öz bolluq mənbəyindən məni mükafatlandır. Müdiriyyətimə xeyir-dua ver. Qoy onların mənimlə olan ünsiyyətləri xeyirduaya çevrilsin, mən də onların sadiq köməkçisi olum. Elə et ki, Sənin bol məhəbbətin və sülhün mənim vasitəmlə axsın və Sənin xeyirxahlığın hamıya bəlli olsun. Kömək elə ki, Sənin Səltənətin naminə bütün əməkdaşlarımın ürəyinə toxuna bilim.

Ya Rəbb, mənə bəxş etdiyin bütün ənamlara və bacarıqlara görə Sənə minnətdaram. Əgər ixtisasımı yüksəltməliyəmsə, onda bu işdə mənə kömək ol ki, işimi ən yaxşı səviyyədə görə bilim. Mənim peşakar səviyyəmi yüksəltməkdə kömək elə ki, başqaları işimin bəhrəsindən faydalana bilsinlər. Bütün bacarıqlarımı üzə çıxart və onlardan istifadə etməyə mənə kömək elə. Qoy Sənə məqbul olmayan yollar qarşımda bağlansın. Mənə müdriklik ver və bu məsələdə xüsusi yol göstər.

Ya Rəbb, öz işimi Sənə həvalə edirəm, çünki bilirəm ki, Sən hər şeyi layiqli tərzdə edəcəksən (Süleymanın Məsəlləri 16:3). Sənətimə qarşı məhəbbət ver və xoşladığım işimin öhdəsindən yaxşı gəlməyə kömək elə. Sənin Kəlamına əsasən

mən iş yerimdə səyli işçi olmaq istəyirəm və qoy Sənə xidmət etdiyim vaxt «səyim azalmasın» (bax: Romalılara 12:11). Elə et ki, mənim əməyim bir çox insanlar tərəfindən bəyənilərək onlar üçün böyük xeyir-dua olsun. Qoy mənim əməyim Sənə həmişə izzət gətirsin.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Nə bəxtiyardır Rəbdən qorxan, Onun yolları ilə gedən insan! Çünki öz əlinin bəhrəsini yeyəcəksən, xoşbəxt olub uğur qazanacaqsan.

*Zəbur 128:1–2*

Rəbbin xeyir-duası insana sərvət gətirər, daha ona qüssə verməz.

*Süleymanın Məsəlləri 10:22*

Ey Xudavənd Allahımız, bizimlə xoş rəftar et, əllərimizin zəhmətini uğurlu et, bəli, bizim əllərimizin zəhmətini uğurlu et.

*Zəbur 90:17*

İşində mahir olanı görürsənmi? Sıravi adamların deyil, şahların hüzurunda dayanar.

*Süleymanın Məsəlləri 22:29*

Həm də hər kəsin yeyib-içməyi və gördüyü işdən zövq almağı Allahın bəxşişidir.

*Vaiz 3:13*

## ON İKİNCİ FƏSİL

# YA RƏBB, MÜQƏDDƏS RUHUNUN SƏMƏRƏSİNİ GƏTİRMƏKDƏ MƏNƏ KÖMƏK ET

Mənim atam omrünün çox hissəsini fermerliklə məşğul olub. O, əkin-biçinlə məşğul olduğu üçün bol məhsul yığmağı bacarırdı. Həyatımın bu dönəmində əsas öyrəndiyim şey — meyvə-tərəvəz yetişdirmək idi. O vaxt bizim məhsul yığmaq üçün kürəkcik və kərkidən başqa heç bir alətimiz yox idi. Bizim evimizdə hətta, su kəməri də yox idi, hələ məhsulu suvarmaq üçün avtomat cihazları demirəm. Əkdiklərimizin suvarması üçün yeraltı suların üzə çıxmasını gözləyirdik. Bu şəkildə əkililərin dibi sulansa da, üstünə su dəymirdi.

Əkini əkib suvarandan sonra torpağı kübrələyirdik və kətmələyirdik ki, toxmacarlar sərbəst şəkildə böyüyə bilsinlər. Bitkilərimizi dolu, qasırğa və şaxtadan qoruyurduq. Xüsusilə nəzarət edirdik ki, bəhrə kövdədən, kövdə isə kötüyündən qopub düşməsin. Göstərdiyimiz qayğı nəticəsində həmişə yaxşı məhsul əldə edərdik. Atam da bununla fərx edərdi.

Biz dərk etsək də, etməsək də gündəlik həyatımızda nəsə əkirik və keçmişimizdə əkdiklərimizi biçirik. Çünki keçmişdə əkdiklərimiz indiki həyatımızın keyfiyyətini müəyyənləşdirir. Keçmişdə əkdiklə-

rimizdən uzun illər keçsə belə, biz ya yaxşı, ya da ki pis bəhrələr biçirik. Buna görə də, kefiyyətli toxum əkmək üçün indidən onların qayğısına qalmaq lazımdır.

İsa Məsih deyir ki, O, Meynə biz isə budaqlarıq. Əgər biz daima İsa Məsihdə qalırıqsa, onda yaxşı bəhrə gətiririk. (bax: Yəhya 15:15). «Qalmaq» sözünün mənası «daimlilik» deməkdir. Bahqa sözlə desək, əgər biz daima Onda qalırıqsa, O da bizə qalırsa, onda Müqəddəs Ruhun bəhrələrini gətirməyə başlayacağıq (Qalatiyalılara 5:22–23). Bizim buna böyük ehtiyacımız var.

Belə hesab olunur ki, biz bir damın altında yaşadığımız və tez-tez ünsiyyət qurduğumuz insana bənzəməyə başlayırıq. Əgər həyatımızı İsa Məsihə həsr ediriksə, onda Onun surətinə bənzəyəcəyik. Əgər ruhda Onunla birləşiriksə, onda Müqəddəs Ruhun bəhrələrini gətirməyə başlayacağıq.

### Bol məhsul yetişdirməyinin doqquz düzgün yolu

1. *Məhəbbət toxumlarını əkmək.* Allahdan xahiş et ki, O, sənin qəlbinə məhəbbət toxumlarını əksin, belə ki, bu məhəbbəti tamlığı ilə hiss edə biləsən. Həmçinin dua elə ki, Allah Öz məhəbbətini sənin vasitənlə başqalarına da izhar etsin. İsa Məsih deyir: «Əgər əmrlərimə riayət etsəniz, Mənim məhəbbətimdə qalacaqsınız, necə ki Mən Atamın əmrlərinə riayət edərək Onun məhəbbətində qalıram» (Yəhya 15:10). Allahdan sənin itaətkar olmağını xahiş et, qoy Onun məhəbbəti qəlbində ətir saçsın.
2. *Sevinc toxumlarını əkmək.* Allahın sevinci sənin həyatında yaranan heç bir vəziyyətindən asılı deyil. Sən, hətta, mürəkkəb və acınacaqlı vəziyyətə düşsən belə, həmişə Allahın sevincini hiss edə bilərsən. Çünki Allahın verdiyi sevinc Onunla qurulan ünsiyyətdən qaynaqlanır. Allahdan ayrı düşən və Onun vədlərinə etibar etməyən kəs Allahın sevincini hiss edə bilməz «Bu sözləri sizə söylədim ki, sevincim sizdə olsun və

sevinciniz kamil olsun» (Yəhya 15:11). Əgər sənin həyatında Allahın sevinci mövcuddursa, onda Allahın sənin həyatında böyük işlər görəcəyinə ümid edəcəksən. Allaha dua et ki, O, sənin qəlbinə sevinc toxumlarını əksin. Belə ki, həm sən sevinəsən, həm də ətrafdakı insanlara bu sevinci bəxş edə biləsən.

3. *Sülh toxumlarını əkmək.* Allahdan xahiş et ki, Onun ağlagəlməz sülhü daima ürəyində hökmranlıq etsin. «Onda Allahın ağlagəlməz sülhü ürəklərinizi və düşüncələrinizi Məsih İsada qoruyacaq» (Filipilərə 4:7). Allahın sülhü yalnız bir şərtlə ürəyimizdə hökmranlıq edəcək, bu da, əgər Allahla sıx ünsiyyətimiz olarsa. Allahdan Onu dərindən tanımağı üçün və ətrafdaki insanlara sülh mənbəyi olmağın üçün kömək istə.
4. *Səbir toxumlarını əkmək.* Səncə, nə üçün Allah bizim səbirli olmağımızı istəyir? Bu, yəqin ona görədir ki, Allahın hər şey üçün öz vaxtı var. Allah hər şeyi bizim düşündüyümüzdən də artıq edir. Buna görə də, Allahın görəcəyi hansısa bir işin həyata keçməsi üçün Ona etibar etməliyik. Lakin Allah Öz planını bizim həyatımızda keçirtməzdən əvvəl bizi təmizləyir və kamilləşdirir. «Siz tənbəl olmayasınız, amma vəd olunan şeyləri iman və səbirlə irs alanlardan nümunə götürəsiniz» (İbranilərə 6:12). «Dözüm də öz əməlini kamil etsin ki, siz yetkin və kamil adamlar olasınız, heç bir çatışmamazlığınız olmasın» (Yaqub 1:4). «Dayanıb dözməklə canlarınızı qurtarın» (Luka 21:19). «Sən dözümlü oldun, Mənim adım naminə tab gətirdin və yorulmadın» (Vəhy 2:3). Bunula da, hər şey aydındır. Dua elə ki, dözümün möhkəm olsun və heç bir imtahan qəlbindən onu qopara bilməsin.
5. *Xeyirxahlıq toxumunu əkmək.* Öz bağında hansı toxumu əkməyin üçün sənin seçimin var. Sən lazım olan toxumunu əkirsən, böyüdən isə Allahdır. Sənin ilk əkməli olduğun toxum xeyirxahlıq toxumu olmalıdır. Başqa sözlə desək, sən xeyirxahlığı

seçməklə onun libasına bürünürsən (bax: Kolosselilərə 3:12). Ən böyük xeyirxahlıq İsa Məsihin çarmıxda Özünü bizə görə qurban verməsidir. Dua elə ki, İsa Məsihin xeyirxahlıq toxumu sənin qəlbində kök salsın və özünü qurban vermək kimi böyük xeyirxahlığa hazırlasın.

6. *Yaxşılıq toxumunu əkmək.* İsa Məsihin yaxşılığı sənin ürəyində yer alan kimi dərhal yaxşı işlər görmək istəyi yaranır. «Yaxşı adam yaxşılıq xəzinəsindən yaxşı şeylər çıxarır, pis adam isə pislik xəzinəsindən pis şeylər çıxarır» (Matta 12:35). «Beləcə, hər yaxşı ağac yaxşı bəhrə, pis ağac isə pis bəhrə verər» (Matta 7:17). Allahdan Ona qalmağını xahiş elə ki, Onun yaxşılığı səndə bəhrə gətirsin. Bu toxum səndə böyüdükcə insanlara yaxşılığın da artacaq.
7. *Sədaqət toxumunu əkmək.* Əgər biz Allahdan asılılığımızı dərk ediriksə, əgər etibara layiqiqsə və imanda sabit və sarsılmaz qalırıqsa, onda bunula Allaha öz sədaqətliyimizi göstərmiş oluruq. «Ən balaca bir işdə sadıiq olan kəs böyük işdə də sadiqdir. Ən balaca işdə haqsız olansa, böyük işdə də haqsızdır» (Luka 16:10). Allaha dua et ki, həmişə Ona sadiq qala biləsən və ətrafdakı insanlara yaxşı nümunə olasan.
8. *Həlimlik toxumunu əkmək.* Əgər biz özümüzü təkəbbürlü aparırıqsa və insanlarla kobud rəftar ediriksə, bu, onları incidir və bizdən uzaqlaşdırır. Həlim olmaq insanlarla mehriban, gülər üzlə davranmaq və xoş rəftar etmək deməkdir. Müqəddəs Kəlam deyir: «Rəbbin qulu davakar olmamalıdır, əksinə, hamıyla mülayim rəftar etməli, öyrətməyə qabil, səbirli olmalıdır» (2 Timotey 2:24); «Amma yuxarıdan nazil olan müdriklik əvvala safdır, sonra da sülhpərvərdir, mülayimdir, itaətlidir, mərhəmət və xeyirli bəhrələrlə doludur, qərəzsizdir, riyasızdır» (Yaqub 3:17). Başqa insanların hisslərinə və onların tələbatlarına diqqətli olmaqla, onlarla mülayim rəftar etməklə Allaha itaətli olduğunu göstərir. Allahdan xahiş et ki, İsa Məsihin hə-

limliyi və mehribanlığı sənin xasiyyətində öz əksini tapsın (bax: 2 Korinflilərə 10:1).

9. *Nəfsə hakim toxumunu əkmək.* Nəfsə hakim olmaq çiyələyin zəif gövdəsinə bənzəmir, o, alma ağacının möhkəm və böyük gövdəsinə bənzəyir. Yalnız Allah bu cür bəhrəli və möhkəm bitkini böyüdə bilər. Özünü ələ ala bilməyən insan nəticəsini düşünmədən, həmişə sevdiyi şeyləri edir. Allahdan xahiş elə ki, qarşına çıxan imtahanlarda sənə güc versin. «Elə buna görə də siz bütün səylə imanınıza alicənablıq, alicənablığınıza bilik, bildiyinizə nəfsə hakim olmaq, nafsə hakim olmağınıza dözüm, dözümünüzə möminlik, möminliyinizə qardaşlıq sevgisi, qardaşlıq sevgisinə məhəbbət əlavə edin» (2 Peter 1:5–6). Allahdan xahiş et ki, O, sənin qəlbinə nəfsə hakim olmaq toxumunu əksin. Belə ki, bu toxum böyük və möhkəm bir ağaca çevrilsin. Dua elə ki, Allah sənin emosiyalarını, arzularını ruhuna tabe etdirməkdə kömək etsin. Allah mütləq sənə nizam-intizam öyrədəcək.

Əgər səndə Müqəddəs Ruhun bəhrələrini gətirmək alınmırsa, onda Allaha yalvar ki, sənə kömək etsin və ürəyində kök salmış bütün alaq otları təmizləsin. Ürəyinin torpağını Allahın Kəlamı ilə kübrələ və Müqəddəs Ruhdan xahiş elə ki, onu Allahın canlı suyu ilə gündəlik sulasın. Əgər sən Allaha sadiqsənsə və həqiqi Meynədə qalırsansa, onda mütləq Səmavi Atanı razı salan ruhani bəhrələr gətirəcəksən.

## Dua

*Ya Rəbb,* yalvarıram, ürəyimi yoxla, qoy orada pis toxum olmasın. Qəlbimdə olan bütün pis niyyətləri təmizlə. Ürəyimdə yaxşı bəhrə gətirə biləcək toxumlar ək (bax: Mark

4:8). Yaxşı bəhrə gətirmək üçün daima İsa Məsihdə qalmağa mənə kömək et. Müqəddəs Ruh, Səndən xahiş edirəm ki, məhəbbətinin ətrini qəlbimə elə doldur ki, bu məhəbbət məndən başqa insanlara aşıb-daşa bilsin.

Ya Rəbb, Sən Öz Kəlamında demisən ki: «Məsihin sülhü qoy ürəklərinizdə müsiflik etsin, çünki bir bədənin üzvləri kimi bu sülhə dəvət olunmuşuq» (Koloslulara 3:15). Ya Rəbb, yalvarıram, qoy Sənin sülhün həm qəlbimə, həm də düşüncəmə elə çöksün ki, ətrafımda olan bütün insanlar bunu hiss edə bilsin. Mən «özümü sülh gətirən və bir-birimizi inkişaf etdirən işlərə həsr edim» (Romalılara 14:19).

Səninlə ünsiyyətdən qaynaqlanan sülhünü hər zaman hiss etməyə kömək elə. İnsanlarla ünsiyyət qurduğum zaman səbirli olmağa kömək elə, çünki mən Sənin xasiyyətini əks etdirmək istəyirəm. Hər fürsətdə mənə yaxşılıq etməyə kömək et ki, Sənin xeyirxahlığın insanlara izhar olunsun. Mənə sadəqətli olmağı öyrət. Qoy hamıya qarşı etibarlı olum. Həmçinin həlim olmağa və Məsihin iltifana malik olmağa mənə kömək elə. Qoy məndə Sənin həlim Ruhun olsun (bax: 2 Korinflilərə 10:1). Bütün düşüncələrimə və sözlərimə nəzarət etməyi öyrət.

Əgər yaxşı bəhrə gətirməyim üçün budanmağım lazımdırsa, yalvarıram, məni buda. Bilirəm ki, Sənsiz heç nə edə bilmərəm. Sən həqiqi Meynəsən, mən isə budağam və yaxşı bəhrə gətirməyim üçün mən daima Səndə qalmalıyam. Yalvarıram, bu işdə mənə kömək elə. Sənin Kəlamın deyir ki, əgər Səndə qalsam və Sənin sözlərin məndə qalsa, onda Səndən hər şey diləyə bilərəm. Və hər nə istəsəm mütləq alacağam. Verdiyin bu vədlərinə görə Sənə minnətdaram (bax: Yəhya 15:7; 16:24). Qoy axar sular kənarında əkilən, barını möv-

sümündə verən, yarpağı solmayan ağac kimi olum (Zəbur 1:3). İsa Məsihin naminə yalvarıram, Müqəddəs Ruhun bərhələrini məndə inkişaf etdir. Belə ki, bu bəhrələr hamıya məlum olsun və Sənə çoxlu izzət gətirsin.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Müqəddəs Ruhun səmərəsi isə budur: məhəbbət, sevinc, sülh, səbir, xeyirxahlıq, yaxşılıq, sədaqət, həlimlik, nəfsə hakim olmaq. Bu kimi şeylərə qarşı qanun yoxdur.

*Qalatiyalılara 5:22–23*

Mən həqiqi Meynəyəm, Atam da Bağbandır. Məndə olub bəhrə verməyən hər budağı Atam qoparır. Bəhrə verən hər budağı isə budayib təmizləyir ki, daha çox bəhrə versin. Sizə söylədiyim söz sayəsində siz artıq təmizsiniz. Məndə qalın, Mən də sizdə qalım. Budaq Meynədə qalmasa özündən bəhrə vermədiyi kimi siz də Məndə qalmasanız bəhrə verə bilməzsiniz. Meynə Mənəm, sizsə budaqlarsınız. Kim Məndə qalsa, Mən də onda qalsam çoxlu bəhrə verər, çünki Mənsiz heç nə edə bilməzsiniz. Kim Məndə qalmasa budaq kimi kənara atılıb quruyar. Belə budaqlar yığılıb oda atılaraq yanar. Əgər Məndə qalsanız və sözlərim sizdə qalsa, nə istəyirsinizsə diləyin, sizə veriləcək. Sizin çoxlu bəhrə verərək Mənim şagirdlərim olmağınızla Atam izzətlənir.

*Yəhya 15:1–8*

## ON ÜÇÜNCÜ FƏSİL

# YA RƏBB, MƏNİ PAKLIQDA VƏ NÖQSANSIZLIQDA SAXLA

Qoy bu fəslin başlığı səni təəccübləndirməsin. Nöqsansız olmaq hələ kamil olmaq demək deyil. Bu, Müqəddəs Olan Allaha səndə qalmağına icazə verməkdir. Biz öz gücümüzə qüsursuz yaşaya bilmərik. Lakin seçim edə bilərik, o zaman Allahın müqəddəsliyi bizdə görünəcək. Biz möminliyimizi ləkələyən şeylərdən qaça və cismani təbiətin istəkləri üçün ölə bilərik. Lakin bu, bizim gücümüz daxilindədir, çünki yazılmışdır: «Məsih İsaya məxsus olanlar isə öz həvəs və ehtirasları ilə birlikdə cismani təbiəti çarmıxa çəkdilər» (Qalatiyalılara 5:24). Biz artıq cismani təbiətimizin köləläri deyilik və Allaha həsr olunmuş pak həyat yaşaya bilərik.

Bəzən insanlardan belə sözlər eşidə bilirik: «Mən pornoqrafiyanın (əxlaqsız və ədəbsiz səhnələri təsvir edən şəkillər) tərifini dəqiq şəkildə verə bilmərəm, lakin onu görsəm ayırd edə bilərəm». Paklıq və qüsursuzluq tamam başqa görə təsvir olunur: sən müqəddəsliyi təkmənalı şəkildə təsvir etməyə çətinlik çəkə bilərsən, lakin müqəddəslikdə bixəbər olan insanı görən kimi salehliyin nə olduğunu mütləq başa düşəcəksən. Aşağıda qüsursuz həyat yaşamağın yeddi əlaməti təsvir olunur. Bu siyahını oxuduqda başa düşəcəksən ki, bunlardan hansı sənin həyatında yoxdur.

## Qüsursuz həyat yaşamağın yeddi əlaməti

1. *Qüsursuzluqda yaşamaq özünü dünyadan ayırmaq deməkdir.* Bu o demək deyil ki, sən dağlarda gizlənib, özünü dünyəvi insanlardan qoruyasan. Bu o deməkdir ki, sən bu dünyanın sistemini və onun dəyərlərini rədd edirsən və onun əvəzinə Allah üçün dəyərli olan şeyləri qəbul edirsən. Əks halda, nəticələr dəhşətli ola bilər «Ey vəfasızlar, dünya ilə dostluğun Allaha qarşı düşmənçilik olduğunu bilmirsinizmi? Buna görə də, dünya ilə dost olmaq istəyən özünü Allaha düşmən edir» (Yaqub 4:4). Sizcə, kim Allaha düşmən olmaq istəyər?
   Mən başa düşürəm ki, yaşadığımız dünyadan ayrı düşmək çətindir. Lakin sənin belə bir arzun varsa, Allahdan xahiş et ki, sənə kömək etsin. Təbii ki, sənin seçimin var: sən hansısa televiziya verilişinə həm baxa, həm də baxmaya bilərsən, yaxud müəyyən kinoya baxmaq üçün kinoteatra həm gedə, həm də getməyə bilərsən, bəzi jurnalları oxuya ya da oxumaya bilərsən və ya hansısa yerlərə baş çəkə, yaxud çəkməyə bilərsən «Dünyanı və dünyada olan şeyləri sevməyin. Kim dünyanı sevərsə, onda Atadan olan məhəbbət yoxdur. Çünki dünyada olan hər şey — cismani ehtiraslar, ac gözlük və dünya malına görə təkəbbür Atadan yox, dünyadan gəlir» (1 Yəhya 2:15–16). Allaha yalvar ki, səni dünyəvi işlərdən uzaqlaşdırsın və Onu dünyadan daha çox sevməyi öyrətsin.
2. *Qüsursuzluqda yaşamaq qəlbimizin təmizlənməsi deməkdir.* Qəlbinin təmizlənməsi nöqsanları gizlədən ağ libasa bürünmək demək deyil. Əslində isə, bu, qəlbi təmizləmək üçün Allaha müraciət etmək deməkdir. Günah əzəldən bizim ürəyimizdə yaşayır. Təmizlənməyimizin məqsədi odur ki, biz həyatımızı analiz edə, fikirlərimizə, əməllərimizə və işgüzar əlaqələrimizə nəzarət edə və özümüzü hər cür natəmizlikdən təmizləyə bilək. Biz mənəviyyatcə pak və əxlaqlı olmaq üçün can atma-

lıyıq. «Ona bu cür ümid bağlayan hər kəs O, pak olduğu kimi özünü pak edir» (1 Yəhya 3:3).

Allah «müqəddəs olun» (Levililərə 19:2) deyərək əmr verdi: oğurlamamaq, yalan danışmamaq, hiylə işlətməmək, böhtan atmamaq, qisas almamaq, özünə büt düzəltməmək. Bundan görünür ki, biz əxlaqsızlıqdan qurtulduğumuzu sübüt edən əməllər göstərməliyik. Biz hər cür ləyaqətsiz həyat tərzində və hər cür qüsurdan bilərək üz çevirməliyik. «Amma sizi çağıran Allah müqəddəs olduğuna uyğun olaraq, siz də bütün həyat tərzinizdə müqəddəs olun, necə ki yazılıb: «Müqəddəs olun, çünki Mən müqəddəsəm»» (1 Peter 1:15–16). Allahdan xahiş et ki, sənə həyat yollarını diqqət yetirməkdə və hər şeydə Ona müraciət etməkdə kömək eləsin (bax: Mərsiyələr 3:40).

3. *Qüsursuzluqda yaşamaq cismani təbiətə görə deyil, ruha görə hərəkət etmək deməkdir.* Bizim cismani düşüncələrimiz bizim kimliyimizi göstərir. Onlar əməllərimizdən betərdi. Kiməsə paxıllıq edirikmi? Kimləsə düşmənçilik edirikmi? Günahı bilərəkdən həyatımıza buraxırıqmı? Əgər belədirsə, onda biz cismani təbiətə görə yaşayırıq. Bu isə ölümlə nəticələnir. «Cismani təbiətə görə yaşayanlar cismani şeylər barədə düşünür, ruha görə yaşayanlar isə, ruhla bağlı şeylər barədə düşünür. Cismani təbiətə uyan fikirlər ölüm, ruha uyan fikirlər isə həyat və sülh gətirir. Çünki cismani təbiətə uyan fikirlər Allaha qarşı düşmənçilik edir; belə ki, bunlar Allahın qanununa tabe deyil və ola da bilməz. Həmçinin cismani təbiətdə olanlar Allahı razı sala bilməz» (Romalılara 8:5–8). Əgər sən həyatını obyektiv surətdə qiymətləndirməyi bacarınsansa, onda biçdiklərindən biləcəksən ki, keçmişdə nə əkmisən. «Aldanmayın: Allaha istehza edilməz. Çünki insan nəyi əkərsə, onu da biçəcək. Öz cismani təbiəti üçün əkən bu təbiədən məhv biçəcək. Ruh üçün əkənsə ruhdan əbədi həyat biçəcək» (Qalatiyalılara 6:7–8).

4. *Qüsursuzluqda yaşamaq cinsi əxlaqsızlıqdan təmizlənmək deməkdir.* Bizim yaşadığımız cəmiyyətdə ən böyük yanlışlıq əxlaqsızlığa biganə yanaşmağımızdır. Təsəvvür edin ki, şeytanın yalanlarına uyaraq və özlərini Allahın xeyir-dualarından məhrum edərək öz bədənlərini satan qadınları gördükdə Müqəddəs Ruh necə kədərlənir. Daha bir misal: özünü aldadan yeni nəsil əmindir ki, həyat yoldaşı olmayan şəxslə oral sekslə məşğul olmaq seks hesab etmək olmaz. Beləliklə, onların düşüncəsinə görə bədəni əyləndirmək olar. «Adam var ki, özünü təmiz sanır, amma murdarlıqdan təmizlənməyib» (Süleymanın Məsəlləri 30:12). Hamilə qalmamaq üçün müxtəlif yollardan istifadə edən insanlar öz canlarına zərər vurular, sonra isə nikahda olanda həyat yoldaşı ilə intim münasibətdən nə üçün zövq ala bilmədiklərinə təəccüblənirlər. Qüsursuzluqda yaşamaq yeni dəbdə olan nəzəriyyənin və ya konsepsiyanın ardınca getmək deyil (bax: 1 Saloniklilərə 4:3–5). Allaha yalvar ki, O sənin düşüncəni, canını və bədənini pak saxlamağa kömək etsin.
5. *Qüsursuzluqda yaşamaq İsa Məsihin adı naminə təqdis olunmaq deməkdir.* İsa Məsihi həyatımıza qəbul etməklə, biz əvvəlki tək günah içində yaşaya bilmərik. İndi İsa bizdə yaşadığı və Müqəddəs Ruh bizi doldurub dəyişdirdiyi andan biz öz pis əməllərimizə bəraət qazandıra bilmərik «Bu iradəyə əsasən biz İsa Məsihin bədəninin birdəfəlik təqdim olunmasına görə təqdis olunduq»; «Çünki O, yalnız bir təqdim vasitəsilə təqdis olunmaqda olanları həmişəlik kamilləşdirdi» (İbranilərə 10:10; 14). Bu o demək deyil ki, əgər İsa Məsih hər şeyin qayğısına qalıbsa biz günah işlətməkdən azadıq və istədiyimizi edə bilərik. Əsla! Bu o deməkdir ki, biz İsa Məsihdə qalmağa davam etməliyik və Allahdan qüsursuz həyat yaşamaq üçün kömək istəməliyik.
6. *Qüsursuzluqda yaşamaq Allaha yaxınlaşmaq deməkdir.* Əgər biz Allahın yolları ilə getməyə can atmırıqsa, əgər müqəddəs-

likdə və sülh içində yaşayaraq Allaha yaxınlaşmırıqsa, onda heç vaxt Allahın üzünü görməyəcəyik. «Hamı ilə birlikdə sülh içində yaşamağa və müqəddəs olmağa can atın, çünki müqəddəsliyə nail olmadan heç kim Rəbbi görməyəcək» (İbranilər 12:14). Allahın müqəddəsliyini dərk etmək, Ona yaxınlaşmağın yeganə yoludur (bax: Zəbur 23:3–4). «Mənə yaxınlaşanlar Məni müqəddəs saysınlar; bütün xalq məni izzətləndirsin» (Levililərə 10:3). Allaha yaxınlaşmaqdan başqa vacib heç nə yoxdur.

Hər birimizin həyatında elə məqamlar olur ki, biz Allahın bizim yanımızda olduğunu və dualarımızı eşitdiyini dərk edirik. Bizim Allahla müqavilə bağlamağa vaxtımız olmayacaq, lakin biz hər əməlimizə görə Ona cavab verməli olacağıq «Bilin ki, mömin insanı Rəbb Özü üçün ayırıb; nə vaxt Rəbbi çağırsan məni eşidir» (Zəbur 4:3). İndi saleh yaşamaq üçün və həyatımızı təmizləmək vaxtıdır, çünki biz bundan sonra da dualarımıza cavab almaq istəyirik.

7. *Qüsursuzluqda yaşamaq Allaha tam etibar etmək deməkdir.* Qüsursuzluq paltar deyil ki, istədiyin vaxtı geyinəsən və ya çıxardasan. Biz müqəddəslikdə yaşamalıyıq. Çünki bu, əzəldən Allahın iradəsi olub «O dünya yaranmazdan qabaq bizi Məsihdə seçdi ki, biz məhəbbətdə Onun qarşısında müqəddəs və nöqsansız olaq. Öz iradəsinin xoş məramına görə İsa Məsih vasitəsilə bizi əvvəlcədən təyin etdi ki, Özü üçün övladlığa götürsün» (Efeslilərə 1:4–5). Allah bizə müqəddəs həyatın yolunu göstərib və O, bizi müqəddəslikdə qoruyub saxlayacaq. Əgər bizim ürəklərimiz saleh həyata can atırsa Allah bizi günah işlətməkdən qoruyacaq.

İbrahim peygəmbər Avimelek padşaha Sara barəsində «Sara mənim bacımdır, arvadım yox» deyəndə Avimelek onu öz yanına apardı. Lakin Allah Avimelekə yuxuda bildirdi ki, başqasının arvadını aldı-

ğına görə öləcək. Avimelek isə dedi: «Mən bunu sadəlik və təmiz niyyətlə etdim» (Yaradılış 20:5).

Allah isə ona cavab verdi: «Mən də bilirəm ki, sən bunu sadəliklə etdin. Buna görə də ona toxunmağa qoymayaraq Mənə qarşı günah etməməkdən saxladım» (Yaradılış 20:6).

Əgər biz düzgün yaşayırıqsa, Allah bizi günahdan qoruyur. Hətta, biz qüsursuz həyat yaşamağı seçsək də, Allahın köməyi olmadan bu cür yaşaya bilmərik. Bunun səbəbi isə odur ki, Allah Özü Onun iradəsini həyata keçirtməkdə bizə güc verir. Lakin biz həmişə Allahdan qüsursuz yaşamağımız üçün güc diləməliyik. Çünki Allah istəyir ki, biz Onu qiymətləndirək və axtaraq. Baxmayaraq ki, insanlar müqəddəsliyi rədd edirlər, onlar üçün qüsursuzluqda yaşamaq cəlb edici görünür. Allahdan dilə ki, O, sənin həyatını Öz gözəlliyi ilə doldураraq təqdis etsin.

## *Dua*

*Ya Rəbb,* Sən Öz Müqəddəs Kəlamın vasitəsilə məni natəmizliyə deyil, müqəddəsliyə çağırırsan (bax: 1 Saloniklilərə 4:7). Çünki məni qüsursuz görmək Sənə məqbuldur. Bilirəm ki, İsa Məsihin adıyla təqdis olunmuşam (bax: 1 Korinflilərə 6:11). Sən məni salehlik libasına bürüdün və yeni məxluqa çevirdin. Yalvarıram, Müqəddəs Ruhun gücü ilə məni təqdis etməkdə davam elə. Kömək elə ki, mən «yaxşılığa bağlanım» (Romalılara 12:9) və özümü hər zaman «pak saxlayım» (1 Timotey 5:22).

Ya Rəbb, bütün natəmizliklərdən uzaqlaşmağa mənə kömək elə. İstəmirəm ki, həyatımı mənasız şeylərə sərf edim. Mənə əhəmiyyətsiz şeyləri ayırd etməyə və onlardan uzaq olmağa kömək elə. Qoy ürəyimdə Sənin planlarını həyata keçirmək üçün arzular oyansın. İmkanım daxilində əlimdən gə-

ləni etməyə kömək elə. Qoy ürəyimdə Sənin iradənə məqbul olmayan hər şeyi kökündən qoparıb çıxarda bilim və yalnız Sənin iradəni həyata keçirim. Həyatımda olan bütün bütləri yox etməyə və Sənə izzət gətirməyən televiziya verilişlərinə, kinolarına baxmaqdan, jurnal və kitabları oxumaqdan özümü saxlamağa kömək elə. Qoy heç bir pis fikir düşüncəmi zəbt etməsin. Kömək elə ki, bütün yollarıma diqqət yetirim və əgər yolumdan dönərəmsə, dərhal qayıda bilim. Sənin gözündə qüsursuz olmaq üçün əlimdən gələni etməyə kömək elə.

Ya Rəbb, Sən Müqəddəs olduğun kimi mən də müqəddəs olmaq istəyirəm. İzn ver ki, Sənin müqəddəsliyinə ortaq olum (İbranilərə 12:10). Qoy ruhum, canım və bədənim nöqsansız qorunub saxlanılsın (1 Saloniklilərə 5:13). Bilirəm ki, məni müqəddəsliyə çağıraraq belə dedin: «Sizi çağıran Allah Sadiq-dir və bunu edəcək» (1 Saloniklilərə 5:24). Bu vədlərinə görə Sənə minnətdaram. Əminəm ki, Sənin mirasını tamlığı ilə ala biləcəm.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

O, dünya yaranmazdan qabaq bizi Məsihdə seçdi ki, biz məhəbbətdə Onun qarşısında müqəddəs və nöqsansız olaq.

*Efeslilərə 1:4*

Ürəyi təmiz olanlar nə bəxtiyardır! Çünki onlar Allahı görəcək.

*Matta 5:8*

Böyük bir evdə yalnız qızıl və gümüş deyil, həmçinin taxta və gil qablar da var. Onlardan bəzisi şərəfli, bəzisi də şərəfsiz iş üçün istifadə olunur. Beləliklə, kim özünü şərəfsiz işlərdən təmizləsə, şərəfli işlərə uyğun, təqdis olunmuş, Sahibinə faydalı, hər yaxşı iş üçün hazırlanmış qab olacaq.

*2 Timotey 2:20–21*

Sevimlilər, bu vədlərə malik olduğumuza görə Allahdan qorxub kamil müqəddəsliyə çataraq bizi cisimdə və ruhda murdarlayan hər şeydən özümüzü təmizləyək.

*2 Korinflilərə 7:1*

Orada bir yol olacaq, o yol «Müqəddəs yol» adlanacaq. Murdar adam oradan keçməyəcək, o yol qurtuluş tapanların yoludur. Ora ilə gedənlərin heç biri, hətta ağılsızlar da keçsələr, əsla yolunu azmayacaq. Orada şişlər olmayacaq, yırtıcı heyvanlar o yola çıxmayacaq, onlara orada rast gəlməyəcəklər. Ancaq qurtuluş tapanlar o yol ilə gəzəcək. Rəbbin satın alınmış adamları qayıdacaq, sevinclə nəğmə deyərək Siona gələcək. Üzlərində əbədi sevinc olacaq, onlar fərəh və şadlıq tapacaq, kədər və qəm-qüssə yox olacaq!

*Yeşaya 35:8–10*

## ON DÖRDÜNCÜ FƏSİL

# YA RƏBB, MƏNİ ÇAĞIRDIĞIN XİDMƏTƏ LAYİQ OLMAĞA KÖMƏK ET

Mən tez-tez uşaqlarım üçün Allaha dua edirdim ki, Allah uşaqlarımın həyatının məqsədini və missiyalarının nə olduğunu açsın. Mən bir çox insanlar tanıyıram ki, Allahın onların həyatları üçün olan böyük planlarını dərk etmədiklərinə görə həyatlarını boş şeylərə sərf edirlər. Mən də cavanlıqda Allahın mənim üçün olan planından xəbərsiz idim, buna görə də həyatım uğursuz idi. Təbii ki, öz uşaqlarım üçün mən daha gözəl tale arzulayıram. Allah da dualarımı cavabsız qoymadı, çünki uşaqlarım bu həyatda nə üçün yaşadıqlarını bilirlər. Bu gün onları iyirmidən çox yaşları var və bugünədək onlar öz bacarıqlarını inkişaf etdirməkdədirlər. Onların həyat yolları getdikcə aydınlaşır. Baxmayaraq, öz gələcəkləri haqda heç nə bilmirlər, onlar əmindilər ki, onların gələcəkləri var və o, çox gözəldir.

«Dua edən valideynin günü» adlı kitabı işləyəndə mən uşaqlarım üçün duaya daha çox vaxt ayırıdım. O vaxtlar mən çoxlu sayda məktublar alırdım. Bu məktublarda insanlar öz yaşadıqlarını mənimlə bölüşürdülər. Belə məlum olmuşdu ki, bu insanlar üçün uşaqlıqda heç kim dua etməyib. Onlar qorxurdular ki, həyatlarını boş yaşayacaqlar

və Allahın onlar üçün təyin etdiyi əsas məqsədi əldən buraxacaqlar. Mən bu insanları ruhlandırmağa çalışırdım: «Siz Allahdan və Onun məqsədlərindən nə qədər yayınsanız da, O, olduğunuz yerdən olmalı olacağınız yerə sizi gətirəcək və əgər siz bütün həyatınızı Onun əllərinə versəniz, Allahdan asılı olduğunuzu etiraf etsəniz, onda O, sizi düz yola yönəldəcək. Əlbəttə, əvvəlcədən düz yolda olsaydınız, onda Allahın məqsədinə çatmaq üçün daha az vaxt sərf olunardı, nəinki indi. Lakin unutmayın ki, əgər siz geri dönmədən Allahın ardınca getsəniz, O, sizi lazım olan yerə gətirəcək».

Heç vaxt düşünmə ki, artıq gecdir. Müqəddəs Kitabda deyilir ki, «Çünki Allahın ənamları və dəvəti geri alınmaz» (Romalılara 11:29). Bu o deməkdir ki, Allahın sənə verdiyi ənamları O, geri götürmür. Çünki Onun ənamları məhv olunmur. Allahın ənamları daima səninlədir. Lakin bu ənamların Allahın məshi ilə heç bir əlaqəsi yoxdur. Allah sənə toxunanda qaranlığı yox etmək, həyat və nur bəxş etmək üçün sənə fövqəltəbii güc verir. İnsanların dəfələrlə əxlaqsız hərəkət etdiyini az görməmişik. Onlar Müqəddəs Ruhun onları tərk etmələrinə başa düşmədikləri halda, öz ənamlarını boş yerə sərf edirlər. Günah onların gözlərini kor etdiyi üçün onlar nəyi itirdiklərini dərk etmirlər.

## Hər kəsin öz məqsədi var

Hər qadının bu həyatda öz vəzifəsi var, lakin hər qadın bunu başa düşmür. Bizim çağırışımız haqqında heç bir görüntümüz olmayanda, biz ya kiməsə bənzəməyə, ya da özümüzü olmadığımız kimi göstərməyə başlayırıq. Biz özümüzü başqaları ilə müqayisə edirik yaxud uğursuz hesab edirik.

Nə vaxt ki, biz özümüzü təsəvvür etdiyimiz kimi ola bilməyəndə, o zaman özümüzdən narazı qalırıq və özümüzü aciz hesab edirik. Özümüzü məzəmmət etməyə başlayırıq. Bizə boş görünən həyatda məyus oluruq, özümüzə qapanıb, səhv axtarır və necə olmağımız ba-

rədə düşünməyə başlayırıq. Bütün bu hisslər bizi təsvirlərimizə uyğun həyatımızı düzəltməyə vadar edir. Əlacsız qaldıqda biz özümüzü aldatmağa başlayırıq və nəticədə özümüz barədə yalnış fikirlərə qapanırıq. Həyatlarının səmtini və məqsədlərini itirən insanları tanımaq çətin deyil, çünki onlar öz ətrafında narahatçılıq, narazıçılıq və təlaş mühiti yaradırlar.

Allah sənin üçün bu cür taleh arzulamır. O istəyir ki, sən həyatının məqsədini aydın başa düşəsən. Allah istəyir ki, Onun sənə verdiyi ənamları sən aşkar edib, Onun izzətinə sərf edəsən.

## Kimliyini və hara getdiyini bil

«Qabaqcadan müəyyən edilmə» sözü hansısa bir məqsədə malik olmaq və ya müəyyən məntəqəyə çatmaq mənasını daşıyır. Müqəddəs Kitab bizə öyrədir ki, hər bir insanın bu həyatdan Allahın planına uyğun məqsədi var (bax: Efeslilərə 1:11). Buna görə də Allah sənin hara gedəcəyini və səni o yerə necə gətirəcəyini bilir. Hətta, sən həyatının məqsədini bilsən belə, səni Yaradanla sıx əlaqədə olmasan, heç vaxt məqsədinə çata bilməyəcəksən. Əgər sən Allahla ünsiyyət qurmursansa, onda zəif düşən kimi, yaxud hirsləndiyin vaxt öz ənamını satacaqsan. Xəbərlər proqramında hər gün insanların özlərini necə aldatdıqlarını eşidirik. Lakin sən Allahla sıx ünsiyyətdəsənsə, onda heç vaxt çağırışına laqeyd yanaşa bilməzsən. O zaman sən imkan verməyəcəksən ki, həyatın düşmənin qurbanına çevrilsin və ya düşüncəsiz qərarların sayəsində dağılsın.

Yəqin, zəiflik və acizlik hisslərini günah hesab etmək haqsızlıq olardı. Bu, yıxılana balta vurmaq kimi olardı. Lakin məsələ bundadır ki, özünə əminlik hisslərinin yoxluğu imanın yoxluğundan irəli gəlir. İmansızlıq isə günahdır. Çünki məhz iman bizim Allaha etibar edib-etməməyimizdən şahadət edir. Əgər biz özümüzə və çağırışımıza əmin deyiliksə, onda öz həyatımızı Allaha etibar etmirik və Allahın Müqəddəs Kəlamda bizim haqqımızda nə dediyinə inanmırıq. Əmin-

sizlik bizim diqqətimizi Allaha və Onun arzularına deyil, daha çox özümüzə və arzularımıza yönəltməyə vadar edir. Hər qadın öz həyatında qeyri-adi bir şey etmək istəyir və hər qadının bunun üçün xüsusi bacarığı var. Bu, onunla izah olunur ki, biz Rəbbə məxsusuq və hər birimizdə Allahın Ruhu yaşayır. Bir halda ki, Onün qüdrəti bizim üzərimizdədir, O, bizim vasitəmizlə böyük işlər görə bilər. Lakin bir şey yadda saxlamalıyq: Allahın uğuru ilə insanların uğurunu səhv salmaq olmaz! Çünki insanlar daima özünə şərəf axtarır, Allahın övladları isə Allahın izzətini düşünür «Allah belə deyir: «Müdrik müdrikliyi ilə öyünməsin, igid öz gücü ilə öyünməsin, varlı öz sərvəti ilə öyünməsin, ancaq öyünən Onunla öyünsün ki, Mən Rəbbin dünyada məhəbbət, ədalət və salehlik yaratdığını dərk edir və Məni tanıyır. Çünki Mən bunlardan xoşlanıram.»» (Yeremya 9:23–24). Sən Allaha məxsus oluduğunu biləndə və səni istiqamətləndirməyə izn verəndə, o zaman özünü təhlükəsizlikdə hiss edirsən.

## Öz arzularını Allaha etibar elə

Mən başa düşdüm ki, əgər biz Allaha öz arzularımızı etibar etməsək, onda heç vaxt Onun bizim üçün hazırladığı mirası ala və Rəbbin istədiyi kimi ola bilməyəcəyik. «Kim canını xilas etmək istəyərsə, onu itirəcək, amma kim Mənə görə canını itirərsə, onu qoruyacaq» (Matta 16:25). Beləliklə, Allahda sığınacaq tapmaq üçün biz öz məqsədlərimizdən imtina ebib belə iqrar etməliyik: «Ya Rəbb, qoy mənim yox, Sənin iradən olsun». Belə etmək o qədər də asan deyil, çünki bizim üçün məqsədlərimizdən yayınmaq çox çətindir. Lakin bunula belə biz Allahdan diləməliyik ki, Ondan olmayan bütün arzularımızı ürəyimizdən silsin və Öz arzularını ürəyimizə yerləşdirsin.

Əgər sənin məqsədlərin Allahın məqsədləri ilə üst-üstə düşməsə, onda Allah bu arzuları ürəyindən siləcək və Öz iradəsini sənə açacaq. Əlbəttə, öz arzularından imtina etmək çətin və ağır ola bilər, xüsusi-

lə də, əgər sən illər boyu bu arzuları ürəyində yaşatmısansa və arzularından əl çəkmirsən. Lakin Allahın xeyir-dua vermədiyi məqsədə görə həyatınızı boş yerə sərf etməyə dəyərmi? Çünki belə vəziyyətdə məyusluq səni ömrü boyu təqib edəcək, arzuların isə həyata keçməyərək qalacaq. Buna görə də, sən, Allahın ürəyinə qoyduğun arzularla yaşamalısan.

Lakin, sənin arzuların Allahdan gəlsə belə, sən yenə də Ona etibar etməlisən. Çünki Allah istəyir ki, sənin ürəyin əbədi olaraq öz arzularına deyil, Ona bağlı olsun. Allah istəmir ki, sən arzularını həyata keçirtməkdən ötrü dəridən-qabıqdan çıxasan. Allaha sənin Ona olan etibarı çox vacibdir. Məhz o zaman Allah sənin bütün arzularını həyata keçirəcək.

## Öz çağırışını müəyyənləşdir

Hamımız üçün yer üzündə nə üçün yaşadığımızı və nə üçün yarandığımızı başa düşmək çox vacibdir. Biz öz çağırışımızı həyata keçirtməyənə qədər heç vaxt həqiqətən xoşbəxt ola bilmərik. Lakin kiçik şeylərdə Allaha sadiq olduğumuzu sübut edə bilməsək, onda O, heç vaxt bizim üçün hazırladığı böyük şeyləri bizə açmayacaq. Buna görə də əgər sən kiçik bir şeylə məşğulsansa, buna görə sevin! Çünki Allah səni böyük şeylərə hazırlayır.

Əgər Allah səni Öz planına uyğun təyin olunmuş yerə hələ qoymayıbsa, onda kədərlənmə və heç vaxt düşünmə ki, artıq gecdir. Allaha etibar edirsənsə, onda öz çağırışını tapmaq heç vaxt gec olmayacaq. Şəxsən mənim həyatımda hər şey gec baş verib. 28 yaşımda imana gəlmişəm. Həmçinin ərə də gec getmişəm. Uşaqlarım da gec olub. Peşakar yazıçı da qırx yaşımda olmuşam. Buna görə də, əgər sən hələ də nəfəs almaqdasansa, inan mənə — Allahın səninlə bağlı böyük niyyəti var. Allahın artıq indidən sənin üçün işi var.

Əgər sən Allahın planında xüsusi rolun olduğuna şübhə edirsənsə, onda başqa insanlar üçün vəsastət etməyə başla. Çünki başqalrı üçün

dua etmək bizim əsas çağırışımızdır. Getdiyin məbəddə kiçik xidmət olsa belə, xidmət etməyə başla, çünki hamımız Məsihin Cəmiyyəti qarşısında həlimləşməyə və başqalarına kömək etməyə çağrılmışıq. Əgər biz kiçik xidmətdən başlayırıqsa, onda Allah bizi yeni mövqeyə hazırlayacaq.

Eyni zamanda Allaha minnətdarlıq etməyə unutmamalıyıq «Allah bizi əməllərimizə görə deyil, Öz məqsədinə və lütfünə görə xilas edib. Müqəddəs olmağa çağırdı. Zaman başlamazdan əvvəl O, lütf bizə Məsih İsada verilmişdi» (2 Timotey 1:9). «Allahın bizə bağışladığı lütfə görə müxtəlif ruhani ənamlarımız var. Bir kəsin ənamı peyğəmbərlikdirsə, imanın ölçüsünə görə peyğəmbərlik etsin» (Romalılara 12:6). «Amma hər bir insanın aldığı öz ənamı var — birininki belədir, digərininki başqa» (1 Korinflilərə 7:7). «Amma hər kəs Allahın ona təyin etdiyi kimi Rəbbin çağırışına uyğun həyat sürsün. Bunu bütün cəmiyyətlərə əmr edirəm» (1 Korinflilərə 7:17).

Allaha dua edirəm ki: «Rəbbimiz İsa Məsihin Allahı olan izzətli Ata Özünü sizə tanıtmaq üçün hikmət və vəhy ruhunu versin. Qoy O qəlbinizin gözünü nurlandırsın ki, Onun çağırışından yaranan ümidin nə olduğunu müqəddəslərə verdiyi irsin izzətini zəngin olduğunu… göstərsin» (Efeslilərə 1:17–18). «…Rəbb səni hər bir diləyinə çatdırsın» (Zəbur 20:5).

Əziz bacım, unutma ki, Allah sənin həyatın üçün çox vacib bir şey planlaşdırıb və bu, sənin xeyrin üçündür.

## *Dua*

*Ya Rəbb*, Sənə minnətdaram ki, məni əməllərimə görə deyil, Öz məqsədinə və lütfünə görə xilas edib müqəddəs olmağa çağırmısan. Zaman başlamazdan əvvəl bu lütfü mənə Məsih İsada vermisən (bax: 2 Timotey 1:9). Bilirəm ki, Sənə iman etməzdən əvvəl Sən artıq həyatım üçün plan hazırlamış-

dın və onu mütləq həyata keçirəcəksən. Ya Rəbb, aldığım çağırışa layiq şəkildə həyat sürməyə mənə kömək elə (Efeslilərə 4:1). Bilirəm ki, mənim üçün xüsusi xidmət və xüsusi həyat hazırlamısan.

Bu həyatda nə üçün yaşadığımı dərindən dərk etməyə və Sənin çağırışın eşitməyə mənə kömək elə. Sənin xeyir-dualarını almaq üçün mənə mane olan təkəbbürdən, eqoizmdən və digər şeylərdən azad elə. Çünki Sənin məqsədlərindən yayınmaq istəmirəm. İstəyirəm ki, həyatım boyu Sənin qoyduğun yol ilə gedim. Ya Rəbb, Sənin üçün yaşamadığım hər günümə görə tövbə edirəm. Qoy bundan sonra mənim üçün hazırladığın plana əsasən yaşayım.

Ya Rəbb, həmçinin çağırışımı dərk etməyə mənə kömək elə. Məndə olan bütün ümidsizlik və bədbinlik hissləri yox elə. Bunun əvəzinə mənim vasitəmlə iş gördüyün zaman Sənin hüzüründan doğan sevinc hissləri ilə doldur. İnsanların həyatını dəyişmək üçün məni bir alətin kimi istifadə et. Sənin seçdiyin vaxtı kamil olduğuna iman etmək üçün mənə əminlik ver. Bilirəm ki, məni hər hansı bir xidmətə çağırarkən onun öhdəsindən gəlməyim üçün mənə güc verəcəksən.

Yalvarıram Sənə, ya Rəbb, qoy Sənin iradəni yerinə yetirərkən məni heç nə yayındıra bilməsin. Qoyma ki, mənə verdiyin tapşırığından yayınım. Həyatımı və həyatdakı məqsədlərimi aydın görməyə mənə kömək elə. Mən bütün həyatımı tamamilə Sənin əllərinə verərəm. Məni özümə göstər ki, Sənin iradənə uyğun hərəkət edib-etmədiyimi və ya yaşayıb-yaşamadığımı görə bilim. İstəyirəm ki, həyatımda etdiyin dəyişiklər zamanla sınaqdan keçərək möhkəm qalsın. Ya Rəbb, həyatda mənə tapşırmadığın işlərlə uyub vaxtımı imirmək istəmirəm. İndiki vəziyyətimdən razı qalmağa mənə kö-

mək elə, çünki bilirəm ki, məni bu vəziyyətdə həmişə saxlamayacaqsan.

Ya Rəbb, bilirəm ki, hər şey birlikdə Səni sevənlərin və Sənin məqsədinə görə çağıranların xeyrinə işləyir (bax: Romalılara 8:28). Riyakarlıq edib, özümü güya məqsədinin nədən ibarət olduğunu bilən adam kimi aparmaq istəmirəm. Və həyatda əsas məqsədimi itirib, çağırışımı fərziyyələrlə yozmaq istəmirəm.

Buna görə də Ya Rəbb, mənə bəxş etdiyin ənamları və bacarıqlarımı görməyə kömək elə. Məni Öz yollarınla apar ki, getdikcə kamilləşim. Mənə bəxş etdiyi ənamları Sənin iradənə uyğun və izzətin üçün istifadə etməyə kömək elə.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Beləliklə, Rəbdə olduğum üçün məhbus olan mən sizə yalvarıram ki, aldığınız çağırışa layiq şəkildə həyat sürəsiniz. Tamamilə itaətkar və həlim, səbirli olub bir-birinizə məhəbbətlə dözün. Ruhun birliyini sülh bağı ilə qorumağa çalışın.

*Efeslilərə 4:1–3*

Hər şeyi Öz iradəsindən yaranan qərarı ilə yerinə yetirən Allahın məqsədinə görə biz əvvəlcədən təyin edilərək Məsihdə irs aldıq ki, qabaqcadan Məsihə ümid bəsləyən bizlər Allahın izzətinin mədhi üçün mövcud olaq.

*Efeslilərə 1:11–12*

Beləliklə, ey qardaşlar, çağırıldığınızı və seçildiyinizi təsdiq etmək üçün daha da səy göstərin. Çünki əgər bunu etsəniz, heç vaxt büdrəməzsiniz.

*2 Peter 1:10*

Amma siz seçilmiş nəsil, Padşahın kahin dəstəsi, müqəddəs millət, Allaha məxsus olan xalqsınız. Sizi qaranlıqdan Öz heyrətamiz nuruna çağıran Allahın çox gözəl işlərini elan etmək üçün seçilmisiniz.

*1 Peter 2:9*

Əvvəlcədən təyin etdiyi adamları da çağırdı; çağırdığı adamları da saleh saydı; saleh saydığı adamları da izzətləndirdi.

*Romalılara 8:30*

## ON BEŞİNCİ FƏSİL

# YA RƏBB, İNSANLARLA DÜZGÜN MÜNASİBƏT QURMAQDA MƏNƏ KÖMƏK ET

Bir dəfə radio vasitəsilə Los-Ancelesdə olan quldur dəstələrindən birinin üzvünün müsahibəsini eşitmişdim. O vaxtlar şəhərdə cinayətkarlıq yüksək həddə çatmışdı. Quldurlar günün günorta çağı insanları necə gəldi, harada gəldi avtomobildən atəş açmaqla güllələyirdilər. Müxtəlif cinayətkar dəstələr çoxlu sayda qətllər törətmişdilər. Həmin müsahibədə iştirak edən gənclərin sözlərinə görə, onların cinayətkar dəstəyə qoşulmalarının yeganə səbəbi hansısa qrupun tərkibinə daxil olmaq idi. Onlar soyuqqanlılıqla etiraf edirdilər ki, belə dəstələrə qoşulmaq və ya dəstənin üzvlərinin rəğbətini qazanmaq üçün istənilən cinayəti işlətməyə hazır olublar. Hətta buna görə onlar qətl belə törədə bilərmişlər.

Bəziləri hətta açıqcasına etiraf edirdi ki, yalnız qarşılarına çıxan ilk adamı öldürdükdən sonra onlar dəstənin bərabərhüquqlu üzvünə çevrilə bilərdilər. Belə bir qətlin məqsədi isə onunla izah olunurdu ki, sən tamamilə tələblərə cavab verirsən və öz dəstəndən ötrü hər şeyə getməyə hazırsan. Bəziləri etiraf edirdi ki, belə bir təklif onları iyrəndirir və dəstəyə başqa şərtlər altında qoşulmaq arzusundadırlar.

Lakin cinayətkar dəstəyə qoşulmaq arzusu onlarda o qədər güclü idi ki, bu səbəbdən hər tələbi qəbul etməyə razı idilər. Bu cür açıqlamalar yerli sakinləri dəhşətə gətirmişdi və bizə aydın oldu ki, tamamilə müdafiəsizik.

Bir gün dostlarımdan biri öz evinin qarşısında dinməz-söyləməz gəzişərkən, iki gənc oğlan ona yaxınlaşır. Onlardan biri tapançanı çıxararaq ona tuşlayıb atəş açır. Bundan sonra isə cinayətkarlar qaçıb gizlənir. Nə bir oğurluq, nə də ki, başqa bir sui-qəsd qeydə alınmır. Görünür, dostumuzu mələklər qoruyubmuş, çünki o yaşadı. Bununla belə o, ciddi xəsarət almışdı. Belə ki, bir daha sevimli işi ilə məşğul ola bilmədi və bir neçə il müalicə almalı oldu.

Bu müsahibədə iştirak edən gənclər mənsub olduqları dəstədən kənar həyatlarında bir məna görmürdülər. Onların əksəriyyəti atasız böyümüşdülər. Bəziləri isə tamamilə yetim olublar. Mən əminəm ki, bu gənc oğlanlar yaxşı ailədə böyüsəydilər, doğmalarının məhəbbətini hiss etsəydilər, onda heç vaxt bu cür puç olmuş yolun yolçusuna çevrilməzdilər. Bu, bir daha göstərir ki, insanların bir-birinə böyük ehtiyacı var. Əgər ailə üzvləri arasında münasibətlər düzgün qurulmayıbsa, onda uşaqlar bu münasibətləri küçədə axtarırlar və nəticədə cinayətə sürüklənmiş olurlar. Quldur dəstələri də məhz bu cür formalaşır.

Hər birimizin ailəyə, dostlara, cəmiyyətdə mövcud olan hansısa qruplara ehtiyacı var. Əgər sən belə bir zərurəti özündə hiss etmirsənsə, onda bu sarıdan səndə çatışmamazlıq olmayıb. Allah bizi ailədə böyümək üçün yaradıb. Özümüzü rahat, kiməsə lazımlı olduğumuzu hiss etməkdən ötrü hər birimizdə təbii aclıq hissi — hansısa bir kollektivin üzvünə çevrilmək hissi yaşayır. Hətta, fiziki valideynlərimiz bizim üçün möhkəm, sağlam ailə bəşx edə bilməyiblərsə, məyus olmağa dəyməz. Çünki bizim üçün şad xəbər var: Allah bizi bir çox münasibətlərdə vacib rol oynayan ruhani ailəyə daxil edir.

## Ruhani ailəyə malik olmağın əhəmiyyəti

Allah bizim Atamızdır. Biz Onun övladlarıyıq. Beləliklə də, bütün imanlılar İsa Məsihdə bacı və qardaşdılar. Biz bir evə yığışmaq baxımından həddindən artıq çoxuq. Buna görə də, Allah bizi məbədlər adlandırdığımız müxtəlif evlərə yerləşdirir. Məbəd ailəsində bizim bir-birimizlə münasibətimiz firavanlığımızı müəyyənləşdirir. Məbəddə insanlarla qurulan münasibətimiz ruhani inkişafımıza təsir göstərir. Biz Allahın həyatımıza göndərdiyi insanlardan kənar gəzməklə məqsədimizə nail ola bilmərik. Bu, o demək deyil ki, bu adamlar hansısa məqsədə nail olmaqda bizə kömək edirlər. Lakin onlarla münasibətimiz həmişə uğurlarımıza səbəb olur.

Biz öz həyat yolunu Rəbbə həsr edən insanlarla yaxın münasibət qurmalıyıq. Ruhən bizdən daha güclü olan imanlılarla münasibətimiz sayəsində onların qarşısında məsuliyyət hissimizi formalaşdırır. Eyni zamanda onlarda da belə bir məsuliyyət hissi ruhən onlardan daha güclü olan liderlərin qarşısında formalaşır. Bizim hər birimiz üçün yetkin məsihçinin himayəsində olmaq vacibdir. Çünki hər birimiz asanlıqla aldadıla bilərik. Hər birimizin özünə görə zəifliyi var. Buna görə də bizi və həyatımızı düzgün qiymətləndirən insanlara ehtiyac duyuruq. Biz elə münasibətlərə ehtiyac duyuruq ki, hətta yerində edilmiş ədalətli tənqid belə onu sarsıda bilməsin.

Bu, heç də o demək deyil ki, sənin məbədin rəhbərliyi, yaxud sıravi imanlılarla problemin olmayacaq. Lakin hər bir mübahisəni sənin yalnış yerdə olmağına dəlalət edən göstərici kimi qəbul etmək də düzgün olmazdı. Hər bir münasibətin kamilləşməyə və təqdisə ehtiyacı var. Dostluq yalnız çətinlikərin dəf olunması sayəsində güclənir. Lakin hər bir halda ruhani ailədaxili münasibətlərimiz dua dəstəyinə ehtiyac duyur.

Sənin düşmənin heç də səni ruhani ailənin əhatəsində və ya Allah adamlarının sırasında görmək istəmir. Çünki o, yaxşı bilir ki, belə bir dostluq münasibəti sənin inkişafına səbəb olur. O bilir ki, ruhani ai-

lənin dəstəyi olmadan sənin imanda böyüməyin mümkünsüzdür. O bilir ki, ruhani ailəyə birləşmədən, özünü bu ailəyə həsr etmədən özündən asılı olmayaraq deyingən insanların sırasına düşəcəksən. O bilir ki, ruhani ailənin üzvləri ilə münasibət qurmadan sən heç vaxt Allahın səni yaratdığı kimi ola bilməyəcəksən. Buna görə də o, var-gücü ilə səni bu münasbətlərdən kənar salmağa çalışır. Bu səbəbdən ruhən güclü olan insanlarla münasibətdə davamlı olmaq üçün dua etməyin vacibdir.

## Dostlardan da artıq

Müqəddəs Kitabda düzgün dost seçmək barəsində olan xəbərdarlıqlara kifayət qədər yer ayrılıb. Bu səbəbdən də biz bu mövzunun üstündən səthi ötmək istəmədik «Saleh insan qonşusuna da yol göstərər, lakin şər insanın yolu dolaşıqdır» (Süleymanın Məsəlləri 12:26). Əgər zaman keçdikcə biz dostlarımıza oxşayırıqsa, demək, onların seçimində müdrik və ehtiyatlı olmalıyıq. Dost seçimində bizi xarici görünüş, istedad, var-dövlət, ağıl, məşhurluq yayındırmasın. Yeganə bizi maraqlandıran cəhət bu insanın Allahı nə dərəcədə sevməsi və Ona qarşı ehtiramlı davranması olmalıdır. Əgər sənin daim Allahın iradəsini yerinə yetirməyə səy göstərən dostun varsa, demək, onunla olan münasibətin Rəbbin lütfü ilə xeyir-dualanacaq.

Allah istəmir ki, bizi dünyəvi insanlarla bağlayan sıx tellər olsun. Lakin bu, o demək deyil ki, biz Rəbbi tanımayan insanlardan uzaqlaşmalıyıq. Heç də yox! Biz Öz Kəlamını dünyəvi insanlar arasında genişləndirən Allahın əlində bir vasitəyik. O ki qaldı bizim həyatımıza nüfuz edən yaxın münasibələrə, bunu biz Allahı sevən və Onun iradəsini yerinə yetirən insanların üzərində qalmaqla seçim etməliyik. Əgər sənin həyatında məsihçi yaxın dostun yoxdursa, onda dua et ki, Allah adamları həyatına daxil olsun və sənin əsl dostuna çevrilsinlər.

## Həqiqi dostlu fərqləndirən yeddi əsas keyfiyyət

1. *Həqiqi dost sevdiyinə görə həmişə həqiqəti söyləyər.* «Dostun vurduğu yara onun sədaqətinə görədir, amma düşmən öpdükcə öpər» (Süleymanın Məsəlləri 27:6).
2. *Həqiqi dost ağıllı məsləhətlər verir.* «Gözəl ətir və buxurun ürəyə verdiyi ləzzət kimi dostun nəsihəti də insana xoş gələr » (Süleymanın Məsəlləri 27:9).
3. *Həqiqi dost qəlbini təmizləməkdə sənə kömək edər.* «Dəmir dəmiri itilər, insan insanın ağlını iti edər» (Süleymanın Məsəlləri 27:17).
4. *Həqiqi dost sənə müdrik olmaqda kömək edər.* «Hikmətli ilə oturub-duran hikmət qazanar, axmaqlarla ayaqlaşan bədbəxt olar» (Süleymanın Məsəlləri 13:20).
5. *Həqiqi dost sənə bağlı olur.* «Dost çoxaldan öz-özünü yıxar, amma qardaşdan daha yaxın dost da var» (Süleymanın Məsəlləri 18:24).
6. *Həqiqi dost həmişə səninlə olur.* «Dost hər zaman sevər, qardaş dar gün üçün doğular» (Süleymanın Məsəlləri 17:17).
7. *Həqiqi dost dar gündə köməkçidir. «*İki adam bir adamdan yaxşıdır, çünki zəhmətləri üçün yaxşı muzd alacaqlar. Əgər biri yıxılsa, o biri yoldaşını qaldırar. Lakin vay o adamın halına ki, yıxılanda onu qaldıran olmur!*» (Vaiz 4:9–10).*

Əgər yuxarıda sadalanan keyfiyyətlərə malik olan dostların varsa, onlarla dostluğunu qoruyub saxla və onlar üçün dua et. Yox, əgər dostlarında bu keyfiyyətlər yoxdursa, onda onlar üçün yenə də dua et.

## Yalançı dostu ifşa edən yeddi əsas keyfiyyət

1. *Yalançı dost ətrafdakılara qarşı hörmətsiz və ədəbsiz yanaşır.* «Əslində mən sizə yazmışdım ki, siz özünü bacı-qardaş adlandırıb, lakin əxlaqsızlıq, tamahkarlıq, bütpərəstlik, böhtançılıq, əyyaşlıq və yaxud soyğunçuluq edənlə ünsiyyətdə olma-

yın. Belələri ilə bir yerdə çörək belə yeməyin» (1 Korinflilərə 5:11).

2. *Yalançı dost sadiq deyil.* «Oğlum, Rəbdən və padşahdan qorx, xəyanətkarlarla yoldaş olmaqdan çəkin. Onların bəlası qəfildən gəlir. Hər ikisinin verəcəyi cəzanı kim bilir?» (Süleymanın Məsəlləri 24:21–22).
3. *Yalançı dost tez-tez hirslənir.* «Tez qəzəblənənə yoldaş olma, kəmhövsələ ilə yola çıxma. Yoxsa onun yollarına alışarsan, canını tələyə salarsan» (Süleymanın Məsəlləri 22:24–25).
4. *Yalançı dostun axmaq çevrəsi olur.* «Pislərin məsləhəti ilə getməyən, günahkarların yolunda dayanmayan, rişxəndçilərin arasında oturmayan insan nə bəxtiyardır!» *(Zəbur 1:1).*
5. *Yalançı dost Allahın qanunlarını inkar edir.* «İmansızlarla eyni boyunduruğa girməyin. Çünki salehliklə qanunsuzluğun nə şərikliyi var? İşıqla qaranlığın ortaq nəyi var? Məsihlə Belialın nə uyğunluğu var? Yaxud imanlı ilə imansızın ümumi nəyi var?» (2 Korinflilərə 6:14–15).
6. *Yalançı dost cahildir.* «Hikmətli ilə oturub-duran hikmət qazanar, axmaqlarla ayaqlaşan bədbəxt olar» (Süleymanın Məsəlləri 13:20).
7. *Yalançı dost Allahdan və Onun qanunlarından uzaqdır.* «Səndən qorxanların hamısı ilə, qayda-qanunlarına bağlı qalanlarla dostam» (Zəbur 119:63).

Əgər sənin dostlarında bu xüsusiyyətlər varsa, Allahdan xahiş et ki, sənə yeni dostlar versin. Eyni zamanda köhnə dostlarının dəyişməsi üçün dua et.

## İnsanlarla münasibətin qorunub saxlanması üçün dua etmək

Çox vaxt insanlar arasında ciddi problemlər ağır faciə ilə nəticələnir. Hətta sənin hansısa bir insanla münasibətin tam pozulmasa da,

onların bərpa olunması üçün illər lazımdır. Buna görə də münasibətlərin qorunub saxlanması üçün dua etmək onların yenilənməsi üçün dua etməkdən daha asandır. Əgər uşaqlıqdan və ya gənc yaşlarında münasibətləri və dostluğu qoruyub saxlamağı öyrənməmişiksə, onda bu, yaşa dolduqdan sonra da münasibətlərə təsir edəcək. Keçmişdə olan vərdişlərimiz və təcrübəmiz mütləq bugünkü həyatımızda insanlarla münasibətdə mühüm rol oynayır. Çox güman ki, iblis münasibətlərimizə müdaxilə edə və onları dağıtmağa cəhd göstərəcək. Allaha dua et ki, sənə əsl dost olmaqda və təmiz və sevən ürəyə malik olmaqda kömək etsin. Xüsusilə də bir damın altında yaşadığın insanlar üçün dua et. Müqəddəs Kitabda yazılıb ki, «Öz daxilindən bölünmüş hər padşahlıq viran qalar və öz daxilindən bölünmüş hər şəhər, yaxud ev davam gətirməz» (Matta 12:25). Əgər sən doğmalarınla çəkişirsənsə, onda heç vaxt sülhün nə olduğunu dərk edə bilməyəcəksən.

Heç vaxt insanlarla münasibətini vəziyyətin ixtiyarına buraxma. Allaha dua et ki, həyatına ünsiyyət qura biləcəyin mömin insanlar yetirsin. Nə vaxt ki, bu cür insanlarla rastlaşsan, onları dəstəklə və münasibətlərinizin qorunub saxlanması üçün dua elə. Bu o demək deyil ki, sənin çoxlu dostların olmalıdır. Əsas odur ki, səni dostlarınla Allahın qüdrəti birləşdirsin. Burada kəmiyyət deyil, keyfiyyət vacibdir.

Ətrafdakı insanlarla qurduğumuz münasibət bizim əmin-amanlığımıza təsir edir. Qəlbən və ruhən təcridolunma sağlam vəziyyət deyil. Düzgün qurulan münastbətlər səni zənginləşdirir, nizama salır və həyatında baş verən hadisələrə obyektiv yanaşmağa kömək edir. Allah adamları sənə düzgün istiqamətlənməkdə kömək edəcək. İnsanlarla qurduğun münasibətin keyfiyyəti mütləq həyatına təsir edəcək. Buna görə də bünün üçün dua etməyə dəyər.

## Dua

*Ya Rəbb,* Səndən xahiş edirəm ki, ətrafımdakı insanlarla münasibətlərimi xeyir-dualandırıb möhkəmləndirəsən. İstəyirəm, hər bir münasibət Sənə izzət gətirsin. Düz yoldan dönməməyim deyə özümə dost seçərkən mənə müdriklik ver. Hər cür pis mühitdən uzaq olmaq üçün məni qüvvətləndir. İnsanlarla qurduğum bütün münasibətləri Sənin ixtiyarına verirəm və diləyirəm ki, qoy hər şeydə Sənin iradən olsun.

Ümumi dil tapa bilmədiyim insanlarla münasibətlərimi bərpa etməkdə mənə kömək elə. Xüsusilə də... (gərgin münasibətdə olduğun adamın adını çək) üçün dua edirəm. Bilirəm ki, iki nəfər razılaşıb görüşməsə, birgə yol gedə bilməz (bax: Amos 3:3). Buna görə də bizə bir razılığa və bir rəyə gəlməkdə kömək elə. Hər ikimizi dəyiş. «...bizi bir-birimizdən ayıran səddi» alt-üst elə (Efeslilərə 2:13–15). Bu adamı Sənə həvalə edirəm və xahiş edirəm ki, Öz izzətin naminə münasibətlərimizi istədiyin səmtə yönəlt.

Ya Rəbb, dua edirəm ki, ailə üzvlərimlə olan münasibətlərimə xeyir-dua verəsən. Xüsusilə də, (ailə üzvlərinin adını çək)... Yalvarıram, əgər münasibətlərimizin şəfaya və bərpaya ehtiyacı varsa, şəfa ver və bərpa et. Qoy münasibətlərimiz bol xeyir-dualı olsun.

Ya Rəbb, həmçinin dua edirəm ki, Səni tanımayan dünyəvi insanlarla olan münasibətlərimə xeyir-dua verəsən. Onları Sənə yönəldə biləcək düzgün sözləri dilimə qoy. Məni onların gözlərində nur elə. Xüsusilə (Allahdan uzaq olan adamın adını çək) üçün dua edirəm. Onun qəlbinə toxun və gözlərini aç ki, Səni dərk edə və ardınca getsin bilsin.

Ya Rəbb, qoy həyatıma Səndən olan insanlar — dostlar, müəllimlər və mənim üçün nümunə ola biləcək insanlar da-

xil olsun. Məni həqiqəti sölyəyə bilən adamlarla rastlaşdır. Qoy özümə etibarlı, xeyirxah, sevən və sadiq rəfiqələr tapa bilim. Qoy bu rəfiqələr ruhən güclü qadınlar olsunlar. Belə ki, bir-birimizlə ünsiyyət qurarkən ruhani inkişaf edə bilək və get-gedə yeni ruhani səviyyələrə qalxaq. Qoy bir-birimizlə qurduğumuz ünsiyyət vasitəmizlə dünyaya Sənin məhəbbətin və mərhəmətin izhar olunsun. İnsanlara Sənin nurunu göstərməkdə mənə kömək et.

## **Duanı təsirli etməyə kömək edən**
## **MÜQƏDDƏS KİTABDAN AYƏLƏR**

Deməli, artıq yad və qərib deyilsiniz, siz müqəddəslərlə birgə vətəndaş və Allah ailəsinin üzvüsünüz. Həvarilərlə peyğəmbərlərin təməli üzərində tikilmisiniz, guşədaşı isə Məsih İsa Özüdür. Bütün bina Onun üzərində birləşərək Rəbbə aid müqəddəs məbəd olmaq üçün ucalır. Siz də Ruh vasitəsilə Allahın məskəni olmaq üçün birlikdə Məsih üzərində tikilirsiniz.

*Efeslilərə 2:19–22*

Allah kimsəsizlərə ev qurur, əsirləri firavanlığa çıxarır, günahkarlar isə quru yurdda yaşayır.

*Zəbur 68:6*

Qoy hər cür kinlə birlikdə acılıq, hiddət, qəzəb, çığırtı, böhtançılıq, büsbütün sizdən uzaq olsun. Amma bir-birinizə qarşı xeyirxah, rəhimli olun və Allah Məsihdə sizi bağışladığı kimi siz də bir-birinizi bağışlayın.

*Efeslilərə 4:31–32*

Belə ki, artıq insanların kələkbazlığı ilə, bizi yoldan azdırmaq üçün hazırladıqları hiylələrlə, cübəcür təlimin küləyi ilə çalxalanan və ora-bura sürüklənən körpə uşaqlar olmayaq. Əksinə, məhəbbətlə həqiqəti yerinə yetirərək bədənin Başı olan Məsihə bənzəmək üçün hərtərəfli böyüyək. Bütün bədən Onunla birləşdiyi üçün hər buğumun köməyi ilə üzvü surətdə Ona bağlanıb qurulur və hər üzvün ahəngdar işləməsi ilə böyüyür, məhəbbətlə inkişaf edir.

*Efeslilərə 4:14–16*

## ON ALTINCI FƏSİL

# YA RƏBB, MƏNƏ HƏMİŞƏ SƏNİN SƏSİNİ EŞİTMƏKDƏ VƏ İRADƏNİ YERİNƏ YETİRMƏKDƏ KÖMƏK ET

1993-cü ildə zəlzələ nəticəsində Notricdəki (Kaliforniya ştatı) dağılmış evimizin ətrafında uşaqlarımla birgə gəzərək ağlayırdıq. Çünki başa düşürdük ki, əgər biz o vaxt bu evdə yaşasaydıq, onda ölə bilərdik. Biz bu evi çox sevirdik və oranı tərk etmək istəmirdik. Lakin zəlzələdən bir neçə ay qabaq biz başqa ştata köçdük. Oradan köçmək üçün çox dua edir və daxilən böyük mübarizə aparırdıq. Amma əmin idik ki, bizə istiqamət verən Rəbb Özüdür. Oradan köçərkən hətta evimizi satmağa belə macal tapmadıq, çünki təcili olaraq oradan köçmək lazım olduğunu hiss edirdik. Əgər o vaxt biz Allahdan bilik alaraq Onun səsinə qulaq asmasaydıq, onda zəlzələnin mərkəzində olacaqdıq.

Allahın iradəsi bizim üçün sığınacaq yeridir. Mən demək istəmirəm ki, Kaliforniyada zəlzələ baş verən vaxt Allah oradakı insanların qayğısına qalmayıb. Sadəcə onu bilirəm ki, biz Allahın diqqət mərkəzində olmuşuq. O vaxt evimizi nə üçün sata bilmədiyimizi sonra başa düşdüm, çünki evin təzə sakinləri həlak ola bilərdilər. Əgər biz Allahın iradəsini yerinə yetiririksə, onda təhlükəsizlikdə

oluruq. Əgər Allaha itaətli olmuruqsa, onda Onun müdafiəsindən məhrum oluruq.

Bizim hamımız Allahın diqqət mərkəzində olmaq istəyirik. Buna görə də hər hansı ciddi bir qərar — bu, istər işin dəyişilməsi və ya yeni evə köçməsi olsun, — Allahın razılığı olmadan qəbul olunmamalıdır. Biz həmişə Allahdan bizi istiqamətləndirməyi və Öz iradəsini bizə açmasını istəməliyik, bizimlə başa düşə biləcəyimiz tərzdə danışmasını diləməliyik. «…Sağa, ya sola azdığınız vaxt arxanızdan «yol budur, gedin bu yolla» deyilən səsi eşidəcəksiniz» (Yeşaya 30:21). Mən həmişə ailəmlə birgə Allahın səsini eşitməkdə və Ona itaətli olmaqda bizə kömək etməsinə görə minnətdar olacağam.

### Allahın iradəsi haqqında dörd həqiqət

1. *Allahın iradəsini yerinə yetirmək bütün problemlərdən qurtulmağa zəmanət vermir.* Çətinliklərimiz mövcudluğumuzun bir hissəsidir. Allah istəyir ki, çətinliklər və bəlalar içində ürəyimiz həmişə həyatın dolğunluğu və sülhü ilə dolu olsun. Allahın iradəsini və Ona məqbul işlər gördüyünə əmin olanda, həyatda rastlaşdığın çətinliklərə üstün gəlməkdə güclü olursan. Bil ki, həyatında çətinliklər və kədər varsa, bu, o demək deyil ki, Allah səni unudub. Çünki Rəbb bu çətinliklərdən bizim kamilləşməyimiz üçün istifadə edir. Allah tərəfindən tərk olunmaqla Allahın həyatına göndərdiyi sınaqlar arasında böyük fərq var. Baxmayaraq ki, hər iki vəziyyətdə narahatçılıq hiss edirsən, biri səni həyata, digəri isə ölümə aparır, birində narahatçılıqlara baxmayaraq ürəyində sülh olur, digərində isə yox.
2. *Allahın iradəsini yerinə yetirmək asan iş deyil.* İsa Məsihin həyatı sübut edir ki, Allaha itaətli olmaq heç də asan məsələ deyil. İsa çarmıxa gedərkən Allahın iradəsini yerinə yetirirdi. İsa dedi: «…çünki Öz iradəmi deyil, məni Göndərənin iradəsini

yerinə yetirmək üçün göylərdən enmişəm» (Yəhya 6:38). O, yeganə Kəs idi ki, bu sözləri deməyə haqqı var idi: «Mən bu gün Allahın iradəsinə tabe olmaq istəmirəm». Lakin İsa belə etmədi. Bu gün də O, bizə eynilə bu cür etməkdə kömək edir.

3. *Allahın iradəsini yerinə yetirmək çətinliklərlə bir-birinə bağlıdır.* Açıq desək, əgər sən Allahla irəliləyərkən heç bir gərginlik və narahatçılıq hiss etmirsənsə, onda Allahın iradəsinə görə yaşadığın şübhəlidir. Mən öz təcrübəmdə dəfələrlə əmin olmuşam ki, Allahın iradəsinə uyğun yaşayan və Ona itaət edən kəsin həyatında həmişə çətinliklər və kədər olur.
4. *Biz Allahın iradəsini dərk edərək yerinə yetirməliyik.* Allah bizə Onun iradəsinə tabe olub-olmamaq seçimini verir. Bu seçimi biz hər gün edirik. Onun iradəsini *axtarırıqmı?* Ondan müdriklik *istəyirikmi?* Onun istəklərinə riayət edirikmi? «…Buna görə də ağılsız olmayın, Rəbbin iradəsini dərk edin» (Efeslilərə 5:17). Biz hər gün Onun iradəsi ilə öz iradəmiz arasında seçim edirik.

Allah sənin bədənin istəklərinə görə deyil, «Onun iradəsinə görə» yaşamağını istəyir. (1 Peter 4:2). Allah istəyir ki, «Özünə xoş olanı bizdə icra etsin və… Onun iradəsini həyata…» keçirək. «…sizdə fəaliyyət göstərən Allahdır, belə ki, Onun xoş məramını həm istəyəsiniz, həm də bunu üçün fəaliyyət göstərəsiniz» (Filiplilərə 2:13). Allaha dua edirəm ki, «Allahın hər iradəsini yerinə yetirərək kamil və tam əminliklə möhkəm dayanasınız…» (Kolosselilərə 4:12).

Allahın iradəsini dərk edilməsi Ona minnətdarlıq etməkdən başlayır: «Hər vəziyyətdə şükür edin, çünki bunlar Məsih İsada olan sizlər üçün Allahın iradəsidir» (1 Saloniklilərə 5:18). Qayğına qaldığına görə Allaha minnətdar ol, sonra isə hər addımının istiqamətləndirməyini xahiş et. Düz yolda olduğuna və Allaha məqbul

işlər gördüyünə əmin olmaq o qədər gözəldir ki, bu hissləri yaşamaq üçün narahatçılıq keçirtməyə dəyər.

## Dua

*Ya Rəbb,* mənə «tam hikmət və ruhani idrakla Sənin iradəni bütünlüklə qavramağım üçün» kömək elə (Kolosselilərə 1:9). Sənə layiq və hər şeydə məqbul olmağa, hər işdə yaxşı bəhrə gətirməyimə və Sənin yollarını daha da dərindən dərk etməyimə kömək elə. Bütün addımlarımı istiqamətləndir. Məni «düz yola yönəlt» və «Öz yolunu qarşımda düzəlt» (Zəbur 5:8). Sənə yaxınlaşdıqca və Səninlə münasibətlərimi möhkəmləndirdikcə, məni gəlməli olduğum yerə apar.

İsa Məsih Sənə dediyi kimi, mən də deyirəm: «Qoy mənim iradəm deyil, Sənin iradən həyatımda icra olunsun». «Ey Allahım, Sənin iradəni yerinə yetirmək mənə zövq verir, qanunun qəlbimdədir» (Zəbur 40:8). Sən mənim üçün dünyada hər şeydən vacibsən. Sənin qulun olmaq və bütün qəlbimlə iradəni yerinə yetirmək istəyirəm.

Ya Rəbb, ürəyimizi birləşdir. Kömək elə ki, səsini aydın eşidə bilim: «Bu, düz yoldur. Bu yolla get». Əgər Sənin iradəni pozuramsa, bunu mənə göstər. Müqəddəs Kəlamın vasitəslə mənimlə elə tərzdə danış ki, Səni başa düşə bilim. Həyatımda məqsədinə uyğun hərəkət etmədiyim hər bir sahəni mənə göstər. Əgər həyatmında xüsusi missiya varsa, onda çağırışımı mənə göstər və ona əsasən hərəkət etməyə mənə kömək elə. Mən yalnız Sənə məqbul olan işlər görmək istəyirəm.

Ya Rəbb, bilirəm ki, insan özü öz yolunu istiqamətləndirə bilmir. Harada olmalıyamsa, bunu yalnız Sən bilirsən. Ona görə xahiş edirəm ki, addımlarımı istiqamətləndir. Çünki yolumu

azmaq istəmirəm. Mən Səndəki mirasa nail olmaq və Sənin istədiyin kimi olmaq istəyirəm. Buna görə də Sənin kamil iradənə tabe olmaqda mənə kömək elə.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Mənə «Ya Rəbb, Ya Rəbb!» deyən hər kəs Səmavi Padşahlığa girməyə-cək; lakin göylərdə olan Atamın iradəsini yerinə yetrən oraya girəcək.

*Matta 7:21*

Çünki Allahın iradəsini yerinə yetirib vəd olunan şey almaq üçün sizin tab gətirməyə ehtiyacınız var.

*İbranilər 10:36*

Əgər Allahın iradəsi budursa, yaxşılıq etdiyi üçün əzab çəkmək pislik etdiyi üçün əzab çəkməkdən yaxşıdır.

*1 Peter 3:17*

Bunun üçün qoy Allahın iradəsinə görə əzab çəkənlər yaxşılıq edərək həyatlarını Sadiq olan Yaradana həvalə etsinlər.

*1 Peter 4:19*

Dünya və ondakı ehtiraslar keçib gedir, amma Allahın iradəsini əməl edən əbədi qalır.

*1 Yəhya 2:17*

## ON YEDDİNCİ FƏSİL

# YA RƏBB, MƏNİ VƏ MƏNİM ÜÇÜN DƏYƏRLİ OLAN HƏR ŞEYİ QORU

Bu yaxınlarda mən okeanın sahilində ucalan çoxmərtəbəli mehmanxanada dincəlirdim. Qaldığım otaq yuxarı mərtəbədə yerləşirdi və bütün otaqların pəncərəsi okeana açılırdı. Gözlərimin önündə canlanan mənzərə məni çox heyrətləndirirdi.

Mehmanxanada qaldığım ilk günün səhəri yuxudan oyanıb, pərdələri açıb yenidən yatağıma uzandım ki, mənzərəni seyr edərək bəzi fikirləri dəftərçəmə qeyd edim. Qaldığım otaq yuxarı mərtəbədə olduğu üçün okean və səmadan başqa heç nə görə bilmirdim. Aşağıdakı çimərliyi görmək üçün qonaq otağından eyvana çıxıb aşağı baxmaq lazım idi.

Səmanı seyr edə-edə fikirlərə dalmışdım, birdən böyük bir təyyarənin gözlərimin önündən keçdiyini gördüm. Təyyarə, sanki yanımda idi. Nəhəng obyektin peyda olması məni elə qorxutmuşdu ki, az qala ürəyim dayansın. Məni elə panika bürüdü ki, qorxudan sinə nahiyəsində kəskin ağrı hiss etdim. Bərk qorxmağımdan əlavə, öz reaksiyama təəccüb etdim. Mən heç vaxt belə qorxmamışdım. Çünki bu, gözlənilmədən oldu. Həm də mən heç vaxt təyyarəni havada bu qədər yaxın görməmişdim. Qorxu, sanki məni iflic etmişdi.

11 sentyabr 2001-ci ildə baş verən hadisədən qabaq mənim heç ağlıma gəlməzdi ki, təyyarə otağın içinə ildırım kimi girə bilər. Lakin

mənim bunu dərk edib-etməməyimdən asılı olmayaraq, sən demə, bu, mümkün imiş. «Maraqlıdır», — deyə düşündüm, — «görəsən, buna bənzər bizi nə qədər təhlükə əhatə edir?» Biz pisliyi həyatımıza bütün var-gücü ilə daxil olmayana qədər onu hiss etmirik. Mən inanıram ki, bizim Səmavi Atamız düşündüyümüzdən də çox qayğımıza qalır. Lakin biz Allahın müdafiəsinə adi bir şey kimi baxmamalıyıq. Bunun üçün biz həmişə dua etməliyik.

Allah bizi Ona itaət etdiyimiz və Onun iradəsini yerinə yetirdiyimiz zaman qoruyacaq. Biz Allahın əmrlərindən hər hansınısa pozanda, Onun müdafəsindən məhrum oluruq. Çünki həmin vaxt Allahın bizi hansı tərəfə istiqamətləndirdiyini eşidə bilmirik. Əgər insanlar Allahdan onları idarə etməyi xahiş etsəydilər, Onun buyurduqlarına əməl etsəydilər, onda nə qədər bəlalardan uzaq olardılar. Ən azı Onun səsinə qulaq asa bilsəydilər.

Yadımdadır ki, bir dəfə qarlı havada öz maşınımla yol gedirdim. Həmin gün çoxlu qar yağmışdı. Dörd yol ayrıcına gəlib çatanda qırmızı işıqda maşını saxlamq üçün tormoza basdım, ancaq maşın nədənsə dayanmadı. Nəticədə məlum oldu ki, mən qarla örtülmüş buzun üsünə çıxmışdım. Bu yol bir neçə şossenin kəsişməsi idi, yolun hər iki tərəfindən drenaj* kanalları qazılmışdı. Qabağımda maşınlar vıyıldayırdı. Mən idarəetməni itrmişdim və maşını saxlaya bilmirdim.

«İsa Məsih, yalvarıram, mənə kömək elə» — deyə yalvarmağa başladım. Çox çalışdım ki, yan-yörədə olan drenajların birinə düşməyim, ona görə də kəsişmənin mərkəzinə gəlib çıxdım. Ətrafımdakı maşınlar da çalışırdılar ki, idarəetməni itirməsinlər. Birdən üsütmə yaşıl bir avtomobilin gəldiyini gördüm. İndiyədək anlaya bilmirəm, necə oldu ki, onunla toqquşmadım. Yadımda qalan yeganə şey odur ki, mən dayanmadan dua edirdim. Çox güman ki, bu vəziyyətə Rəbb qarışmışdı və mənim sağ qalmağım möcüzə idi. Həmin gün evdən çıxarkən Allahdan məni qorumağını xahiş etdim. Əminəm ki, Allah duaya cavab olaraq məni qorumuşdu.

* Bu məqsəd üçün işlədilən arx və borular sistemi

Həyatın tükdən asılı olan vəziyyətlərdə sənə Səmavi Atanla əlaqədə olduğuna və Onun səni gördüyünə əmin olmaq vacibdir. Düşdüyüm vəziyyətlərə oxşar hadisədə bizə dərhal duamıza cavab almaq vacibdir. Amma duamıza cavab alacağımıza əmin olmaq üçün biz hər gün dua etməliyik. Allah — sənin sığınacağındır. Amma bu sığınacaq yalnız Allahla sıx ünsiyyət qurduğun vaxt sənin ərazin olacaq. Necə ki, Müqəddəs Kitabda yazılıb: «Rəbdən qorxan tam arxayındır, çünki Rəbb övladlarının pənahıdır. Rəbb qorxusu həyat qaynağıdır, insanı ölüm tələsinə düşməkdən geri qaytarır» (Süleymanın Məsəlləri 14:26-27).

## *Dua*

*Ya Rəbb*, yalvarıram ki, qoruyan əllərin daima üzərimdə olsun. Məni bədbəxt hadisələrdən, xəstəliklərdən və pislikdən qoru. Mənim bütün yollarımı qoru. Məni təyyarələrdə, avtomobillərdə və hər cür nəqliyyat vasitələrində baş verən təhlükələrdən qoru. Kəlamında yazılan «Səni mənim Qalam, Xilaskarım, Sipərim və Gücümsən» sözlərinə inanıram və Sənə tamamilə etibar edirəm.

Ya Rəbb, Sənin müdafiən altında olmaq istəyirəm. (bax: Zəbur 91:1). Məni qanadlarının altında qoru. Məni büdrəməyə və Sənin yolundan azmağa qoyma. Mənə yol göstərən səsinə hər an həssas olmaqda kömək et. Məni hər yolda qoruya biləcək mələklərini göndər. Qoy onlar məni əlləri üstündə aparsınlar ki, ayağım büdrəməsin (Zəbur 91:12). Ya Rəbb, Sən mənim sığınacağım, mənim gücüm və «dar gündə kömək» edənimsən (Zəbur 46:2).

Ya Rəbb, minnətdaram ki, mənə «qarşı işlənən heç bir silah işə yaramayacaq» (Yeşaya 54:17). Minnətdaram ki, Sən məni «pisin əlinə düşməyə» qoymursan (Zəbur 37:32–33).

Məni «göz bəbəyin kimi qoru, qandlarının kölgəsində saxla» (Zəbur 17:8). Məni pis insanların niyyətindən və qəfil baş verən təhlükələrdən qoru. «Mənə rəhm et, ey Allah, mənə rəhm et. Canımı götürüb Sənin yanına pənah gətirmişəm. Bəlalar keçib-gedənəcən qanadlarının altında sığınacağam» (Zəbur 57:1). Minnətdaram ki, «arxayın yatıb, yuxuya gedirəm. Çünki yalnız Sən ya Rəbb, məni əmin-amanlıqda yaşadırsan» (Zəbur 4:8). Minnətdaram ki, məni qorumağı vəd etmisən. Bu gün elan edirəm ki, Sənin bütün vədlərinə bütün qəlbimlə etibar edirəm.

## **Duanı təsirli etməyə kömək edən MÜQƏDDƏS KİTABDAN AYƏLƏR**

Ya Rəbb, sığınacağımsan dediyin üçün, Haqq-Taalaya sığındığın üçün şərə düçar olmazsan, bəla çadırından uzaq qaçar.

*Zəbur 91:9–10*

Sənə qarşı işlənən heç bir silah işə yaramayacaq.

*Yeşaya 54:17*

Dərin sulardan keçsən belə, Mən səninlə olacağam. Çaylardan keçəndə batmayacaqsan, odun içindən qaçsan belə yanmayacaqsan.

*Yeşaya 43:2*

Səni qanadlarını altına alar, pərlərinin altında sığınacaqsan. Sədaqəti qalxanın, sipərin olar. Nə gecənin kabusundan, nə də gündüz atılan oxdan, nə zülmətdə dolanan ağır xəstəlikdən, nə də günorta məhv edici qırğından qorxmazsan. Yanında min nəfər, sağında on min nəfər qırılsa, sənə xətər dəyməz.

*Zəbur 91:4–7*

Allah sənə görə mələklərə əmr edər ki, gedəcəyin hər yerdə səni qorusunlar.

*Zəbur 91:11*

## ON SƏKKİZİNCİ FƏSİL

# YA RƏBB, DÜZGÜN QƏRAR QƏBUL ETMƏKDƏ MƏNƏ MÜDRİKLİK VER

Ötən fəsildə yazdığım kimi mən mehmanxananım eyvanında oturub sahildəki çirməlikdə baş verənləri seyr edirdim. Yuxarıdan okeanın bütün dayaz yerləri və çökəkləri yaxşı görünürdü. Mən insanların okeandakı dərin yerlərdən dayaz yerlərə necə keçdiklərini müşahidə edirdim. İnsanlar okeanda çimərkən qəfildən dərinliyə düşürdülər. Bu çox gülməli mənzərə idi.

O zaman özlüyümdə düşündüm: əgər mənim onlarla əlaqəm olsaydı, onda onları hər dəfə təhlükə barədə xəbərdarlıq edə bilərdim. Lakin onların mənimlə heç bir əlaqəsi yox idi. Buna görə mən yuxarıdan gördüklərimi onlara çatdıra bilmirdim.

Əminəm ki, eyni vəziyyət Allahla bizim aramızda olan münasibətlərdə də baş verir. Allah yuxarından hər şeyi daha yaxşı görür. Əgər bizim Onunla sıx ünsiyyətimiz olsaydı və həmişə Allahdan bizi istiqamətləndirməyimizi istəsəydik, onda O, bizi hər an uçurumdan qoruyardı. Lakin təəssüflər olsun ki, bizim Onunla belə sıx əlaqəmiz yoxdur, çünki biz Onun ilarəçiliyini axtarmırıq. Biz Ondan nə müdriklik istəyir, nə də Onun vəhylərinin dərinliyinə varmırıq. Buna görə də biz tez-tez büdrəyir və yıxılırıq.

Müqəddəs Kəlamda biz görürük ki, İbrahim peyğəmbərin qardaşı oğlu Lut insani düşüncəyə uyaraq yaxşı torpağı seçməklə həyatı-

nın sonunda düşmənin tələsinə uğradı. Onun zənnicə bu torpaq gözəl torpaq idi. Lakin məlum oldu ki, bu torpaqda natəmiz insanlar yaşayır. (bax: Yaradılış 13:10–11; 13:13). Lut öz ağlına görə qərar qəbul etdi, çünki onun gözündə bu, doğru seçim idi. O, Allahın bu barədə nə fikirləşdiyini soruşmadı. Sizcə, nə qədər insanlar öz gözlərində doğru olanı seçməklə Allahın xeyir-dualarından məhrum olublar? Onlar Allahın idarəçiliyini və müdrikliyini istəməyiblər.

Sənin həyatında da buna oxşar şeylə baş veribmi? Əgər biz bir müddət saleh həyat tərzi sürürüksə, bu, hələ demək deyil ki, bir daha əvvəlki səhvləri etməyəcəyik. Yaxud, əgər Allah bizim xahişimizi həyata keçiribsə, bu hələ o demək deyil ki, O, Öz iradəsini bu gün bizə açacaq. Bu, yalnış fikirdi. Çox güman ki, keçən dəfə köməyimizə çatan üsül, bu dəfə köməyimizə çatmaya bilər. Allahdan daima idarəçilik və müdriklik istə.

Allahla bağlı olan hər nə varsa yalnız ruhani aləmdə açıqlanır. «Təbiətcə yaşayan adam Allahın ruhuna aid olan şeyləri qəbul etmir, çünki bunları ağılsızlıq sayır. Bunları başa düşə bilmir, çünki bunlar ruhani nöqteyi-nəzərdən araşdırılır» (1 Korinflilərə 2:14). Müdrikliyə malik olmayan adamın necə ağılsız hərəkət etdiyinin şahidi olmusunuzmu? Kənardan onun hərəkətlərinin ağılsız nəticələr verəcəyini görürsünüz, o isə görə bilmir. Başqa insanın axmağlığı öz axmağlığından daha tez gözə çarpır. Bax, elə buna görə də, biz hər gün Allahdan müdriklik istəməliyik.

Müdrik olmaq — vəziyyətin dərinliyini görüb, onu dərk etmək və düzgün qərar qəbul etmək deməkdir. Bu, yalanı həqiqətdən ayırd etmək, vəziyyəti düzgün qiymətləndirmək, təhlükəni uzaqdan görmək və vaxtında düzgün qərar qəbul etmək deməkdir. Lakin bunu ancaq Allah bacara bilər və yalnız O, necə hərəkət etmək lazım olduğunu bilir «Lakin O, — Həqiqət Ruhu gələndə sizə hər həqiqətə yol göstərəcək. Çünki heç nəyi Özündən söyləməyəcək, nə eşidirsə, onu söyləyəcək və gələcəyi sizə bildirəcək» (Yəhya 16:13). Müdrikliyin

bizi dəfələrlə təhlükədən və pislikdə qoruduğunu təsəvvür belə edə bilmərik. Gələcəkdə də nə qədər qoruyacağı məlum deyil. Buna görə də biz müdrik olmadan yaşaya bilmərik. Onun üçün də biz onu hər zaman Allahdan diləməliyik. Sən bu cür dua edə bilərsən: «Ya Rəbb, hər işdə mənə müdriklik bəxş elə. Hər gün Sənin hikmətində yeriməyə mənə kömək et».

### Müdriklikdə yaşamağın on düzgün üsülü

1. *Allahın Kəlamında qalmaq.* «Oğlum, əgər sözlərimi qəbul etsən, əmrlərimi qorusan, qulağını hikmətə tərəf çevirsən, ürəyini dərrakəyə tərəf meyl etdirsən… onda Rəbb qorxusunu anlayarsan, Allahı tanıyarsan» (Süleymanın Məsəlləri 2:1,2,5).
2. *Müdrikliyi Rəbdən diləmək.* «Əgər sizlərdən birin müdrikliyi çatmırsa, hər kəsə səxavətlə və məzəmmət etmədən verən Allahdan diləsin və ona veriləcək» (Yaqub 1:5).
3. *Hər vəziyyətdə Allahı tanımaq.* «Bütün yollarında Onu tanı, O sənin yollarını düzəldər» (Süleymanın Məsəlləri 3:6).
4. *Allaha ehtiram etmək.* «Rəbb qorxusu hikmətin başlanğıcıdır. Müqəddəsi tanımaq idraklı olmaqdır» (Süleymanın Məsəlləri 9:10).
5. *Müdrik insanların məsləhətinə qulaq asmaq.* «Qulağını aç, hikmətlilərin sözlərini eşit. Ürəyini mənim biliyimə ver» (Süleymanın Məsəlləri 22:17).
6. *Müdrikliyi hər şeydən üstün tutmaq.* «Hikmət qazan, idrak qazan. Sözlərimi unutma, sözümdən çıxma. Hikmətdən ayrılmasan o səni qoruyar. Əgər onu sevsən, o, səni saxlayar» (Süleymanın Məsəlləri 4:5–6).
7. *İtaətli olmaq.* «O, əməlisalehlərin şüurunu qoruyur, kamalla gəzənlərə sipər olur» (Süleymanın Məsəlləri 2:7).
8. *Təvəzökar olmaq.* «Lovğalıq gələndə şərəfsizlik gələr, hikmət itaətkarın yanına gələr» (Süleymanın Məsəlləri 11:2).

9. *Yaxınlarını sevmək.* «Qanmaz qonşusuna xor baxar, dərrakəli insan dinc dayanar» (Süleymanın Məsəlləri 11:12).

10. *Dünyanın deyil, Allahın hikmətini axtarmaq.* «Hanı müdrik? Hanı alim? Hanı bu dövrun mahir mübahisəçisi? Məgər Allah bu dünyanın müdrikliyinin ağılsızlıq olduğunu nümayiş etdirmədi? Allahın müdrikliyində dünya öz müdrikliyi ilə Allahı tanımadığı üçün Allah iman edənləri ağılsız sayılan vəz vasitəsilə xilas etməyə razı oldu… Amma siz Allahın sayəsində Məsih İsadasınız. O bizim üçün İlahi müdriklik, salehlik, müqəddəslik və satın alınma oldu… » (1 Korinflilərə 1:20–21; 30).

**Müdrikliyin diləməyin 10 üsulu**

1. *Müdrik insan ömrünün uzunluğu və, zənginliyi ilə qazandığı hörmətdən zövq alar.* «Onun sağ əlində uzun ömür, sol əlində sərvət və şərəf var» (Süleymanın Məsəlləri 3:16).
2. *Müdrik insan öz həyatından razıdır.* «Onun yolları bəyənilir, bütün yolları əmin-amandır» (Süleymanın Məsəlləri 3:17).
3. *Müdrik insan həyatın dolğunluğundan zövq alır.* «Ona bağlananlar üçün o həyat ağacıdır. Ondan möhkəm yapışanlar nə bəxtiyardır» (Süleymanın Məsəlləri 3:18).
4. *Müdrik insan təhlükəsizlikdə yaşayar.* «O zaman rahat gəzərsən, ayaqların büdrəməz» (Süleymanın Məsəlləri 3:23).
5. *Müdrik insan istirahatdən zövq almağı bacarır.* «Qorxusuz rahat yatarsan, şirin yuxu taparsan» (Süleymanın Məsəlləri 3:-24).
6. *Müdrik insan özünə əmindir.* «Çünki güvəndiyi Rəbdir. O qoymaz ki, sən tələyə düşəsən» (Süleymanın Məsəlləri 3:26).
7. *Müdrik insan həmişə müdafiə olunur.* «Hikmətdən ayrılmasan, o səni qoruyar. Əgər onu sevsən səni saxlayar. Gedəndə ad-

dımların büdrəməz, qaçanda ayaqların sürüşməz» (Süleymanın Məsəlləri 4:6,12).

8. *Müdrik insan hər işdə uğur tapar.* «Onu üstün tutsan səni ucaldar, əgər ona bağlansan səni şərəfə çatdırar» (Süleymanın Məsəlləri 4:8).
9. *Müdrik insan pislikdən qaçar.* «Hikmət qəlbinə dolar, bilikdən könlün xoş olar. İdrak səni hifz edər, dərrakə səni qoruyar. Hikmət səni pislərin yolundan, sözü məkrli adamlardan qurtarar» (Süleymanın Məsəlləri 2:10–12).
10. *Müdrik insan biliyini artırar.* «Qoy hikmətli qulaq asıb müdrikliyini artırsın, dərrakəli adam sağlam məsləhət alsın» (Süleymanın Məsəlləri 1:5).

## Allahdan məsləhət dilə

İnsanlardan məsləhət almamışdan qabaq Allahdan məsləhət almaq lazımdır. Mən demək istəmirəm ki, dünyəvi həkimin və ya vəkilin məsləhətlərinə qulaq asmaq lazım deyil. Mən sadəcə qeyd etmək istəyirəm ki, insana müraciət etməzdən əvvəl Allaha müraciət etmək lazımdır. İnsana müraciət etməzdən qabaq Allahdan onün üçün müdriklik istə ki, səninlə bölüşə bilsin. Allahdan xahiş et ki, O, səni Ondan gəlməyən bütün məlumatlardan və yolundakı mömün olmayan insanlardan qorusun. Bunun əvəzinə ətrafını hikmətli insanlarla zənginləşdirsin.

O vaxt maraq üçün mən mehmanxanadan aşağı enib okeanın dayaz yerlərinin birinə girdim. Dayaz yerdə dayanaraq diqqətlə suyun dərin yerlərini axtarmağa başladım. Bilirdim ki, dayandığın hər tərəfdə dərin yer var və əminliklə o istiqamətə addım atdım. Lakin qəfildən ayağımın altındakı təpəcik ayağımın altından qaçdı və mən yıxıldım. Mənimlə də digər çimən insanlarla eyni şey baş verdi. Bax beləcə, əminliyim boşa çıxdı və mən sahilə doğru üzdüm. Başa düşdüm ki, insan nə qədər də öz ağlına güvənsə belə, heç vaxt özünə əmin olma-

malıdır. Bizə hər işdə Allahın hikməti və məsləhətləri lazımdır, çünki həqiqəti bilən yalnız Odur.

## Dua

*Ya Rəbb,* yalvarıram, mənə hər bir vəziyyətdə Öz müdrikliyini bəxş elə. Bilirəm ki, qızıldan çox hikmət qazanmaq və gümüşü yox, idrakı yığmaq yaxşıdır (Süleymanın Məsəlləri 16:16). Buna görə də mənə hikmətin zənginliyini və sağlam düşüncə bəxş elə. Minnətdaram ki, Sən «müdriklərə hikmət, aqillərə ağıl» verirsən (Daniel 2:21). Müdrikliyimi artır ki, həyatımda yaranan hər biz vəziyyəti düzgün qiymətləndirə bilim. Mənə düzgün qərar qəbul etməyə öyrət.

Ya Rəbb, mənə öyrət ki, mən yalnız mömin insanlarla məsləhətləşim. Qoy dünyəvi və haqsız insanalara üz tutmayım. Minnətdaram ki, mənə hətta, yuxuda belə bilik verirsən və «həyat yolunu öyrədirsən» (bax: Zəbur 16:7–11).

Ya Rəbb, Sənin əmrlərini və Müqəddəs Kəlamını sevirəm. Sözlərinin üzərində gecə və gündüz düşünməyə öyrət. Kömək elə ki, Sənin sözlərini unutmayım və onları qəlbimdə qoruyub saxlaya bilim. Ya Rəbb, bilirəm ki: «öz ağlına güvənən axmaqdır, hikmətlə gəzib-dolanan isə azad olur» (Süleymanın Məsəlləri 28:26). Mən öz qəlbimə deyil, Sənin Kəlamına və məsləhətinə etibar etmək istəyirəm. Belə ki, heç vaxt düşünülməmiş hərəkətə yol verməyim. Məni hikmətli qadın elə.

Sən Öz Kəlamında vəd etməsən ki, əməlisalehlərin sağlam şüurunu qoruyacaqsan (bax: Süleymanın Məsəlləri 2:6–7). Buna görə də mənə əməlisaleh olmağa və Sənin Sözünə itaət etməyə kömək elə. Qoy heç vaxt öz gözümdə müdrik görünməyim, lakin həmişə Sənin önündə Allah qorxusunda ya-

şayım. Qoy sağlam olmağım üçün həmişə pislikdən uzaq olum (bax: Süleymanın Məsəlləri 3:7–8). Ehtiyac duyduğum hikməti, biliyi və sağlam şüuru mənə bəxş elə. Büdrəməməyim üçün məni şeytanın tələsindən qoru (bax: Süleymanın Məsəlləri 2:10–13). Ya Rəbb, Sən demisən ki, «hikmət və biliyin bütün xəzinələri» Səndə gizlənmişdir (Kolosselilərə 2:3). Bu xəzinələri əldə etməyə mənə kömək elə.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Rəbb qorxusu hikmətin başlanğıcıdır, müqəddəsi tanımaq idraklı olmaqdır. Hikmətin vasitəsilə ömrün-günün çoxalar, həyatına illər əlavə olar.

*Süleymanın Məsəlləri 9:10–11*

Salehin ağzından hikmət çıxar, dili haqq söz danışar. Çünki Allahın qanunu ürəyindədir, ayaqları büdrəmir.

*Zəbur 37:30–31*

Hikmətlə ev tikilər, dərrakə ilə möhkəmlənər. Mənzillər bilik vasitəsilə, hər cür dəyərli, yaxşı şeylərlə dolar.

*Süleymanın Məsəlləri 24:3–4*

Məni çağır, sənə cavab verim, bilmədiyin böyük, dərkedilməz şeyləri sənə bildirim.

*Yeremya 33:3*

Sən, həqiqətən, idrakı çağırsan, səs ucaldıb dərrakəni səsləsən, bunları gümüş kimi axtarsan, gizli xəzinə kimi arasan, onda Rəbb qorxusunu anlayarsan, Allahı tanıyarsan. Çünki Rəbb hikmət verir, Onun ağzından bilik və dərrakə çıxır.

*Süleymanın Məsəlləri 2:3–6*

## ON DOQQUZUNCU FƏSİL

# YA RƏBB, MƏNİ HƏR CÜR PİSLİKDƏN QORU

Mən Allahımı Xilaskar kimi tanıyıram. Çünki O, məni içkidən, narkotikdən, hər cür qorxudan, depressiyadan, təlaşdan və kindən azad edib. Allah məni bəzi şeylərdən dərhal azad edirdi, bəzən isə bir neçə il tələb olunurdu. Bəzən azad olmağım üçün mən çox oruc tutmalı olurdum, bəzən isə azad olmaq üçün Allahın hüzuru mənim üçün kifayət idi. Azadolma prosesi nə cür baş verirsə versin, əsas odur ki, bu, həyata keçir. Vaxtaşırı bizim hamımızın bəzi şeylərdən azad olmağa ehtiyacımız var. Çünki ruhani olmağımıza baxmayaraq, biz hər halda bədəndə yaşayırıq. Həyatımız nə qədər yaxşı olsa da, bizim hələ də düşmənimiz var, hansı ki, ətrafımızda hər an pislik qalası qurmağa çalışır. Lakin Allah istəyir ki, bizi Ondan ayıran nə varsa bunlardan bizi azad eləsin.

İsa Məsih bizə bu cür dua etməyi öyrədib: «lakin bizi şərdən xilas et» (bax: Matta 6:13). Əgər bizim şərdən xilas olmağa ehtiyacımız olmasaydı, onda İsa bu əmri bizə verməzdi. Ancaq biz çox vaxt belə dua etmirik və bildiyimiz kimi hərəkət edirik, sanki İsa Məsih bu barədə heç bir şey deməyib. Adətən, biz elə yaşayırıq ki, elə bil İsa Məsihin bizdən ötrü böyük qiymət ödədiyini bilmirik. İsa Məsih «Atamız Allahın iradəsinə görə Məsih günahlarımız üçün Özünü fəda

etdi ki, bizi indiki şər dövründən qurtarsın» (Qalatiyalılara 1:4). İsa gələcəkdə də bizi azad etməyə davam etmək istəyir.

## Allah səni azad etmək istəyir

Sənin maddi sahədə elə bir çətin anların olub ki, bu vəziyyətdən heç vaxt çıxa bilməyəcəyini düşünmüsən? Olub ki, hansısa xoşagəlməməzliklər və ya xəstəliklər dəfələrlə səni təqib edib? Səndə elə bir hiss olub ki, nailiyyətlərinin heç nəyə dəymədiyini hiss etmisən? Nə vaxtsa özündə içkiyə, narkotikə, pornoqrafiyaya və qumara qarşı meyilillik hiss etmisən? Olub ki, əxlaqsız həyat səni cəlb etsin? Olub ki, hansısa insana qarşı nifrət hisslərinə qalib gələ bilməmisən? Ya da kı, həyatında vacib rol oynayan insanlarla münasibətin yoxdur?

Bəzən sənə elə gəlirmi ki, Allah səndən uzaqdadır? Sənə elə gəlirmi ki, Allah dualarını eşitmir və onlara cavab verməyəcək? Ümidsizlik və məyusluq səni üstələyirmi? Olur ki, sən dəfərlərlə eyni problemlərə, səhvlərə və vərdişlərə qayıdırsan? Tez-tez özündən narazı qalırsanmı? Əgər bu suallardan birinə qətiyyətlə cavab vermisənsə, onda sənə şad xəbərim var: Allah səni azad etmək istəyir! O, sənin Xilaskarın olmaq istəyir! (bax: Romalılara 11:26). Rəbb «ölümə aparanları» qurtarmağı vəd edir (Süleymanın Məsəlləri 24:11).

Bilirsənmi ki, düşmənin olan iblis zəif yerindən səni yıxmaq üçün silah kimi istifadə edə bilər? Çox vaxt biz düşmənin qaşısında əyilirik və unuduruq ki, biz hər şeyi dəyişmək gücündəyik. Bəzən elə düşünürük ki, bəxtimiz gətirmir və ya bədbəxt olmaq alınımıza yazılıb. Həqiqətdə isə, şeytan bizə qarşı çıxır. Lakin İsa Məsih yer üzünə ona görə gəldi ki, bizi bütün bu şeylərdən azad etsin. İsa ondan ötrü gəldi ki, bizi məhv etmək istəyən düşmənə qalib gələ bilməyimiz üçün bizə kömək etsin. Allah əsirlərin naləsini eşidir (Zəbur 102:-20–21). Əgər sən Allaha fəryad etsən, O, səni azad edəcək. Çünki

yazılmışdır: «Oğul sizi azad etsə, həqiqətən də azad olacaqsınız» (Yəhya 8:36). Düşmən nə qədər güclü olsa da, Allah səni azad etmək üçün böyük qüdrətə malikdir.

Allah təkcə səni sevdiyi üçün və sənə yazığı gəldiyi üçün azad etmir. Allah həmçinin istəyir ki, sən Ona «müqəddəslik və salehliklə» ibadət edəsən. Təbii ki, biz pislikdən uzaq olmalıyıq. Müqəddəs Kəlam bu barədə belə deyir: «Əməlisaleh pislikdən dönmək yolunu tutar. Yoluna diqqət edən canını qoruyar» (Süleymanın Məsəlləri 16:17). Şübhəsiz ki, biz həyatımızda baş verən şeylərə görə məsuliyyət daşıyırıq. Lakin eyni zamanda unutmamalıyıq ki, həyatımıza şeytan da təsir edir və biz onun hakimiyyətindən azad olmalıyıq.

## Biz necə azadlıq əldə edə bilərik?

Allahla təkbətək danışarkən (bax: Zəbur 72:12) və ya ruhani insanla birgə dua edərkən (bax: Zəbur 34:16), yaxud Allahın Kəlamını oxuyarkən (bax: Yəhya 8:31), ya da daima Allahın hüzurunda qalmaqla azadolma baş verir. Allahın hüzurunu səcdə vaxtı daha güclü hiss etmək olur. Biz hər dəfə Allahı izzətləndirəndə, ruhani aləmdə nəsə baş verir və pis ruhi qüvvələrə böyük zərbə endirilir. Bu, ona görə baş verir ki, sənin «həmdlərin üzərində taxt quran Odur» (Zəbur 21:4). Buna görə də sən Allahın hüzuru ilə dolursan «Rəbb Ruhdur. Rəbbin Ruhu haradadırsa, azadlıq da oradadır» (2 Korinflilərə 3:17).

Müqəddəs Kitabda yazılıb: «Rəbdən qorxanları Onun mələyi müdafiə edər, onlara şərəf verər» (Zəbur 34:7). Əgər şeytan heç vaxt bu problemdən qurtulmayacağını qulağına pıçıldayırsa, Allahı şərəfləndirərək onu rədd elə, çünki Allah sənin Xilaskarındır. Sən Allahı izzətləndirdiyin zaman Allah səni azad etməyə başlayır. Azad olandan sonra isə bu haqda başqalarına da danış (bax: Zəbur 107:2).

Əgər bir daha günaha yol verdiyini və tənəzzül etdiyini görürsənsə, onda məyusluğa qapılma və vaxtını itirmə. Əgər keçmişində baş verənlər yenidən həyatına qayıtmağa başlayırsa, heç bir halda ruhdan düşmə. Çünki həmin vaxt sənin qəlbində dərindən azadolma prosesi başlayır. Həyatını Rəbbə etibar et və O, səni Özü təyin etdiyi vaxtda azad edəcəkdir (bax: Zəbur 31:16).

Yadda saxla ki, azad edən yalnız Rəbdir və bu, uzun bir prosesdir. «Ey qardaşlar, Rəbbimiz İsa Məsih naminə sizə yalvarıram: hamınız həmfikir olun. Qoy aranızda dəstəbazlıq olmasın, eyni düşüncədə və eyni ağılda birləşin» (1 Korinflilərə 1:10). Allah həmişə başladığı işi başa çatdırır. Buna görə də, əgər azadolma prosesi gözlədiyindən çox vaxt aparırsa, ruhdan düşmə. Əmin ol ki: «sizdə xeyirli işə başlayan Allah Məsih İsanın zühur edəcəyi günədək bunu başa çatdıracaq» (Filipilərə 1:6).

«Salehliyin günəş kimi parlamayanadək, xilasın işıq saçmayanədək Allah sakitləşməyəcək» (bax: Yeşaya 62:1). Azad edilmə səni hər hansı bir başqa məxluqa çevirməyəcək. Lakin sən. Allahın səni görmək istədiyi tək — ağıllı, əmin, sevən, istedadlı, xeyirxah, düşüncəli və Allahın gözəl qızı olaraq yenidən doğulacaqsan.

## *Dua*

*Ya Rəbb,* minnətdaram ki, Sən mənə «…hər cür pis əməldən qurtarmağa və Öz Səmavi Padşahlığın üçün xilas etməyə» (2 Timotey 4:18) vəd etmisən. Bililərm ki, bizim mübarizəmiz «qandan və ətdən təşkil olunanlara qarşı deyil, şərə başçı və hakim olanlara, bu qaranlıq dünyanın hökmranlarına, səmadakı şər ruhani qüvvələrə qarşıdır» (Efeslilərə 6:12). Minnətdaram ki, Sən düşmənlərinin üzərində qələbə çalmısan (bax: Efeslilərə 1:22) və «…elə örtülü bir şey yoxdur ki, aşkara çıxmayacaq və elə gizli bir şey yoxdur ki, bilinməyəcək» (Matta 10:26).

Ya Rəbb, həmçinin bilirəm ki, mən düşmənin mənə qarşı qurduğu bütün istehkamlarını görmək gücündə deyiləm. Buna görə də Sənə güvənərək ümid edirəm ki, onları mənə göstərəcəksən. Minnətdaram ki, Sən «əsirlərə azadlıq, korlara gözlərinin açılmasını elan etmək üçün, məzlumları sərbəstliyə buraxamaq üçün, Rəbbin lütf ilini bəyan etmək» (Luka 4:18) üçün gəlmisən. Sənsiz mən ehtiraslarımın köləsi, həqiqəti görə bilməyən koram, əziyyət çəkənlərin arasında qalıram. Lakin Səndə mən tamamilə azad insanam «Bəndənin üstünə üzünün nurunu sal, məhəbbətinlə məni qurtar» (Zəbur 31:16).

Ya Rəbb, mən bilirəm ki, xilasım yalnız Səndədir. Bunun üçün Sənə minnətdaram, çünki Sən məni «ucalardan əl uzadıb tutdun, məni dərin suların içindən çıxartdın. Məni qüvvətli düşmənimdən azad etdin, çünki yağılarım məndən güclü idi» (Zəbur 18:16–17). Buna görə də İsa Məsihin mənə bəxş etdiyi azadlığımı qoruyub saxlamağa və yenidən köləlik boyunduruğuna düşməməyə kömək elə (bax: Qalatiyalılara 5:1).

Ya Rəbb, yalvariram, məni Səndən ayrı salan şeylərdən azad elə. Xüsusilə də yalvarıram ki, (azad olmağa ehtiyac duyduğun problemin adını çək) azad edəsən. Cismani təbiətimə uyaraq həyatımda düşmənə yer verdiyimə görə tövbə edirəm. Sənə itaət etmədiyim vaxtları mənə göstər və məni Öz yoluna qaytar. Həqiqətdə yerimək üçün mənə hikmət ver və məni Səndən uzaqlaşdıran şeylərin üzərində hökmranlıq etməyə kömək elə (bax: Süleymanın Məsəlləri 28:26).

Bilirəm ki, bədəndə yaşasam da mənim gücüm bədəndə deyil, çünki «cismən həyat sürsək də, cismani təbiətə görə döyüş aparmırıq. Ona görə ki, döyüş silahlarımız cisimdən düzdilən silahlar deyil, qalaları dağıdan ilahi qüvvəyə malik

silahlardır» (2 Korinflilərə 10:3–4). İsa Məsihin Adı ilə dua edirəm ki, həyatımda düşmənin qurduğu bütün istehkamları kökünədək alt-üst olsun. Qoy qarşımda olan qaranlıq işığa çevrilsin və əyri olan yollarım hamar olsun (bax: Yeşaya 42:16). Əminəm ki, məndə xeyirli işə başlayan Allah Öz işini başa çatdıracaq. (bax: Filirililərə 1:6). Təslim olmamaq üçün mənə dözüm ver və Sənin Sözündə qalmaqda kömək elə.

## **Duanı təsirli etməyə kömək edən**
## **MÜQƏDDƏS KİTABDAN AYƏLƏR**

Salehlər fəryad çəkəndə Rəbb eşidir, onları bütün əzablardan azad edir.

*Zəbur 34:17*

Dar gündə Məni çağır, Mən səni xilas edəcəyəm, sən də Məni şərəfləndirəcəksən.

*Zəbur 50:15*

Səmavi Padşahlığın açarlarını sənə verəcəyəm. Yer üzündə bağlayacağın hər şey göylərdə bağlanmış olacaq və yer üzündə açacağın hər şey göylərdə açılmış olacaq.

*Matta 16:19*

Öz ağlına güvəvən axmaqdır, hikmətlə gəzib-dolanan azad olur.

*Süleymanın Məsəlləri 28:26*

Mən Rəbbi sevdiyinə görə onu azad edəcəyəm, İsmimi tanıdığına görə onu yüksəldəcəyəm.

*Zəbur 91:14*

## İYİRMİNCİ FƏSİL

# YA RƏBB, MƏNİ MƏNFİ EMOSİYALARDAN AZAD ET

Əvvəllər mənə elə gəlirdi ki, təlatüm, depressiya, qorxu və ümidsizlikdə yaşamaq — adi bir haldır. «Görünür, mən beləyəm» — deyə özlüyümdə fikirləşirdim. Lakin Rəbbə iman etdikdən, Onun yolları ilə getdikdən sonra dərk etdim ki, Allaha etibar və itaət edənlər üçün hər şey mümkündür. Sən demə, mənfi emosiyalarsız da yaşamaq mümkün imiş. Əgər Allahdan diləsək, O, bizi mənfi emosiyalardan qalın, nəm yorğandan qurtarmış kimi azad edər. Bunun üçün isə dua etmək lazım gəlir.

Bəzən sənə elə gəlirmi ki, Allah səni tərk edib? Əgər cavabınız «hə»dirsə, demək, siz yalqız deyilsiniz, əslində çox yaxşı əhatə dairəniz var. Bu hissləri nəinki milyonlarla insanlar, hətta İsa Məsihin Özü belə yaşayıb. Ömrünün ən məşəqqətli anında O, haray çəkdi: «Eli, Eli lemma şavaqtani? Bu, «Ey Allahım, Allahım, niyə Məni tərk etdin»? deməkdir»» (Matta 27:46). Bizlərdən hər birimizin özümüzü tənha və tərk edilmiş hiss etdiyimiz anlar olur. Əslində isə belə deyil. Allah həmişə bizimlədir və Ona üz tutduğumuz andaca bizə kömək etməyə hazırdır. Problemin və bədbəxtçiliyin mərkəzində belə mənfi emosiyalara uymamalıyıq. Biz Allahın Kəlamında deyilən həqiqəti iqrar etməklə öz dualarımızla buna qarşı dura bilərik.

**Mənfi emosiyalardan qurtulmağın yeddi əsas üsulu**

1. *Narahatçılığı dəf et.* Həyatda qarşımıza çıxan maneələrin nə dərəcədə ciddi olmasından asılı olmayaraq, yadda saxla ki, İsa Məsih onları fəth edib «Məndə sülhünüz olsun deyə bunları sizə söylədim. Dünyada əziyyətiniz var, amma cəsarətli olun! Mən dünyaya qalib gəldim» (Yəhya 16:33). Sadəcə Allahın hüzurunda qalmaqla narahatçılıqdan qurtuluruq «Mən daxilən çox narahat olarkən, təsəlli verərək məni fərəhləndirirsən» (Zəbur 94:19).

   Təlatüm və narahatlıq keçirtməklə qayğımıza qalan Məsihə etibarımızı itirmiş oluruq. Lakin Ona üz tutsan, mütləq sənə Öz sadiqliyini təsdiq etmiş olar «Nə yeyəcəyik, nə içəcəyik — deyə axtarıb narahat olmayın» (Luka 12:29). Allah deyir ki, biz heç nəyin qayğısını çəkməyək. Lakin hər şeyə görə dua edək.
2. *Qəzəbi dəf et.* Tez-tez qəzəblənməklə həyatımıza Allahın xeyir-dua qapısını bağlamış oluruq. İnsanların qəzəblənərək Allahın onların həyatına daxil olmasına əngəllədiyinin dəfərlərlə şahidi olmuşam. Qəzəbə yol verməklə günaha və iblisə qapı açmış oluruq «Qəzəblənərkən günah işlətməyin. Günəş batmazdan əvvəl qəzəbinizi soyudub iblisə yer verməyin» (Efeslilərə 4:26–27).

   İnsan qəzəblənməklə ətrafındakı hər şeyi alt-üst edir və nəticədə ciddi səhvə yol verir «Qəzəbli insan dava yaradar, kəmhövsələ günahi artırar» (Sülemanın Məsəlləri 29:22). Bəzi kişilər qəzəblənərək həyat yoldaşlarını döyməklə, ən dəhşətlisi isə öldürməklə həyatlarını ömürlük puç edirlər. Qəzəblənərək ətrafındakı insanlarla və ailəsi ilə münasibətlərini heç edən və beləliklə də, Allahın onlar üçün hazırladığı xeyir-duaları öz hikkələrinə qurban edən saysız-hesabsız qadınlar var! Yalnız axmaq insan tez özündən çıxar. Müdirik isə heç vaxt həyatı bahasına hirslənmək istəməz «Qəzəblənməyə tələsmə, çünki qəzəb ağılsızların ürəyində yuva salar» (Vaiz 7:9). Dua et ki,

sənə vəd edilən xeyir-duanı əldə etmək üçün Rəbb səni qəzəbdən qorusun.

3. *Narazılığı dəf et.* Diqqətini yalnız həyatındakı mənfi şeylərə yönəldib çatışmamazlar axtarmaq necə də asandır. Rahatlığın və sülhün yoxluğu insanı ətrafındakı digər insanlar kimi bədbəxt edir. Həyatda vacib şeylərin dəyişilməsini arzulamaqda pis heç nə yoxdur. Lakin bu istək beyindən çıxmırsa, onda biz daxili rahatlığımızı qurban vermiş oluruq. Hər dəfə kədərlənərkən həvari Paulun sözlərini xatırla «Ehtiyaca düşdüyüm üçün bunları söyləmirəm, çünki hansı şəraitdə yaşasam, ondan razı qalmağa alışmışam. Mən məzlumluğun da, bolluğun da nə olduğunu bilirəm. İstər tox, istər ac, istər bolluq, istər ehtiyac içində olum, hər şəraitdə, hər vəziyyətdə razı qalmağın sirrini öyrənmişəm. Mənə qüvvət verən Məsihin köməyi ilə hər işə gücüm çatır» (Filipilərə 4:11–13).
   Rəbb sənə rahatlıq vəd edir: «Beləcə, Allahın xalqı üçün hələ də bir istirahət qalır» (İbranilərə 4:9). Hər bir vəziyyətdə sevinc, sülh və rahatlıq tapmaq mümkündür. Qarşına belə bir məqsəd qoyduğunu Allaha bildir və Onda kömək dilə.
4. *Paxıllığı dəf et.* Əgər sən baxışlarını Rəbbə və Onda olanlara deyil, başqalarının malik olduqlarına yönəldirsənsə, onda paxıllıq ruhu qəlbinə hakim kəsiləcək «Çünki harada qisqançılıq və xudbin ehtiras varsa, orada qarışıqlıq və hər cür pis əməl vardır. Amma yuxarıdan nazil olan müdriklik əvvəla safdır, sonra da sülhpərvərdir, mülayimdir, itaətlidir, mərhəmət və xeyirli bəhrələrlə doludur, qərəzsizdir, riyasızdır» (Yaqub 3:16–17). Bu cür düşünmənə imkan vermə: «Kaş ki, mənim də onun kimi saçlarım olaydı… üzüm onunki kimi olaydı… bədənim onunku kimi olaydı… geyimim onunki kimi! Kaş ki, məndə onun istedadı, bacarığı, imkanı, xeyir-duası olaydı…Kaş ki, mənim də onun əri kimi ərim, onun uşaqları kimi uşaqlarım olaydı…»

Bunun əvəzinə baxışlarımızı İsa Məsihə yönəldək. Bir an Onun gözəlliyi, zənginliyi, istedadı, xasiyyəti, Onun köməyi və qüdrəti haqda düşün. İsa Məsihin sənə qoyduğu mirasa görə Ona minnətdarlıq et və Ona bu mirasın intizarında olduğunu söylə.

Paxıllıq Qabil Habilin nəyinəsə göz tikdiyindən sonra yarandı və buna görə də onu öldürdü. Lakin etdiyi bu cinayətə görə bütün ömrü boyu əzab çəkdi «Çünki siz hələ də cismanisiniz. Əgər qısqanclıq və münaqişə varsa, onda siz cismani deyilsinizmi? Adi insanlar kimi həyat sürmürsünüzmü?» (1 Korinflilərə 3:3). Biz ömürümüzün qalan hissəsini bizə aid olmayan tamahkarlığa görə əzab çəkmək istəmirik. Paxıllığa görə ödədiyimiz qiymət olduqca yüksəkdir «Ürəyin rahatlığı cana həyat verər, paxıllıq isə sümükləri çürüdər» (Süleymanın Məsəlləri 14:30). Dua et ki, insanlara Allahın sevgisini həm göstərə, həm də onun haqqında şəhadət edə biləsən «Məhəbbət səbirli, xeyirxahdır. Məhəbbət paxıllıq etməz, öyünməz, lovğalanmaz» (1 Korinflilərə 13:4).

5. *Depressiyanı dəf et.* Depressiya insanlar arasında ən geniş yayılmış mənfi vəziyyətdir. Bizlərdən çoxu hətta hiss etmədən uzun müddət depressiyada yaşayırlar. Ümumiyyətlə, qəlb sıxıntısı hamıya yaxşı məlumdur. Buna görə belə hesab olunur ki, sıxıntıda gəzmək adi haldır. Allahı səni sarsılmış görmək istəmir.

   Müqəddəs Kitabda bir çox peyğəmbərlərə depressiya vəziyyəti yaxşı tanış idi «Öz ah-naləmdən bezmişəm, hər gecə ağlamaqdan döşəyim islanır, göz yaşlarımdan yatağım yaş olur. Qəmdən gözümün nuru sönüb, gözlərim düşmənləri görməkdən zəifləyib» (Zəbur 6:6–7). «Rüsvayçılıq qəlbimi qırdı, gör necə biçarəyəm. Çox axtardım, halıma yanan tapılmadı, hey axtardım, təsəlli verən olmadı» (Zəbur 69:20). «Kədərdən canım üzülüb, Öz sözünə görə mənə güc ver» (Zəbur 119:28).

Lakin yaxşı xəbər bundan ibarətdir ki, Allah bizi sarsılmış əhval-ruhiyyədə görmək istəmir. Allah istəyir ki, Onun sevinci daima üzərimizdə qalsın və depressiya ruhlarını rədd etsin «O, yalvarışımı dinlədi, Rəbb duamı qəbul etdi!» (Zəbur 6:9) Allah fəryadımızı eşidib bizi qaldırmaq və depressiyadan çıxartmaq istəyir.

6. *Kədəri dəf et.* Kədər, turşu dərini parçaladığı kimi, qəlbi və ruhu da parçalayır. Əgər kədər səni bürüyübsə, onda Allahın xeyir-dualarından məhrum olacaqsan «Görürəm ki, səndə acı zəhər var və haqsızlığın əsirisən» (Həyarilərin İşləri 8:23). Əgər hər gün sən də Zəburun müəllifi kimi bu sözləri deyirsən «nə vaxtadək qəlbim qəmli olacaq? Könlümdə hər günmü qubar olacaq? Nə vaxtadək düşmənim üstün olacaq?» (Zəbur 13:2), onda bu o deməkdir ki, kədər ürəyində dərin kök salıb və xərçəng şişi kimi şaxələnməyə başlayıb. Lakin biz bütün bu pis fikirləri başımızdan çıxarda bilərik. Biz Allahdan xahiş edə bilərik ki, onlara müqavimət göstərmək üçün bizə kömək etsin «Diqqət edin ki, heç kim Allahın lütfündən məhrum olmasın, aranızda bir acı kök böyüyüb əziyyət verməsin və bununla bir çoxlarını murdar etməsin» (İbranilərə 12:15).
   Dua et ki, Allah səni bütün kədərdən azad etsin və bunun əvəzində minnətdarlıq və səcdə ilə doldursun. Müqəddəs Ruhdan xahiş et ki, Allahdan olmayan hər bir şeyi ürəyindən çıxartsın.
7. *Ümidsizliyi dəf et.* Ümidsizlik — bədənə və ruha təsir edərək insanı yavaş-yavaş məhv edən düşməndir. Lakin Allaha güvənməyi qərara alsan, Allah sənin bütün ehtiyaclarının qayğısına qalacaq və səni ümidsizlikdən xilas edəcək. Bizim canımızı qorumaq üçün bir vasitə mövcuddur «Əyri yol tikanlıdır, orada tələlər var. Canını qoruyan bundan uzaqlaşar» (Süleymanın Məsəlləri 22:5). Ümidsizlik qəlb üçün ölümdür. Onu rədd etmək üçün qərar qəbul et. Həyatın nə qədər kədərli olsa da,

sən həmişə Rəbdə əmin ola bilərsən. Allahdan xahiş et ki, gələcəyin üçün sənə ümid versin və ürəyini minnətdarlıqla doldursun.

Mənfi emosiyalar həmişə şübhə doğurur. Allaha inanan insan üçün həyacana səbəb varmı? Belə insanlarda qəzəb, məyusluq, paxıllıq, kədər və ümidsizlik üçün əsas varmı? Əlbəttə, həyatımızda müxtəlif dövrlərdə mənfi emosiyaların təsiri altına düşürük. Buna görə də onlar baş qalıdanda həyacanlanmaq lazım deyil. Lakin onlar uzun müddət əhatə etməməlidirlər. Belə bir anda onları rədd elə və öz həyatına buraxma. İmkan vermə ki, onlar öz məhvedici qüvvəsi ilə sənə təsir edib, Allahın sənin üçün hazırladığı xeyir-duaları gözdən salsın.

## Dua

*Ya Rəbb,* Sənin sevincində və sülhündə yaşamağa mənə kömək elə. Təlaşa, qəzəbə, narahatçılığa, paxıllığa, depressiyaya, kədərə, ümidsizliyə, tənhalığa, qorxuya, təqsirkar və bu kimi hisslərə qarşı durmaq üçün mənə dərrakə və güc ver. Ruhdan düşdüyüm və dəhşət qəlbimi sarsıtdığı vaxt məni xilas elə (Zəbur 143:4). Mən həyatımı mənfi esmosilayara düçar etməkdən imtina edirəm. Bilirəm ki, Sən mənim üçün daha gözəl şeylər hazırlamısan. Mənfi emosiyalarımın təsiri altına düşdüyüm vaxt mənə bildir.

Sən Öz Kəlamında demisən ki, biz yalnız səbir etməklə canımızı xilas edə bilərik (bax: Luka 21:19). Buna görə də mənə səbir ver. «Hər şeydən əvvəl öz ürəyini qoru, çünki həyat çeşməsi odur» (Süleymanın Məsəlləri 4:23). Mənə özümə güvənməməyə və özümü təhlükəsizlikdə hiss etməyə kömək elə. Qoy diqqətim yalnız Səndə olsun. Belə ki, hamıya Sənin

məhəbbətini izhar edə bilim. Qeydkeş olmağıma kömək elə. Ürəyimi yumşalt. Başqalarına qarşı yumşaq, özümə isə ciddi yanaşmağa kömək elə. Qoy heç vaxt unutmayım ki, sevincimin mənbəyi Sənin çarmıxdakı qurbanındır.

«Məni düşmən təqib etdi, yerə vurdu, həyatım əldən getdi. Sanki lap çoxdan ölənlərin biriyəm, bu düşmən məni zülmətə saldı. Ona görə ruhdan düşmüşəm, bu dəhşət qəlbimi sarsıtdı. Qədim dövrlər yadıma düşür, Sənin bütün işlərini dərindən düşünürəm, əməllərin barədə hey fikirləşirəm. Sənə sarı əllərimi açmışam, bir quraq torpaq kimi Sənin üçün susamışam. Ya Rəbb, mənə tez cavab ver, çünki ürəyim çəkilir. Üzünü məndən gizlətmə, qoyma qəbrə düşən insanlara bənzəyim. Hər səhər məhəbbətini mənə hiss etdir, çünki Sənə güvənirəm. Gedəcəyim yolu mənə öyrət, çünki varlığımı Sənə verirəm» (Zəbur 143:3–8). Ya Rəbb, minnətdaram ki, çətin anımda Səni çağıra bilərəm, Sən məni eşidərək kömək edirsən (Zəbur 17:6). Qoy Səndən gələn bilik ürəyimi sevinc və xoşbəxtliklə doldursun.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Heç nəyin qayğısını çəkməyin, amma hər barədə xahişlərinizi Allaha dualarla, yalvarışlarla, şükür edə-edə bildirin. Onda Allahın ağla gəlməz sülhü ürəklərinizi və düşüncələrinizi Məsih İsada qoruyacaq.

*Filipilərə 4:6–7*

Onlar dara düşəndə Rəbbə fəryad etdilər, Rəbb onları dərdlərindən qurtardı. Onların buxovlarını qopardı, zülmətdən, qaranlıqdan çıxardı.

*Zəbur 107:13–14*

Ey bütün yorğunlar və yükləri ağır olanlar, Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm. Mənim boyunduruğumu üzərinizə götürün və Məndən öyrənin. Çünki Mən həlim və qəlbən itaətkaram. Bunula canınıza rahatlıq taparsınız. Çünki Mənim boyunduruğum rahat və yüküm yüngüldür.

*Matta 11:28–30*

Salehlər fəryad çəkəndə Rəbb eşidir, onları bütün əzablarından azad edir. Rəbb qəlbisınıqlara yaxındır, O, ruhən əzilmişləri qurtarır.

*Zəbur 34:17–18*

Rəbbə ümid bağlayanlarsa yeni qüvvət alar, qanad açıb qartal kimi yüksəklərə uçar, qaçanda taqətdən düşməzlər, yol gedib yorulmazlar.

*Yeşaya 40:31*

## İYİRMİ BİRİNCİ FƏSİL

# YA RƏBB, ÇƏTİN ANIMDA MƏNƏ TƏSƏLLİ VER

Hər dəfə tutqun havada təyyarə ilə harasa uçanda, təyyarənin sıx qara buludların arasından keçib, günəşin parıldadığı təmiz səmaya necə qalxdığını görəndə, heyran oluram. Lakin tez-tez unuduram ki, hətta, ən pis havada belə göyə qalxmaq, sakit və gözəl bir dünyaya daxil olmaq mümkündür.

Bizim daxili və ruhani varlığımız bizə bu mənzərədə çox şey xatırladır. Bədbəxtçilik, kədər, mübarizə və əzablar başımızın üsütünü qara bulud kimi alanda, belə ki, artıq heç nə görmürük, onda yüksəklərdə sakitliyin, sülhün və nurun hökm sürən bir aləmin mövcud olduğuna inanmaq çətin olur. Əgər çətin anlarımızda Allahın əlindən yapışsaq, onda Allah bizi yaşadığımız çətin vəziyyət üzərində yüksəklərə qaldıracaq və şəxsən bizim üçün hazırlanan təhlükəsiz, isti və rahat yerdə məskunlaşdıracaq.

Mənim Müqəddəs Ruhun ən çox sevdiyi adlarından biri də Təsəllivericidir (bax: Yəhya 14:26). Necə ki, günəşə öz nurunu vermək üçün yalvarmağa ehtiyac yoxdur, eləcə də Müqəddəs Ruha da təsəlli vermək üçün yalvarmaq lazım deyil. Çünki Müqəddəs Ruh Təsəllinin Özüdür. Sadəcə olaraq, bizi Allahdan ayıran şeylərdən uzaq durmalıyıq. Biz həmişə duada Allahdan xahiş etməliyik ki, ən çətin vaxtlarımızda O, Öz təsəllini bizə bəxş etsin.

Hər birimizin həyatında çətin anlar olur. Ağrı və itkilər həyatımızın bir hissəsidir. Bədbəxt hadisələrin baş verməsi üçün həyatımızda bir çox səbəbləri var. Lakin biz Allahda qalırıqsa O, hər cürə bədbəxtliyi bizim üçün xeyir-duaya çevirmək üçün həmişə yanımızdadır. Əgər biz başa düşsək ki, iztirablarımız bizim həyatımızı zənginləşdirir, onda bütün ağrılara üstünlük gəlməklə, nəticədə imanımızın necə böyüdüyünü görə biləcəyik.

**İztirabların həyatımıza daxil olmasının dörd əsas səbəbi**

1. *Allah Öz izzətini göstərmək üçün bəzə həyatımıza çətinliklər buraxır.* İsa Məsih kor doğulan insanın yanından keçəndə, şagirdləri Ondan soruşdular ki, bu insanın kor olmasında günahkar ata-anasıdır, yoxsa özü? İsa cavab verdi: «Nə özü günah etdi, nə də ata-anası. Amma Allahın işləri onun həyatında görünsün deyə belə oldu» (Yəhya 9:3). Biz çox vaxt başa düşmürük ki, belə hadisələr bizim həyatımızda nə üçün baş verir. Əgər biz Allahla yaşamasaq, ola bilsin ki, heç vaxt bunların səbəbini bilməyəcəyik. Lakin sən iztarbarının içindən Allaha çağırsan, Allah Öz izzətini və qüdrətini mütləq sənə açacaqdır.
2. *Allah çətinlikərdən bizim təmizlənməyimiz üçün istifadə edir.* Müqəddəs Kəlam bu barədə belə yazır: «Beləliklə, Məsih cismən əzab çəkdiyinə görə sizdə eyni düşüncələrlə silahlanın. Çünki cismən əzab çəkən günahdan vaz keçmişdir» (1 Peter 4:1). Bundan məlum olur ki, çətinliklər vasitəsilə bizi günahlarımız və təkəbbürümüz əriyir. Allah ona görə həyatımıza çətinlik buraxır ki, öz iradəmizi yerinə yetirmək üçün yox, Allah üçün yaşamağı öyrətsin. Əlbətdə bu, o qədər də asan və xoşagələn deyil. Lakin Allah «Öz müqəddəsliyinə ortaq olaq deyə bizi xeyrimiz üçün tərbiyələndirir» (İbranilərə 12:10). Allah istəyir ki, cismani təbiətin istəklərindən azad olaq və bizim üçün vacib Olana, yəni Allaha bağlanaq.

3. *Allah bizi tərbiyələndirmək üçün həyatımızda çətinliklərin olmasına icazə verir.* «Hər tərbiyə isə indiki vaxtda sevinc deyil, kədər verən bir şey kimi görünür. Amma sonradan bu yolda yetişdirilənlərə salehliyin dinclik səmərəsini hasil edir» (İbranilər 12:11). Biz həyatımızda bəhrələrin nəticəsini görəndə Allahın bizi verdiyi tərbiyəyə dəydiyini başa düşürük. Buna görə də Allah bizi tərbiyə edəndə, Ona mane olmamalıyıq və Allaha qarşı çıxmamalıyıq. «Sizə oğul deyib verilən bu nəsihəti unutdunuz: «Oğlum, Rəbbin verdiyi tərbiyəyə xor baxma, Onun məzəmmətindən ruhdan düşmə, çünki Rəbb sevdiyini tərbiyələndirər, qəbul etdiyi hər oğlu döyər»» (İbranilərə 12:5–6).
4. *Bəzən biz düşmənin tələsinə uğrayırıq.* Sən kədərli olanda şeytan bayram edir, çünki onun məqsədi sənin həyatını məhv etməkdir. Unutma ki, çox vaxt kədərinin, sıxıntının və qəminin səbəbkarı şeytan olur. Buna görə də bunun günahını nə özündə, nə də başqasında axtar. Sənin təsəllin möhkəm imanındadır və ən çətin anlarda Allaha izzət verməyindədir. Çünki əgər sən ən çətin vaxtlarda belə Allaha izzət verməyə başlasan, Allah düşmənini məğlub edəcək və həyatını təsəvvür edə bilməyəcəyin qədər dəyişəcək. Sadəcə olaraq, Allah istəyir ki, sən Onun yolu ilə gedəsən və məhz o zaman Allah sənə tamamilə Ona etibar etməyi öyrədəcək.

Heç kəs inanmaq istəmir ki, çətinliklər, faciələr, itkilər və məyusluqlar onların xeyrinədir. Çünki əziyyət çəkdiyimiz zaman biz yalnız ağrılarımız barədə düşünürük. Lakin bizə hər an kömək etməyə hazır olan Müqəddəs Ruh mövcuddur. Müqəddəs Kitabın bəzi tərcümələrində Müqəddəs Ruh Yardımçı kimi tərcümə olunub. İsa Məsih demişdi: «Mən də Atadan xahiş edəcəyəm və O, sizə başqa Vəsatətçi göndərəcək ki, daim sizinlə olsun. O, həqiqət Ruhudur. Onu dünya qəbul edə bilməz, çünki Onu nə görür, nə də tanıyır. Sizsə Onu ta-

nıyırsınız, çünki sizinlə qalır və daxilinizdə olacaq» (Yəhya 14:16–17). Nə vaxt ki, biz Müqəddəs Ruha kömək və təsəlli üçün müraciət edirik, O, nəinki bizə kömək edir, həm də bizi Özünə yaxınlaşdırır. O zaman biz «yaslı olanlar» kimi mükafatlandıracağıq. Çünki bizə təsəlli verən Müqəddəs Ruh olacaq (bax: Matta 5:4).

Bir neçə il bundan qabaq döş nahiyyəsində xərçəng olan rəfiqəm dünyasını dəyişəndə, mən çox pərişan olmuşdum. Çünki biz məktəb illərindən dostluq edirdik. Mən heç cür təsəvvür edə bilmirdim ki, bu cür itkini necə yaşayacam. Ən çətini isə dəfn mərasiminin səhərisi gün idi. Mən heç cürə acı həqiqətlə razılaşa bilmirdim. Göz yaşlarımı saxlaya bilmirdim. Bundan əlavə, qucağımda onun səkkiz yaşında oğlu qalmışdı, mən onun qeydinə qalmalıydım. O vaxtlar mənim altı və səkkiz yaşlarında iki oğlum var idi. Allaha dua edirdim ki, bu ağrıdan məni azad etsin və öz növbəmdə bu uşağa acısını yaşamaqda kömək edim. Allaha təsəlli və kömək üçün müraciət edəndə, Allah dualarıma hər dəfə cavab verirdi. Mən bunu hər gün edirdim.

Hər dəfə sən ağrılarına üstün gələndə Allahın nuru, sülhü və mərhəməti üzərinə gəlir, imanın isə günü gündən böyüyür. Allah çətin anlarında sənə təsəlli verəcək və nəinki sənə xeyir-dua verəcək, həm də başqalarının halına acımağı öyrədəcək. Əgər sən daima Allahın hüzurunda yaşasan, onda Onun izzəti sənə zahir olacaq.

## *Dua*

*Ya Rəbb,* həyatımı hər nə cür qaranlıq bürüsə də, qoy heç vaxt Sənin əbədi və tükənməz işıq olduğunu unutmayım. Sən məni yüksəkliklərə qaldıraraq rahatlıq bəxş edəcəksən.

Yalnız Sən itkilərdən aldığım yaralarıma şəfa vermək və lütfünlə ürəyimdəki boşluğu doldurmağa qadirsən. Yalnız Sən ya Rəbb, göz yaşlarımı qurutmağa və məni yükümdən azad etmək iqtidarındasan. «Səni çağıranda mənə cavab ver, ey adil Allahım! Dara düşən zaman məni genişə çıxar, lütf edib duama qulaq as!» (Zəbur 4:1).

Ya Rəbb, yalvarıram Sənə, dar günümdə yanımda ol, çünki mən çətin anlarımda zəif deyil, güclü olmaq istəyirəm. Mən imanda böyümək və şübhələrə üstün gəlmək istəyirəm. Sınağa çəkildiyim vaxt ümidimi itirmək və məyusluğa qapılmaq istəmirəm. Qoy emosiyalarımın əhatəsində qalmayım deyə, Sənin həqiqətində möhkəm qalım.

Sənə minnətdaram ki, bəd xəbərlərdən artıq qorxmuram, çünki «Rəbbə güvəndiyim üçün ürəyim möhkəmdir» (Zəbur 112:7). Minnətdaram ki, Sən «canımı ölümdən, gözlərimi göz yaşımdan, ayağımı büdrəməkdən qurtardın» (Zəbur 116:8). Minnətdaram ki, ümidlə Sənin yollarını izləyərək «ölməyib sağ qalacam, Rəbbin işlərini bəyan edəcəm» (Zəbur 118:17). Hətta əgər «kədərdən canım» üzülsə belə, yalvarıram «Öz sözündə mənə güc ver» (Zəbur 119:28).

Ya Rəbb, kömək elə ki, həmişə və hər şeydə Sənə şükür edərək Sənin hər yerdə hökmranlıq etdiyini unutmayım. Qoy həmişə xatırlayım ki, Sən məni satın almısan və mən Sənə məxsusam, bundan heç nə vacib ola bilməz. Bilirəm: dərin sulardan keçsəm belə, Sən mənimlə olacaqsan və çaylardan keçəndə batmayacağam. Odun içindən qaçsam belə, yanmayacağam (bax: Yeşaya 43:1–2). Bəli, ya Rəbb, bu, belədir, çünki Sən yaxşı Allahsan. Sən Müqəddəs Ruhunu mənə kömək etmək və təsəlli vermək üçün göndərmisən. Yalvarıram, ey ümidi bol olan Allah, məni sevinc, sülh və imanla elə

doldur ki, «Qoy ümid mənbəyi olan Allah iman edən sizləri hər cür şadlıq və sülhlə doldursun ki, Müqəddəs Ruhun qüdrəti ilə ümidlə dolub-daşasınız» (Romalılara 15:13). Minnətdaram ki, Sən Müqəddəs Ruhunu mənə Yardımçı olaraq göndərmisən. Qoy çətin anlarımda heç vaxt bunu unutmayım.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Sevimlilər, sizi sınamaq üçün aranızda baş verən odlu imtahana sanki başınıza gələn qaribə bir iş kimi təəccüb etməyin. Əksinə, Məsihin əzablarına nə qədər şərik olursunuzsa, o qədər sevinin ki, Onun izzətli zühurunda hədsiz sevinəsiniz.

*1 Peter 4:12–13*

Siz qısa bir müddət əzab çəkdikdən sonra sizi İsa Məsihdə Özünün əbədi izzətinə çağırmış, hər cür lütf verən Allah Özü sizi bərpa edəcək, möhkəmlədəcək, qüvvətləndirəcək və sarsılmaz təmələ oturdacaq.

*1 Peter 5:10*

Rəbbə ümid bağla! Cəsarətli və möhkəm ol! Rəbbə ümid bağla!

*Zəbur 27:14*

Nə bəxtiyardır ruhən yoxsullar! Çünki Səmavi Padşahlıq onlarındır. Nə bəxtiyardır yaslı olanlar! Çünki onlar təsəlli tapacaq.

*Matta 5:3–4*

Rəbb gediş-gəlişini hifz edər, indidən sonsuza qədər.

*Zəbur 121:8*

## İYİRMİ İKİNCİ FƏSİL

# YA RƏBB, GÜNAHA QARŞI İMTAHANLARDAN QALİB ÇIXMAĞIMA KÖMƏK ET

Hər şeydə bəxti gətirən cavan oğlanın qəflətən heç nəsiz qalması ilə razılaşmasının səbəbi nədir? Musiqi sahəsində fitri istedada malik olan gözəl, cəsarətli, imkanlı, qeyri-adi, ailəli və Rəbbin xeyir-duası ilə məsh olunmuş bir kişi tanıyırdım. Hər şeyə rəmən o, təkbaşına öz ölkəsinin düşməninə qalib gəlmişdi. Lakin buna baxmayaraq, o, imtahana düşərək günaha batdı.

Görünür, padşah Davudun boş vaxtı həddindən artıq çox idi və o, lazım olan yerdə deyildi. O, padşaha xas tərzdə başqa kişilər kimi müharibədə döyüşmək əvəzinə, öz sarayının damında gəzişərək qonşu evdə çimən qadına gözü düşdü. Onun ən böyük səhvi heç də imtahana uğramasında deyildi. Belə ki, bu, hər birimizin başına gələ bilər. Lakin Davud oradan uzaqlaşmadı və tövbə ilə Allaha üz tutmadı. O, baxmağa davam etdi. Fikirləşərək planlar qurdu. Öz həyatını Allaha həsr etmək əvəzinə ehtiraslarının qələbə çalmasına imkan verdi. Nəticədə o, qatilə və zinakara çevrildi. Günahına görə ömrünün sonunadək hesab ödəməli oldu, oğlunun ölümünü görməklə min bir əziyyətə qatlaşdı.

İsa Məsih də imtahanlardan qaçmağa cəhd etmirdi. Lakin O, Davud kimi deyil, düzgün mövqedə idi. Davud cismani təbiətinə görə hərəkət etdi, İsa isə əksinə. İsa Allahın Kəlamında möhkəm dayandı, lakin Davud onu yaddan çıxartdı. Özümə görə yaşım var. Və bu illər ərzində öz həyatlarını ehtiraslarına qurban edən çoxlu sayda kişi və qadınlara rast gəlmişəm. Müxtəlif imtahanlar bizi izləyir. Ən çox isə insanlar seksual imtahanların toruna düşürlər. Mən Allahın onlar üçün hazırladığı xeyir-dualara və ənamlara etinasız yanaşaraq, öz ehtiraslarının köləsinə çevrilmiş kifayət qədər insan görmüşəm. Onlar meteoritlər kimi yerə düşərək parça-parça olublar, halbuki bu gün ulduzlar kimi işıq saça bilərdilər. Baxmayaraq ki, onlar günahlarından dönərək yenidən göylərdən doğuldular, amma Allahın əvvəlki məshini, görüntüsünü qaytara bilmədilər.

Zinaya yol verməklə insanlar öz həyatlarını günahın qurbangahına çevirirlər. Təbii ki, öz günahlarından tövbə etməklə onlar bağışlanacaq və şəfa tapacaqlar, lakin əvvəlki xeyir-duaları bərpa edə bilməyəcəklər. Davud bağışlandı və şəfa tapdı. Lakin ən dəyərli varlığını — oğlunu itirdi və o vaxtdan onun padşahlığı yaxınlarının və əzizlərinin ölümü ilə müşayiət olunan bir — birini əvəzləyən kədərə qərq oldu. Allah əvvəlki kimi onu sevirdi. Lakin günah nəticəsiz qalmır. İnsanlar dərk etmirlər ki, cismani təbiətə güzəştə getməklə çox şey itirirlər. Onların həyatındaki işıq artıq əvvəlki tək parlamır, çünki onlar bədənin istəklərinin ardınca gediblər.

Mənə gələn çoxlu sayda məktublardan belə nəticə çıxarıram ki, kişi və qadınların böyük əksəriyyəti üçün əks cinsə qarşı düzgün olmayan seksual həvəs ciddi problemə çevrilib. Adətən xəyalları gerçəkləşdirmək baş tutmasa da insan fikirlərində bunu davam etdirir. Lakin məlum olduğu kimi günahlı fikirlər də ciddi nəticəyə səbəb ola bilər. Çox vaxt seksual günah bu kimi fikirlərlə yaxınlaşır: «Belə bir insanı ömrüm boyu arzulamışam. Onun ailəli olması və ya mənim ərdə olmağım heç bir əhəmiyyət daşımır»; «Görünür burada pis heç nə yoxdur, əks halda özümü belə xoşbəxt hiss etməzdim»; «Arzula-

dığım hər şeyə nail oluram»; «Heç kəs bu haqda bilməyəcək»; «Görünür, bu, alın yazısıdır».

Şeytana imkan vermə ki, bu kimi çirkin fikirləri sənə təlqin edərək Allahın xeyir-duasını oğurlasın. İstedadlı, ağıllı, yaraşıqlı bir kişini yüksək qiymətləndirməkdə pis heç nə yoxdur, lakin yaddan çıxartma ki, əgər sən onunla nikahda deyilsənsə, onda o, sənin üçün yalnız Rəbdə qardaş olaraq qalmalıdır. Əgər sən hansısa bir kişiyə qarşı özündə şəhvət hiss edirsənsə, dərhal bu istəyini Allah qarşısında etiraf etməli və Ondan səni bu hisslərindən azad etməsini diləməlisən. Sonra iblisə bildir ki, sən onun planını alt-üst etməklə səni məhv etməsinə və Allahın mirasını oğurlamasına imkan vermədin. Bu istehkamların dağılması üçün lazım gələrsə oruc tut və dua et. Qələbə çalmayanadək mübarizəni dayandırma:«Oyaq durub dua edin ki, sınağa düşməyəsiniz. Ruh həvəsli, cisim isə gücsüzdür» (Matta 26:41). Nə qədər çox sənə ənam verilibsə, bir o qədər düşmənin hücumuna məruz qalacaqsan. Çünki düşmən səndəki ənamları oğurlamağa çalışır. Onun hücumlarına hazır ol və Allahın Sözü ilə ona qarşı dur.

## İmtahan haqqında 6 vacib həqiqət

1. *Kim:* məsihçiliyi, xeyirhax əməlləri, ruhaniliyi və gücləri ilə öyünən insanların iflasa necə uğradıqlarının şahidi olmuşam. Lap çuruma yuvarlanmaqlarına baxmayaraq, hətta tövbə belə etmədilər. Bu səbəbdən imkan verməməliyik ki, təkəbbürümüz tənəzzüllümüzə səbəb olsun.
2. *Nə:* hər şey günaha gətirib çıxara bilər. Seksual tələyə düşmək xüsusilə risklidir. İmtahanın başqa növləri də var. Məsələn, var-dövlət, hakimiyyət və s. «Lakin hər kəs öz ehtirası ilə aparılıb yoldan çıxarılaraq sınağa çəkilir. Sonra ehtiras boylu qalıb günah doğur. Günah isə yetişəndə ölüm törədir. Ey sevimli qardaşlarım, aldanmayın» (Yaqub 1:14–16). Düşmən səni imtahana salmaq üçün zəifliyindən istifadə edir.

Cismani təbiətin istəklərinə qarşı durmaq üçün Allahdan güc istə.

3. *Nə vaxt:* adətən, imtahan səni qəflətən, heç gözləmədiyin bir vaxtda və aciz olduğun anlarda yaxalayır. Əgər sənə elə gəlirsə ki, imtahana təkbaşına sinə gələ bilərsən, bu zaman aldanma ehtimalın var. Yaxşısı budur ki, problemi olduğu kimi Allaha deyəsən, sonra isə etibar edə biləcəyin və səninlə birlikdə sənin üçün dua edəcək bir adam tapasan. Ümidlənmə ki, imtahan bir andaca yoxa çıxacaq. Nə vaxt baş verməyindən asılı olmayaraq, risk həmişə mövcuddur və həyatın üçün təhlükə qaçılmazdır.
4. *Harada:* imtahana hər yerdə məruz qalmaq olar: məbəddə, işdə, evdə, avtobusda, təyyarədə. İmtahan səni heç gözləmədiyin yerdə yaxalaya bilər. Harada olmağından asılı olmayaraq, gücünü toplayıb səni imtahana salan yerdən uzaqlaş. Əgər səni şokolad cəlb edirsə, şirniyyat mağazasından kənar gəz. Belə ki, ondan gələn qoxu ağlını başından alacaq. Əgər hansısa kişi səni başdan çıxarırsa, ondan uzaq dur. Əgər bu, mümkün deyilsə, onunla təklikdə qalma. Ağlını başından çıxaran hər kəsdən uzaqlaş və istənilən ədəbsiz arzuya qarşı durmaq üçün Allahdan güc istə.
5. *Nə üçün:* düşmən səni ona görə imatahana çəkir ki, o, Allahın sənin həyatında böyük iş görəcəyindən xəbərdardır. İblis ümid edir ki, sən bir anlıq həzz üçün hər şeyi qurban edəcək qədər axmaqlığa yol verəcəksən. O bilir ki, etdiyin günah təkcə sənə deyil, başqalarına da zərər yetirir. Beləliklə də, düşmən bir andaca bir neçə məqsədinə nail olmuş olur. Elə ki, onun tələsini aşkara çıxartdın, dərhal ona sənin həyatını məhv etməsinə və başqalarına zərər vurmasına imkan verməyəcəyini söylə.
6. *Necə:* Başına gələn imtahanın necəliyindən asılı olmayaraq bir məqamı yadda saxla ki, bu, səni məhv etmək istəyən iblisin

işidir. O, mütləq sənin zəif yerini tapacaq, ehtiyaclarını müəyyənləşdirəcək, acizliyindən istifadə edəcək və bütün gücünü səfərbər edəcək ki, böyük əmək sərf etmədən səni günaha sürükləsin. Buna görə də zəifliklərimizdən tez azad olunmağımız və şəxsiyyət kimi təkminləşməyimiz bizim üçün bu qədər vacibdir. Bunula da, biz, düşmənin həyatımıza doğru uzanan yollarından birini bağlamış oluruq.

Yaxşısı budur, imtahana düşməzdən qabaq dua edəsən. Çünki o, səni yaxaladığı vaxt onunla mübarizə aparmaq bir qədər çətin olur. İsa bizə yararlana biləcəyimiz dua nümunəsi verib: «Bizi sünağa çəkmə, lakin bizi şərdən xilas et. Çünki padşahlıq, qüdrət və izzət olaraq Sənindir. Amin!» (bax: Matta 6:13). Biz İsadan nümunə götürərək Onun kimi Allahın Sözü vasitəsilə düşmənə qalib gələ bilərik. «Məsih azad olmağımız üçün bizi azad etdi. Ona görə də möhkəm durun və yenidən köləlik boyunduruğuna tabe olmayın» (Qalatiyalılara 5:1). «Çünki Özü sınağa çəkilib əzab çəkdiyi üçün sınağa çəkilənlərə kömək edə bilər» (İbranilərə 2:18). Buna görə də biz Allahdan Rəbb İsa Məsihin Adı ilə Ondan kömək diləyə bilərik.

Heç vaxt düşünmə ki, imtahan səndən kənar düşəcək. Ruhani böyüdükcə şeytanın hədəfinə çevrilirsən. Əksər insanlar imtahana qalib gələ biləcəklərini düşündükləri vaxt Allahdan uzaq düşürlər. Müvəqqəti olaraq iman edib, imtahana məruz qaldıqda büdrəyən insanlardan olma (bax: Luka 8:13). İsa şagirdlərini «imtahana məruz qalmamaq üçün» duada sabit qalmağa çağırdı. Bu çağırış eyni zamanda bizə də aiddir.

İmtahan İsanı həyatının və xidmətinin dönüş dövründə yaxaladı. Analoji olaraq sənin həyatında da böyük çevrilişin gözlənildiyi anda imtahana məruz qala bilərsən. Həmişə ayıq ol və yaddan çıxartma ki, imtahan nə qədər güclü olsa da «sizdə olan Ruh dünyada olandan üstündür» (1 Yəhya 4:4). İblisə qalib gəlməkdən ötrü səndə kifayət qədər güc var.

## Dua

*Ya Rəbb,* iblisin tələsinə düşməmək üçün məni həm əqlən, həm də ruhən qüvvətləndir. Məni imtahana məruz qoyma, amma hiyləgərdən xilas et. Məni hər şeydən çox narahat edən (səni imtahana salan məqamların adını sadala). İmtahanın mənə vurduğu buxovları İsa Məsihin İsmi ilə darmadağın edirəm. Məni imtahana çəkən və Sənin xeyir-dualarından məhrum edən hər şeyə qarşı durmağım üçün mənə güc ver.

Dua edirəm ki, məni nə isə etməyə və nəyi isə deməyə vadar edən gizli istəklər olmasın. Yalvarıram ki, həyatmda ətrafımdakı insanlardan gizlin məni utandırıcaq heç nə olmasın. Mən qaranlığın bəhrəsiz işlərinin iştirakçısına çevrilmək istəmirəm. Bunun əvəzinə isə şeytanın bütün əməllərini ifşa etməyimə yardımçı ol. (bax: Efeslilərə 5:11). Yollarımı düzəlt (bax: İbranilərə 12:13) və imkan vermə ki, düşmən qəflətən xaincəsinə mənə hüsum çəksin.

Bilirəm ki, Sən «qarışıqlıq deyil, sülh qaynağısan» (1 Korinflilərə 14:33). Məni hər bir qarışıqlıqdan və intizamsızlıqdan qoru. «Sənə qarşı günah etməyim deyə Kəlamını qəlbimdə qoruyub saxlamışam» (bax: Zəbur 119:11). Müqəddəs Ruhun gücü sayəsində günahın mənim üzərimdə hökmranlıq etməsinə imkan verməyəm və cismani bədənimin istəklərinə uymayacam (bax: Romalılara 6:12). Ya Rəbb, məni eşitdiyinə və Sənin xeyir-dualarından məni uzaq salacaq imtahanlardan qoruduğuna görə Sənə minnətdaram (bax: Zəbur 145:18–19). Minnətdaram ki, Sən «möminləri sınaqdan necə qurtarmağı, haqsızları isə qiyamə gününə kimi cəza altında necə saxlamağı» bilirsən (bax: 2 Peter 2:9). Minnətdarm ki, məni bütün imtahanlardan qoruyursan və müqəddəslikdə saxlayırsan.

**Duanı təsirli etməyə kömək edən**
**MÜQƏDDƏS KİTABDAN AYƏLƏR**

Sınağa dözən adam nə bəxtiyardır! Çünki sınaqdan keçəndən sonra Rəbbin Onu sevənlərə vəd etdiyi həyat çələngini alacaq.

*Yaqub 1:12*

Siz hər insanın qarşılaşdığı sınaqdan başqa bir sınaqla qarşılaşmadınız. Allah sadiqdir və O, sizi gücünüzdən artıq sınağa çəkilməyə qoymaz. Sınaqla yanaşı bu vəziyyətdən çıxış yolu ilə təmin edəcək ki, tab gətirə biləsiniz.

*1 Korinflilərə 10:13*

Buna görə bu qədər böyük şahidlər buludu ilə əhatə olunduğumuz üçün biz hər bir yükü və bizi asanlıqla çaşdıran günahı tərk edib qarşımızdakı yarışda dözümlə qaçaq. Gözümüzü imanımızın Banisi və Kamilləşdiricisi olan İsaya dikək. O, qarşısına qoyulan sevincə görə rüsvayçılığı heç sayıb çarmıxa çəkilməyə tab gətirdi və Allahın taxtının sağında oturdu.

*İbranilərə 12:1–2*

Ey qardaşlarım, müxtəlif sınaqlarla üzləşəndə bunu böyük bir sevinc hesab edin. Çünki bilirsiniz ki, imanınızın sınaqdan keçməsi dözüm yaradır. Dözüm isə öz əməlini kamil etsin ki, siz yetkin və kamil adamlar olasınız, heç bir çatışmazlığınız olmasın.

*Yaqub 1:2–4*

Buna görə də kim ayaq üstə durduğunu düşünürsə, ehtiyatlı olsun ki, yıxılmasın.

*1 Korinflilərə 10:12*

## İYİRMİ ÜÇÜNCÜ FƏSİL

# YA RƏBB, MƏNƏ ŞƏFA VER VƏ BƏDƏNİMİN QAYĞISINA QALMAĞI MƏNƏ ÖYRƏT

İki il bundan əvvəl ölümlə üzləşmişdim. Bir neçə ay qarın nahiyəsində kəskin ağrılardan əziyyət çəkirdim. Bir neçə yaxşı tibb mərkəzlərinə və mütəxəssis həkimlərə müraciət etsəm də, heç kim mənə dəqiq diaqnoz qoya bilmirdi. Verdiyim bütün analizlər mənim sağlam olduğumu göstərirdi. Heç kəs iztirablarımın səbəbini müəyyən edə bilmirdi.

Bir gün gecə heç vaxt keçirtmədiyim dəhşətli bir hal yaşadım. Elə bildim daxilimdə nəsə partladı və başa düşdüm ki, bu dəqiqə mənə kömək etməsələr, öləcəm. Həyat yoldaşım gecə saat 3:30-da məni təcili xəstəxanaya çatdırdı, çünki «təcili yardım» maşınını gözləyə bilməzdik. Sonra xəstəxanının qəbul otağında bir neçə saat yalvara-yalvara qaldım ki, mənə mütləq kömək etsinlər, yoxsa öləcəm. Məndən yenə də dəfələrlə götürülən analizləri bir də götürdülər. Lakin yenə də nə baş verdiyini bilmirdilər.

Həyat yoldaşım dayanmadan dua edirdi. Sonra isə xəstəxanaya bacım Syuzan və mənim yaxın Rəfiqəm Roza gəldi. Onlar da mənim üçün səylə dua edirdilər. Həmçinin onlar başqa insanlardan da mənim üçün dua etməyi xahiş etdilər ki, həkimlər mənim xəstəliyimin səbə-

bini tapa bilsinlər. Mən isə yalnız bu sözləri deyə bilirdim: «İsa, mənə kömək et!»

Allahdan soruşdum: «Ya Rəbb, yəni mənim ölmək vaxtım çatıb?» Lakin Allahın mənə «bəli» deyə cavabını hiss etmədim. Allah mənə hiss etdirdi ki, Onun mənimlə bağlı hansısa bir məqsədi var.

Xəstəxanaya daxil olmağımdan səkkiz saat sonra bir cərrah həkimi çağırdılar. O, cəsartələ mənə dedi: «Mən indi sizinlə nə baş verdiyini deyə bilmərəm. Amma zənn edirəm ki, sizin appendisitiniz partlayıb. Sizi təcili olaraq əməliyyata aparmalıyam. Ola bilsin ki, mən səhv edirəm. Hər halda, nə baş verdiyni öyrənə biləcəyik».

Çox güman ki, cərrah haqlı idi. Əməliyyatdan sonra cərrah dedi: «Əgər bir saat da geciksə idi, siz zəhərli komaya düşə bilərdiniz və mən sizi xilas edə bilməyəcəkdim». Başa düşdüm ki, Allah mənim şəfam üçün olan duaya cavab verdi. Həmin cərrah-həkim isə bu cavabın bir hissəsi idi.

Bir neçə həftə xəstəxanada qaldım. Bədənimə borucuqlar taxılmışdı. Ağrıdan əziyyət çəkirdim. Belə ki, doğuş ağrıları bu ağrının yanında heç nə idi. Hətta, müntəzəm morfi iynəsi bu ağrıların qarşısını ala bilmirdi.

Bir gün otağıma müayinəyə girən həkimdən soruşdum: «Axı, bu, necə baş verə bilərdi? Bəlkə mən nəsə düz etməmişəm? Bəlkə bu, vitamin çox və ya az qəbul etdiyimə görə baş verib? Bəlkə idmanla çox, ya da az məşğul olduğuma görə belə oldum? Axı, mən həmişə səhhətimi qorumağa çalışmışam. Baş verənlərdə mənim günahım var?»

«Mənə belə hesab edirəm ki, sizin burada günahınız yoxdur» — deyə həkim cavab verdi. — Bu, irsi meyillikdir».

Həkim yenə də haqlı idi. Mənim ailə üzvlərim də bu xəstəlikdən əziyyət çəkmişdilər. Lakin məndən fərqli olaraq onlar buna gənc yaşlarında mübtala olublar. Mən elə fikirləşirdim ki, heç vaxt bu xəstə-

liyi keçirtməyəcəm, çünki artıq gənc deyildim. O vaxt mən başa düşdüm ki, nə qədər bədənimizin qayğısına düzgün qalsaq da, gələcək xəstəliyin qarşısını almaq gücündə deyilik. Baxmayaraq ki, biz səhhətimizin qayğısına qalmağa borcluyuq, lakin yenə də Allahın verdyi şəfaya ehtiyacımız var.

## Problemin iki nöqteyi-nəzəri

Şəfa və sağlamlığın qayğısına qalmaq iki fərqli şeylərdir. Allaha şəfa üçün müraciət edəndə bilirik ki, bu, yalnız *Allahın işidir*. Bədənimizin qayğısına qalmaq isə bizim borcumuzdur. Hər ikisi eyni dərəcədə vacibdir.

Allah bilir ki, biz zəif məxluquq və heç nəyi kamil şəkildə edə bilmirik. Ona görə də O, bizim üçün şəfa verən İsa Məsihi göndərdi. Lakin buna baxmayaraq, Allah bizi Onun yaratdıqlarına, həmçinin də Öz Bədəninə layiqli tərzdə idarə etməyə çağırıb. Allah istəyir ki, biz sağlam həyat tərzi sürək və öz bədənimizin qayğısına qalaq. Allaha məqbuldur ki, biz öz bədənimizin qayğısına qalaq və bununla Ona izzət verək. Çünki bizim bədənimiz Müqəddəs Ruhun məbədidir.

Bir çoxlarımız belə düşünürük: «Fiziki gərginlikdən və qidamdan başqa hər şeyim Rəbbə məxsusdur. Çünki bu, mənim öhdəmə buraxılıb». Ya da belə deyirik: «Mənim həyatım Allaha məxsusdur, bədənim isə mənə. Buna görə də nə istəyərəmsə onu da edərəm». Əgər biz Allaha məxsusuqsa, onda hər şey Ona mənsub olduğu kimi bizim bədənimiz də Ona məxsusdur. Bədənimizin qayğısına qalmaq heç də həyatımızın ayrı sahəsi deyil.

Bu məsələdə düzgün niyyətimiz böyük rol oynayır. Yəni ki, gözəlliyimizin və sağlamlığımızın qoruyub saxlanmasının əsl niyyəti nədir. Həyatımızın uğurlu olması bizim şəxsi niyyətimizdən asılıdır. Əgər biz zahirən gözəl görünməkdən ötrü düzgün qidalanıb və idman ediriksə, onda yaşlaşdıqca bu niyyət öz aktuallığını itirəcək.

Lakin biz Allahın enerjeli və sağlam xidmətçisi olmaq üçün düzgün qidalanmağa və idmanla məşğul olmağa çalışırıqsa, onda davranışımızın nəticəsi əbədi qalacaq və biz həmişə formamızı saxlaya biləcəyik.

Mən tez-tez insanlardan bu cür fikirlər eşidirəm: «Mən bədənimin qayğısına qalmıram, çünki xəstəlik gəlsə, Allah mənə şəfa verəcək». Belə düşünmək çox təhlükəlidir, çünki böyük xoşagəlməzliklər ola bilər. Şeytan bizə zərər vurmaq üçün fürsət axtarır. Bu cür düşünməyimiz ona kömək edə bilər. Biz lazımınca sağlamlığımızın qeydinə qalmasaq onu itirə bilərik. Allahdan xahiş et ki, O, sənin üçün zərərli olan şeylərdən səni qorumağa və sənin üçün xeyirli olan şeyləri nizamla qəbul etməyə kömək etsin.

## Şəfa verən Allaha toxun

Bütün səylərimizə baxmayaraq, bəzən xəstələnirik. Biz hər şeyi düzgün edə bilərik, ancaq özümüzü ciddi xəstəliklərdən qoruya bilmərik. Bəzən isə bir sıra xəstəliklərə düçar oluruq. Hətta, biz elə bir xəstəliyə tutula bilərik ki, onun nə dərəcədə qurbanı olacağımızı dərk etməyə bilərik. Başımıza bədbəxt hadisələr də gələ bilər. Allah bütün bunları qabaqcadan bildiyi üçün bizim üçün İsa Məsihi göndərdi. İsanın insanlara şəfa verməsi Allahın onlara olan mərhəmətidir. Müqəddəs Kəlam göstərir ki, insanlar İsa Məsihə toxunan kimi dərhal şəfa alırdılar. «İsanın getdiyi hər yerdə — kəndlərdə, şəhərlərdə obalarda xəstələri gətirib meydana qoyurdular. Xəstələr heç olmasa İsanın paltarının ətəyinə toxunmaq üçün yalvarırdılar. Ona toxunanların hamısı sağalırdı» (Mark 6:56). Bizm də şəfa almağımız üçün Ona toxunmağımız lazımdır. Bu isə, Onun hüzuruna girmək deməkdir. Allahdan xahiş et ki, sənə şəfa versin və iman et ki, O, bunu istədiyi tərzdə və istədiyi vaxtda edəcək. Bədənin qayğısına qalmaqala sən Allahla əməkdaşlıq edirsən, çünki sən Onun əmrlərinin icraçısı, O isə sənin şəfa Verənindir.

## Dua

*Ya Rəbb,* minnətdaram ki, Sən mənim şəfa Verənimsən. Əziləndə, yaxud xəstə olanda kömək üçün hər zaman Sənin yanına gəlirəm. Yalvarıram, mənə bu gün şəfa ver. Xüsusilə də, Səndən xahiş edirəm ki, məni bu… (ağrıyan bədən üzvlərinizi sadalayın) yerimə şəfa ver. Mənə şəfa ver ki, Yeşaya peyğəmbər vasitəsilə söylənən söz yerinə yetsin: «Bizim xəstəliklərimizi O çəkdi, naxoşluqlarımızı Öz üzərinə götürdü» (Matta 8:17). Sən mənim şəfa, bağışlanma və əbədi həyat ala bilməyim üçün iztirab çəkdin. Sənin yaralarınla mən şəfa tapdım (bax: 1 Peter 2:24). Bilirəm ki, sağalmağım Sənin yanımda olmaqdan başlayır. Sənin hüzurunda mən Sənə toxuna bilərəm, Sənsə cavab olaraq mənə toxunursan.

Ya Rəbb, ancaq Sən mənim üçün nəyin yaxşı, nəyin pis olduğunu bilirsən. Buna görə də yalvarıram, bunları mənə açıqla. Məndən bütün yalnış və faydasız məlumatları uzaqlaşdır. Öyrət ki, mənə zərər verə biləcək qidaları qəbul etməyim. Mən Sənsiz bunları edə bilməyəcəm, çünki Sənsən mənim Yaradanım və Səndən başqa heç kəs məni yaxşı tanıya bilməz. Kömək elə ki, özümü həmişə lazımı qaydada saxlaya bilim. Kömək elə ki, «bədənimi məcburən özümə qul edim» (bax: 1 Korinflilərə 9:27).

Ya Rəbb, Sən Öz Kəlamında demisən ki: «Xalqım biliksizlikdən məhv oldu» (Huşə 4:6). Mən biliksizlikdən məhv olmaq istəmirəm. Məni öyrət və öyrənməyə davam etməyə kömək elə. Mənə düzgün məsləhət verə biləcək insanların yanına apar. Sənin əmrlərinə və qayda-qanunlarına riayət etməkdə kömək elə. Əgər xəstələnsəm və həkimə müraciət etməli olsam, mənə yaxşı həkim yetir ki, xəstəliyimi düzgün təyin edib məni müalicə edə bilsin. Bunun üçün ona müdriklik ver. Mə-

ni ən çox narahat edən … (sağlamlığınla bağlı probleminin adını çək). Ya Rəbb, yaşadığım bu çətin anımda yanımda ol və Öz iradəni yerinə yetir. Bu vəziyyətdə mənə şəfa almaqda kömək elə.

Ya Rəbb, bütün əməllərimlə Səni izzətləndirmək istəyirəm. Mənə bəxş etdiyin bədənə müdrikliklə yanaşmağa kömək elə. Bağışla ki, bədənim kamil olmadığı üçün onu tənqid və mühakimə etmişəm. Buna görə qarşında tövbə edirəm. Bilirəm ki, mənim bədənim məndə yaşayan Müqəddəs Ruhun məbədidir. Kömək elə ki, bu həqiqəti bir an olsa belə unutmayım və Sənin məbədini paklıqda saxlayaraq onu qoruya bilim. Öz bədənimə qarşı düzgün rəftar etməyi və onun qayğısına qalmağı öyrət.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Aranızda xəstə olan varmı? Qoy imanlılar cəmiyyətinin ağsaqqallarını çağırtdırsın. Onlar da Rəbbin adına onu yağla məsh edərək dua etsinlər. İmanla edilən dua xəstəni sağaldacaq və Rəbb onu ayağa qaldıracaq. Əgər o adam günah edibsə, o bağışlanacaq. Beləliklə, günahlarınızı bir-birinizə etiraf edin və bir-biriniz üçün dua edin ki, sağalasınız. Saleh adamın duası çox güclü və təsirlidir.

*Yaqub 5:14–16*

Ya Rəbb, mənə şəfa versən, mən sağalaram. Məni xilas etsən, mən xilas olaram. Çünki həmd etdiyim Sənsən.

*Yeremya 17:14*

Rəbb bəyan edir: «Mən səni yenə sağaldacağam, yaralarına şəfa verəcəyəm. Çünki deyirlər ki, Sion rədd edilib, onu axtaran yoxdur».

*Yeremya 30–17*

Beləliklə, nə yeyirsinizsə, nə içirsinizsə, hər şeyi Allahın izzəti üçün edin.

*1 Korinflilərə 10:31*

Bilirik ki, sığındığımız bu dünəyəvi çadır dağılarsa, göylərdə Allahın bizə verdiyi binamız, əllə tikilməyən əbədi bir evimiz var.

*2 Korinflilərə 5:1*

## İYİRMİ DÖRDÜNCÜ FƏSİL

# YA RƏBB, MƏNİ QORXUDAN AZAD ET

Bir neçə il idi ki, mən rahat duş qəbul edə bilmirdim. Çünki «Pzixoz» adlı qorxulu filmdən bəzi səhnələr məni təqib edirdi. Bu kinoya hələ gənc yaşlarımda baxmışdım. O vaxtdan duş qəbul etməkdən qorxurdum. İsa Məsihə iman etdikdən sonra bu qorxudan azad olmağıma görə bir qardaş mənim üçün dua etdi. O vaxtdan duş qəbul etmək mənim üçün böyük zövqə çevrilib.

Bundan əlavə, mən ölümdən, aclıqdan, uğursuzluqdan, təyyarədə uçmaqdan, bədbəxt hadisələrdən, iynələrdən, bıçaqlardan, itməkdən, atılmaqdan, xəstəlikdən, travma almaqdan, qaranlıqdan, naməlumluqdan, insanların nə fikirləşdyindən və tənhalıqdan qorxurdum. Lakin Allah bütün bu qorxulardan məni tamamilə azad edib. Bu qorxuların bəzilərindən azad olmaq üçün xüsusi dua edirdim, bəziləri isə Allahın məhəbbəti və iradəsi altında olduğum vaxt keçib getmişdi.

Allah bizim qorxuda yaşamağımızı istəmir, çünki Onda heç bir qorxu yoxdur. Sülh qorxunu qenerasiya edir. Kinolarda gördüklərimiz və qəzetdə oxuduqlarımız çox vaxt bizi qorxudur. O cümlədən insanların əməlləri və sözləri bizə qorxu təlqin edir. Düşmən olan iblis də bizi bir çox qorxulara sala bilər, həmçinin gələcəyimizi də. Ehtiyat edirik ki, ən çox qorxduğumuz bədbəxt hadisələr həqiqət də başımı-

za gələ bilər. Lakin qorxu bizim üzərimizdə bu cür səlahiyyətə malik olmamalıdır.

## Yalnış qorxu

İnsan yalnız bir qorxuya malik olmalıdır, bu da Allah qorxusu olmalıdır. Bundan başqa qorxular isə yalandır. Biz Allaha dua etməliyik ki, O, bizi Allah qorxusunda yaşamağa öyrətsin və bizə əziyyət verən başqa qorxuların təsiri altına düşməyə qoymasın. Ən çox yayılmış qoxulardan biri insan qorxusudur, yəni insanlar tərəfindən rədd olunmaq qorxusu. Biz dərk etmədən tez-tez bu tələyə düşürük. Buna görə də biz həmişə bu barədə insanların deyil, Allahın nə dediyini xatırlamalıyıq. Hər hansı işdə bəyənilməyimiz üçün biz insanlara yox, Allaha müraciət etməliyik. Əgər Allah ürəyimizdə birinci yerdə olmasa, onda həmişə insanlardan qorxacayıq. «İnsandan qorxan özünü tələyə salar, amma Rəbbə güvənən arxayın yaşar» (Süleymanın Məsəlləri 29:25).

Bu dünyada qorxmaq üçün bir çox səbəb var. Bəzən bir dəfə xəbərlər proqramına baxmaq kifayət olur ki, qəlbimizi dəhşət bürüsün. Hətta bizi xəyallarımız belə qorxuda bilər. Lakin Allah birdəfəlik bizi bütün qorxulardan azad etmək istəyir.

### Yalnış qorxudan azad olmağın dörd düzgün üsulu

1. *Dua etmək.* Müqəddəs Kitab bizə öyrədir ki, bir çox qorxularımız məhəbbətdə kamil olmamağımızdan irəli gəlir. «Məhəbbətdə qorxu yoxdur, əksinə, kamil məhəbbət qorxunu qovar. Çünki qorxu cəzaya aiddir. Qorxan insan məhəbbətdə kamil deyil» (1 Yəhya 4:18). Yalnız Allahın məhəbbətini kamil adlandırmaq olar. Biz ancaq Allaha çox yaxın olmaqla və Onun məhəbbəti ilə dolmaqla Allahın məhəbbətində kamilləşə bilərik. Əgər sən məhz bu cür etsən, onda Allah səni bütün qorxulardan azad edəcək.

2. *Fikirlərə nəzarət etmək.* Dünyada baş verən fəlakətlər ürəyimizə az qorxu salmır. Sən dünayadan hansı məlumatları qəbul edirsən? Bəlkə də bu məlumatların hansısa bir hissəsi səni qorxudur? Səncə, bunu dəyişmək mümkündürmü? Sən qorxulu filmlər verən kinoteatrlara gedirsənmi və ya onları televizordan izləyirsənmi? Əgər cavab «bəli»dirsə, onda bunun əvəzinə Müqəddəs Kəlam oxu. Əgər xəbərlər proqramları səni təşvişə salırsa, onda onlara baxma. Yox, əgər baxırsansa, onda oradakı insanlar üçün dua elə. Allaha yaxınlaşmaq üçün əlindən gələni elə (məsələn, ilahilər oxumaq və ya onlara qulaq asmaq olar). Allahın hüzuru bütün qorxuları yox edir.
3. *Allahın Sözündə qalmaq.* Çox vaxt mən qorxanda Allahın Kəlamını oxumağa başlayırdım. O an bütün qorxular məni tərk edirdi. Allahın qorxularımız barədə nə dediyinə qulaq asanda ətrafımızda hər şey dəyişməyə başlayır. Allahın Sözünü ucadan iqrar etmək hər cür qorxuya qarşı böyük silahdır. Vacib deyil ki, məhz qorxu haqqında ayələr iqrar edəsən. Allahın Kəlamında yazılan hər bir ayə hər cür qorxunu qovar. Çünki Allahın Ruhu Müqəddəs Kitabın hər bir səhifəsindədir.
4. *Allah qorxusunda yaşamaq.* Allahı çox tanıdıqca Onun xasiyyətini dərk etməyə başlayırsan. Belə olan halda sən daha çox Ona pərəstiş etmək və ehtiram göstərmək istəyirsən və heç bir halda Onu kədərləndirmək istəmirsən. Məhz bu hisslər bizdə Allah qorxusu yaradır və Ona itaət göstərməyə təhrik edir. Bu Allah qorxusu daxilində Allaha yaxınlaşmaq istəyi yaradır. Allah qorxusunda yaşadıqsa əvvəllər səni qorxudan şeyləri unutmağa başlayırsan. Çünki hər şey Onun qüdrəti qarşısında solur. Əgər səndə Allah qorxusu yaşayırsa, onda sən yalnız bir şeydən qorxacaqsan, bu da Onun xeyir-dualarını itirmək və həyatını Onsuz təsəvvür etmək deməkdir.

## Allah qorxusu

Allah qorxusunda yaşayan Nuh peyğəmbərin həyatı yaxşı nümunədir. Onun gəmini tikməkdə yeganə səbəbi Allah qorxusu olub. «Nuh hələ gözə görünməyən şeylər barəsində edilən xəbərdarlığa iman vasitəsilə ciddi yanaşaraq öz ev əhlinin xilası üçün gəmi düzəltdi. O, iman vasitəsilə dünyanı mühakimə etdi və imana görə olan salehliyi irs olaraq aldı» (İbranilərə 11:7). Nuh gəmi düzəltdiyi vaxt insanlar ona rişxənd edirdi. Lakin o, Allaha olan imanında möhkəm qaldı. Nuh insanlara deyil, yalnız Allaha qulaq asırdı. Nəticədə o, xilas oldu. «…Allahdan qorx, Onun əmrlərini yerinə yetir. Bəli, insanın əsas vəzifəsi budur» (Vaiz 12:13). Sənin xilasın da məhz bundadır.

### Allah qorxusunda yaşamağın yeddi faydası

1. *Allahın qayğısı.* «Ey Rəbbin müqəddəsləri, Rəbdən qorxun, Ondan qorxan heç nəyə möhtac olmaz» (Zəbur 24:9).
2. *Allahın müdafiəsi.* «Rəbb qorxusu insana həyat verər, ona şər yaxınlaşmaz, tox yatar» (Süleymanın Məsəlləri 19:23).
3. *Allahın mərhəməti.* «Göylər yerdən nə qədər ucadırsa, Ondan qorxanlara olan məhəbbəti o qədər böyükdür» (Zəbur 103:11).
4. *Allahın xeyirxahlığı.* «Xeyirxahlığın nə qədər böyükdür! Bunu Səndən qorxanlar üçün saxladın. Bütün bəşər övladları qarşısında Sənə pənah gətirənlərə xeyirxahlıq etdin» (Zəbur 31:19).
5. *Allahın səxavətliyi.* «İtaətkarlığın və Rəbb qorxusunun nəticəsi sərvət, şərəf və həyatdır» (Süleymanın Məsəlləri 22:4).
6. *Allahın köməyi.* «Ondan qorxanları muradına çatdırar, fəryadlarına qulaq asıb onları qurtarar» (Zəbur 145:19).
7. *Allahın himayəçiliyi.* «İnsan Rəbb qorxusuna görə pislikdən dönər» (Süleymanın Məsəlləri 16:6).

Allahın Öz sirləri var. Lakin bu o demək deyil ki, Allah səndən nəsə gizlədir. Sadəcə Allah istəyir ki, sən özün Ona yaxınlaşmaqla sirlərini açasan. «Rəbb Ondan qorxanlara sirrini açar, onlara Öz əhdini öyrədər» (Zəbur 25:14). Allah istəyir ki, sən Ona itaətli olasan, Onunla ünsiyyət qurasan ki, sizin münasibətləriniz Ona Özünü sənə həsr etməyə icazə versin və sənin üçün bağlı olan sirləri açsın. Belə ki, əgər O, sənə açmasa onları heç vaxt bilə bilməzsən. Əgər sən sakitlikdə Onu axtararaq səsini dinləyirsənsə, bir gün O, səninlə mütləq danışacaq və bundan sonra sənin həyatın tamamilə dəyişəcək. Bu an sənin bütün qorxuların yoxa çıxacaq. Allahdan xahiş et ki, səninlə bu gün danışsın.

## Dua

*Ya Rəbb,* sən mənim «nurum və qurtuluşumsan, mənim qüvvətimsən. Mən kimdən qorxum? Bir ordu qarşımda düzülsə belə, ürəyim qorxmaz» (Zəbur 27:1–3). Rəbb, mən cəsur olmaq istəyirəm, çünki bilirəm ki, hara getsəm də hər yerdə Sən mənimləsən. (bax: Yeşua 1:9).

Ya Rəbb, düşüncəmi və ürəyimi qorxu ruhundan qoru. Bu gün mən… (qorxduğun şeyləri sadala) qorxuram. Yalvarıram, qorxularımı götür, əvəzində isə mənə kamil məhəbbət ver. Əgər ürəyimdə bu qorxu ilə bağlı fikirləri daşıyıramsa, onları mənə göstər. Əgər mən Səndən uzaqlaşıb bütün diqqətimi özümə cəmləyirəmsə, mənə dayanmağa kömək elə və güc ver ki, bütün diqqətimi özümə deyil, Sənə cəmləyim. Nə vaxt qorxuya yer verdiyimi mənə göstər və ondan azad olmağa kömək elə. İnsanlar tərəfindən rədd olunmaq qorxusundan məni azad elə, əvəzində isə Allah qorxusu bəxş elə.

Sənin Sözündə yazılıb ki, Sən insanların ürəyinə Allah qorxusu salacaq, onların ürəyinə təsir edəcək və onlara yaxşı-

lıq etməkdən dönməyəcəksən (Yeremya 32:40). Yalvarıram, bunu mənim üçün də et. Bilirəm ki, Sən mənə qorxu ruhunu verməmisən. Buna görə də onu indi rədd edirəm və xahiş edirəm bunun əvəzinə mənə məhəbbət və aydın düşüncə ver, yəni mənim üçün hazırladığın hər şeyi ver. «Xeyirxahlığın nə qədər böyükdür. Bunu Səndən qorxanlar üçün saxladın» (Zəbur 31:20). «Buna görə də sarsılmaz Padşahlığa nail olduğum üçün minnətdar olub… möminlik və ehtiramla Allaha məqbul tərzdə Ona ibadət edəcəm».

Ya Rəbb, çox sağ ol ki, Sən mənə bu həqiqəti açdın, belə ki, «Rəbb qorxusu insana həyat verər, ona şər yaxınlaşmaz, tox yatar» (Süleymanın Məsəlləri 19:23). Ürəyimi Rəbb qorxusunda bərqərar et ki, sənə məqbul işlər görüm və şeytanın bütün planlarını alt-üst edə bilim. Minnətdaram ki, Səndən qorxan insan heç vaxt heç nəyə möhtac qalmaz.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Çünki Allah bizə qorxaxlıq ruhu deyil, güc, məhəbbət və ağıllı-kamallı olmaq ruhu vermişdir.

*2 Timotey 1:7*

Məhəbbətdə qorxu yoxdur, əksinə, kamil məhəbbət qorxunu qovar. Çünki qorxu cəzaya aiddir, qorxan insan məhəbbətdə kamil deyil.

*1 Yəhya 4:18*

Ya Rəbb, mənə yolunu göstər, Sənin həqiqətinlə addımlayım. Qəlbimi səmimi et, qoy Sənin ismindən qorxum.

*Zəbur 86:11*

O vaxt məni çağıranlara cavab verməyəcəyəm. Səylə axtarsalar da, məni tapa bilməyəcəklər. Çünki onlar biliyə nifrət edirlər, Rəbdən qorxmaq istəmədilər.

*Süleymanın Məsəlləri 1:28–29*

Qulağını hikmətə tərəf çevirsən, ürəyini dərrakəyə tərəf meyl etdirsən, sən, həqiqətən, idrakı çağırsan, səs ucaldıb dərrakəni səsləsən, bunları gümüş kimi axtarsan, gizli xəzinə kimi arasan, onda Rəbb qorxusunu anlayarsan, Allahı tanıyarsan.

*Süleymanın Məsəlləri 2:2–5*

## İYİRMİ BEŞİNCİ FƏSİL

# YA RƏBB, SƏNƏ XİDMƏT ETDİYİM ZAMAN İNSANLARIN ÜRƏYİNƏ TOXUNMAQDA MƏNƏ KÖMƏK ET

«Dua edən qadının gücü» kitabını yazdığım vaxtlarda Müqəddəs Ruh məni heç vaxt etmədiyimi bir duaya yönəldti. Əvvələr həmişə Allahdan xahiş edirdim ki, bu kitabı yazmaqda mənə kömək eləsin. Lakin bu dəfə Müqəddəs Ruh aydın şəkildə ürəyimə qoydu ki, Allahdan bu kitabı oxuyanların ürəklərinə toxunmağını xahiş edim. Bu kitaba qədər daha üç kitab yazmışdım, ancaq heç vaxt bu cür dua ürəyimdən keçməmişdi. Bu duyğularımı hər zaman duada məni dəstəkləyən dua qrupumuzla bölüşdüm. Biz birlikdə bu kitabın bütün dünyaya yayılması və bir çox dillərə tərcümə olunması üçün dua etməyə başladıq. Mən özüm də inanmırdım ki, bu cür böyük işi üzərimə götürmək üçün belə dua edirəm. Amma mən inanırdım ki, məhz belə dua etməyim Allahın ürəyincədir.

Növbəti yeddi il ərzində müxtəlif ölkələrdən kitabımın başqa dillərə tərcümə olunması üçün məndən rəsmi icazə istədilər. Tezliklə, mən Fransız, Alman, Portuqal, Holland, Macarıstan, Koreya, İspan, Yapon, Hind, İndoneziya və Afrika dillərində kitabımın nüsxələrini almağa başladım. Hər dəfə Allah dualarıma bu cür möcüzəli şəkildə cavab verdiyi üçün təəccüblənirdim.

Bir dəfə əlimə kitabımın Çin dilənə tərcümə olunmuş nüsxəsi düşdü. Mən ağlamağa başladım, çünki təsəvvür edə bilmədiyim bir hadisə baş verdi. Mən heç vaxt görmədiyim Çin qadınları haqqında düşünməyə başladım və təsəvvür edirdim ki, onlar mənim kitabımı oxuyub ailələri üçün necə dua edirlər. Təbii ki, mən bütün dünyanı dolaşıb oxucularımın hamısı ilə görüşə bilməzdim. O cümlədən Çinə də getməyə imkanım yox idi və çox güman ki, nə vaxtsa oraya gedə biləcəm. Lakin Allahın mənə nazil etdiyi söz oraya da gedib çatdı. Ola bilsin ki, bu qadınlar mənimlə heç vaxt görüşməyəcəklər, lakin onlar Allahı dərindən tanıya biləcəklər.

Bu, duama necə də gözəl cavab idi! Biz dostlarımla birgə bu iş üçün etdiyimiz ilk duamızı xatırlayırdıq. Allahın bu duamıza necə gözəl cavab verdiyinə görə sevinirdik. O vaxtdan başlayaraq, mən hər növbəti kitabım üçün belə dua edirəm: «Ya Rəbb, yalvarıram, elə et ki, bu kitab vasitəsilə Sənin sevgin, mərhəmətin, ümidin və həqiqətin dünyadakı bir çox insanlara açılsın». Sən də bu cür dua edə bilərsən. Allah isə sənin istedadlarından bir çox insanların ürəyinə toxunmaq üçün istifadə edəcək. Əgər Allahın sənə verdiklərini başqaları ilə bölüşməyə hazır olsan, onda Allah bu işdə mütləq sənə kömək edəcək.

Malik olduqlarımızı Allahla və insanlarla bölüşmək bacarığı həyatımızın vacib bir hissəsidir. Bunsuz biz heç vaxt məqsədlərimizə çata bilməyəcəyik. Əgər biz verməyi öyrənməsək, onda şəxsiyyətimizin bütövlüyünü heç vaxt hiss edə bilməyəcəyik və rahatlıq tapmayacağıq. Allahın xeyir-dua mənbəyi bizim vasitəmizlə axmalıdır. Nə vaxt ki, biz malik olduğumuz şeylərli Allahla və insanlarla bölüşməyə başlayırıq, onda Allah Öz xeyir-duaları ilə daxilimizi daha çox doldurmağa başlayır. Əgər biz bu mənbəyin qarşısını alırıqsa, onda həyatımızın axın selini kəsmiş olacağıq. Biz həmişə Allahdan xahiş etməlyik ki, bizə verməyi öyrətsin və bunun üçün lazım olan güc versin.

## Dua ənamı

Bir çox insanlar mənə yazırlar ki, kitablarım onlara ailələrini qorumağa, uşaqlarını və özlərini xilas etməkdə onlara kömək edib. Onlar mənə necə minnətdar ola biləcəklərini soruşanda, mən həmişə eyni cavab verirəm: «Mənim üçün ən gözəl edə biləcəyiniz odur ki, mənim üçün dua edəsiniz. Həmçinin işlərimin uğurlu olması, sağlamlığım, ailəm və nikahım üçün dua edin. Allahdan xahiş edin ki, mən daha bir çox kitab yazım. Qoy bu kitablar Allaha yaxınlaşmaqda insanlara kömək etsin, Allah da onların həyatını dəyişə bilsin». Mənim üçün duadan başqa daha dəyərli hədiyyə yoxdur. Mən inanıram ki, xəstəxanada olduğum vaxt minlərlə insanların duası məni oradan xilas etdi. Əgər sən də mənim üçün dua edənlərdən birisənsə, onda dərin minnətdarlığımı qəbul elə. Mən sizin dualarınızı hər zaman hiss edirdim və onların sayəsində bu gün salamatam.

Dua — başqaları ilə bölüşə biləcəyimiz böyük bir ənamdır. Əlbəttə, əgər kiminsə paltara, yeməyə və ya sığınacağa ehtiyacı varsa, ona kömək etmək bizim borcumuzdur. Lakin eyni zamanda biz onlar üçün öz dualarımızı əsirgəməməliyik. Çünki maddi nemətlər müvəqqətidir, amma bizim dualarımız insanların həyatını dəyişə bilər.

Əgər biz başqa insanlar üçün vəsatət etməyi öyrənməsək, onda Allahın mirasını ala bilməyəcəyik. Bizim ümumi çağırışımız məhz bundan ibarətdir. Hamımız bir-birimiz üçün vəsatət etməyə çağrılmışıq. Allah istəyir ki, biz hər zaman bir-birimizin uğrunda canımızı fəda etməyə hazır olaq.

11 sentyabr 2001-ci ildə baş verən hadisədən sonra Nyu-York, Pensivalni və Vaşinqtonda yaşayan insanlar üçün dərhal vəsatət başlandı. Birləşmiş Ştatların hər tərəfindən bir çox insanlar Nyu-Yorkda zərər çəkmiş insanlara kömək etmək üçün oraya axışdılar. Onlar qan vermək üçün uzun növbələr tutur, öz yaxınlarını itirmiş insanlara maddi vəsaitlə kömək edirdilər. Hər kəs bacardıqları hər şeylə kömək edirdi. Bütün bunların hamısı dualarn sayəsində idi. «Ey övlad-

lar, sözdə və dildə deyil, əməldə və həqiqətdə sevək» (1 Yəhya 3:18). Əgər sən Allahı sevirsənsə, onda insanları da sevəcəksən və onlara kömək etməkdən ötrü əlindən gələni edəcəksən. Məhz dua — bu yolun uğurlu başlanğıcıdır.

Allah istəyir ki, biz verənlərdən olaq. O deyir ki, əgər biz başqalarından öz köməyimizi əsirgəyiriksə, onda Onu sevmirik. «Əgər bir kəs dünya malına sahib olarkən qardaşını ehtiyac içində görüb ona rəhmi gəlmirsə, Allah məhəbbəti onda necə qala bilər?» (1 Yəhya 3:17). «Hər kəs öz xeyrini yox, başqalarının xeyrini güdsün» (1 Korinflilərə 10:24). Biz Allahdan xidmətlərimizin vasitəsilə insanların ürəklərinə toxunmağını istəyəndə, Allah üzərimizə böyük xeyir-dualar yağdırır.

## *Dua*

*Ya Rəbb,* mənə Sənin istədiyin kimi xidmət etməyi öyrət. Xahiş edirəm, kiminlə bölüşəcəyimi istəyirsənsə, onu mənə göstər. İnsanların ehtiyaclarını görə bilməyim üçün gözlərimi aç. Məndə yoxsullarla bölüşə biləcək səxavətli ürək yarat. Sənin mənə bəxş elədiyin xeyir-dualardan səmərəli istifadə etməyimə kömək elə. Başqaları ilə bölüşmək üçün mənə istək ver. Kimə kömək əlimi uzatmalıyamsa onu mənə göstər. Ürəyimi məhəbbətlə doldur ki, bütün insanları sevməyi bacarım və bunu onlara əməllərimdə göstərə bilim. Elə et ki, mənim Sənə olan xidmətim insanların ürəyinə toxunsun.

Malik olduğum hər şeyi Sənə qurban verməyi mənə öyrət. Çünki Sənə məxsus olanları Səndən məhrum etmək istəmirəm. Ya Rəbb, bilirəm ki, xəzinəm harada ürəyim də orada olacaq (bax: Matta 6:21). Buna görə də qoy mənim ən böyük xəzinəm Sənə xidmət etməyim olsun.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Siz qısa bir müddət əzab çəkdikdən sonra sizi İsa Məsihlə Özünün əbədi izzətinə çağırmış, hər cür lütf verən Allah Özü sizi bərpa edəcək, möhkəmləndirəcək, qüvvətləndirəcək və sarsılmaz təmələ oturdacaq. Qüdərt əbədi olaraq Onun olsun! Amin!

*1 Peter 4:10–11*

Məhəbbətin nə olduğunu bundan anladıq ki, Məsih Öz canını bizim üçün fəda etdi. Biz də öz canımızı qardaşlarımız üçün fəda etməliyik.

*1 Yəhya 3:16*

Yaxşılıq edərkən ruhdan düşməyək. Çünki əgər həvəsdən düşməsək, vaxtında biçərik.

*Qalatiyalılara 6:9*

Ağıllı adamlar göy qübbəsinin parıltısı kimi, çoxunu salehliyə döndərənlər ulduzlar kimi əbədi və daim parlayacaq.

*Daniel 12:3*

Doğrusunu, doğrusunu sizə deyirəm: Mənə iman edən hər kəs Mənim etdiyim işləri özü də edəcək, hətta bunlardan da artığını edəcək. Çünki Mən Atanın yanına gedirəm və Mənim adımla nə diləsəniz, onu edəcəyəm ki, Ata Oğulda izzətlənsin. Əgər Mənim adımla Məndən bir şey diləsəniz, onu edəcəyəm.

*Yəhya 14:12–14*

## İYİRMİ ALTINCI FƏSİL

# YA RƏBB, QOY AĞZIMDAN YALNIZ HƏYAT DOLU SÖZLƏR ÇIXSIN

On dörd yaşım olanda mən öz rəfiqəmi qonşuluqdakı oğlanla tanış etmək qərarına gəldim və onu belə təqdim etdim: «Bu, toppuş Maykdır». Bütün uşaqlar onu digər Maykdan seçmək üçün məhz bu cür çağırırdı. Lakin bu kəlməni dilimdən çıxardar-çıxartmaz hiss etdim ki, Maykın gözlərinə kədər çökdü. Beləliklə, başa düşdüm ki, bu ləqəb heç də onun xoşuna gəlmir. Bu vəziyyətdən çox təsirləndim, çünki heç onu incitmək istəmirdim. Ümumiyyətlə, o, mənim nəzərimdə kifayət qədər yaraşıqlı oğlan idi. Lakin bilməzdim ki, onun xarici görünüşü onun üçün bu qədər ağrılı bir məsələdir. Mənim üçün «toppuş Mayk» ləqəbi sadəcə bir zarafat idi və Mayk özü də heç vaxt buna etiraz etmirdi. Lakin belə məlum oldu ki, bu ləqəb onu incidirmiş. O vaxtlar mən dərk etmirdim ki, ürəksındıran sözlər həmişə insanı yaralayır. Mən çaşdığımdan üzr istəməyi belə yaddan çıxartdım. Belə qarara gəldim ki, yaxışısı budur, bu hadisəni yaddan çıxardım. Ümid edirəm ki, eynilə Mayk da bunu yaddan çıxardacaq və hər şey öz yolunda davam edəcək.

Tezliklə, mən bu yerdən köçəsi oldum və bir daha Maykı görə bilmədim. Mən o hadisəni demək olar ki, tamamilə unutmuşdum və yalnız üstündən on beş il ötəndən sonra, imanlı olduğum vaxt xatır-

lamağa başladım. Allahın qarşısında qəlbimin tamamilə təmizlənməsi üçün etiraf etməli və tövbə etməli olduğum günahları yadıma salmasını istədim. Belə bir duadan sonra xəyallarımda sözün hərfi mənasında pis əməllərim canlanmağa başladı. Onların arasında Maykla bağlı baş verən həmin hadisə də var idi. Özümə, sözlərimə, düşünülməmiş qəddarlığıma və bu sözün vurduğu yaraya görə bərk utandım. Mən heyrət içində idim: necə ola bilər ki, daşürəkli və kobud insanlar tərəfindən dəfələrlə iztirab çəkdiyim halda, başqasına qarşı belə davrana bilmişdim. Allahdan rəhimsizliyimə və dərrakəsizliyimə görə məni bağışlamağını istədim.

Əgər Maykı axtarıb tapmaq və ondan üzr istəmək mümkün olsaydı, mən bunu məmnuniyyətlə edərdim. Təəssüf ki, bu, mümkün deyildi. Günahımı yalnız Mayk üçün xeyir-dua istəməklə yumağa çalışırdım. Dua edirdim ki, mənim sözlərimin ona vurduğu yaradan qurtulması üçün Rəbb onun yaddaşını təmizləsin.

Burnumuz ilə çənəmiz arasında elə bir orqan yerləşir ki, kifayət qədər bizə problemlər yaşadır. Hərdən dilimizdən elə sözlər çıxır ki, nəticədə başqalarını yaralamış oluruq, sonra isə düşüncəsizliyimizin bəhrələrini biçirik. On beş il əvvəl dediyim sözlərə görə ağır hesab ödəməli oldum. Nə qədər ki, söz ağzındadır, sən onun ağasısan, elə ki, ağızdan çıxdı, o, sənin ağan olur. Bu zaman yalnız bizə üzr istəmək və bağışlanacağımıza ümid etmək qalır. Dilimizdən nalayiq kəlmələrin çıxmaması üçün qəlbimizin məhəbbətlə və xeyirxah işlər görmək istəyi ilə dolu olması lazımdır. «…ürək doluluğundan ağız danışar» (Matta 12:34). Əgər ürəyimiz Allahın həqiqəti və məhəbbəti ilə dolub daşırsa, onda danışığımız da təmiz və ürəkaçan olar.

Həmişə gileylənən və başqalarını pisləyən insanlarla heç ünsiyyətdə olmusunuzmu? Məgər bu, yorucu deyil? İstənilən vaxt nəsə bir nalayiq sözlər eşidə biləcəyinizi güman etdiyiniz insanların arasında olmusunuzmu? Belə həmsöhbətlərdən dərhal uzaqlaşmaq istəyirsiniz, elə deyilmi? Müqəddəs Kitab bizə buyurur: «Hər şeyi şikayətlənmədən, mübahisə etmədən yerinə yetirin» (Filipilərə 2:14). Həyatımız-

dan gileylənməklə biz Allaha olan inamsızlığımızı, Onun hər şeyi idarə etməsinə, qayğımıza qalmasına, dualarımıza cavab verməsinə şübhə ilə yanaşdığımızı göstərmiş oluruq. Bu isə ondan xəbər verir ki, biz dua etmirik. İnsanlarla ünsiyyət zamanı onlara nə dərəcədə inanıb-inanmağımız bizi bir o qədər də incitmir.

Təsəvvür edək ki, hər dəfə dilimizdən Allahın qüdrəti ilə dolu olan, şəfqətli, təsəlli, müdrik, məhəbbət və həqiqət dolu sözlər çıxır. Əslində, bu, mümkündür. Bunun üçün gərək Allahdan kömək istəyək. Əgər sənin ürəyin pisliklə doludursa, onda ağlına gələn hər şey haqqında dərindən düşünmək pis məşğuliyyətdir. Əgər sən həqiqət haqqında düşünürsənsə, onda dilindən çıxan hər bir söz sənin yaxşılığına dəlalət edəcək.

**Biz hər gün nələr haqqında düşünməliyik? (bax: Filipilərə 4:8)**

1. *Həqiqət olan haqqında.* Əgər sən həqiqi, doğru, etibarlı, səmimi və dəqiq olanlar haqqında düşünürsənsə, onda heç vaxt yalan, düzgün olmayan, yalnış, aldadıcı şeylər haqqında danışmayacaqsan.
2. *Ləyaqətli olan haqqında.* Əgər sən gözəl, pak, əla, mükəmməl, mömin olanlar haqqında düşünürsənsə, onda heç vaxt alçaldıcı, çirkin, əhəmiyyətsiz və şərəfsiz şeylər haqqında danışmayacaqsan.
3. *Ədalət haqqında.* Əgər sən ədalətli, məntiqli, həqiqi, qanuni, düzgün, nəcib olanlar haqqında düşünürsənsə, onda heç vaxt ləyaqətsiz, alçaldıcı, düşüncəsiz, qanunsuz və ədalətsiz şeylər haqqında danışmayacaqsan.
4. *Pak olan haqqında.* Əgər sən pak, aydın, qüsürsuz, ləkəsiz, nöqsansız olanlar haqqında düşünürsənsə, onda heç vaxt rəzil, iyrənç, ikrah doğuran, günahlı şeylər haqqında danışmayacaqsan.
5. *Cazibəli olan haqqında.* Əgər sən zövqverən, mülayim, füsünkar və gözəl olanlar haqqında düşünürsənsə, onda heç vaxt zövqsüz,

təhqiramiz, nifaq salan, murdar, mənfur və biabırçı şeylər haqqında danışmayasan.

6. *Eitbarlı olan haqqında.* Əgər sən gözəl, ehtiramlı, müsbət olanlar haqqında düşünürsənsə, onda heç vaxt mənfi, arzuolunmaz, bədxaq və dedi-qodu yaradan şeylər haqqında danışmayacaqsan.
7. *Əla olan haqqında.* Əgər sən yüksək əxlaqlı, düzgün və əla olanlar haqqında düşünürsənsə, onda heç vaxt əxlaqsız, qeyrietik və pis olan şeylər haqqında danışmayacaqsan.
8. *Tərifə layiq haqqında.* Əgər sən iltifatlı, çox gözəl, tərifə layiq, dəyərli, izzətli, yüksək olanlar haqqında düşünürsənsə, onda heç vaxt məyusluğa və kədərə səbəb olacaq məzəmmət doğuran, pisləyən, alçaldıcı şeylər haqqında danışmayacaqsan.

## Müdrik qadın danışarkən

***Müdrik qadın öz imanı haqqında danışarkən fikirlərini aydın və dəqiq ifadə edir.*** İmanımız haqqında bizə sual verib qulaq asmaq arzusunda olan hər kəsə izahat verəndə, vacib sözlər demiş oluruq. Biz həlimliklə və ehtiramla cavab verməyi bacarmalıyıq (bax: 1 Peter 3:15) və Allahdan iman və Onun haqqında düşüncələrimizi cəsarətlə aydın şəkildə ifadə etməyi istəməliyik. İsanı nə üçün Məsih adlandırdığımızı, Müqəddəs Ruhsuz yaşaya bilmədiyimizi, Allaha məqbul həyat yaşamalı olduğumuzu başqalarına izah etmək üçün Rəbdən kömək istəsək, O, mütləq bizə yardımçı olacaq. Bundan başqa, biz məhəbbətlə və təvəzökarlıqla danışmağı da bacarmalıyıq. Əks halda, biz Allahın Özünə yaxınlaşdırmaq istədiyi insanları Ondan uzaq salmış olarıq. Əgər bizdə Allahın məhəbbəti yoxdursa, onda bu haqda şəhadət edə bilməyəcəyik və sözlərimiz insanları Rəbbə doğru istiqamətləndirməyəcək. Çox güman, əks təsir baş verəcək.

***Müdrik qadın danışarkən söhbət üçün müvafiq vaxt seçir.*** Dinləyiciyə sözlərin mənasını aydın şəkildə çatdırmaq üçün əvvəlcə başa düşmək lazımdır ki, dinləyici bu sözləri qəbul etmək gücündədir, ya yox. Bu isə yalnız öncədən edilmiş duanın sayəsində mümkündür. Müqəddəs Kitab bizə danışarkən tələsməməyi öyrədir (bax: Süleymanın Məsəlləri 29:6–20). Müdrik qadın heç vaxt düşündüklərinin hamısını dilinə gətirmir. «Axmaq həddini aşıb özündən çıxar, hikmətli səbirli dayanar» (Süleymanın Məsəlləri 29:11). Hətta, haqlı olsan belə, insanlar səni həmişə düzgün dərk etməyə bilər. Yalnız Allah bilir ki, kim nə vaxt buna hazır olacaq. Bunu sənə açmasını Ondan dilə.

***Müdirik qadın danışarkən, həqiqəti söyləyir***. Yalan danışmaqla biz həm özümüzə, həm də başqalarına pislik etmiş oluruq. «Buna görə yalanı kənara atın, hər biriniz öz qonşunuza həqiqəti söyləsin, çünki hamımız eyni bədənin üzvləriyik» (Efeslilərə 4:25). Əgər sən Allahdan müdriklik istəmədən, uyğun olmayan vaxtda insanlara onların özləri haqqında müəyyən həqiqəti söyləsən, böyük yalnışlığa yol vermiş olarsan. İnsanlar dəqiqəbaşı tənqid olunmağı sevmirlər. Çünki bu, onlar üçün dözülməzdir. Bəzən susmağa üstünlük verərək Allahdan insanın açıq söhbətə hazır olduğu vaxtı sənə göstərməyini istəmək daha yaxşıdır.

***Müdrik qadın danışarkən uzunçuluğa yol vermir.*** Lüzumundan artıq danışmamaq üçün müdriklik lazımdır. «Allahın evinə getdiyin zaman hərəkətlərinə diqqət et. Qulaq asmaq üçün oraya girmək yaxşı və pisin nə olduğunu bilməyən səfeh adamların qurban təqdim etməsindən yaxşıdır» (Vaiz 5:1). Mən həmişə dua qrupumun üzvlərinə xatırladıram ki, problemlərimizin müzakirəsinə sərf etdiyimiz vaxt onların həlli üçün etdiyimiz dua vaxtından çox olmasın. Bizim hətta düşünülmədən danışmağa haqqımız çatmır. Çünki hər boş söz üçün hökm günündə hesabat verməli olacağıq (bax: Matta 12:36). Ciddi xəbərdarlıqdır. Bu və ya digər vəziyyətdə nə qədər danışacağımız barədə Allahdan müdriklik istəməliyik.

***Müdrik qadın danışarkən onun dilindən həyat dolu sözlər çıxır.*** Bizim kəskin, kobud, yalan və təkəbbürlü sözlər işlətməyə ixtiyarımız yoxdur. Belə ki, hər sözümüzə görə məsuliyyət daşıyırıq. Sözlərimzlə həyat yarada, yaxud onu məhv edə bilərik «…Mən cəmiyyətimi bu Qayanın üzərində quracağam. Ölülər diyarının qapıları ona qalib gələ bilməyəcək» (Matta 16:18). «Hikmətli adamın ağzından lütfkar sözlər çıxar, lakin ağılsız öz dili ilə həlakına yol açar» (Vaiz 10:12). Rəbdən səndə təmiz ürək yaratmasını və onu Müqəddəs Ruhla, ilahi məhəbbətlə və həqiqətlə doldurmasını dilə ki, bu məhəbbət, həqiqət və şəfaverici güc eyni zamanda sözlərinə də sirayət etsin. Həyat daşıyan həqiqi sözlər dilinə qoymasını Allahdan istə.

## Dua

*Ya Rəbb*, dağıdan deyil, yaradan, məhv edən deyil, xilas edən sözlər danışan insan olmağıma kömək et. Hər gün ürəyimi Müqəddəs Ruhla doldur ki, Sənin məhəbbətin və xeyirxahlığın ürəyimdən dilimə axsın. Mənə həqiqi, xeyirxah, saleh, pak, iltifatlı, tərifə layiq olanlar haqqında danışmağı öyrət. «Ya Rəbb, ağzımdan çıxan sözlər, qəlbimdəki düşüncələr hüzurunda qəbul olunsun. Ya Rəbb, mənim Qayam və Satınalanımsan!» (Zəbur 19:14). Bəd və yalan söhbətlərə səbəb olmaqdan məni qoru. Müqəddəs Ruh, məni həqiqətə yönəlt. Qoy dediyim hər şey «Allahın Sözü kimi» səslənsin ki, Sən hər şeydə izzətlənəsən (bax1 Peter 4:11). Qoy dilimdən çıxan hər kəlmə Sənin müqəddəsliyinə və sevginə şəhadət etsin. «Ürəyin fikirləri insandan, dilin cavabı isə Rəbdəndir» (Süleymanın Məsəlləri 16:1). Hər gün Sənin Kəlamında qalmaqla, Sənin qanunlarına itaət etməklə, Sənə səcdə etməklə və hər şeyə görə Sənə minnətdar olmaqla ürəyimi yumşaltmaq istə-

yirəm. Ürəyimi məhəbbətlə, sülhlə və sevinclə doldur ki, bunlar dilimə axsın. Həyatdan gileyləndiyim, yaxud kiminsə haqqında pis danışdığım vaxt məni ifşa et. Məni öyrət ki, başqalarını yaralayan sözlər danışmamaq üçün nəticə çıxartmağa tələsməyim, uzunçuluq etməyim. Yalvarıram Sənə, layiqli sözlərini dilimə qoy. Nə vaxt danışmaq, nə vaxt isə susmaq lazım olduğunu Özün mənə göstər. Ağzımı açdığım vaxt qoy dilimdən həyat dolu sözlər çıxsın.

Məni müdrik, mürüvvətli, düşüncəli danışan qadın et ki, heç vaxt dilimdən axmaq, kobud və kəskin sözlər çıxmasın. Ümid dolu sözləri dilimə qoy ki, məni dinləyənlərə Sənin qanununun varlığını anlada bilim. Qoy ağzımdan çıxan hər bir kəlmə insanların Səni daha yaxşı dərk etməsinə kömək etsin.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

...Kim həyatdan kam almaq, xoş gün görmək istəyirsə, qoy dilini şərdən, ağzını hiylə danışmaqdan qorusun.

*1 Peter 3:10*

Hikmətlinin ürəyi dilinə tərbiyə verir, ağzındakı müdrik sözləri artıq edir.

*Süleymanın Məsəlləri 16:23*

Fəqət Məsihi Rəbb kimi ürəyinizdə müqəddəs tutun. Daxilinizdə olan ümid barəsində sizdən hesabat istəyən hər kəsə cavab vermək üçün hazır olun. Amma vicdanınızı təmiz tutaraq bunu həlimliklə və ehtiramla edin ki, Məsihdə sürdüyünüz yaxşı həyat tərzinə görə təhqir edənlər sizə atdıqları böhtandan utansınlar. Əgər Allahın iradəsi budursa, yaxşılıq etdiyi üçün əzab çəkmək pislik etdiyi üçün əzab çəkməkdən yaxşıdır .

*1 Peter 3:15–17*

Xoş sözlər sanki pətəkdə baldır, cana şirinlik, sümüklərə şəfadır.

*Süleymanın Məsəlləri 16:24*

Saleh adamın dili padşahları razı salar, onlar düz danışanı sevər.

*Süleymanın Məsəlləri 16:13*

## İYİRMİ YEDDİNCI FƏSİL

# YA RƏBB, MƏNİ DAĞLARI YERİNDƏN TƏRPƏDƏ BİLƏCƏK İMANA MALİK OLAN QADIN ET

On yaşım olanda ad günümdə mənə şüşəli kürəciyə bənzər nazik bir boyunbağı hədiyyə etmişdilər. Kürəciyin içində xırda xardal toxumu var idi. O vaxt düşündüm ki, bu xardal toxumunu kürəciyin içinə qoymaq nəyə lazım? Axı, o demək olar ki heç görünmürdü. Uşaq olduğum üçün bunun mənasını başa düşə bilmirdim.

Bir neçə il keçəndən sonra bu toxumun mənasını başa düşdüm. İsa Məsih deyir: «Çünki sizə doğrusunu deyirəm: bir xardal toxumu qədər imanınız olarsa və siz bu dağa «buradan oraya köç» desəniz, o köçər və sizin üçün mümkün olmayan bir şey olmaz» (Matta 17:20). O vaxtdan məni belə bir sual düşündürür: nə üçün toxum belə xırdadır? Əgər dağları yerindən tərpətmək üçün bu cür az iman kifayətdirsə, onda mənim imanım həyatımı kökündən dəyişməyə bəs edər.

Əgər biz imanla yaşayırıqsa, onda Allah günbəgün imanımızı artırır. Müqəddəs Kitabda yazılıb: «…Allahın ona verdiyi imanın ölçüsünə görə…» (Romalılara 12:3). Başlanğıc üçün hər birimizin müəyyən ölçüdə imanı var. Lakin biz həqiqətdə böyüdükcə, Allah da

imanımızı böyüdür. Başqa sözlə desək, imanla hərəkət etmək, imanda böyümək deməkdir.

Bunu dərk etsən də, etməsən də, hər gün imanla yaşayırsan. Məsələn, həkimə müraciət edəndə, sən inanırsan ki, o, hər şeyi düz edir. Aptekdən dərman alarkən sən formaseftə etibar edirsən ki, o, həkimin yazdığı reseptə əsasən sənə lazımlı dərmanlar verəcək. Yaxud restoranda nahar edərkən inanırsan ki, orada zəhərlənməyəcəksən. (Bəzi resoranlar digər restoranlara nisbətən daha çox etibarlıdır). Bəs Allaha güvənmək nə qədər düzgündür? Əgər biz Allahın bizdən xahiş etdiyi vaxt Onun əmrləri yerinə yetirməyə hazır olsaq, onda Allahın bizim üçün böyük işlər görmək istədiyini heç təsəvvür belə edə bilmərik. Buna görə Allah bizim üçün bəzən sınaqlar, acizlik və zəiflik dövrləri buraxır. Allah həyatımıza müəyyən şeyləri ona görə buraxır ki, bizi Özünə yaxın etsin və diqqətimizi Özünə yönəltsin. Məhz belə anlarda biz böyük imanla dua etməyə daha çox ehtiyac duyuruq və nəticədə imanımız artmağa başlayır.

İsa dedi: «Sizə imanınıza görə olsun» (Matta 9:29). Əgər bizim imanımızdan çox şey asılıdırsa, deməli, qorxmalı olduğumuz nələrsə var. Amma imanımızı böyütmək üçün əlimizdə gözəl alət var, bu da Allahın Kəlamıdır. Hamıya məlumdur ki, iman eşitməkdən yaranır. (bax: Romalılara 10:17). Əgər sən Allahın vədlərinə inanırsansa və onları tez-tez ucadan iqrar edirsənsə, onda imanının nə qədər tez böyüdüyünü görəcəksən.

O cümlədən bizim dua etdiyimiz vaxt imanımız böyüyür, çünki dua vsitəsilə biz Allaha yaxınlaşır və Ona toxunuruq. Bir dəfə bir qadın imanla Rəbbə toxunub öz-özünə dedi: «Heç olmasa paltarına toxunsam, sağalaram» (Matta 9:21). Hər dəfə biz duada Allaha toxunanda, şəfa tapırıq, imanımız isə böyüyür.

Günbəgün imanımızın artmasına ehtiyacımız var. Hər birimizin həyatında belə bir an gələcək ki, bizə müvəffəqiyytlə qaydalar arasında, qələbə ilə məğlubiyyət arasında, ölümlə həyat arasında fərqi görməyə kömək edən iman lazım olacaq. Ona görə də hər duada ima-

nımızın möhkəmlənməsi üçün Allahdan xahiş etməliyik. Sənin imanın nə qədər zəif olsa da, Allah onu möhkəmləndirməyə qadirdir.

Əgər imanının olduqca zəif olduğunu düşünürsənsə, bil ki, sən yenə də dağın yerindən tərpənməsi üçün əmr edə bilərsən və Allah sənin üçün mümkün olmayanı edəcəkdir. Sən həyat yollarının düz olması üçün və həyatının bərpa olunması üçün dua edə bilərsən. Allahdan xahiş edə bilərsən ki, imanını möhkəmləndirib həqiqətə uyğun hərəkət etməyə cəsarət versin. Allah mütləq sənə cavab verəcəkdir.

Allahın vədlərinin həyatında icra olunmasını istəyərdin? Şübhə etmədən böyük imanla dua etmək istərdin? Öz həyatında və ya başqa insanların həyatında dəyişiklik görmək üçün böyük imanla dua etmək istərdinmi? Allahdan xahiş et ki, xardal toxumu qədər imanını götürüb onu böyük ağaca çevirsin ki, imanını öz gözlərinlə görə biləsən.

## *Dua*

*Ya Rəbb,* imanımı möhkəmləndir. Öyrət ki, «gözlə görünənə görə deyil, imana görə həyat» sürüm (2 Korinfililərə 5:7). Kömək elə ki, həqiqətində möhkəmlənim və hər Sözünə şübhə etmədən inanım. İstəmirəm ki, eşidib, amma əməl etməyən insanlardan olum (bax: İbranilərə 4:2). Bilirəm ki, «iman eşitməkdən, eşitmək isə Məsihin kəlamı vasitəsilə yaranır» (Romalılara 10:17). Hər dəfə Müqəddəs Kəlamını oxuyanda və ya eşidəndə imanımın artmasında mənə kömək elə. Öz vədlərini həyatmda icra edəcəyinə inanmaqda kömək elə. Qoy mənim qızıldan da qiymətli olan sınanmış imanım Sənə izzət gətirsin (bax: 1 Peter 1:7).

Bilirəm ki, «iman ümid edilənlərə etibar etmək, görünməyən şeylərə əmin olmaqdır» (İbranilərə 11:1). Bilirəm ki, mənə ənam kimi verdiyin imanla xilas olmuşam (bax: Efeslilərə 2:8). İmanımı daha da möhkəmləndir ki, dua etdiyim zaman

böyük imanla dua edim. Çünki saleh adamın duası çox güclü və təsirlidir. Xəstələr üçün dua etdiyim zaman onların şəfa alacağına inanmaqda mənə kömək elə. İstəmirəm ki, ehtiyacı olan insanları görəndə imanım zəif olduğuna görə onlar üçün dua etməyə cəsarətim çatmasın.

Düşmənin bütün yanar oxlarını söndürə bilən iman qalxanımı götürməyə kömək elə. (bax: Efeslilərə 6:16). Şübhə etmədən hər zaman imanla dua etməyi mənə öyrət. Çünki bilirəm ki, «şübhə edən adam küləyin qaldırdığı və hərəkətə gətirdiyi dəniz dalğasına bənzəyir» (Yaqub 1:6). Həmçinin bilirəm ki, şübhə edən adam qərarsızdır və heç bir yolunda sabit deyil və «imana əsaslanmayan hər şey günahdır» (Romalılar 14:23). Sənin önündə bütün şübhələrimi etiraf edirəm və xahiş edirəm ki, məni bağışlayasan. İstəmirəm ki, şübhələrim Sənin həyatımda və mənim vaistəmlə görəcəyin işlərə maneəyə çevrilsin. İmanımı günbəgün möhkəmləndir ki, Sənin Adınla dağları yerindən tərpədim.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

İman olmadan Allahı razı salmaq qeyri-mümkündür. Çünki Allaha yaxınlaşan şəxs inanmalıdır ki, O var və Onu axtaranlara mükafat verir.

*İbranilərə 11:6*

İman edən üçün hər şey mümkündür.

*Mark 9:23*

Sizə doğrusunu deyirəm: əgər bir xardal toxumu qədər imanınız olarsa və siz bu dağa «buradan oraya köç» desəniz, o köçər və sizin üçün mümkün olmayan heç bir şey olmaz.

*Matta 17:20*

Beləliklə, imanla saleh sayıldığınız üçün Rəbbimiz İsa Məsih vasitəsilə Allahla barışmış oluruq.

*Romalılara 5:1*

Buna görə də hal-hazırda qısa bir müddət cürbəcür sünaqlarda kədərə düşməyə məcbur olsanız da hədsiz sevinirsiniz; belə ki imanınızın sınaqdan keçməsi İsa Məsihin zühurunda sizə tərif, izzət və şərəf gətirsin. Bu imanınız odla təmizlənsə belə fani qızıldan daha çox dəyərlidir.

*1 Peter 1:6–7*

## İYİRMİ SƏKKİZİNCİ FƏSİL

# YA RƏBB, İSA MƏSİH KİMİ OLMAĞIMA KÖMƏK ET

Bu yaxınlarda dünyanın ucqar güşələrindən birində isti və rütubətli iqlimi olan bir məkanda məbəd təsis edən bir pastor haqqında eşitmişəm. Pastor və onun həyat yoldaşı bu balaca kəndə ilk dəfə ayaq basanda orada yaşayanların geyiminə çox təəccüblənmişdilər. Belə ki, onların geyimi yalnız qasıq nahiyələrini örtən kiçik bir parçadan ibarət idi. Qadınlar qurşağa qədər çılpaq idilər. İlk növbədə pastor və yoldaşı qadınlar arasında geyim haqqında təlimatlar apardı. Pastor onlar üçün futbolka sifariş etdi.

Hər bir qadın futbolkanı aldı. Hamı hadisədən bərk təsirlənmişdi və hər kəs öz hədiyyəsini götürüb ertəsi geyinəcəyinə söz verərək evlərinə yollandı. Ertəsi gün səhər hamı bir araya gəldikləri vaxt pastor və yoldaşı əvvəlkindən daha çox təəccübləndilər: qadınlar futbolkaların döş nahiyəsini kəsmişdilər. Bununla da onların döşləri bayırda qalmışdı.

Bu əhavalatı eşidəndə çox gülmüşdüm. Allah da eyiblərimizi örtmək və Onunla münasibətlərimizi bərpa etməkdən ötrü dayanmadan bizə dəfələrlə bürüncək verir. Bu barədə düşündükcə çox təəccüblənirəm. Lakin biz öz bədənimizin çılpaqlığını göstərtmək üçün inadla bizə verilən örtüyün xoşumuza gəlməyən hissəsini çırıb atırıq.

Təəccüblü deyil ki, biz özümüzü dəyişmək iqtidarında deyilik. Biz hətta nə üçün və nədə dəyişməli olduğumuzu belə yaxşı dərk etmirik. Yalnız Allah bu kimi şeylərdə gözlərimizi aça bilər. Odur ki, biz bunun üçün Allaha yalvarmalıyıq: «Ya Rəbb, məni dəyiş». Mənə yaxşı məlumdur ki, bu, ən çətin dualardan biridir. Belə ki, başqası üçün dua etmək bizim üçün daha asandır: «Ya Rəbb, onu dəyiş». Əgər biz Allaha həyatımızda hər şeyi Onun iradəsinə görə dəyişmək üçün sükan veririksə, onda O, Özü nəyi necə etmək lazım olduğunu yaxşı biləcək.

Lakin bizi dəyişmək gücündə olan dua mövcuddur və bundan qorxmağa dəyməz. Sözügedən dua budur: «Ya Rəbb, məni daha çox İsaya bənzər et». Bizlərdən kim Ona oxşamaq istəməz ki?.. Bizlərdən kim hər şeydə Onun kimi olmaq istəməz ki?..

**Məsihin yeddi əsas xüsusiyyəti**

1. *İsa Məsih Özü məhəbbət idi.* İsanın qəlbi insani düşüncədən qat-qat üstün olan məhəbbətlə dolu idi. Bizə heç vaxt Onun kimi dünyanın günahlarını üzərimizə götürmək lazım gəlməyəcək. Lakin O istəyir ki, biz öz həyatımızı başqa bir şəkildə digərlərinin uğrunda qurban verməyə hazır olaq. «Məhəbbətin nə olduğunu bundan anladıq ki, Məsih Öz canını bizim üçün fəda etdi. Biz də öz canımızı qardaşlarımız üçün fəda etməliyik» (1 Yəhya 3:16). Onun məhəbbəti həm sənin, həm də ünsiyyətdə olduğun insanların həyatında möcüzə göstərməyə qadirdir. Allahın məhəbbətini başqaları ilə bölüşdükcə, səndə getdikcə artmağa başlayacaq. «Sizə yeni bir əmr verirəm: bir-birinizi sevin, Mən sizi sevdiyim kimi siz də bir-birinizi sevin» (Yəhya 13:34). Dua et ki, insanlarla ünsiyyət zamanı Allahın məhəbbətini izhar edə biləsən.
2. *İsa Məsih həlim idi.* Baxmayaraq ki, İsa kainatın Yaradıcısı idi, O «Özünü aşağı tutdu və ölümə qədər — çarmıx üzərində ölümə qədər itaətkarlıq göstərdi» (Filipilərə 2:8). Onun həlimliyi-

nin cüzi bir hissəsi bizdə olsa, bu dünyada böyük işlər görə bilərik. Çünki bu gün həlimlik nadir rast gəlinən xüsusiyyətdir. Lakin bu xüsusiyyət bizim üçün çox vacibdir. Çünki təkəbbürümüz bizə baha başa gəlir «Rəbb qəlbi təkəbbürlülərdən ikrah edər, doğrudan da, onlar cəzasız qalmaz» (Süleymanın Məsəlləri 16:5). «Əcəldən əvvəl təkəbbür gələr, fəlakətdən əvvəl lovğalıq ruhu gələr» (Süleymananın Məsəlləri 16:-18). Həlimlik sayəsində ətrafındakı insanlara böyük təsir göstərə bilərsən. Çünki sənin davranışın ümumi qəbul olunmuş normadan misilsiz həddə olur. Allaha yalvar ki, səndə həlim ürək yaratsın.

3. *İsa Məsih sadiq idi.* İsa heç vaxt Öz əqidəsindən dönmədi. O, yer üzündə malik olduğu mövqeyə şübhə ilə yanaşmadı. «Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəmlə gəlməsə, heç kəs Atanın yanına gələ bilməz» (Yəhya 14:6). Heç nə, hətta iblisin imtahanları belə Onu sarsıda bilmədi. Bu gün İsanın bizim üçün Kimliyini və özümüzü dərk etməyimiz çox vacibdir. Yalnız bu halda biz dünyada sabit qalacıyıq. Allaha yalvar ki, daxilən güclənərək Onun kimi sadiq qala bilək.
4. *İsa Məsih səxavətli idi.* İsa şagirdlirini tərbiyələndirmək üçün Özünu onlara həsr elədi ki, sonralar onlar insanların. «İndi ki Mən Rəbb və Müəllim olduğum halda sizin ayaqlarınızı yudum, siz də bir-birinizin ayaqlarını yumalısınız. Çünki sizə nümunə göstərdim ki, Mənim sizə etdiyimi siz də bir-birinizə edəsiniz» (Yəhya 13:14–15). Onun ən böyük ənamı Onun həyatı idi: «Siz məhz bunun üçün çağırıldınız. Çünki Məsih də sizin üçün əzab çəkdi və sizə nümunə oldu ki, siz də Onun izi ilə gedəsiniz» (1 Peter 2:21). İnsanlarla bölüşəcək heç nəyimiz olmasa da, Allah bizi dolduracaq: «Allah sizə hər bir neməti bol-bol verə bilər. Belə ki, hər bir şeyə həmişə, hərtərəfli, kifayət qədər sahib olmaqla hər yaxşı əməl üçün bol-bol imkanınız olsun» (2 Korinflilərə 9:8). Allaha yalvar ki, həyatına

göndərdiyi insanlarla bölüşmək üçün səni Öz ənamları ilə doldursun.

5. *İsa Məsih Özünü dünyadan ayırdı.* İsa bu dünyada yaşasa da, onun bir hissəsinə çevrilmədi. O, dünyaya təsir etmək üçün gəlsə də, heç bir halda ona oxşar olmadı. O, dünyadan çox uzaq olsa da, dünyanı öz ətrafında dəyişə bildi. Bizim də həyatımızda belə bir tarazlığın yaranması üçün dua etməyimiz lazımdır. Bir tərəfdən bütünlüklə bu dünyadan təcrid ola bilmərik. Digər tərəfdən isə bu dünyaya oxşayıb, onun qanunları ilə yaşaya bilmərik. Əks halda insanlar bizimlə dünya arasındakı fərqi hiss edə bilməzlər. İsa heç vaxt Öz məqsədinin görüntüsündən kənar düşmədi və heç vaxt əbədiyyəti əhəmiyyətsiz saymadı. Biz də eynilə bu xidmətə çağrılmışıq. Dua et ki, kim olduğunu, nəyə çağrıldığını, əbədiyyəti harada keçirəcəyini unutmayasan.
6. *İsa Məsih Allaha itaəlti idi.* İsa Məsihin ən gözəl xüsusiyyətlərindən biri o idi ki, Özü Rəbb olduğu halda Öz iradəsinə uyğun heç nə etmədi. O, Allaha dua edir və Onun əmrindən kənara çıxmırdı. Biz də bu cür hərəkət etməliyik: «Kim Onda qaldığını deyirsə, İsa Məsihin həyat sürdüyü kimi həyat sürməlidir» (1 Yəhya 2:6). İsa son ana qədər itaətli qaldı. Görəsən, itaətliliyin bundan yüksək həddi varmı? O, Öz vəzifəsini icra etdi, çünki ölümündən və dirilməsindən sonra böyük işlərin baş verəcəyindən xəbərdar idi. Biz Ona bənzəməyə çağrılmışıq «Gözümüzü imanımızın Banisi və Kamilləşdiricisi olan İsaya dikək. O, qarşısına qoyulan sevincə görə rüsvayçılığı heç sayıb çarmıxa çəkilməyə tab gətirdi və Allahın taxtının sağında oturdu. Günahkarlardan Ona qarşı olan bu qədər düşmənçiliyə dözən Şəxs barəsində düşünün ki, yorulub ruhdan düşməyəsiniz» (İbranilərə 12:2–3). Allaha yalvar ki, öznüdən imtina edib Onun iradəsinə uyğun yaşamağı sənə öyrətsin.
7. *İsa Məsih nur idi.* İnsanlar həmişə işığa doğru can atır. Ona görə də biz istəyirik ki, onlar Rəbbin nurunu bizdə görsünlər.

İsa dedi «Dünyanın nuru Mənəm. Mənim ardımca gələn heç vaxt qaranlıqda gəzməyəcək, həyat nuruna malik olacaq» (Yəhya 8:12). Biz qaranlıqda yerimək istəmirik; biz Onun kimi nurda gəzmək istəyirik. Allaha dua et ki, səni Məsihə bənzər etsin. Belə ki, olduğun hər yerdə insanlar ayaq saxlayıb «Bildiyin hər şeyi bizə açıqla. Səndə olan bu qeyri-adiliyin səbəbi nədir? Sənin olanlara malik olmaq üçün biz nə etməliyik?» deyə səndən soruşsunlar. Beləliklə də sən daxilindəki işığın əsası haqqında onlara açıqlamış olarsan.

## Dua

*Ya Rəbb*, mən dəyişilmək istəyirəm. Qoy bu dəyişiklik elə bu gündən başlasın. Bilirəm ki, mən özümü dəyişdirmək iqtidarında deyiləm. Lakin bilirəm ki, bunu yalnız Müqəddəs Ruh edə bilər. (bax: Efeslilərə 3:16). Sənə bənzəməkdə mənə kömək et. Əminəm ki, Öz zənginliyinin qüdrətinə görə mənim bütün ehtiyaclarımın qayğısına qalmağa qadirsən (bax: Filipililərə 4:19).

Dünyaya qarışmamağıma, eyni zamanda da ona arxamı çevrib tamamilə təcrid olunmamağıma kömək et. Harada Sənə qarşı itaətsiz olduğumu mənə göstər və istənilən halda təkəbbürə qarşı çıxmağıma kömək et. Qoy məndəki təvəzökarlıq məndə yaşayan Sənin Ruhuna şəhadətçilik etsin. Qoy məndə olan məhəbbətin Sənin əzəmətinə şəhadətçilik etsin. İnsanları sevdiyin kimi mənə də onları o məhəbbətlə sevməyi öyrət.

Əgər ürəyim daşlaşıbsa, onda onu yumşalt. Məni idarə et və məni istiqamətləndir ki, Sənə itaətsizliyimi görə bilim. Sənin İsa Məsihə bənzəyən sadiq, səxavətli və itaətli qızın olmağıma kömək et. Əgər məndə və həyatımda etdiyin dəyi-

şikliklərə qarşı çıxıramsa, hər şeydə Sənə etibar etməkdə mənə kömək et. Qoy Sənin nurun məndə elə parlasın ki, məni tanıyan hər kəsə nur ola bilim. Qoy mən deyil, Sən məndə yaşayasan (bax: Qalatiyalılara 2:20). Məni Məsihə bənzər et ki, məni görən insanlar Məsihi dərk etmək istəsinlər.

## **Duanı təsirli etməyə kömək edən MÜQƏDDƏS KİTABDAN AYƏLƏR**

Artıq mən yaşamıram, Məsih məndə yaşayır. İndi cismən yaşadığım həyata gəlincə məni sevib uğrumda Özünü fəda edən Allahın Oğluna olan imanla yaşayıram.

*Qalatiyalılara 2:20*

Elə Ruh Özü bizim ruhumuzla birgə şəhadət edir ki, biz Allahın övladlarıyıq. Əgər Onun övladlarıyıqsa, deməli, həm də varisləriyik. Əgər Məsihin izzətinə şərik olmaq üçün Onun çəkdiyi əzablara şərik oluruqsa, Allahın varisləri və Məsihin şəriki oluruq.

*Romalılara 8:16–17*

Ona görə «aralarından çıxıb ayrılın» Rəbb belə deyir: «Murdar şeylərə toxunmayın»; «Mən də sizi qəbul edəcəyəm». «Mən sizə Ata olacağam, siz də Mənim oğullarım, qızlarım olacaqsınız» Külli-İxtiyar Rəbb belə deyər.

*2 Korinflilərə 6:17–18*

Amma O mənə dedi: «Lütfüm sənə kifayətdir, çünki zəiflik olanda qüvvə tam olur». Məsihin qüvvəsi məndə məskən salsın deyə zəifliklərimlə daha çox sevinə-sevinə öyünəcəyəm.

*2 Korinflilərə 12:9*

Mənə qüvvət verən Məsihin köməyi ilə hər işə gücüm çatır.

*Filipilərə 4:13*

## İYİRMİ DOQQUZUNCU FƏSİL

# YA RƏBB, MƏNİ KEÇMİŞİMDƏN AZAD ET

Təsəvvür elə ki, sən bir məsafə yol qaçıb bütün var-gücünlə finişə birinci çatmaq və mükafatı almağa çalışırsan. Lakin səy göstəməyinə baxmayaraq, məqsədinə nail ola bilmirsən, çünki ayaqlarının birinə ağır yük bağlandığını başa düşürsən. Böyük cəhd göstərməyinə baxmayaraq, bu yükü özünlə daşıyırsan, ancaq yük o qədər ağırdır ki, tezliklə yorulub qaçışı dayandırmaq qərarına gəlirsən. Bu yükü özünlə daşımağa borclu olmadığın ağlına belə gəlmir, çünki onu illər boyu özünlə daşıdığına görə yük sənin bir hissənə çevrilir. Belə ki, onsuz həyatını təsəvvür edə bilmirsən. Hər necə olursa olsun, bu yükdən azad olmayanadək Allahın sənin üçün hazırladığı mükafatı almaqdan ötrü qaçışını davam edə bilmirsən.

Bu mövzu sizə tanış gəlir? Biz səylə həyat məsafəmizi qaçmağa çalışırıq, lakin bunun üçün lazım olan surəti yığa bilmirik, çünki keçmişimizlə bağlı yükü özümüzdən xəbərsiz hər zaman özümüzlə daşıyırıq. Ən pisi isə odur ki, bu yükü illər boyu üzərimizdə daşıdığımız üçün o, bizim bir hissəmizə çevrilir. Bəzən də, yükü daşıya bilmədiyimizə görə böyük ümidsizliyə qapılırıq. Lakin sizə yaxşı xəbərim var: Allah səni birdəfəlik bu yükdən azad etmək istəyir.

Yükün altına nə vaxt girməyin vacib deyil, istər bu uşaqlıqda olsun, istərsə də dünən. Sənin keçmişin sənə Allahın vədlərinə və xeyir-dualarına nail olmaqda həmişə maneçilik törədəcək. Ona görə də Allah, səni keçmişindən azad etmək istəyir. Həmçinin Allah keçmişdə itirilmiş və məhv olmuş şeyləri bərpa etmək və indiki həyatına müəyyən məna vermək istəyir. Həqiqətən də, əgər sən keçmişinlə yaşamaqda davam edirsənsə, onda heç vaxt Allahın sənin üçün olan arzularına nail ola bilməyəcəksən. Sən İsa Məsihi Rəbb və Xilaskar kimi qəbul etdiyin andan yeni məxluq olmusan. Çünki O, həyatındakı bütün vəziyyətləri yeniləyib və istəyir ki, sən hər zaman bu dəyişikliklərə əsasən yaşayasan.

Bu gün Allah bizə əmr edir ki, həyatımızda baş verən keçmiş hadisələrdən yaddaşımızı təmizləyək. Lakin bunu etmək heç də asan deyil. Axı, insan öz keçmişini necə unuda bilər? Yəni o, yaddaşını itirməlidir? Yoxsa hər şeydən imtina etməlidir? Ya da özünü, sanki heç nə baş verməmiş kimi göstərməlidir? Bəlkə, yaddaşını sildirmək əməliyyatından keçməlidir? Xeyr. Sadəcə olaraq, keçmişimizdən azad olunmağımızı duada Rəbdən istəməliyik ki, indiki həyatımızda xoşbəxt ola bilək.

Rəbbin ən möcüzəli sirlərindən də biri odur ki, O, nəinki qəlb yaralarımızı sağaldır, həm də həyatımızda baş verən faciəli hadisələri möcüzəli şəkildə bizim xeyrimizə yönəldir. Rəbb tamamilə yaddaşımızı silmir. O, qəlbimizə şəfa verərək bizi acı xatirələrdən azad edir. Rəbb sənə yeni həyat bəxş etmək istəyir. Bu həyatı elə sevəcəksən ki, heç vaxt əvvəlki həyatına qayıtmaq istəməyəcəksən. Yaddaşın elə yerindəcə qalacaq, silinən yalnız acı xatirələrin olacaq. O zaman Rəbbə səni yenidən canlandırdığı və şəxsiyyət kimi bərpa etdiyi üçün minnətdarlıq edəcəksən. Sonra da başqa insanlarla yaşadığın duyğularını bölüşmək, necə azad və bərpa olub, şəfa tapmağından danışmaq istəyəcəksən ki, onlar da bunun onlar üçün mümkün olduğunu bilsinlər.

## Gələcək səadət xatirinə

Allah istəyir ki, bizim keçmişimiz xidmətdərimizdə də bizə kömək etsin. Buna görə də O, yaddaşımızı silmir. Rəbb keçmişimizdə olan bütün pislikləri aradan qaldırmaq və onları gələcəyimizdə böyük xeyir-dualara çevirməyə qadirdir. Sən başqa insanlara Onun nurunu göstərdiyin zaman, O, xidmətinin təməlini möhkəmləndirəcək.

Məhz elə buna görə Allah istəyir ki, sən öz səhvlərinin üzərində öyrənib, başqa insanlara Rəbbin səni acı xatirələrdən necə azad etməsindən şəhadət edəsən. Rəbb istəyir ki, sən öz keçmişini gələcəyin üçün peyğəmbərlik kimi qəbul etməyənəcən, sadəcə onu bir kitab kimi oxuyasan. O istəyir ki, sən keçmişdə baş verənləri unudub gələcəyə doğru addımlayasan (bax: Filiplilərə 3:13).

Bu gün bir çox insanlar öz keçmişlərində batıb qaldıqları üçün onların nə gələcəyi var, nə də ki, Allahın onlar üçün hazırladığı xeyir-dualara nail ola bilirlər. Buna yaxşı nümunə rədd olunmuş insanlardır. Onlar həmişə bir daha rədd olunmaqdan qorxurlar. Bu cür insanlar hamıdan özünə qarşı pis rəftar, sözlərində və əməllərində düşmənçilik gözləyirlər. Buna görə də onlar həmişə qorxaq, əsəbi və məyus olurlar, töhmət eşitdikləri zaman isə yara alırlar. Başqa sözlə desək, onların keçirtdiyi və ən çox qorxduqları rədd olunmaq hissi özlərinə qarşı xoşagəlməz rəftar yaradır. Beləliklə də, qapalı dairə yaranır.

Ürəyində daşıdığın yük səni əhatə edən insanlara hər an məlumdur. Çünki başımıza gələn bütün pis şeylər və ya gözlədiyimiz yaxşılıqlar həyata keçməyəndə bu, bilavasitə üzümüzdə əks olunur. Ona görə ətrafımızdakı insanlar bizimlə nə baş verdiyini ətraflı şəkildə bilməsələr də, üzüldüyümüzü aydın görürlər. Əgər sən keçmişindən azad olmağını Allahdan diləsən, O, səni nəinki azad edəcək, hətta, keçmişində baş verənləri Öz izzətinə çevirəcəkdir.

## Geriyə baxma

Əgər sən keçmişinlə ayrılmaq qərarına gəlmisənsə, onda heç vaxt geriyə dönüb onun səni izləyib-izləmədiyinə baxma. Bu, çox vacibdir. Lut peyğəmbərin arvadı geriyə döndü. Nəticədə isə, o, iflic oldu. Səni də o cür aqibət gözləyə bilər. Bəlkə də, sənin irəliləməyin bir qədər ləngiyir, ancaq unutma ki, yaxşı qaçışçı diqqətini hər an irəlidə qoyduğu məqsədə yönəldir.

Bəlkə də, sənin keçmişinlə bağlı pis xatirələrin yoxdur. Lakin buna baxmayaraq, keçmişindən azad olmağın üçün həmişə dua etmək vacibdir. Belə ki, bəzən keçmişimizdə baş verən yaxşılıqlar belə, hal-hazırkı həyatımızda Allahın işlərinə əngəl ola bilər. Əgər həmişə keçmişdə baş verənlərlə yaşasaq, onda Allahın bugünki gündə bizim üçün nə isə etmək istədiyini görə bilməyəcəyik. Allah hər zaman bizi yeni təbəqəyə qaldırmaq istəyir. Allah bizim nail olduğumuz şeylərlə qane olmağa heç vaxt izn verməyəcək. Lakin özümüzə güvənməməliyik. Əks halda, Allaha etibar etmirik.

Səni əmin edə bilərəm ki, yaşından asılı olmayaraq, Rəbb sənin həyatında yeni işlər görmək istəyir. Allahdan bunun nə işlər olduğunu bilməyini dilə. Rəbbə de ki, sən bu dünyada qaçışını uğurla bitirmək, sonda da mükafatını almaq və bütün yüklərdən azad olmaq istəyirsən (bax: 1 Korinflilərə 9:24).

## *Dua*

*Ya Rəbb,* Sənə dua edirəm ki, keçmişimdən və onun həyatıma olan təsirindən məni azad edəsən. İstəyirəm ki, Sən haradasansa, evim də orada olsun. Məni keçmişimə bağlayan və Sənin xeyir-dualarını almaqda mane olan hər nə varsa, məni onlardan azad elə. Mənə köhnə düşüncələrdən, emosiyalardan və pis xatirələrdən imtina etməyə kömək elə (bax: Efeslilərə

4:22–24). Məni Məsihin ağlına malik et ki, keçmişimin məni hansı sahədə idarə etdiyini görə bilim.

Kinimdən ötrü keçmişimə əsir olmaq istəmirəm. Bağışlamalı olduğum insanları bağışlamaqda mənə kömək elə. Xüsusən də diləyirəm ki, məni... (səni izləyən pis acı xatirələri bir-bir sadala) azad edəsən. Mən keçmişimi və keçmişimlə bağlı bütün insanları Sənin əllərinə verirəm ki, bütün itirdiklərimi bərpa edə biləsən. Etdiyim bütün pis əməllərə və insanların mənə etdiyi pis əməllərə görə tövbə edirəm. Qoy bütün bunlar heç vaxt bir daha mənə əzab verməsin və indiki həyatıma təsir etməsin. Əzab-əziyyət gördüyüm günlərin əvəzinə, mənə sevinc bəxş elə (bax: Zəbur 90:15). Hər şeyi yenidən bərpa etdiyinə görə Sənə minnətdaram (bax: Vəhy 21:5).

Mənə geriyə, keçmiş günlərimə və köhnə adətlərimə deyil, irəli baxmağı öyrət. Bilirəm ki, bu gün Sən həyatımda yeni bir şey etmək istəyirsən. Çatmaq istədiyim məqsədə baxmağa mənə kömək elə və məni keçmişimdən azad et ki, mənim üçün hazırladığın gələcəyə doğru irəliləyə bilim.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

Deməli, kim Məsihdədirsə, yeni yaradılışdır, köhnə şeylər keçib-getdi, təzə şeylər gəldi.

*2 Korinflilərə 5:17*

Əvvəlki şeyləri yada salmayın, köhnə hadisələr barəsində düşünməyin. Budur, Mən təzə bir şey edirəm, O artıq baş verir, məgər siz bunu başa düşmürsünüz? Bəli, Mən çöllükdə yol salacağam, quru torpaqda çaylar yaradacağam.

*Yeşaya 43:18–19*

Qardaşlar, hesab etmirəm ki, bunu tutmuşam. Yalnız bir şey edirəm: arxada qalanları unudub qarşımda olana çatmaq üçün cəhd edirəm və hədəfə doğru qaçıram ki, mükafatı alım, yəni Allahın Məsih İsada yuxarıya çağırışına nail olum.

*Filipilərə 3:13–14*

Gözlərin irəliyə baxsın, düppədüz qarşına nəzər sal. Getdiyin yolu düzəlt, yollarını sahmana sal. Nə sağa, nə də sola dön, ayağını pislikdən çək.

*Süleymanın Məsəlləri 4:25–27*

Allah onların bütün göz yaşlarını siləcək. Artıq ölüm olmayacaq. Yas, nalə və ağrı bir daha olmayacaq. Çünki əvvəlki şeylər keçib getdi.

*Vəhy 21:4*

## OTUZUNCU FƏSİL

# YA RƏBB, MƏNİ, MƏNİM ÜÇÜN HAZIRLADIĞIN YERƏ APAR

Mənim Məsihdə olan əziz bacım, bu fəsli mən sənə məktub kimi yazıram. Əgər sən öz gələcəyin üçün narahatsansa, onda mən səni ruhlandırmaq istəyirəm. Bu məktubu ümidlə oxu və Allahın səninlə danışan səsini eşit. Əslində, bu, hamımz üçün Allahın müraciətidir.

Əzizim ____________________________ (xahiş edirəm bura öz adını yaz) Mən bu məktubu Allahın sənin üçün böyük gələcək hazırladığını xatırlatmaq üçün yazıram. Əminəm ki, bu, belədir. Çünki Allah vəd edir ki, sənin üçün eşitmədiyin, görmədiyin və hətta təsəvvür etmədiyin böyük miras hazırlayıb (bax: 1 Kornflilərə 2:9). Sənin ağlına belə gəlməz ki, necə gözəl gələcəyin var. Allah deyir ki, əgər bunu dərindən dərk edə bilsəydin, onda çəkdiyin «indiki əzablar bizə zahir olacaq izzətlə heç müqayisəyə gəlməz» (Romalılara 8:18). Bu, o deməkdir ki, sənin özün haqqında olan fikirlərin məhduddur.

Lakin baxmayarq ki, Allah ümid və xeyir-dua dolu gələcək vəd edib, bu, öz-özünə həyata keçməyəcək. Çünki bunun üçün iki şey tələb olunur: birincisi, dua etmək, ikincisi də Allahın iradəsini yerinə yetirmək (bax: Yeremya 29:11–12). Lakin buna görə narahat olmağa dəyməz, çünki əgər sən Allahdan xahiş etsən, O, hər iki məsələdə sənə kömək edəcək. Müqəddəs Ruh mirasımızın girovudur. Məhz Müqəd-

dəs Ruh bizə çağırışımızı həyata keçirtməkdə və Allahla ünsiyyət qurmaqda kömək edir (bax: Efeslilərə 1:13–14). Unutma ki, hər dəfə sən dua edəndə və Allaha itaətli olanda gələcəyin üçün xəzinə yığırsan.

Ancaq bizim dəyişkən, qeyri-sabit olmağımıza və perspektivlərimizin dumanlı olmasına baxmayaraq, Allah dəyişilməz qalır. Əgər sən yalnış təhlükəsizlik hisslərindən azad olmusansa, bu, yaxşı əlamətdir. Çünki Allah istəyir ki, sən yalnız Onun tərəfindən həqiqi təhlükəsizliklə təmin olunduğunu dərk edəsən. Sən öz gələcəyini ətraflı bilməsən də, inan ki, Allah bunu yaxşı bilir və səni mütləq lazım olan yerə gətirəcək. Gələcəyin üçün xeyir-dua almağın yeganə yolu bu gün Rəblə olmağındır.

Əziz imanlı bacım, yadda saxla ki, əgər sən Allahla birgə yaşayarsansa, bu o demək deyil ki, qarşında maneələr olmayacaq. Çünki şeytan mütləq bunun qayğısına qalacaq. Əgər Allahın gözəl planı varsa, bil ki, şeytanın da çirkin planları var. Əgər sən Allahın yollarını izləyirsənsə, Ona itaət, səcdə və dayanmadan dua edirsənsə, əmrlərinə riayət edirsənsə və daima Onun sözündə qalırsansa, onda şeytanın bütün planları puç olacaq. Lakin onu da unutmamalıyıq ki, Allahın planı mübarizəsiz həyata keçmir. Buna görə də, ən çətin vaxtlarında geriyə çəkilmə. Əksinə, həqiqətdə qal və bütün imtahanlara qarşı dur. Lazım olanları həyata keçirtmək üçün Allahdan güc və səbir istə.

Öz gələcəyini hər gün qəzetdə oxuduqlarına və insanlardan eşitdiklərinə əsasən mühakimə etmə. Çünki sənin həyatın yalnız Allahın əllərindədir. Buna görə də sən yalnız Allahın sənin gələcəyin üçün nə dediyinə qulaq asmalısan. Allah istəmir ki, sən gələcəkdə baş verən hadisələrə görə həyacanlanasan. O istəyir ki, sənin fikirlərin yalnız Ona bağlı olsun, çünki sənin gələcəyin məhz Allahın Özüdür.

Unutma ki, sən Allahın sevimli qızısan və O, səni çox sevir. Allahın yolları ilə getməklə sən günbəgün Ona bənzəməyə başlayacaqsan (bax: 1 Yəhya 3:1–3). Allaha güvənməklə sənin siman get-gedə dəyişəcək «Biz hamımız niqabsız üzdə Rəbbin ehtişamını əks etdirərək Rəbbin surətində dəyişilirik. Ruh olan Rəbdən yaranan bu ehti-

şam get-gedə bizdə görünməyə başlayır» (2 Korinflilərə 3:18). Əgər sən bu əmrləri yerinə yetirirsənsə, Rəbb səni getdikcə kamilləşdirəcək. «Buna görə də zahirimiz get-gedə xarab olsa da, daxilimiz gündən-günə təzələnir» (2 Korinflilərə 4:16).

Əgər həyatnda dəyişikliklər tez baş vermirsə, buna görə kədərlənmə. Çünki Allah səni səbirli olmağa öyrədir. Bizim dünaymız fanidir, Allah isə əbədi. Buna görə də, əgər öz dualarına istədiyin vaxt cavab almırsansa, məyus olma, çünki dualarına sən mütləq cavab alacaqsan. Əgər sən Allaha can atırsansa, Onun əmrlərinə riayət etməyə çalışırsansa, Allaha ruhda və həqiqətdə səcdə edirsənsə, insanlırı sevib özünü onlara həsr edirsənsə, imanla dua edib Allahın sözünü iqrar edirsənsə, onda Allahın xeyir-duaları üzərinə yağış kimi yağacaq.

Bəzən dualarımıza ona görə cavab almırıq ki, biz Allaha Onun bizdən gözlədiyi kimi alovlu dua etmirik. Allah bizim üçün böyük işlər görməyi palnlaşdırır, bu isə yalnız dua vasitəsilə həyata keçəcək. Xannanın Allaha necə coşqunluqla dua etdiyini xatırlayırsanmı? (1 Şamuel 1:28). Allah ona oğul verməklə onun duasına cavab verdi. Onun oğlu qeyri-adi uşaq idi. Şamuel İsraillilərin tarixində ən nüfuzlu hakim və ən böyük peyğəmbərlərdən biri oldu. Əgər Xanna Allaha belə yanğılı dua etməsəydi, çox güman ki, bütün bunlar baş verməyəcəkdi. Əgər sən də Allaha müntəzəm dua etməsən, onda sənin həyatında da heç nə baş verməyəcək.

Əgər qayğılar səni üstələyibsə və düşünürsən ki, sənin həyatın heç vaxt dəyişilməyəcək, bil ki, bu, belə deyil. Allahın sənin gələcəyin üçün hazırladığı şeyləri əlindən buraxdığını düşündüyün və məyus olduğun həmin o anlarda, bil ki, Allah məhz o an səni gələcəyin üçün hazırlayır. Vaxt tamam olanda isə Allah tez hərəkət etməyə başlayır. Qarşında məqsəd qoyduğun an heç vaxt həddindən artıq irəliyə baxma. Bunun əvəzində Allaha güvənsən yaxşı olar. Yadında saxla ki, «Rəbb Onu çağıran bütün insanlara, Onu sidq ürəkdən çağıran bütün insanlara yaxındır. Ondan qorxanları muradına çatdırar, fəryadlarına qulaq asıb onları qurtarar» (Zəbur 145:18–19).

Bir gün sən Allahla birgə göylərdə olacaqsan. O zaman Allah sənin bütün göz yaşlarını siləcək «Artıq ölüm olmayacaq. Yas, nalə və ağrı bir daha olmayacaq, çünki əvvəlki şeylər keçib getdi» (Vəhy 21:4). Sənin məqsədin bundan ibarətdir ki, həyatının sonunda deyəsən: «Mən yaxşı mübarizə aparmışam, yolumu sona çatdırdım, imanı saxladım. İndi salehlik tacı mənim üçün hazır durur. Ədalətli Hakim olan Rəbb qiyamət günü onu yalnız mənə deyil, Onun hüzuruna can atanların hamısına verəcək» (2 Timotey 4:7–8). İsa Məsih demişdi: «Qoy ürəyiniz təlaşa düşməsin. Allaha iman edin, Mənə də iman edin. Atamın evində çoxlu məskən var. Əgər olmasaydı, sizə deyərdimmi ki, sizin üçün yer hazırlamağa gedirəm? Gedib sizin üçün yer hazırlayandan sonra yenə gəlib sizi Öz yanıma götürəcəyəm ki, Mənim olduğum yerdə siz də olasınız» (Yəhya 14:1–3). Əgər sən Allahı sevirsənsə, onda Allah sənə Öz Səltənətində yer verməyi vəd edir.

Bununla belə, sənin Allaha xidmət və Onun Səltənətinin izzətlənməsi üçün nəsə etmək istədiyinə əminəm. Allah Özünə Ona həsr olunan, Onun yolları ilə gedən və Onun məqsədlərinə çata bilən qadınlar axtarır. Allah Onun Səltənəti uğrunda özünü qurban verməyə hazır olan və «qoy mənim yox, Sənin iradən olsun» deyən qadınlar axtarır. Sən bu qadınlardan birisən. Dua edirəm ki, sən Allahın bütün silahları ilə silahlanıb Onun «Vaxtdır» əmr etdiyi anda hərəkət etməyə hazır olasan. Sadəcə olaraq həqiqətdə yaşamağa davam elə. Sənin gözləmədiyin anda Allahın çağırışını eşib Onun sənin üçün nə məqsədi olduğunu başa düşəcəksən.

Sənin imanlı bacın *Stormi Omartian*

## *Dua*

*Ya Rəbb,* öz gələcəyimi Sənin əllərinə verirəm və bir daha gələcəyim haqda düşünmək istəmirəm. Mən qurduğum planlarıma əsaslanıb nəyəsə nail olmaq istəmirəm. Yalnız Sənə

güvənərək Sənin planlarını həyata keçirtmək istəyirəm. Çünki inanıram ki, mənim qayğıma qalacaqsan. Buna görə də yalvarıram ki, mənə dözüm ver və məğlub olmağa qoyma. Sən demisən ki, «Mənim adıma görə hamı sizə nifrət edəcək. Amma axıracan dözən xilas olacaq» (Matta 10:22). Kömək elə ki, həyat yolumu yorğunluqla başa çatdırmayım və mənim üçün hazırladığın mükafatı ala bilim (bax: 1 Korinflilərə 9:24). Həmişə ayıq olmağıma kömək elə, çünki nə vaxt öləcəyimi bilmirəm (bax: 1 Peter 4:7).

Bilirəm ki, Sən mənə sülh, ümid və gözəl gələcək vermək istəyirsən (bax: Yeremya 29:11). Eləcə də bilirəm ki, Sən məni əməllərimə görə deyil «Öz məqsədinə və lütfünə görə xilas edib müqəddəs olmağa çağırdın» (2 Timotey 1:9). Müqəddəs Ruh, həmişə mənimlə olduğuna və yolumdan dönməyə qoymadığına görə Sənə minnətdaram.

Ya Rəbb, istəyirəm Sənə çoxlu bəhrə gətirməkdə mənə kömək edəsən. Belə ki, bir çox insanlar mənim vasitəmlə Səni axtarıb dərk edə bilsinlər. Mən Sənə tabe və Sənin iradənə uyğun oluram. İnanıram ki, lazım olan vaxtda məni yüksəldəcəksən. Bütün problemlərimi Sənin əllərinə verirəm, çünki qayğıma qalacağına inanıram. Sən məni büdrəməyə qoymayacaqsan (bax: 1 Peter 5:6–7). Bu gün Səninlə birgə mənim üçün hazırladığın gələcəyə doğru getməkdən ötrü əlindən tuturam.

## Duanı təsirli etməyə kömək edən
## MÜQƏDDƏS KİTABDAN AYƏLƏR

«Çünki sizin barənizdə olan fikirlərim Özüm bilirəm» Rəbb belə bəyan edir. «Mən sizin pisliyiniz üçün deyil, salamatlığınız barədə düşünürəm ki, sizə ümidli bir gələcək verim. Siz Məni çağıracaqsınız, gəlib Mənə dua edəcəksiniz, Mən də sizi eşidəcəyəm. Məni axtaracaqsınız, əgər bütün qəlbinizlə axtarsanız, tapacaqsınız».

*Yeremya 29:11–13*

Onlar Rəbbin evində əkilib, onlar Allahımızın həyətində göyərir. Qocalanda da bar verəcəklər, təravətli, yamyaşıl qalacaqlar.

*Zəbur 92:13–14*

Çünki əminəm ki, nə ölüm, nə həyat, nə mələklər, nə başçılar, nə indiki, nə də gələcək şeylər, nə qüvvələr, nə ucalıq, nə dərinlik, nə də başqa bir məxluq bizi Allahın Rəbbimiz Məsih İsada olan məhəbbətindən ayırmağa qadir olmayacaq.

*Romalılara 8:38–39*

Salehlərin yolu isə dan yeri tək şəfəq saçar, nurunu artıraraq gündüzə qovuşar.

*Süleymanın Məsəlləri 4:18*

Qalx, işıqlan, çünki nurun gəldi, Rəbbin izzəti üzərinə gəldi! Budur, dünyanı qaranlıq, ümmətləri zülmət bürüyəcək. Amma Rəbb üzərinə nur saçacaq, izzəti səni əhatə edəcək.

*Yeşaya 60:1–2*

# MÜNDƏRİCAT


Duanın gücü ........................................ 3

1. Fəsil. Ya Rəbb, məni Özünə cəlb et və yollarınla getməyi öyrət ........................................ 17
2. Fəsil. Ya Rəbb, məni təqdis et və məndə təmiz ürək yarat ........................................ 28
3. Fəsil. Ya Rəbb, mənə bağışlamağı öyrət ........................................ 36
4. Fəsil. Ya Rəbb, hər şeydə Sənə itaətli olmağı öyrət ........................................ 44
5. Fəsil. Ya Rəbb, şeytanla mübarizədə məni möhkəmləndir ........................................ 53
6. Fəsil. Ya Rəbb, fikirlərimə nəzarət etməyi mənə öyrət ........................................ 61
7. Fəsil. Ya Rəbb, həyatımın bütün sahələrində məni istiqamətləndir ........................................ 68
8. Fəsil. Ya Rəbb, Kəlamını dərindən dərk etməkdə mənə kömək et ........................................ 74
9. Fəsil. Ya Rəbb, həyatımı nizam-intizama salmaqda mənə kömək et ........................................ 83
10. Fəsil. Ya Rəbb, Sənin əsil pərəstişkarın olmaqda mənə kömək et ........................................ 92
11. Fəsil. Ya Rəbb, əməyimə xeyir-dua ver ........................................ 99
12. Fəsil. Ya Rəbb, Müqəddəs Ruhunun səmərəsini gətirməkdə mənə kömək et ........................................ 105
13. Fəsil. Ya Rəbb, məni paklıqda və nöqsansızlıqda saxla ........................................ 113
14. Fəsil. Ya Rəbb, məni çağırdığın xidmətə layiq olmağa kömək et ........................................ 121
15. Fəsil. Ya Rəbb, insanlarla düzgün münasibət qurmaqda mənə kömək et ........................................ 130

16. Fəsil. Ya Rəbb, mənə həmişə Sənin səsini eşitməkdə və iradəni yerinə yetirməkdə kömək et ..... 140
17. Fəsil. Ya Rəbb, məni və mənim üçün dəyərli olan hər şeyi qoru ..... 146
18. Fəsil. Ya Rəbb, düzgün qərar qəbul etməkdə mənə müdrüklük ver ..... 151
19. Fəsil. Ya Rəbb, məni hər cür pislikdən qoru ..... 159
20. Fəsil. Ya Rəbb, məni mənfi emosiyalardan azad et ..... 166
21. Fəsil. Ya Rəbb, çətin anımda mənə təsəlli ver ..... 174
22. Fəsil. Ya Rəbb, günaha qarşı imtahanlardan qalib çıxmağıma kömək et ..... 181
23. Fəsil. Ya Rəbb, mənə şəfa ver və bədənimin qayğısına qalmağı mənə öyrət ..... 188
24. Fəsil. Ya Rəbb, məni qorxudan azad et ..... 195
25. Fəsil. Ya Rəbb, Sənə xidmət etdiyim zaman insanların ürəyinə toxunmaqda mənə kömək et ..... 202
26. Fəsil. Ya Rəbb, qoy ağzımdan yalnız həyat dolu sözlər çıxsın ..... 207
27. Fəsil. Ya Rəbb, məni dağları yerindən tərpədə biləcək imana malik olan qadın et ..... 215
28. Fəsil. Ya Rəbb, İsa Məsih kimi olmağıma kömək et ..... 220
29. Fəsil. Ya Rəbb, məni keçmişimdən azad et ..... 227
30. Fəsil. Ya Rəbb, məni, mənim üçün hazırladığın yerə apar ..... 233

Stormi Omartian

**DUA EDƏN QADININ GÜCÜ**

Printed in Azeri